# Peyğəmbərlərin

onlara Allahın salamı olsun!

# TÖVHİDİ

**Müəllif:**

**Əlixan Musayev**

# تَوْحِيدُ الأَنْبِيَاءِ عليهم السلام

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

**Mərhəmətli və Rəhmli Allahın adı ilə!**

﴿ وَلَقَدْ بَعَثْنَا فِي كُلِّ أُمَّةٍ رَّسُولًا
أَنِ اعْبُدُوا اللَّهَ وَاجْتَنِبُوا الطَّاغُوتَ ﴾

**«Biz hər ümmətə: "Allaha ibadət edin, tağutdan uzaq olun!"–** ***deyə*** **peyğəmbər göndərmişik»**

*(Quran, "ən-Nəhl" surəsi, 36)*

Müəllif:

**Əlixan Musayev**

Redaksiya heyəti:

**Mübariz Qarayev**
**Aydın Salehli**
**Fikrət Allahverdiyev**
**Elxan Rüstəmov**

# MÜQƏDDİMƏ

Həqiqətən, şükür və tərif yalnız Allaha məxsusdur! Biz Ona həmd edir, Onu köməyə çağırır, Ondan bağışlanma və bizi doğru yola yönəltməyi diləyir, nəfsimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Allah kimə hidayət verərsə, onu azdıran tapılmaz, kimi azdırarsa, onu doğru yola yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir.

**"Ey iman gətirənlər! Allahdan Ona layiq olan tərzdə qorxun və ancaq müsəlman olduğunuz halda ölün!"**[1]

**"Ey insanlar! Sizi tək bir candan xəlq edən, onun özündən zövcəsini yaradan və onlardan da bir çox kişi və qadın *törədib yer üzünə* yayan Rəbbinizdən qorxun! Adı ilə bir-birinizdən *cürbəcür şeylər* istədiyiniz Allahdan və qohumluq əlaqələrini kəsməkdən çəkinin! Həqiqətən, Allah sizə nəzarət edir."**[2]

**"Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz danışın ki, O, əməllərinizi islah etsin və günahlarınızı bağışlasın. Kim Allaha və Onun rəsuluna itaət etsə, böyük bir uğur qazanar."**[3]

Şübhəsiz, ən xeyirli kəlam Allahın Kəlamı, ən doğru yol da Peyğəmbərimiz Muhəmmədin ﷺ yoludur. Habelə, ən pis əməl dinə əlavə edilən yeniliklərdir. Hər bir yenilik bidət, hər bir bidət zəlalət, hər bir zəlalət də Cəhənnəmə aparan yoldur.

Sonra isə...

Əziz müsəlmanlar! Bu kitabda peyğəmbərlərin عليهم السلام təbliğ etdiyi tövhiddən bəhs edilir.

Məlumunuz olsun ki, peyğəmbərlərin عليهم السلام təbliğ etdiyi tövhidi İslam ümmətinə Muhəmməd peyğəmbər ﷺ çatdırmışdır. Peyğəmbərin ﷺ dövründə müsəlmanların hamısı tövhid əqidəsində olmuş, hətta onun vəfatından sonra da səhabələr arasında əqidə məsələlərində heç bir fikir ayrılığı

---

[1] "Ali-İmran" surəsi, 102.

[2] "ən-Nisa" surəsi, 1.

[3] "əl-Əhzab" surəsi, 70-71.

olmamış, elə buna görə də o dövrdə tövhid haqqında heç bir əsər yazılmamışdır. Nəhayət, Peyğəmbərin ﷺ əqidəsinə zidd olan fikirləri təbliğ edən qədərilər[1], xavariclər[2], Əli ibn Əbu Talibi رضي الله عنه ilahlaşdıranlar[3], motəzililər[4]

---

[1] Yəhya ibn Yəmər رحمه الله demişdir: "İlk dəfə qədər xüsusunda *küfr* danışan adam Bəsrədə yaşayan Məbəd əl-Cuhəni olmuşdur. O vaxt mən və Humeyd ibn Abdur-Rəhman əl-Himyəri رحمه الله həcc ziyarətinə getdik və: "Kaş Rəsulullahın ﷺ səhabələrindən birinə rast gələydik və ondan bunların qədər haqqında söylədiklərini soruşaydıq"– dedik. Nəhayət, gəlib məscidə daxil olduqda Abdullah ibn Ömər ibn əl-Xəttabı رضي الله عنه görüb ona yaxınlaşdıq. Mən dedim: "Ey Əbu Abdur-Rəhman! Bizim tərəflərdə Quran oxuyan, elm öyrənməyə səy göstərən *və qədər xüsusunda açıqlanmamış məsələləri araşdırmağa çalışan* bir dəstə adam peyda olub. Onlar iddia edirlər ki, qədərin əzəldən yazılması cəfəngiyyatdır və Allah bütün işlərdən yalnız baş verdiyi an xəbər tutur". İbn Ömər رضي الله عنه dedi: "Onları görsən, de ki, mən onlardan uzağam, onlar da məndən uzaqdırlar. Allaha and olsun ki, əgər onlardan birinin Uhud dağı boyda qızılı olsaydı və o bunu Allah yolunda xərcləsəydi, qədərə iman gətirməyincə, Allah bu sədəqəni ondan qəbul etməzdi". ("Səhih Muslim", 8).

Bu hədisdə adı hallanan Məbəd ibn Xalid əl-Cuhəni Allahın əzəldən yazdığı qədəri inkar etməklə dinə yenilik gətirmiş və bundan sonra "qədərilər" firqəsi meydana gəlmişdir. Onlar hər şeyin müqəddəratının Allah tərəfindən əzəldən müəyyən edildiyini inkar etmiş və Allahın gələcəkdə baş verəcək hadisələrdən xəbərsiz olduğunu iddia etmişlər. Peyğəmbər ﷺ demişdir: "Bu ümmətin məcusiləri Allahın qədərini inkar edənlərdir. Əgər xəstələnsələr, onlara baş çəkməyin, ölsələr, onların dəfnində iştirak etməyin!" ("Sunən Əbu Davud", 4691; "Silsilə əl-Əhadis əs-Səhihə", 2748; "Səhih əl-Cami", 4442).

[2] Xavaric, ərəbcə "xaracə" ( خَرَجَ ) felindən əmələ gəlmiş "xarici" sözünün cəmidir. Xaracə "xaric olmaq", xarici isə "xaric olan" deməkdir. "Xarici" deyildikdə, müsəlman camaatından ayrılıb, özünə dəstə yaradan və ya belə bir dəstəyə qoşulan, dəlil-sübutsuz böyük günah sahibini kafir sayan və şəriətə zidd olan digər vəsfləri özündə cəm edən fasiqlər nəzərdə tutulur. Banisi Zul-Xuveysira olmuş bu firqə müsəlmanlar arasında meydana gəlmiş ilk firqələrdəndir. Onlar Allahın razı qaldığı, Cənnətlə müjdələnmiş, İslam üçün canından və malından keçmiş, ölənədək Peyğəmbərə ﷺ sadiq qalmış Osman ibn Affan رضي الله عنه və Əli ibn Əbu Talib رضي الله عنه kimi iki böyük səhabəni kafir sayıb şəhid etmişlər. Ümumiyyətlə, bunlar böyük günah işləmiş müsəlmanları kafir hesab edən və onların qanını halal sayan firqədir. Peyğəmbər ﷺ xavaricləri vəsf edərkən belə demişdir: "Axır zamanda yaşları az, beyinləri küt olan kimsələr gələcək"; "Onlar Allahın Kitabını məlahətli səslə oxuyacaq, lakin oxuduqları xirtdəklərindən o yana keçməyəcək. Ox öz ovunu dəlib keçdiyi kimi, onlar İslamdan çıxacaqlar"; "Onlar bütpərəstləri qoyub, müsəlmanları öldürəcəklər". ("Səhih əl-Buxari", 3611, 4351 və 6880).

[3] Əli ibn Əbu Talibi رضي الله عنه ilahlaşdıran firqənin banisi Abdullah ibn Səba olmuşdur.

[4] Motəzilə firqəsi ilk dəfə Bəsrədə, Vasil ibn Ətanın əqidə məsələsində öz müəllimi Həsən əl-Bəsrinin رحمه الله fikri ilə razılaşmayıb onun dərsini tərk etməsindən sonra meydana gəlmişdir. Bir gün Həsən əl-Bəsrinin رحمه الله dərs dediyi Bəsrə məscidinə gələn birisi böyük

və sair firqələr meydana gəldikdə, haqq yolda olan alimlər doğru etiqadı aşılayan tövhid kitablarını yazmağa başladılar.

Əqidə mövzusunda yazılan ilk kitab imam Əbu Hənifənin رحمه الله yazdığı "əl-Fiqh əl-Əkbər" kitabıdır. Əbu Hənifə رحمه الله bu kitabında Peyğəmbərin ﷺ əqidəsini qələmə almış və o dövrdəki batil firqələrə layiqli cavab vermişdir.

Əbu Hənifədən رحمه الله sonra imam Malik رحمه الله və Əhməd ibn Hənbəl رحمه الله də əqidə mövzusunda kitablar yazmışlar. Əhməd ibn Hənbəlin رحمه الله "Usul əs-Sünnə" kitabı günümüzə qədər əqidə mövzusunda yazılmış ən dəyərli və məşhur kitablardan biri hesab olunur.

Həmçinin, Əbu Bəkr Abdullah ibn Zubeyr əl-Humeydinin رحمه الله "Usul əs-Sünnə", Əbu Ubeyd Qasim ibn Səlləmin رحمه الله "əl-İman", İbn Əbu Şeybənin رحمه الله "Sünnə", Əbu Hatim ər-Razinin رحمه الله "İtiqadu Əhlis-Sünnə", İbn Əbu Asimin رحمه الله "Sünnə", İbn Xuzeymənin رحمه الله "ət-Tövhid və İsbatu Sifatur-Rabb", Əbu Cəfər ət-Təhavinin رحمه الله "Əqidətu Əhlis-Sünnə vəl-Cəməə", Əbul-Həsən əl-Əşarinin رحمه الله "əl-İbanə an Usul əd-Diyanə", Əbu Muhəmməd əl-Bərbəharinin رحمه الله "Şərh əs-Sünnə", Acurrinin رحمه الله "əş-Şəriə", İbn Batta əl-

---

günah etmiş adama xavariclərin kafir, murciələrin isə mömin dediklərini söyləyir və ondan bu məsələyə aydınlıq gətirməsini xahiş edir. Həsən əl-Bəsri رحمه الله belə bir adamın münafiq (zahiri ilə batini eyni olmayan, dilində bir söz deyib, ürəyində ayrı şey deyən, imanı ilə əməli bir-birinə uyğun gəlməyən) olduğunu bildirir. Bu zaman məclisdə iştirak edən Vasil ibn Əta böyük günah işləmiş adamın nə həqiqi mömin, nə də həqiqi kafir olduğunu, onun imanla küfr arasında (*mənzilətu beynəl-mənzilətеyndə*) qərar tuduğunu söyləyir. Bununla da Vasil böyük günah işləmiş adam barəsində o vaxta qədər İslam aləmində mövcud olan bütün fikirləri rədd edərək yeni bir fikir irəli sürür. Bunu görən Həsən əl-Bəsri رحمه الله təəccüblə: "*Qad itəzələ annə Vasil* (Vasil bizdən ayrıldı)"– deyir. Bundan sonra Vasil ibn Əta ustadı Həsən əl-Bəsrinin رحمه الله məclisini birdəfəlik tərk edir. Az sonra isə dostu Amr ibn Ubeyd də ona qoşulur. Beləliklə, Vasil ibn Ətaya və tərəfdarlarına "ayrılanlar", "tərk edənlər" mənasında olan "əl-Motəzilə" adı verilir.

Motəzililər böyük günah işləmiş şəxs və imanın həqiqəti mövzusunda bir tərəfdən xaricilərin, digər tərəfdən isə murciələrin əleyhinə çıxırdılar. Xaricilər imanı əməlin bir hissəsi hesab edirdilər. Başqa sözlə, xaricilərin fikrincə, kəlmeyi-tövhidi təsdiq edib söyləyən bir kimsə şəriətin vacib buyurduğu şeylərdən birini yerinə yetirməsə, yaxud böyük bir günah etmiş olsa, kafir hesab edilir. Murciələr isə imanı mücərrəd bir etiqad halına gətirmişdilər. Onlar əməlin imanın bir hissəsi olmadığını, buna görə də böyük günah işləmiş (şirk və ya küfr etmiş) bir kimsənin imandan (müsəlmanlıqdan) çıxmadığını iddia edirdilər.

Motəzililər İslamın əleyhinə çıxaraq Quranı məxluq (yaradılmış) hesab edir, bununla da Quranın Allahın əzəli kəlam sifəti olduğunu inkar edirdilər.

Hənbəlinin "əl-İbanə an Şəriətil-Firəq ən-Naciyə", İbn Əbu Məndənin رحمه الله "əl-İman", əl-Lalakainin رحمه الله "Şərh Usul İtiqad Əhlis-Sünnə", İbn Əbu Zəməneynin رحمه الله "Usul əs-Sünnə", Əbu Osman əs-Sabuninin رحمه الله "Əqidətus-Sələf Əshab əl-Hədis", Xətib əl-Bağdadinin رحمه الله "əl-Kəlam aləs-Sifat" əsərləri əqidə mövzusunda yazılmış dəyərli kitablardan hesab olunur.

Bu əsərlərin o dövrdə yazılmasının bəzi səbəbləri olmuşdur:

***Birincisi,*** bidət əhlinin bu mövzuda kitablar yazması. Buna, motəzili firqəsinin başında duran Vasil ibn Ətanın "ət-Tövhid" və Amr ibn Ubeydin "əl-Adl vət-Tövhid" kitablarını misal çəkmək olar.

***İkincisi,*** doğru əqidədə olan alimlərin dünyadan köçüb getməsi və bidət əhlinin çoxalması ilə tövhidə xələl gəlmə təhlükəsi. Tabiinlərin[1] dövründə Ömər ibn Abdulaziz رحمه الله Zuhriyə رحمه الله belə demişdir: "Rəsulullahdan ﷺ rəvayət edilmiş səhih hədislərdən ibarət bir kitab hazırla. Mən alimlərin dünyadan köçdükdən sonra elmin aradan qalxacağından ehtiyat edirəm".[2] Bu xüsusda Peyğəmbər ﷺ demişdir: "Allah, elmi Öz qullarının qəlbindən silib götürməklə onu aradan qaldırmaz. O, alimlərin həyatına son qoymaqla elmi aradan qaldırar – alimlər dünyadan köçdükdən sonra o yerin insanları özlərinə cahil başçılar seçər, o elmsiz başçılar da insanların suallarına yanlış cavablar verdiklərinə görə həm özləri azğınlığa düşər, həm də insanları azdırarlar".[3]

***Üçüncüsü,*** tələbələrin alimlərdən bu mövzuda kitab yazmalarını xahiş etməsi. İmam Əhməd ibn Hənbəl رحمه الله, Siczi رحمه الله, İbn Əbu Zəməneyn رحمه الله və bir çox başqa alimlər öz tələbələrinin xahişi ilə bu mövzuda kitablar yazmışlar.

Haqq yolda olan İslam alimləri tövhid barədə kitablar yazdıqda aşağıda qeyd edilən əsaslara söykənərdilər:

**Birinci əsas,** Allahın Kitabı və Peyğəmbərin ﷺ hədisləridir. Bu iki mənbəyə istinad etməyin vacibliyi xüsusunda Quranda belə buyurulur:

**"Biz *Qurana* iman gətirdik, – onun ayələrinin hamısı Rəbbimiz tərəfindəndir".[4];**

---

[1] Tabiinlər – səhabələrdən sonra gələn nəsil.

[2] əd-Darimi, "ər-Rəddu aləl-Cəhmiyyə", səh. 23.

[3] "Səhih əl-Buxari", 100.

[4] "Ali-İmran" surəsi, 7.

**"*Peyğəmbər* öz istəyi ilə danışmır. Bu, ona təlqin edilən vəhydir".[1];**

**"Hər hansı bir məsələ haqqında mübahisə etsəniz, Allaha və Axirət gününə iman gətirmisinizsə, Allaha və Peyğəmbərə müraciət edin. Bu, *sizin üçün* daha xeyirli və nəticə etibarilə daha yaxşıdır".[2];**

**"Allah və Onun Rəsulu bir işə hökm verdiyi zaman heç bir mömin kişi və mömin qadın öz işlərində istədikləri qərarı verə bilməzlər".[3];**

**"Xeyr, sənin Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim təyin etməyincə, sonra da verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam şəkildə təslim olmayınca iman gətirmiş olmazlar".[4]**

**İkinci əsas,** ayə və hədisləri səhabələrin başa düşdüyü kimi başa düşməkdir. Çünki onlar insanlar arasında İslam elmlərini hər kəsdən daha yaxşı bilirdilər. Bu barədə Quranda belə buyurulur: **"Elm verilmiş insanlar Rəbbindən sənə nazil edilənin haqq olduğunu, onun Qüdrətli, Tərifəlayiq Allahın yolunu göstərdiyini görürlər".[5]**

Qətadə ﷺ bu ayəni izah edərkən, **"Elm verilmiş insanlar"**ın Peyğəmbərin ﷺ səhabələri ﷺ olduğunu demişdir.[6]

**«De: "Həmd olsun Allaha, salam olsun Onun seçdiyi qullarına!"»[7]**

Süfyan ﷺ bu ayəni izah edərkən, **"Onun seçdiyi qulların"**ın Peyğəmbərin ﷺ səhabələri ﷺ olduğunu demişdir.[8]

**"Dində hamını ötüb keçən ilk mühacirlərə və ənsara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə, Allah onlardan razıdır, onlar da *Allahdan* razıdırlar. *Allah* onlar üçün *ağacları və qəsrləri* altından çaylar axan, içində əbədi qalacaqları cənnətlər hazırlamışdır. Bu, böyük uğurdur".[9]**

---

1 "ən-Nəcm" surəsi, 3-4.
2 "ən-Nisa" surəsi, 59.
3 "əl-Əhzab" surəsi, 36.
4 "ən-Nisa" surəsi, 65.
5 "Səba" surəsi, 6.
6 "Təfsir ət-Təbəri", 19/214.
7 "ən-Nəml" surəsi, 59.
8 "Təfsir İbn Kəsir", 6/201.
9 "ət-Tövbə" surəsi, 100.

Bu ayədə səhabələrin və onların yolunu tutub gedənlərin ən fəzilətli insanlar olduqları xəbər verilir. Hədisdə isə Peyğəmbər ﷺ belə demişdir: "Ən xeyirli insanlar mənim dövrümdə yaşayan *möminlər*, sonra onların ardınca gələnlər, sonra da onların ardınca gələnlərdir".[1]

**"Hər kim özünə doğru yol bəlli olduqdan sonra Peyğəmbərə qarşı çıxıb möminlərin yolundan başqa bir yolla gedərsə, onu üz tutduğu yola yönəldər və Cəhənnəmə giriftar edərik. Ora nə pis dönüş yeridir".**[2]

Bu ayədə "möminlər" deyildikdə, səhabələr və onların yolunu tutub gedənlər qəsd edilir. Bir hədisdə Peyğəmbər ﷺ belə demişdir: "Mənim ümmətim yetmiş üç firqəyə bölünəcək, onların birindən başqa hamısı Cəhənnəmə girəcək". Səhabələr soruşdular: "Kimlərdir cənnətlik olanlar, ey Allahın elçisi?" O dedi: "Onlar mənim və səhabələrimin yolunu tutub gedənlərdir".[3]

Başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Mənim ümmətimdən bir toplum Qiyamət qopanadək Allahın dini üzərində sabit qalacaq. Onları alçaltmaq istəyənlər və onlara müxalif olanlar onlara heç bir zərər yetirə bilməyəcəklər".[4]

Yenə bir hədisdə o ﷺ demişdir: "Məndən sonra yaşayanlarınız çoxlu ixtilaflar görəcəkdir. Belə olduqda, siz mənim sünnəmə və doğru yolda olan raşidi xəlifələrimin sünnəsinə tabe olun".[5]

**Üçüncü əsas,** insan ağlının qavraya bilmədiyi ayələrə və hədislərə şübhə ilə yanaşmamaq, əksinə, onların Allahdan nazil edildiyinə iman gətirməkdir. Bu xüsusda Quranda belə buyurulur:

**"Kitabı sənə nazil edən *Allahdır.* O Kitabın bir qismi muhkəm** (hər kəsin başa düşdüyü) **ayələrdir ki, bunlar Kitabın anasıdır. Digərləri isə mutəşabih** (müstəsna insanların başa düşdüyü) ***ayələrdir.* Qəlblərində əyrilik olanlar fitnə-fəsad törətmək və istədikləri kimi yozmaq məqsədilə, mutəşabih ayələrin ardınca gedərlər. Halbuki onun yozumunu**

---

[1] "Səhih əl-Buxari", 2652; "Səhih Muslim", 2533.

[2] "ən-Nisa" surəsi, 115.

[3] "Səhih Sunən Əbu Davud", 5/26.

[4] "Səhih Muslim", 6/52-53.

[5] "Sunən Əbu Davud", 4607; "Sunən ət-Tirmizi", 2676.

**Allahdan başqa heç kəs bilməz. Dərin biliyə malik olanlar isə deyərlər: "Biz ona iman gətirdik, hamısı Rəbbimiz tərəfindəndir". Ağıl sahiblərindən başqa heç kəs *bunu* dərk edə bilməz".[1];**

**"Məgər onlar Quran barəsində düşünmürlərmi?! Əgər o, Allahdan başqası tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ixtilaf tapardılar".[2];**

**"Batil *fikir* Qurana nə önündən, nə də arxasından girişə bilər. O, Hikmət sahibi, Tərifəlayiq *Allah* tərəfindən nazil edilmişdir".[3]**

**Dördüncü əsas,** yalnız səhih rəvayətlərə etimad etməkdir. Bu haqda Quranda belə buyurulur:

**"Əgər doğru danışanlarsınızsa, mənə bundan əvvəl *nazil olmuş* bir kitab və ya elmdən qalan bir əsər gətirin".[4];**

**«De: "Əgər doğru deyirsinizsə, dəlilinizi gətirin!"»[5];**

**"Haqqında elmin olmadığı bir şeyin dalınca getmə!"[6];**

**"Əgər doğru danışanlarsınızsa, elmə əsaslanıb *bu haqda* mənə xəbər verin".[7];**

**"Ey iman gətirənlər! Əgər bir fasiq sizə bir xəbər gətirsə, *onu* araşdırın…"[8]**

Əziz oxucular. Kitabın mövzusuna gəlincə, barəsində bəhs ediləcək tövhid əqidəsi haqqında qısaca bunları deyib, əsas mövzuya keçmək olar.

Allahın tək ilah olduğuna etiqad etmək və Ona heç nəyi, heç kəsi şərik qoşmamaq hər bir insana vacibdir. Bu əqidəni, yəni tövhidi qəbul etməyən kəs isə əbədi olaraq Cəhənnəm əhlindən olacaq. Çünki:

- Tövhid, Adəmdən ﷺ Muhəmmədə ﷺ qədər bütün peyğəmbərlərin ﷺ peyğəmbərlik vəzifəsidir:

---

[1] "Ali-İmran" surəsi, 7.
[2] "ən-Nisa" surəsi, 82.
[3] "Fussilət" surəsi, 42.
[4] "əl-Əhqaf" surəsi, 4.
[5] "əl-Bəqərə" surəsi, 111.
[6] "əl-İsra" surəsi, 36.
[7] "əl-Ənam" surəsi, 143.
[8] "əl-Hucurat" surəsi, 6.

**"Biz hər ümmətə: "Allaha ibadət edin, tağutdan uzaq olun"–** ***deyə,*** **peyğəmbər göndərmişik.** ***O ümmətlərdən*** **kimisini Allah doğru yola yönəltmiş, kimisinə də azmaq nəsib etmişdir. Yer üzündə gəzib dolaşın və görün** ***haqqı*** **yalan sayanların aqibəti necə oldu!"**[1]

- Tövhid, Cənnətin açarıdır və yalnız onun vasitəsilə Cənnətə daxil olmaq mümkündür:

**"Şübhəsiz ki, "Allah Məryəm oğlu Məsihdir" deyənlər kafir oldular. Halbuki Məsih demişdi: "Ey İsrail oğulları! Rəbbim və Rəbbiniz olan Allaha ibadət edin! Kim Allaha şərik qoşarsa, heç şübhəsiz, Allah Cənnəti ona haram edər. Onun gedəcəyi yer atəşdir. Zalımların heç bir yardımçısı yoxdur".**[2]

- Tövhid, Qiyamət günü Cəhənnəmdən xilas olmaq üçün vasitədir:

**"Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, bundan başqa** ***olan günahları*** **isə istədiyi kəsə bağışlayar. Allaha şərik qoşan kəs böyük bir günah edərək iftira atmış olur".**[3]

- Tövhid, dünyada və axirətdə əmin-amanlıqda olmaq üçün səbəbdir:

**"Siz, Allahın sizə, haqqında heç bir dəlil nazil etmədiyi şeyləri Ona şərik qoşmaqdan qorxmursunuzsa, mən sizin şərik qoşduqlarınızdan necə qorxa bilərəm? Əgər bilirsinizsə,** ***deyin görüm*** **iki dəstədən hansı əmin-amanlıqda olmağa daha haqlıdır?" İman gətirdikdən sonra imanlarına zülm qatışdırmayanlar əmin-amanlıq içində olarlar. Doğru yola yönəlmişlər də məhz onlardır".**[4]

- Tövhid, peyğəmbərlərin عليهم السلام göndərilmə səbəbidir:

**"Səndən əvvəl elə bir elçi göndərməmişik ki, ona: "Məndən başqa** ***ibadətə layiq*** **ilah yoxdur, Mənə ibadət edin!"– deyə vəhy etməyək".**[5]

- Tövhid, səmavi kitabların nazil olma səbəbidir:

**"Əlif. Ləm. Ra.** ***Bu,*** **Hikmət sahibi,** ***hər şeydən*** **Xəbərdar** ***olan Allah*** **tərəfindən, ayələri mükəmməlləşdirilmiş, sonra da ətraflı izah edilmiş**

---

[1] "ən-Nəhl" surəsi, 36.
[2] "əl-Maidə" surəsi, 72.
[3] "ən-Nisa" surəsi, 48.
[4] "əl-Ənam" surəsi, 81-82.
[5] "əl-Ənbiya" surəsi, 25.

**bir Kitabdır.** ***Bu ona görədir*** **ki, Allahdan başqasına ibadət etməyəsiniz. Həqiqətən, mən Onun tərəfindən sizi xəbərdar edən və müjdələyənəm. Həm də Rəbbinizdən bağışlanma diləyəsiniz, sonra da tövbə edəsiniz ki, O sizə müəyyən olunmuş vaxtadək gözəl gün-güzəran nəsib etsin və hər fəzilət sahibinə Öz lütfündən versin. Əgər** ***Ondan*** **üz çevirsəniz,** ***bilin ki,*** **mən sizə üz verəcək əzəmətli günün əzabından qorxuram".**[1]

- Tövhid, yer üzündə küfrün kökünü kəsmək üçün vasitədir:

**"Fitnə aradan qalxana qədər və din ancaq Allaha məxsus edilənədək** ***kafirlərə*** **qarşı vuruşun! Əgər** ***onlar savaşa*** **son qoysalar,** ***bilin ki,*** **düşmənçilik ancaq zalımlara qarşı olur".**[2]

- Tövhid, mömini kafirdən ayırd etmək üçün meyardır:

**"Sizi yaradan** ***Allahdır*** **– kiminiz kafir, kiminiz də mömindir. Allah nə etdiklərinizi görür".**[3]

Əzəmətli və qüdrətli Allahdan Onun gözəl adları və uca sifətləri ilə diləyirik ki, bizim bu əməlimizə bərəkət versin, onu məhz Allahın rizasını qazanmaq xatirinə edilən əməllərdən etsin, bunun sayəsində bizə savab və mükafat bəxş etsin, üstəlik, bu kitabı, onu oxuyub, içində yazılanlara əməl edən və onu hər tərəfə yayan kimsələr üçün faydalı etsin. Həqiqətən də, bu lütf Allahdandır və O, buna qadirdir. İnsanı yaxşı işlər görməyə müvəffəq edən və onu doğru yola yönəldən məhz Allahdır. Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur. Peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə və səhabələrinə Allahın salavatı və salamı olsun!

*Əlixan Musayev*

---

[1] "Hud" surəsi, 1-3.

[2] "əl-Bəqərə" surəsi, 193.

[3] "ət-Təğabun" surəsi, 2.

# TÖVHİDİN MƏĞZİ

**Tövhid,** Allahın həm rububiyyədə, həm uluhiyyədə, həm də ad və sifətlərdə tək ilah olduğuna etiqad etməkdir. Peyğəmbərlərin عليهم السلام hamısı bu əqidədə olmuşlar. Allaha iman məhz bu üç əsas üzərində qurulur və bu, imanın əsası, binasının təməli, etiqadın məğzi hesab edilir. Digər əsaslar məhz tövhidə tabe olub onun üzərində qurulur. Dinimizə görə Allah həm rububiyyə, həm uluhiyyə, həm də ad və sifətlər xüsusunda tək İlahdır, Onun şəriki və tayı-bənzəri yoxdur, ibadətə layiq olan haqq məbuddur. Elə buna görə də, İslam dini "tövhid dini" adlanır.

Qeyd edildiyi kimi, tövhid üç qismə bölünür:

**1) Rububiyyə tövhidi.** Bu, Allahın məxluqatın Rəbbi, hökmdarı, yaradanı, ruzi verəni olduğunu, ehtiyacı olan kimsənin duasını qəbul etdiyini, xeyir və ya zərər verməyə qadir olduğunu, hər bir işin aqibətinin Ona məxsus olduğunu, bütün işlərin Ona qayıtdığını, Onun heç bir şərikinin olmadığını, Onun öldürən və dirildən olduğunu təsdiq etməkdir.

**2) Uluhiyyə tövhidi.** Bu, itaət, sevgi, qorxu, ümid, dua, namaz, oruc, zəkat, həcc, qurban, nəzir və bütün digər ibadətləri Tək Allaha yönəltmək və Ona şərik qoşmamaqdır.

**3) Ad və sifətlər tövhidi.** Bu, Allahın Öz Kitabında və ya Peyğəmbərinin ﷺ dili ilə Özünü adlandırdığı və vəsf etdiyi bütün ad və sifətlərdə tək ilah olduğuna iman etməyə, Onu bütün eyib və nöqsanlardan uzaq tutmağa, Ona xas olan xüsusiyyətlərdə Ona heç nəyi bənzətməməyə deyilir. Ən gözəl adlar və kamil sifətlər də məhz Allaha məxsusdur.

Allahın insanlara göndərdiyi peyğəmbərlərin عليهم السلام hamısının vəzifəsi insanları məhz tövhidə dəvət etmək olmuşdur. Bu xüsusda Uca Allah belə buyurur: **"Biz hər ümmətə: "Allaha ibadət edin, tağutdan[1] uzaq olun"–** ***deyə,*** **peyğəmbər göndərmişik".**[2];

**"Səndən əvvəl elə bir elçi göndərməmişik ki, ona: "Məndən başqa** ***ibadətə layiq*** **ilah yoxdur, Mənə ibadət edin!"– deyə vəhy etməyək".**[3];

---

[1] Tağut – Allahla yanaşı ilahiləşdirilən və ibadət olunan hər hansı bir məxluq.
[2] "ən-Nəhl" surəsi, 36.
[3] "əl-Ənbiya" surəsi, 25.

**"*Allah* Nuha tövsiyə etdiyini, sənə vəhy etdiyimizi, İbrahimə, Musaya və İsaya tövsiyə etdiyimizi sizin üçün də dində qanun etdi: "Dinə doğru-düzgün etiqad edin və onda bölünüb, firqə-firqə olmayın!" Sənin dəvət etdiyin *tövhid* müşriklərə ağır gəldi".**[1]

Hədisdə də Peyğəmbər ﷺ demişdir: "Peyğəmbərlər ata bir, ana ayrı övladlardır. Anaları ayrı olsa da, dinləri birdir."[2] Yəni, peyğəmbərlərin عليهم السلام əqidəsi eyni, şəriət qayda-qanunları isə fərqli olmuşdur. Bu xüsusda Uca Allah belə buyurur: **"Sizlərdən hər biriniz üçün bir şəriət və bir yol təyin etdik".**[3] Ayədən aydın başa düşülür ki, peyğəmbərlərin عليهم السلام şəriət qayda-qanunları fərqli olmuşdur.

Qeyd etdiyimiz bu dəlillərə əsasən deyə bilərik ki, hər bir insan dini məsələlərdə peyğəmbərlərin عليهم السلام təbliğ etdiyi tövhidə tabe olmalıdır.

Peyğəmbərlər عليهم السلام öz ümmətlərinə kəlmələrin ən əzəmətlisi və mütləq şəkildə ən möhtəşəmi sayılan tövhid kəlməsini, yəni "la ilahə illəllah"ı təbliğ etmişlər. Bu kəlmənin mənasını özündə əks etdirən əqidədən başqa heç bir şey tövhid sayıla bilməz. Bu kəlmə iki təməl üzərində dayanır – inkar və isbat. Kəlmənin əvvəlindəki "la ilahə (ilah yoxdur)" ümumi inkar, onun sonundakı "illəllah" (Allahdan başqa) isə xüsusi isbatdır. Bu kəlmənin əvvəlindəki ümumi inkar olan "la ilahə" Allahdan başqa ibadət edilən ilahların hamısını inkar edir. "İlləllah" kəlməsi isə ibadətin bütünlüklə Tək Allaha məxsus olduğunu isbat edir. "La ilahə" sözündəki "ilah" kəlməsi, "məbud" deməkdir. Deməli, sən "la ilahə", yəni "la məbudə" dediyində, Allahdan başqa ibadət edilən ilahların hamısını inkar edirsən. Bu cümlədəki "la" inkar ədatı qondarma ilahların hamısına aid edilir. Demək, "la ilahə illəllah", "Allahdan başqa ibadətə layiq məbud yoxdur" deməkdir. Odur ki, Allahdan başqa olan ilahların hamısı – nə olursa-olsun, kim olursa-olsun, batil sayılır. Bundan aydın olur ki, ibadət yalnız Allahın haqqıdır və heç kəs, heç nə bu haqqa şərik ola bilməz. Odur ki, "la ilahə illəllah" kəlməsini həqiqi mənada, sidq-ürəkdən deyən adam ibadətdən sayılan heç bir əməli Allahdan qeyrisinə yönəltməməlidir. Beləsi istədiyini yalnız Allahdan istəməli, yalnız Allahdan mədəd və yardım diləməli, bütün ibadətlərini

---

[1] "əş-Şura" surəsi, 13.

[2] "Səhih əl-Buxari", 3443; "Səhih Muslim", 2365.

[3] "əl-Maidə" surəsi, 48.

birbaşa Allaha yönəltməlidir. Birisi dili ilə "la ilahə illəllah" desə, sonra da Allahdan qeyrisinə yalvarsa, Allahdan qeyrisindən kömək diləsə, Allahdan başqasına sığınsa, Allahdan qeyrisi üçün qurban kəssə və digər hər hansı ibadəti Allahdan qeyrisinə yönəltsə, bütün əməllərini puç etmiş olar. Bu xüsusda Uca Allah belə buyurur: **«Sənə və səndən əvvəlki *peyğəmbərlərə* belə vəhy olunmuşdur: "Əgər *Allaha* şərik qoşsan, əməlin puç olar və mütləq ziyana uğrayanlardan olarsan"».**[1]

Deməк, "la ilahə illəllah" kəlməsini deyən adam Allaha şərik qoşduğu halda bu kəlməni yüzlərcə, minlərcə dəfə təkrar etsə belə, bu ona heç bir fayda verməz. İnsana fayda verən yalnız odur ki, bu kəlmənin məğzini təkAllahlıq etiqadı ilə səmimi-qəlbdən yalnız Allaha yönəltmiş olsun. Dildə bu kəlməni deyib, əməli ilə onu puç etmək isə onu deyən adama heç bir fayda verməyəcək.

Peyğəmbərlərin ﷺ yolunu tutub getməyən bəzi dəvətçilər "la ilahə illəllah" kəlməsinin mənasını insanlara yanlış şəkildə izah edirlər. Məsələn, bəziləri deyir ki, "la ilahə illəllah" "Allahdan başqa yaradan yoxdur", yaxud "Allahdan başqa ruzi verən yoxdur" deməkdir. Beləliklə də, "la ilahə illəllah" deyən və bunu "Allahdan başqa yaradan yoxdur" və ya "Allahdan başqa ruzi verən yoxdur" kimi başa düşən adam elə güman edir ki, əgər Allahdan savayı ruzi verənin və ya yaradanın olmadığına etiqad edərsə, demək, o, sədəqə, qurban, nəzir və s. kimi ibadətlərini Allahdan qeyrisinə yönəltsə belə, təkAllahlığı təsdiqləyən tövhid əhlindən sayılar. Bu, ona görədir ki, həmin "dəvətçilər" Allaha ibadət etmək və dini ixlasla Allaha yönəltmək məfhumunu bu kəlmənin məzmunundan çıxarmışlar. Beləliklə də, bu dəvətçilər sayəsində bir çox insanlar zəlalətə düşür və böyük fəsada uğrayırlar. Odur ki, həqiqi mənada və səmimi-qəlbdən "la ilahə illəllah" deyən kimsə yalnız Allaha yalvarar, yalnız Allahdan kömək istəyər, yalnız Allahdan mədəd və yardım umar, yalnız Allaha rüku və səcdə edər, yalnız Allah üçün qurban kəsər və yalnız Allah üçün nəzir verər. Bu xüsusda Uca Allah Öz peyğəmbərinə ﷺ belə buyurur: **«De: "Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür. Onun heç bir şəriki yoxdur"».**[2]

---

[1] "əz-Zumər" surəsi, 65.

[2] "əl-Ənam" surəsi, 162-163.

Böyük təəssüf hissi ilə qeyd etmək lazımdır ki, insanların əksəriyyəti Allahın göndərdiyi peyğəmbərlərin عليهم السلام dəvətini qəbul etməmiş və onları yalançı saymışlar. Bu haqda Uca Allah Öz peyğəmbərinə ﷺ belə buyurur: **“Əgər onlar səni yalançı hesab etsələr, *bil ki,* səndən əvvəl açıq-aydın dəlillər, səhifələr və nur saçan kitablar gətirmiş elçiləri də yalançı hesab etmişdilər”.**[1]

Məşhur hədisdə də xəbər verildiyi kimi, Muhəmməd peyğəmbərə ﷺ Hira dağındakı mağarada ilk vəhy nazil olduqdan sonra o, Xədicənin رضي الله عنها əmisi oğlu Vəraqa ibn Nofəlin[2] رضي الله عنه yanına gəlir. Vəraqa ona gördüyü məxluqun Allahın Musaya عليه السلام göndərdiyi sirrin sahibi[3] olduğunu bildirir və deyir: “Kaş dəvət edəcəyin vaxt mən gənc olaydım! Kaş qövmün səni yurdundan qovacağı zaman sağ olaydım!” Peyğəmbər ﷺ: “Məgər onlar məni qovacaqlar?”– deyə soruşduqda, Vəraqa deyir: “Bəli. Sənin gətirdiyinin bənzərini gətirən (tövhidi təbliğ edən) elə bir kişi olmayıb ki, qövmü onunla düşmənçilik etməsin. Əgər dəvət edəcəyin günə qədər həyatda qalsam, var gücümlə sənə kömək edəcəyəm”.[4]

Bu sözlərdən aydın başa düşülür ki, şeytanın vəsvəsəsinə uyanlar hər zaman tövhidi yayanların əleyhinə çıxmış, çıxır və bundan sonra da – Qiyamətədək bunu edəcəklər. Uca Allah İblisi Öz mərhəmətindən qovduğunda, o, belə demişdir: **“Ey Rəbbim! Sən məni sapdırdığına** (Öz rəhmətindən qovduğuna) **görə, mən də yer üzündə insanlara *pis işləri* gözəl göstərib onların hamısını azdıracağam”.**[5]**; “Sənin düz yolunun üstündə oturacağam. Sonra onların yanına önlərindən və arxalarından, sağlarından və sollarından gələcəyəm və Sən onların əksəriyyətini şükür edən görməyəcəksən. Yalnız Sənin seçilmiş, *ixlaslı* qullarından başqa”.**[6]

---

[1] “Ali-İmran” surəsi, 184.

[2] Vəraqa ibn Nofəl ibn Əsəd ibn Abdul-Uzza cahiliyyət dövründə saf tövhid etiqadında olan, İncili bilən nəsrani idi. Peyğəmbər ﷺ onun Cənnət əhlindən olduğunu xəbər verib demişdir: “Vəraqa ibn Nofəli söyməyin. Mən onun cənnətlik olduğunu görmüşəm”. (“Mustədrək əl-Hakim”, 2/609; “Silsilə əl-Əhadis əs-Səhihə”, 405).

[3] Burada “sirrin sahibi” deyildikdə, Cəbrail عليه السلام nəzərdə tutulur.

[4] “Səhih əl-Buxari”, 3.

[5] “əl-Hicr” surəsi, 39-40.

[6] “əl-Əraf” surəsi, 16-17.

Bu mövzuda olan bir hədisdə də xəbər verilir ki, bir zaman İblis öz Rəbbinə: "Sənin izzətinə və cəlalına and olsun ki, insanlar ölənədək mən onları haqq yoldan azdıracağam!"– demiş, Rəbbi də ona belə cavab vermişdir: **"İzzətimə və cəlalıma and olsun ki, onlar Məndən bağışlanma dilədikcə, Mən onları bağışlayacağam!"**[1]

Peyğəmbərlər عليهم السلام tövhidi təbliğ etdikləri zaman qövmləri onlara düşmən olmuş, onlara "dəli", yaxud "şair" və ya "kahin" adları qoyaraq nüfuzdan salmağa çalışmış, onları yurdlarından qovmaqla və ya ölümlə hədələmiş, hətta bəzilərini öldürmüşlər. Lakin Allah peyğəmbərləri ucaltmış və tarix boyu dillər əzbəri etmiş, düşmənlərini isə rəzil və rüsvay etmişdir. Hazırki dövrdə də görürük ki, İblisə uyanlar tövhid əhlinə cürbəcür adlar qoşur, onları ləkələməyə çalışır, hətta bəzi qəddarları onlara işgəncə verməkdən və onların qanını axıtmaqdan belə çəkinmirlər.

Elə isə, əziz müsəlmanlar, öyrənilməsi vacib olan tövhidi və onun ərkanlarını öyrənməyə, öyrəndiklərinizi doğru-düzgün yerinə yetirməyə və onu başqalarına öyrətməyə çalışın!

Allah hamımızı tövhid əhlindən etsin və bizi Allahdan qeyrisinə ibadət etməkdən uzaq etsin!

[1] "Musnəd İmam Əhməd", 3/41; "Səhih əl-Cami", 499.

# Quranda adı keçən peyğəmbərlərin عليهم السلام təbliğ etdiyi tövhid

# Adəm aleyhissəlam

Adəm peyğəmbər عليه السلام bəşəriyyətin atası sayılır. Uca Allah ilk əvvəl onu, sonra da onun zövcəsi Həvvanı عليها السلام yaratmışdır. Bu haqda "ən-Nisa" surəsinin 1-ci ayəsində belə buyurulur: **"Ey insanlar! Sizi tək bir candan xəlq edən, ondan zövcəsini yaradan və o ikisindən də çoxlu kişilər və qadınlar *törədib yer üzünə* yayan Rəbbinizdən qorxun!"**

Beləcə, insanların sayı getdikcə artmış, sonra da Allah onları xalqlara ayırmışdır. **"Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız *Allahdan* ən çox qorxanınızdır".**[1]

Adəm peyğəmbər عليه السلام yer üzündə bərqərar olduqdan sonra öz zürriyyətinə tövhidi – Allahın tək ilah olduğunu təbliğ etmiş və buna iman gətirməyin vacib olduğunu onlara bildirmişdir. Beləcə, insanlar min il tövhid üzərində sabit qalmış və Allaha şərik qoşmamışlar. Əbu Umamənin رضي الله عنه rəvayət etdiyi hədisdə xəbər verilir ki, bir kişi Peyğəmbərin ﷺ yanına gəlib soruşdu: "Ya Rəsulullah, Adəm عليه السلام peyğəmbərmi olub?". Peyğəmbər ﷺ dedi: "Bəli, peyğəmbər olub və Allah onunla danışıb". Adam soruşdu: "Onunla Nuh peyğəmbər عليه السلام arasında nə qədər zaman keçib?" Peyğəmbər ﷺ: "On əsr"– dedi.[2]

Digər bir hədisdə isə Abdullah ibn Abbas رضي الله عنهما demişdir: "Adəm peyğəmbərlə عليه السلام Nuh peyğəmbər عليه السلام arasında on əsrlik zaman keçmişdir. Bu əsrlər boyu insanlar haqq din (tövhid) üzərində sabit qalmış, sonra isə ixtilafa düşmüşlər. Nəhayət, Allah onlara müjdə verən və qorxudan peyğəmbərlər göndərmişdir".[3] Bu xüsusda Quranda belə buyurulur: **"İnsanlar vahid bir ümmət idilər, sonra ixtilafa düşdülər".[4];**

**"İnsanlar tək bir ümmət idi. Allah *onlara* müjdə verən və qorxudan peyğəmbərlər göndərdi, onlarla birlikdə haqq olan kitab nazil etdi ki,**

---

[1] "əl-Hucurat" surəsi, 13.

[2] "Səhih İbn Hibban", 6190; "Silsilə əl-Əhadis əs-Səhihə", 2668.

[3] "Təfsir ət-Təbəri", 2/194; "Təfsir İbn Kəsir", 1/250; "Mustədrək əl-Hakim", 2/546-547; "Silsilə əl-Əhadis əs-Səhihə", 7/854.

[4] "Yunus" surəsi, 19.

**insanların ixtilafa düşdükləri şeylərə dair onların arasında hökm versinlər."**[1]

Deməkr, insanlar min il Allahın tək İlah olduğuna etiqad etmiş, sonra isə Nuh peyğəmbərin ﷺ dövründə onların bir qismi Allaha şərik qoşmuşdur. Quran bu barədə bizə belə xəbər verir: **"Nuh qövmü dedi: "Öz məbudlarınızı tərk etməyin; Vəddi, Suvanı, Yəğusu, Yəuqu və Nəsri tərk etməyin!"**[2]

Ayəni izah edən səhabə Abdullah ibn Abbas رضي الله عنهما demişdir: "Bunlar Nuh عليه السلام qövmündən olan əməlisaleh möminlərin adlarıdır. Onlar vəfat etdikdən sonra şeytan onların qövmünə: "Bu əməlisaleh kişilərin oturduqları yerə onların bütlərini qoyun (rəsmlərini çəkin) və bu bütlərə onların adlarını verin!"– deyə vəsvəsə vermişdir. Onlar həmin yerə o əməlisaleh kişilərin bütlərini qoydular, lakin bu bütlərə ibadət etmədilər. Həmin nəsil dünyadan köçdükdən sonra haqq unuduldu və insanlar o bütlərə ibadət etməyə başladılar".[3]

---

[1] "əl-Bəqərə" surəsi, 213.

[2] "Nuh" surəsi, 23.

[3] "Səhih əl-Buxari", 6/133.

# İdris aleyhissəlam

Bəzi tarixçilər Adəm peyğəmbərlə عليه السلام Nuh peyğəmbər عليه السلام arasında, yəni on əsr ərzində daha iki peyğəmbərin göndərildiyi barədə yazırlar. Bunlar İdris عليه السلام və Şis عليه السلام peyğəmbərdir.

İdrisin عليه السلام peyğəmbər olması Quranda öz təsdiqini tapıb: **"Kitabda İdrisi də xatırla! Həqiqətən, o, düz danışan adam və bir peyğəmbər idi. Biz onu yüksək bir məqama ucaltdıq".**[1]**;**

**"İsmaili, İdrisi və Zülkifli də *yada sal!* Hamısı səbir edənlərdən idilər. Biz onları mərhəmətimizə qovuşdurduq. Onlar, həqiqətən, əməli-salehlərdən idilər".**[2]

Buxari və Muslimin "Səhih"lərində rəvayət edilmiş uzun hədisdə də Muhəmməd peyğəmbər ﷺ meracda ikən dördüncü səmada İdris peyğəmbəri عليه السلام gördüyünü xəbər vermişdir.[3]

Sadalanan bu ayə və hədislərdə İdris peyğəmbərin عليه السلام dəvəti barədə xəbər verilməsə də, əvvəlki fəsildə qeyd etdiyimiz ayə və hədislərdə insanların min il, yəni Nuh عليه السلام peyğəmbər göndərilənədək tövhid üzərində sabit qaldığı və Allaha şərik qoşmadıqları bildirilir. Deməli, bu on əsrdə yaşamış insanlar tövhid əhli olmuş və İdris peyğəmbər عليه السلام də öz peyğəmbərlik vəzifəsini yerinə yetirərək insanlara Allahın tək İlah olduğunu təbliğ etmişdir.

Şisin عليه السلام peyğəmbər olmasına gəlincə, Quranda bu barədə heç bir dəlil yoxdur. Onun peyğəmbər göndərilməsi və ona əlli səhifənin nazil olması barədə rəvayət edilmiş hədis isə mötəbər deyildir və hədis istilahına görə *daif ciddən* (olduqca zəif) isnadla rəvayət edilmişdir.[4]

---

[1] "Məryəm" surəsi, 56-57.

[2] "əl-Ənbiya", surəsi 85-86.

[3] "Səhih əl-Buxari", 349; "Səhih Muslim", 162, 163 və 164.

[4] "Təliqat əl-Həssan alə Səhih İbn Hibban", 362; "Silsilə əl-Əhadis əd-Daifə", 1910, 6090.

# Nuh aleyhissəlam

Nuh peyğəmbər عليه السلام yer üzünə göndərilmiş ilk rəsuldur (elçidir).[1]

Peyğəmbərlə rəsul arasında olan fərq budur ki, peyğəmbər Allahın əmrlərini və qadağalarını möminlərə təbliğ etmək üçün göndərilir. Rəsul isə həm möminlərə, həm də kafirlərə elçi göndərilir, Allahın risaləsini təbliğ edərək insanları yalnız Allaha ibadət etməyə çağırır. Deməк, Nuh عليه السلام həm peyğəmbər, həm də rəsuldur. Ümumiyyətlə, hər bir rəsul peyğəmbər sayılır. Nuh peyğəmbər عليه السلام ulul-əzm (möhkəm iradə sahibi) olan beş rəsuldan biridir.[2]

Bu möhtərəm peyğəmbərin عليه السلام əhvalatı Quranda bir neçə surədə zikr edilir, onun adına Quranda hətta ayrıca surə də mövcuddur. Həmin surələrdə Nuh peyğəmbərin عليه السلام insanları tövhidə necə dəvət etdiyi xəbər verilir:

**“Biz Nuhu öz qövmünə *elçi* göndərdik. O dedi: “Ey qövmüm! Allaha ibadət edin. Sizin Ondan başqa *ibadətə layiq* ilahınız yoxdur”.**[3]**;**

**“*Nuh* dedi: “Ey qövmüm! Şübhəsiz ki, mən sizi açıq-aydın xəbərdar edənəm! Allaha ibadət edin, Ondan qorxun və mənə itaət edin!”**[4]**;**

**“Biz Nuhu öz qövmünə elçi göndərdik. *O dedi*: “Həqiqətən, mən sizin üçün açıq-aydın xəbərdar edən *bir elçiyəm*. Allahdan başqasına ibadət etməyin!”**[5]

Nuh peyğəmbər عليه السلام öz qövmünü uzun illər tövhidə dəvət etdi: **“O, min ildən əlli il az bir müddət ərzində onların arasında qaldı”.**[6]

---

[1] “Səhih əl-Buxari”, 4712.

[2] Ulul-əzm sayılan beş rəsul bunlardır: Nuh عليه السلام, İbrahim عليه السلام, Musa عليه السلام, İsa عليه السلام və Muhəmməd ﷺ. Bu barədə Uca Allah belə buyurur: **“Elçilərdən möhkəm iradə sahiblərinin səbir etdiyi kimi, sən də səbir et!”** (“əl-Əhqaf” surəsi, 35); **“Bir zaman Biz peyğəmbərlərdən əhd almışdıq; səndən də, Nuhdan da, İbrahimdən də, Musadan da, Məryəm oğlu İsadan da! Biz onlardan möhkəm bir əhd almışdıq”** (“əl-Əhzab” surəsi, 7).

[3] “əl-Əraf” surəsi, 59.

[4] “Nuh” surəsi, 2-3.

[5] “Hud” surəsi, 25-26.

[6] “əl-Ənkəbut” surəsi, 14.

Nuh peyğəmbərin ﷺ uzun illər öz qövmünü tövhidə dəvət etməsinə baxmayaraq, onların az bir qismi istisna olmaqla, hamısı onun dəvətini inkar etdi, onun zəlalətdə olduğunu iddia etdi, onu yalançı saydı və ona düşmən kəsildi: **"Qövmünün zadəganları dedilər: "Həqiqətən də, biz səni açıq-aydın azğınlıq içində olduğunu görürük!"[1];**

**"Biz səni özümüz kimi sadəcə bir insan hesab edir və içimizdən ancaq düşüncəsiz olan ən rəzil adamların sənə qoşulduğunu görürük. Həmçinin sizin bizdən üstün olduğunuzu da görmürük. Əksinə, biz sizi yalançı hesab edirik".[2];**

**"Qövmünün kafir zadəganları dedilər: "O da sizin kimi sadə bir insandır. Sizə böyüklük etmək istəyir. Əgər Allah *elçi göndərmək* istəsəydi, mələklər göndərərdi. Biz bunu ulu babalarımızdan eşitməmişik".[3];**

**"Onlar qulumuzu** (Nuhu) **yalançı sayıb: "O, dəlidir!"– dedilər və ona hədə-qorxu gəldilər".[4]**

Nuh peyğəmbərin ﷺ qövmü nəinki o zaman, hətta Qiyamət günü də onun dəvətini təkzib edəcək. Bu xüsusda rəvayət edilmiş hədisdə[5] Peyğəmbər ﷺ demişdir: "Qiyamət günü Allah Nuhu çağıracaq və Nuh: "Buyur, hüzurundayam və əmrinə müntəzirəm, ey Rəbbim!"– deyəcək. Allah deyəcək: "Sən dini təbliğ etdinmi?" O: "Bəli!"– deyə cavab verəcək. Sonra onun qövmünə deyəcək: "O sizə dini təbliğ edibmi?" Onlar: "Bizi xəbərdar edən bir peyğəmbər gəlməmişdir!"– deyə cavab verəcəklər. Allah *Nuha* buyuracaq: "Sənin dediyinə kim şahidlik edə bilər?" Nuh: "Muhəmməd və onun ümməti!"– deyə cavab verəcək və onlar Allahın rəsulu ilə bərabər Nuhun dini təbliğ etdiyinə şahidlik edəcəklər. Bu haqda Allahın ayəsində belə deyilir: **"Beləliklə, Biz sizi orta bir ümmət etdik ki, siz insanlara şahid olasınız, peyğəmbər də sizə şahid olsun".[6]**

---

1 "əl-Əraf" surəsi, 60.

2 "Hud" surəsi, 27.

3 "əl-Muminun" surəsi, 24.

4 "əl-Qəmər" surəsi, 9.

5 "Səhih əl-Buxari", 4487.

6 "əl-Bəqərə" surəsi, 143.

Nuh peyğəmbər ﷺ on əsrə yaxın bir müddət ərzində qövmünü tövhidə dəvət etdi və sonda onların əksəriyyətinin iman gətirmədiyini görüb məyus olduqda, ona belə vəhy olundu: **"Qövmündən daha əvvəl iman gətirənlər istisna olmaqla, artıq heç kəs iman gətirməyəcək. Elə isə onların etdikləri əməllərə görə kədərlənmə. Gözlərimiz önündə və vəhyimiz üzrə gəmini düzəlt. Zalım olanlardan ötrü Mənə müraciət etmə! Şübhəsiz ki, onlar *suda* batırılacaqlar". *Nuh* gəmini düzəldir, qövmünün zadəganları isə hər dəfə yanından keçdikcə, onu ələ salırdılar. *Nuh* isə deyirdi: "Əgər siz bizi ələ salırsınızsa, biz də sizi, sizin bizi ələ saldığınız kimi, ələ salacağıq. Siz rüsvayedici əzabın kimə gələcəyini və daimi əzabın kimə üz verəcəyini mütləq biləcəksiniz".[1];**

**"Nəhayət, əmrimiz gəldiyi və təndir qaynayıb-daşdığı zaman Biz *Nuha* dedik: "*Heyvanların* hər növündən bir cüt, barələrində söz keçmiş** (əzaba düçar olacaq) **kəslər istisna olmaqla, öz ailəni və bir də iman gətirənləri gəmiyə mindir". *Lakin,* onunla birlikdə az adam iman gətirmişdi".[2]**

Nuh peyğəmbər ﷺ bundan sonra qövmündən artıq heç kəsin iman gətirməyəcəyini yəqin bildikdə, onların əleyhinə dua edib dedi: **"Ey Rəbbim, kafirlərdən yer üzündə bir nəfəri belə sağ qoyma! Əgər Sən onları *sağ* qoysan, onlar *Sənin* qullarını azdıracaq və yalnız günahkar, kafir *övladlar* doğub-törədəcəklər. Ey Rəbbim! Məni, valideynlərimi, evimə mömin kimi daxil olanları və *bütün* mömin kişi və qadınları bağışla, zalımların isə ancaq həlakını artır!"[3];**

**"Ey Rəbbim, qövmüm məni yalançı hesab etdi. Mənimlə onların arasında qəti hökm ver, məni və mənimlə birlikdə olan möminləri *əzabdan* qurtar!"[4]**

Allah onun duasını qəbul etdi, onu və onunla birlikdə olan möminləri xilas etdi, yerdə qalanları isə suda həlak etdi: **"Biz onun duasını qəbul**

---

[1] "Hud" surəsi, 36-39.

[2] "Nuh" surəsi, 40-41.

[3] "Nuh" surəsi, 27-29.

[4] "əş-Şuəra" surəsi, 117-118.

**etdik – onu və onun ailəsini** (ailəsindən iman gətirənləri) **böyük qəm-qüssədən qurtardıq. Biz onu ayələrimizi yalan hesab edən bir qövmdən qoruduq. Həqiqətən, onlar pis bir qövm idi. Odur ki, Biz onların hamısını suda batırdıq".[1];**

**"Biz göyün qapılarını leysan yağışı ilə açdıq. Yeri yarıb bulaqlar qaynatdıq.** *Göydən tökülən və yerdən çıxan* **sular əzəldən yazılmış bir iş üçün bir-birinə qovuşdu".[2];**

**"***Gəmi* **onları dağlar kimi dalğalar içərisində apardı".[3];**

**«***Sonra* **deyildi: "Ey yer, suyunu ud! Ey göy,** *yağışını* **saxla!" Su çəkildi, iş bitdi və gəmi Cudi** *dağı* **üzərində qərar tutdu.** *Sonra* **deyildi: "Məhv olsun zalım adamlar!"»[4];**

**"Biz onu və gəmidə olanları xilas edib bu dəlil ilə aləmlərə ibrət dərsi verdik".[5]**

İmam Buxarinin ﷺ rəvayət etdiyi səhih hədisdə Peyğəmbər ﷺ belə xəbər verir: "Allahın peyğəmbəri Nuh ﷺ ölüm ayağında ikən oğluna belə demişdir: "Mən sənə vəsiyyət etmək istəyirəm. Sənə iki şeyi əmr edir, iki şeyi də qadağan edirəm: sənə "la ilahə illəllah"ı əmr edirəm[6]. Əgər yeddi göy və yeddi yer tərəzinin bir gözünə, "la ilahə illəllah" da digər gözünə qoyulsa, bu kəlmə onlardan ağır gələr. Həmçinin, yeddi göy və yeddi yer ucsuz-bucaqsız bir halqa olsaydı, "la ilahə illəllah" onu yarıb keçərdi. "Sübhanallahi və bihəmdihi"[7] kəlməsini də sənə əmr edirəm.

---

[1] "əl-Ənbiya" surəsi, 76-77.

[2] "əl-Qəmər" surəsi, 11-12.

[3] "Hud" surəsi, 42.

[4] "əl-Ənkəbut" surəsi, 15.

[5] "Hud", 44.

[6] Burada Nuh peyğəmbər ﷺ öz oğluna ölənədək Allahdan başqa ibadətə layiq məbudun olmadığına etiqad etməyi buyurur.

[7] Tərcüməsi: "Allah pak və müqəddəsdir! Allaha həmd olsun!".

Bu möhtəşəm kəlməni Peyğəmbərimiz ﷺ də öz ümmətinə tövsiyə etmişdir. Bu xüsusda o ﷺ demişdir: "Mərhəmətli Allaha sevimli, tələffüzü asan və tərəzidə ağır gələn iki kəlmə *vardır ki, bunlar*: "Sübhanallahi və bihəmdihi, subhanallahil-əzim!" *kəlmələridir*" ("Səhih əl-Buxari", 7563). Digər bir hədisdə o ﷺ demişdir: "Kim gün ərzində yüz dəfə: "Sübhanallahi və bihəmdihi"– desə, günahları dəniz köpüyü qədər olsa belə, silinər" ("Səhih əl-Buxari", 6405).

Çünki bu kəlmə hər bir şeyin duasıdır.[1] Bunun sayəsində hər bir məxluqa ruzi verilir.[2] Habelə, iki şeyi sənə qadağan edirəm: *Allaha* şərik qoşmağı və təkəbbürlü olmağı[3]".[4]

Bu hədisdən bu nəticə çıxır ki, valideyn öz övladına yaxşı işləri buyurmalı və onu yaramaz əməllərdən çəkindirməlidir. Ələlxüsus da, ona Tək Allaha ibadət etməyi və Ona heç nəyi şərik qoşmamağı buyurmalıdır.

Bu hədisdən o da aydın olur ki, Nuh peyğəmbər عليه السلام son nəfəsində belə tövhidi təbliğ etmişdir.

---

[1] Yəni, hər bir şey Allahın pak və müqəddəs olduğunu təsdiqləyir. Bu xüsusda Uca Allah buyurur: **"Yeddi göy, yer və onlarda olanlar Allaha təriflər deyir. Elə bir şey yoxdur ki, həmd ilə Ona tərif deməsin, lakin siz onların tərifini anlamazsınız. Həqiqətən O, Həlimdir, Bağışlayandır".** ("əl-İsra" surəsi, 44). Ayədən aydın olur ki, hər bir məxluq Allahın pak və müqəddəs olduğunu təsdiqləyir.

[2] Mömin adam həqiqi mənada bu kəlmə sayəsində həm bu dünyada, həm də Axirətdə pak ruzi qazana bilər.

[3] Bu iki günahın bir yerdə qeyd olunması təkəbbürlüyün böyük günah olduğuna dəlalət edir.

[4] "Musnəd İmam Əhməd", 2/169-170; "Səhih əl-Ədəb əl-Mufrad", 548.

# Hud aleyhissəlam

Nuh peyğəmbərin ﷵ nəsli uzun illər tövhid üzərində sabit qaldı. İllər ötdükcə bu nəsil sayca artıb çoxaldı və qəbilələrə bölündü. Bu qəbilələr arasında Ad qəbiləsi də var idi. Hud peyğəmbərin ﷵ öz qəbiləsinə: **"*Allah* sizə heyvanat və oğul-uşaq verdi, *üstəlik* bağlar və çeşmələr də əta etdi".**[1]; **"Yadınıza salın ki, O, sizi Nuh qövmündən sonra xələflər təyin etdi və sizi xilqətcə daha qüvvətli etdi. Allahın nemətlərini xatırlayın ki, bəlkə nicat tapasınız."**[2] deməsi dəlildir ki, Allah onlara çoxlu nemətlər bəxş etmiş, özlərini də cüssəli və qüvvətli yaratmışdır. Onlar Allahın bu nemətlərinə şükür etmək əvəzinə, təkəbbürləndilər: **"Ad *qövmünə* gəlincə, onlar yer üzündə haqsızcasına təkəbbür göstərib dedilər: "Bizdən daha qüvvətli kim ola bilər?!" Məgər, onlar görmürdülər ki, onları yaradan Allah onlardan daha qüvvətlidir?!"**[3]

Bir qədər də keçdi və onlar şeytanın vəsvəsəsinə uyub Nuh peyğəmbərin ﷵ dəvətinə qarşı getdilər və Allahdan qeyrisinə ibadət etməyə başladılar. Onlar hətta öldükdən sonra dirilməni də inkar etdilər: **"Dünya həyatımızdan başqa heç bir həyat yoxdur; ölüb-dirilirik** (birimiz ölür, digərimiz dünyaya gəlir) **və biz *yenidən* dirilməyəcəyik".**[4]

Uca Allah onları tövhidə və haqq yoluna yönəltmək üçün Hudu ﷵ elçi göndərdi. Bu möhtərəm peyğəmbərin ﷵ əhvalatı Quranda bir neçə surədə zikr edilir, hətta onun adına ayrıca surə də var. Bu surələrdə Hud peyğəmbərin ﷵ qövmünü tövhidə dəvət etdiyi xəbər verilir:

**"Ad qövmünə də qardaşları Hudu *elçi göndərdik*. O dedi: "Ey qövmüm, Allaha ibadət edin! Sizin Ondan başqa ilahınız yoxdur. Məgər, *Allahın əzabından* qorxmursunuz?"**[5]**;**

---

[1] "əş-Şuəra" surəsi, 133-134.

[2] "əl-Əraf" surəsi, 69.

[3] "Fussilət" surəsi, 15.

[4] "əl-Muminun" surəsi, 37.

[5] "əl-Əraf" surəsi, 65.

**“Ey qövmüm, Allaha ibadət edin! Sizin Ondan başqa məbudunuz yoxdur. Siz ancaq iftira yaxırsınız”.**[1]**;**

**“Mən Allahı şahid tuturam, siz də şahid olun ki, mən sizin *Rəbbinizə* qoşduğunuz şəriklərdən uzağam”.**[2]

Hud peyğəmbər ﷺ davamlı olaraq onları Allahdan bağışlanma diləməyə və Ona tövbə etməyə çağırdı: **“Ey qövmüm, Rəbbinizdən bağışlanma diləyin və Ona tövbə edin!”**[3]

* Allahdan bağışlanma diləmək və Ona tövbə etmək peyğəmbərlərin sünnəsidir. Quranda Adəm, Nuh, Saleh, İbrahim, Musa, Şueyb, Davud, Süleyman və digər peyğəmbərlərin ﷺ Allahdan bağışlanma diləməsi və Ona tövbə etmələri zikr edilir.[4] Bir hədisdə isə Peyğəmbər ﷺ belə buyurmuşdur: “Ey insanlar, Allaha tövbə edin və Ondan bağışlanma diləyin! Mən hər gün yüz dəfə Ona tövbə edir və Ondan bağışlanma diləyirəm”.[5]

Çox keçmədi ki, Hud peyğəmbərin ﷺ də qövmü Nuh peyğəmbərin ﷺ qövmü kimi haqqı inkar etdi, peyğəmbəri də yalançı və səfeh hesab etdilər:

**“Qövmünün kafir zadəganları dedilər: “Biz səni səfeh sayırıq və həqiqətən də, səni yalançılardan hesab edirik!”**[6]**;**

**“Onlar dedilər: “Bizə öyüd-nəsihət versən də, verməsən də, bizim üçün birdir – bu, yalnız və yalnız əvvəlkilərin adətidir. Biz əzaba düçar olan da deyilik”.**[7]**;**

**“Ey Hud, sən bizə açıq-aydın bir dəlil gətirmədin, biz də sənin sözünlə məbudlarımızı tərk edən deyilik. Biz sənə inanmırıq!”**[8]**;**

---

[1] “Hud” surəsi, 50.

[2] “Hud” surəsi, 54.

[3] “Hud” surəsi, 52.

[4] Bax: “əl-Əraf” surəsi, 23; “Nuh” surəsi, 28; “İbrahim” surəsi, 41; “əl-Qəsəs” ssurəsi, 16; “Hud” surəsi, 61 və 90; “Sad” surəsi, 24 və 35.

[5] “Musnəd İmam Əhməd”, 2/260-261; “Silsilə əl-Əhadis əs-Səhihə”, 1452.

[6] “əl-Əraf”surəsi, 66.

[7] “əş-Şuəra” surəsi, 136-138.

[8] “Hud” surəsi, 53.

**"Onlar dedilər: "Yanımıza gəlmisən ki, atalarımızın ibadət etdiklərini buraxıb tək Allaha ibadət edək? Əgər doğru danışanlardansansa, bizə vəd etdiyin *əzabı* gətir".[1];**

**"Biz ancaq onu deyə bilərik ki, bəzi məbudlarımız səni bəlaya düçar edib".[2]**

Hud peyğəmbər ﷺ onların inadkarlıq göstərərək Allahın tək İlah olduğunu qəbul etmədiyini gördükdə, onlara belə dedi: **"Artıq Rəbbinizdən sizə əzab və qəzəb yetişdi. Siz özünüzün və atalarınızın uydurduqları adlar barəsində mənimlə mübahisəmi edirsiniz? Halbuki, Allah onların *məbud olması* barəsində heç bir dəlil nazil etməmişdir. Gözləyin! Şübhəsiz ki, mən də sizinlə birlikdə gözləyənlərdənəm".[3]**

Allahın onlara göndərdiyi əzab barədə isə Quranda bizə belə xəbər verilir:

**"Biz onlara dünya həyatında rüsvayçılıq əzabını daddırmaq üçün uğursuz günlərdə üstlərinə vıyıltılı külək göndərdik. Axirət əzabı isə daha rüsvayedicidir".[4];**

**"Ad *tayfası* hədsiz soyuq və şiddətli küləklə yox edildi. *Allah* onu yeddi gecə, səkkiz gün fasilə vermədən onların üstündə əsdirdi. *Sən orada olsaydın,* o tayfanı xurma ağacının yıxılmış çürük gövdələri kimi yerə sərilmiş görərdin. Sən onlardan qalan bir kimsəyə heç rast gəlmisənmi?!"[5];**

**"Nəhayət, o *əzabı* vadilərinə doğru gələn bir bulud şəklində gördükdə: "Bu, bizə yağış yağdıracaq bir buluddur!"– dedilər. *Hud dedi:* "Xeyr! Bu, sizin tez gəlməsini istədiyiniz – özü ilə ağrılı-acılı əzab gətirən bir küləkdir. O, öz Rəbbinin əmri ilə hər şeyi yerlə yeksan edəcək!" Onlar elə *məhv* oldular ki, evlərindən başqa heç bir şey görünmədi. Biz günahkar adamları belə cəzalandırırıq".[6]**

---

[1] "əl-Əraf" surəsi, 70.

[2] "Hud" surəsi, 54.

[3] "əl-Əraf" surəsi, 71.

[4] "Fussilət" surəsi, 16.

[5] "əl-Haqqə" surəsi, 6-8.

[6] "əl-Əhqaf" surəsi, 24-25.

**"Biz onu və onunla birlikdə olanları Öz mərhəmətimizlə xilas etdik, ayələrimizi yalan hesab edənlərin isə kökünü kəsdik".[1];**

**"Əmrimiz gəldikdə, Hudu və onunla birlikdə iman gətirənləri Öz mərhəmətimizlə xilas etdik və onları ağır bir əzabdan qurtardıq. Bu, Ad qövmü idi. Onlar Rəbbinin ayələrini inkar etdilər, Onun elçilərinə asi oldular və hər bir inadcıl təkəbbür sahibinin əmrinə uydular. Onları həm bu dünyada, həm də Qiyamət günündə lənət təqib edəcəkdir. Bilin ki, Ad qövmü öz Rəbbini inkar etdi. Bilin ki, Hudun qövmü olan Ad** *Allahın mərhəmətindən* **qovuldu!"[2]**

[1] "əl-Əraf" surəsi, 72.

[2] "Hud" surəsi, 58-60.

# Saleh aleyhissəlam

Ad qövmünün ardından Səmud qövmü yer üzündə fəsad törətməyə və Allahdan qeyrisinə ibadət etməyə başladı. Nəhayət, Uca Allah onların arasından Salehi ﷺ peyğəmbər seçdi: **“Səmud qövmünə qardaşları Salehi *peyğəmbər göndərdik*. O dedi: “Ey qövmüm, Allaha ibadət edin! Sizin Ondan başqa *ibadətə layiq olan* məbudunuz yoxdur. O sizi torpaqdan yaratdı və sizi orada sakin etdi. Elə isə, Ondan bağışlanma diləyin, sonra da Ona tövbə edin. Şübhəsiz ki, Rəbbim yaxındır, *dua edənlərin çağırışına* cavab verəndir”.**[1]

Bu möhtərəm peyğəmbər ﷺ də özündən əvvəlki peyğəmbərlər kimi, öz qövmünü tövhidə dəvət etdi, onları Allahdan bağışlanma diləməyə və Ona tövbə etməyə çağırdı. Lakin:

**“Səmud *qövmü* peyğəmbərləri *Salehi* yalançı hesab etdi”.**[2]**;**

**«Onlar dedilər: “Sən yalnız və yalnız sehrlənmişlərdənsən. Sən də bizim kimi ancaq bir insansan”».**[3]**;**

**“Doğrusu, biz sənin dəvət etdiyin *tövhid* barəsində şəkk-şübhə içindəyik”.**[4]**;**

**“Həqiqətən, biz sizin inandığınızı inkar edirik”.**[5]**;**

**“Özümüzdən olan bir adama tabe olacağıq?! Elə olduqda, biz azğınlığa düşər və ağılsız iş görmüş olarıq. Yoxsa zikr aramızdan təkcə *Salehə* verildi? Xeyr, o, yalançıdır, lovğadır!”**[6]

* Bu mövzulu ayələrə diqqət yetirən hər kəs görər ki, küfr əhlinin düşüncə tərzi eynidir – onlar haqqı qəbul etmək istəmədikdə, onu təbliğ edən kimsəni yalançı, sehrbaz və dəli adlandırarlar. Halbuki Allah Öz qullarından istədiyini seçib ona peyğəmbərlik bəxş edir. Səmud qövmünə Salehi ﷺ peyğəmbər seçdiyi kimi.

---

[1] “Hud” surəsi, 61.
[2] “əl-Qəmər” surəsi, 23.
[3] “əş-Şuəra” surəsi, 153-154.
[4] “Hud” surəsi, 62.
[5] “əl-Əraf” surəsi, 76.
[6] “əl-Qəmər” surəsi, 24-25.

Saleh peyğəmbər ﷺ onları tövhidə dəvət etdikdə, xüsusilə qeyd edir ki, Allaha asi olan bəndəni heç kəs Allahın əzabından qurtara bilməz, asi olan kəs hətta peyğəmbər olsa belə. Bu da dəvətin üslublarından biridir: **"*Saleh* dedi: "Ey qövmüm, bir deyin görək, əgər mən Rəbbimdən açıq-aydın bir dəlilə istinad edirəmsə, *Allah* da Öz tərəfindən mənə bir mərhəmət bəxş edibsə, onda necə olsun?! Əgər Allaha asi olsam, məni Ondan kim qoruya bilər?! *Bu etdikləriniz* mənə ancaq zərər verə bilər".**[1]

Onlar Peyğəmbərin ﷺ verdiyi sualı cavablandıra bilmədilər, lakin inadkarlıqlarından dolayı ondan peyğəmbər olduğunu isbat edən dəlil tələb etdilər. Onda Saleh ﷺ dedi: **"Ey qövmüm, Allahın *qayadan çıxartdığı* bu dişi dəvəsi sizin üçün bir dəlildir. Buraxın onu Allahın torpağında otlasın. Ona bir pislik etməyin, yoxsa sizi yaxın bir əzab yaxalayar".**[2]; **"Onun da, sizin də müəyyən edilmiş vaxtlarda su içmək haqqınız vardır.** (Bir gün o su içməli, bir gün də siz su içməlisiniz). **Ona heç bir pislik etməyin, yoxsa böyük günün əzabı sizi yaxalayar".**[3]

Uca Allah möcüzə olaraq qayadan dəvə yaratdıqda, Səmud qövmünün bir qismi Allaha iman gətirdi, digərləri isə inadkarlıq edib küfrlərinə davam etdilər: **"Onlar bir-biri ilə mübarizə aparan iki firqəyə bölündülər".**[4]

Saleh peyğəmbər ﷺ kafir olanlara**: "Ey qövmüm, nə üçün yaxşılıqdan qabaq pisliyə tələsirsiniz? Nə üçün Allahdan bağışlanmağınızı diləmirsiniz? Ola bilsin ki, sizə rəhm oluna"**[5]– deyə nəsihət etdi. Onlar isə nəinki bu nəsihəti qulaqardına vurdular, hətta bir az da azğınlaşaraq Allahın peyğəmbərini öldürmək və möcüzə olaraq yaratdığı dişi dəvəni kəsmək qərarına gəldilər. Bu xüsusda Quranda belə buyurulur: **"Şəhərdə doqquz nəfər var idi ki, onlar yer üzündə fitnə-fəsad törədir, yaxşı işlər görmürdülər. Onlar dedilər: "Bir-birinizin yanında Allaha and için ki, gecə ona və ailəsinə basqın edib *onları* öldürəcək, sonra da onun yaxın qohumlarına deyəcəyik ki, biz onun ailəsinin öldürüldüyünü görməmişik və biz, həqiqətən, düzünü deyirik".**[6]

---

[1] "Hud" surəsi, 63.
[2] "Hud" surəsi, 64.
[3] "əş-Şuəra" surəsi, 155-156.
[4] "ən-Nəml" surəsi, 45.
[5] "ən-Nəml" surəsi, 46.
[6] "ən-Nəml" surəsi, 48-49.

Daha sonra: **"Onlar dişi dəvənin diz vətərini kəsdilər və** ***beləliklə də*** **Rəbbinin əmrinə qarşı çıxıb: "Ey Saleh, əgər sən** ***həqiqətən də göndərilən*** **elçilərdənsənsə, bizə vəd etdiyin əzabı gətir!"– dedilər".**[1]**;**

**"*Saleh* onlardan üz çevirib dedi: "Ey qövmüm, artıq mən Rəbbimin mənə vəhy etdiyi hökmü sizə çatdırdım və sizə öyüd-nəsihət verdim. Lakin siz öyüd-nəsihət verənləri sevmirsiniz".**[2]**;**

**"Yurdunuzda üç gün də kef eləyin. Bu** (Allahın əzabı), **yalan olmayan bir vəddir".**[3]

Uca Allah bunları da əvvəlki kafir qövmlər kimi həlak etdi və onlara yardım edən tapılmadı. Bu xüsusda Uca Allah belə buyurur: **"Əmrimiz gəldikdə, Salehi və onunla birlikdə iman gətirənləri Öz mərhəmətimizlə** ***əzabdan*** **və o günün rüsvayçılığından qurtardıq. Həqiqətən, Rəbbin Qüvvətlidir, Qüdrətlidir. Zalımları isə qorxunc bir səs yaxaladı və onlar öz evlərində üzüqoylu düşüb qaldılar. Sanki orada heç yaşamamışdılar. Səmud qövmü öz Rəbbini inkar etdi. Səmud qövmü** ***Allahın mərhəmətindən*** **qovuldu!"**[4]**;**

**"Biz onları tayfalarıyla birlikdə yerlə yeksan etdik. Haqsızlıqları üzündən viran qalmış evləri də budur. Həqiqətən, bunda bilən adamlar üçün ibrət var".**[5]**;**

**"Onları qazandıqları** ***günahlar*** **üzündən alçaldıcı əzab ildırımı yaxaladı".**[6]**;**

**"Onlar öz Rəbbinin əmrindən çıxdılar və onları, gözləri baxa-baxa ildırım vurdu. Onlar ayağa qalxa bilmədilər və onlara kömək edən də olmadı".**[7]

---

[1] "əl-Əraf" surəsi, 77.
[2] "əl-Əraf" surəsi, 79.
[3] "Hud" surəsi, 65.
[4] "Hud" surəsi, 66-68.
[5] "ən-Nəml" surəsi, 51-52.
[6] "Fussilət" surəsi, 17.
[7] "əz-Zariyat" surəsi, 44-45.

# İbrahim aleyhissəlam

İbrahim عليه السلام peyğəmbərlər atası sayılır. Belə ki, bir çox peyğəmbərlər məhz onun nəslindən olmuşlar. Bu xüsusda Uca Allah belə buyurur: **“Biz *İbrahimə* İshaqı və Yəqubu bağışladıq. Onun nəslinə peyğəmbərlik və kitab bəxş etdik”.**[1]

İbrahim peyğəmbərin عليه السلام nəslindən adları bizə bəlli olan peyğəmbərlər bunlardır: oğlu İsmail عليه السلام və onun nəslindən dünyaya gəlmiş Muhəmməd peyğəmbər ﷺ, digər oğlu İshaq عليه السلام və onun oğlu Yəqub (İsrail) عليه السلام[2]. İsrailin nəslindən də Yusuf, Əyyub, Yunus, Musa, Harun, İlyas, Əlyəsə, Davud, Süleyman, Zəkəriyya, Yəhya və İsa عليهم السلام.[3]

İbrahim peyğəmbər عليه السلام də ulul-əzm olan beş rəsuldan biridir[4]:

**“İbrahim nə yəhudi, nə də nəsrani idi. O ancaq hənif** (batildən üz çevirib, haqqa yönələn) **bir müsəlman idi və müşriklərdən deyildi”.**[5]**;**

**“Həqiqətən, o, sadiq insan və peyğəmbər idi”.**[6]**;**

**“İbrahim *Allaha* çox yalvaran həlim bir kimsə idi”.**[7]**;**

**“İbrahim həlim xasiyyətli, *Allaha* çox yalvaran və canını tamamilə Ona təslim etmiş bir zat idi”.**[8]**;**

**“Allah İbrahimi *Özünə yaxın* dost tutmuşdur”.**[9]**;**

**“İbrahimə salam olsun!”**[10]

Uca Allah İbrahim peyğəmbərə عليه السلام haqqı batildən ayırd edən sağlam fitrət bəxş etmişdir. Odur ki, o, atasının və qövmünün bulaşdığı şirkdən uzaq idi. Əksinə, yanlış yolda olduqlarını onlara isbat etmək üçün onlarla mübahisə edirdi.

---

[1] “əl-Ənkəbut” surəsi, 27.
[2] İsrail, Yəqub aleyhissəlamın digər adıdır.
[3] Bax: “əl-Ənam” surəsi, 83-86; “əl-Bidayə vən-Nihayə”, 1/191.
[4] Bu barədə 23-cü səhifədəki 2-ci haşiyə-çıxarışa bax.
[5] “Ali-İmran” surəsi, 67.
[6] “Məryəm” surəsi, 41.
[7] “ət-Tövbə” surəsi, 114.
[8] “Hud” surəsi, 75.
[9] “ən-Nisa” surəsi, 125.
[10] “əs-Saffat” surəsi, 109.

Bu möhtərəm peyğəmbərin ﷺ əhvalatı Quranda bir neçə surədə zikr edilir, Quranda onun adına ayrıca surə də var. Həmin surələrdə İbrahim peyğəmbərin ﷺ insanları tövhidə dəvət etdiyi, əvvəlcə atasını, sonra da qövmünü və zalım Nəmrudu bütlərə tapınmaqdan çəkinib, Tək olan Allaha ibadət etməyə dəvət etdiyi xəbər verilir.

İbrahimin peyğəmbərin ﷺ atası ilə etdiyi mübahisə barədə Quran bizə belə xəbər verir: **"Bir zaman o, atasına demişdi: "Atacan, nə üçün eşitməyən, görməyən və sənə heç bir faydası olmayan bir şeyə ibadət edirsən? Atacan, həqiqətən, sənə gəlməyən bir elm mənə gəlmişdir. Arxamca gəl ki, səni doğru yola yönəldim. Atacan, şeytana ibadət etmə! Həqiqətən, şeytan Mərhəmətli *Allaha* çox asi oldu. Atacan, qorxuram, Mərhəmətli *Allahdan* sənə bir əzab toxunsun və beləcə, şeytana yoldaş olasan". *Atası* dedi: "Sən mənim məbudlarımdan üzmü çevirirsən, ey İbrahim?! Əgər *buna* son qoymasan, səni mütləq daşqalaq edəcəyəm. Uzun müddət məndən uzaq ol!" *İbrahim* dedi: "Sənə salam olsun! Mən Rəbbimdən sənin üçün bağışlanma diləyəcəyəm. Həqiqətən, O, mənə qarşı çox lütfkardır. Mən sizi və Allahdan başqa sitayiş etdiyiniz *bütləri* tərk edir və öz Rəbbimə dua edirəm. Ola bilsin ki, mən Rəbbimə dua etməklə heç vaxt bədbəxt olmayım".**[1]

İbrahim peyğəmbər ﷺ atasına o bütlərin nə bir fayda, nə də bir zərər verməyə qadir olmadıqlarını, Allahdan qeyrisinə ibadət etməyin batil olduğunu, əslində isə bunun şeytana ibadət sayıldığını bildirir. O, öz atasını hər şeyi Eşidən və Görən Allaha ibadət etməyə çağırır. Atası onun dəvətini inkar edib onu hədələdikdə, yenə mülayim tərzdə Allahdan ona hidayət diləyir, hətta onun üçün bağışlanma diləyəcəyini bildirir.

> * Qeyd edilməlidir ki, müşrik üçün Allahdan bağışlanma diləmək qadağandır. İbrahim peyğəmbər ﷺ isə bunu Allah ona qadağan etmədən öncə etmişdir. Allah ona bunu qadağan etdikdən sonra isə o, atasını tərk edir: **"İbrahimin öz atası üçün bağışlanma diləməsi isə yalnız ona verdiyi vədə görə idi. Atasının Allaha düşmən olduğu ona bəlli olduqdan sonra isə ondan uzaqlaşdı".**[2]

---

[1] "Məryəm" surəsi, 42-48.
[2] "ət-Tövbə" surəsi, 114.

Bu məqamda bir məsələyə də toxunmaq yerinə düşər ki, İbrahim peyğəmbərin ﷺ atasının peyğəmbər atası olması onu Cəhənnəm odundan xilas etməyəcək. Kimliyindən asılı olmayaraq, Allaha şərik qoşan hər kəs əbədi Cəhənnəm əhlindən olacaq. Bu mövzuda varid olmuş hədisdə Peyğəmbərimiz ﷺ demişdir: "Qiyamət günü İbrahim sir-sifəti toz-torpağa bulaşmış və qaralmış atası Azərlə qarşılaşacaq və ona deyəcək: "Məgər mən sənə deməmişdim ki, mənə asi olma?!" Atası deyəcək: "Bu gün mən sənə asi olmayacağam!" Onda İbrahim deyəcək: "Ey Rəbbim, Sən mənə insanların diriləcəyi gün məni rüsvay etməyəcəyinə dair vəd vermişdin. *Sənin rəhmətindən* uzaq düşmüş atamdan daha böyük rüsvayçılıq ola bilərmi?!" Uca Allah buyuracaq: **"Mən Cənnəti kafirlərə haram buyurmuşam".** Sonra ona deyiləcək: "Ey İbrahim, ayağının altındakına bax!" İbrahim ayağının altına baxdıqda, qana bulanmış bir kaftar (yəni, kaftara dönmüş Azəri) görəcək. Sonra bu kaftarı ayaqlarından tutub Cəhənnəm oduna atacaqlar".[1]

* Əsas mövzuya qayıtmadan öncə bu yerdə bir haşiyə çıxaraq.

Yuxarıda qeyd edilən hədisdən aydın olur ki, Allaha şərik qoşan kəs kim olursa-olsun, hətta peyğəmbər atası, yaxud oğlu, yaxud həyat yoldaşı, yaxud əmisi, yaxud qızı və başqa ən yaxını olsa belə, Cəhənnəmə düşəcək. Buna sübut kimi aşağıdakı ayə və hədisləri misal çəkmək olar:

**"Allah kafirlərə Nuhun arvadı ilə Lutun arvadını misal çəkdi. Onlar Bizim əməlisaleh qullarımızdan iki qulun nikahı altında idilər. Onlar** (Allaha şərik qoşmaqla) **ərlərinə xəyanət etdilər və ərləri onları Allahın *əzabından* heç cür xilas edə bilmədilər. O qadınlara: "Cəhənnəmə girənlərlə birgə ikiniz də ora girin!"– deyildi".**[2]**;**

**"Nuh *gəmidən* kənarda duran oğlunu səsləyib dedi: "Oğlum, bizimlə birlikdə *gəmiyə* min, kafirlərdən olma!" *Oğlu* dedi: "Məni sudan qoruyacaq bir dağa sığınacağam". *Nuh* dedi: "Bu gün Allahın rəhm etdiklərindən başqa heç kəs Onun əmrindən** (əzabından) **qoruna bilməz!" *Sonda* dalğa onları bir-birindən ayırdı və o, suda boğuldu".**[3]

---

[1] "Səhih əl-Buxari", 3350.
[2] "ət-Təhrim" surəsi, 10.
[3] "Hud" surəsi, 42-43.

İmam Muslimin rəvayət etdiyi hədisdə[1] xəbər verilir ki, Muhəmməd peyğəmbərin ﷺ əmisi Əbu Talib[2] ölüm yatağında ikən[3] Peyğəmbər ﷺ onun yanına gəldi[4] və orada Əbu Cəhl və Abdullah ibn Əbu Ümeyyə ibn Muğiranı[5] gördü. Peyğəmbər ﷺ dedi: "Əmican, "la ilahə illəllah" kəlməsini de ki, Allah yanında sənin *dediyinə* şahidlik edim". *Bunu eşidəndə* Əbu Cəhl və Abdullah ibn Əbu Ümeyyə dedilər: "Ey Əbu Talib, Abdulmuttalibin[6] dinindən dönməkmi istəyirsən?!" Peyğəmbər ﷺ tövhid kəlməsini, *onlar da öz dediklərini* o vaxta qədər təkrar etdilər ki, axırda Əbu Talib onlara son sözünü deyib, Abdulmuttalibin dinində qalacağını bildirdi və "la ilahə illəllah" deməkdən imtina etdi. *Onda* Peyğəmbər ﷺ *əmisinə* dedi: "Vallahi, mənə qadağan edilənədək sənin üçün bağışlanma diləyəcəyəm". Uca Allah da onun barəsində bu ayəni nazil etdi: **"Müşriklərin Cəhənnəm sakinləri olduqları bəlli olduqdan sonra, qohum olsalar belə, Peyğəmbərə və möminlərə onlar üçün bağışlanma diləmək yaraşmaz".**[7] Daha sonra da bu ayəni nazil etdi: **"Şübhəsiz ki, sən istədiyini doğru yola yönəldə bilməzsən. Amma Allah istədiyini doğru yola yönəldir. O, doğru yolda olanları daha yaxşı tanıyır".**[8]

---

[1] "Səhih Muslim", 24.

[2] Əbu Talib həm Peyğəmbərin ﷺ əmisi, həm də Əlinin رضي الله عنه atasıdır.

[3] Əbu Talib Məkkədə, Peyğəmbər ﷺ Mədinəyə hicrət etməmişdən əvvəl vəfat etmişdir. O vaxt Peyğəmbər ﷺ əlli yaşın içində idi. Həmçinin qeyd etmək olar ki, əmisinin vəfatından üç gün sonra Peyğəmbərin ﷺ ən sevimli zövcəsi, möminlərin anası Xədicə رضي الله عنها də vəfat etmişdir. Peyğəmbərin ﷺ ona dayaq olmuş bu iki şəxsi eyni vaxtda itirməsindən və bunun ardından da müşriklərin onlara olan təzyiqlərinin artmasından dolayı, həmin il "hüzn ili" və ya "iztirab ili" adlandırılmışdır. Bu hadisələrdən sonra Peyğəmbər ﷺ səhabələrinin işgəncələrə məruz qaldıqlarını görüb, onlara Həbəşistana hicrət etməyi məsləhət görmüşdür. ("Şərh Buluğ əl-Məram", 5/118).

[4] Hərgah, Əbu Talibin canı boğazına yetişmiş olsaydı, Peyğəmbər ﷺ ona "la ilahə illəllah" kəlməsini təlqin etməzdi. Çünki kafirin ölümqabağı "la ilahə illəllah" deməsinin ona heç bir faydası yoxdur. Quranda bu xüsusda belə buyurulur: **"Günah işlər görməkdə davam edənlərdən birinə ölüm gəldiyi zaman: "Mən indi tövbə etdim!"– deyənlərin də, kafir kimi ölənlərin də tövbəsi qəbul deyildir. Biz onlar üçün ağrılı-acılı bir əzab hazırlamışıq".** ("ən-Nisa" surəsi, 18).

[5] Əbu Cəhl və Abdullah ibn Əbu Ümeyyə ibn Muğira – hər ikisi də Peyğəmbərə ﷺ qatı düşmən olmuşlar.

[6] Abdulmuttalib, Peyğəmbərin ﷺ babası və Əbu Talibin atasıdır.

[7] "ət-Tövbə" surəsi, 113.

[8] "əl-Qəsəs" surəsi, 56.

Həmçinin, rəvayət edilir ki, *bir gün* Abbas ibn Abdulmuttalib[1] ﷺ Peyğəmbərə ﷺ dedi: "Ya Rəsulullah, sənin Əbu Talibə nə köməyin dəyib? Axı o səni müdafiə edər, kimsə sənin xətrinə dəyəndə, qəzəblənərdi". Peyğəmbər ﷺ dedi: "Bəli, *köməyim dəyib*. O, Cəhənnəmin üst qatında olacaq. Əgər mənim şəfaətçiliyim olmasaydı, o, Cəhənnəmin ən aşağı təbəqəsində[2] olardı".[3]; "Qiyamət günü mənim şəfaətim ona fayda verəcək və onu Cəhənnəm odunun üst qatına salacaqlar. *Orada* od onun topuqlarına çatacaq, odun istisindən də onun beyni qaynayacaq".[4]

Həmçinin, rəvayət edilir ki, Uca Allah: **"Ən yaxın qohumlarını qorxut!"**[5] ayəsini nazil etdikdə, Peyğəmbər ﷺ qohum-əqrəbasına səslənib dedi: "Ey qureyşlilər, mən sizi Allahın *əzabından* qurtara bilmərəm! Ey Abdumənaf oğulları, mən sizi Allahın *əzabından* qurtara bilmərəm! Ey Abbas ibn Abdulmuttalib, mən səni Allahın *əzabından* qurtara bilmərəm! Ey Peyğəmbərin bibisi Safiyyə, mən səni Allahın *əzabından* qurtara bilmərəm! Ey Muhəmmədin qızı Fatimə, malımdan nə istəyirsənsə, istə, *ancaq* mən səni Allahın *əzabından* qurtara bilmərəm!"

Peyğəmbər ﷺ onları xəbərdar edir ki, əgər Allaha şərik qoşsalar, o, onları Allahın əzabından qurtara bilməyəcək. Bu xüsusda Quranda belə buyurulur: **"Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, *lakin* bundan başqa *olan günahları* istədiyi kəsə bağışlayar".**[6]

Ayədən aydın başa düşülür ki, Allaha şərik qoşan müşriklər əsla bağışlanmayacaqlar və onların yeri əbədi qalacaqları Cəhənnəm olacaq: **"Kim Allaha şərik qoşarsa, heç şübhəsiz, Allah Cənnəti ona haram edər – onun gedəcəyi yer Cəhənnəmdir. Zalımların heç bir yardımçısı olmaz".**[7];

---

[1] Abbas ﷺ Əbu Talibin qardaşı və Peyğəmbərin ﷺ əmisidir.

[2] Burada "ən aşağı təbəqə" deyildikdə, Cəhənnəmin dibi nəzərdə tutulur.

[3] "Səhih əl-Buxari", 3883; "Səhih Muslim", 209.

[4] "Səhih əl-Buxari", 3885.

Başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Qiyamət günü ən yüngül əzaba məruz qalacaq od sakinləri o kimsələrdir ki, onların hər ayağının altına qızmar bir köz qoyulacaq və onun istisindən onların beyni mis qazan və ya qumquma (yandan asılan kiçik su qabı) qaynadığı kimi, qaynayacaqdır". ("Səhih əl-Buxari", 6562).

[5] "əş-Şuəra" surəsi, 214.

[6] "ən-Nisa" surəsi, 48 və 116.

[7] "əl-Maidə" surəsi, 72.

**"Haqqında heç bir dəlil nazil etmədiyi şeyi Allaha şərik qoşduqlarına görə kafirlərin qəlblərinə qorxu salacağıq. Onların gedəcəkləri yer Cəhənnəmdir. Zalımların məskunlaşacağı yer necə də pisdir!"[1];**

**"*Müşriklərin* əməlləri puça çıxmışdır. Onlar Cəhənnəmdə əbədi qalacaqlar."[2]**

Uca Allah şirkin olduqca təhlükəli olması barədə peyğəmbərlərin ﻋﻠﻴﻬﻢ السلام hamısını xəbərdar edərək belə buyurmuşdur: **"Sənə və səndən əvvəlkilərə belə vəhy olunmuşdur: "Əgər *Allaha* şərik qoşsan, əməlin puç olacaq və mütləq ziyana uğrayanlardan olacaqsan. Sən yalnız Allaha ibadət et və şükür edənlərdən ol!"[3]**

İbrahim peyğəmbərin عليه السلام zalım Nəmrudla mübahisəsini nümunə gətirərək qeyd edək ki, xalqının bu zalım hökmdarı özünün tanrı olduğunu iddia etdikdə, Allahın peyğəmbəri عليه السلام onu sadə bir dəlillə susdurmuşdur: **"Allah Günəşi məşriqdən gətirir, sən də onu məğribdən gətir!"– dedikdə, o kafir çaşıb qaldı. Allah zalım qövmü doğru yola yönəltməz".[4]**

Diqqət edin, görün İbrahim peyğəmbər عليه السلام ona Allahın qüdrətini necə bəyan edir. Allahın hər şeyə qadir olması da elə Onun ibadətə layiq olan tək İlah olduğuna dəlildir. Tövhidə çağıran hər bir dəvətçi öz dəvətində Allaha möhtac olan məxluqun ibadət olunmağa layiq olmadığını xüsusilə vurğulamalıdır. Peyğəmbərlərin عليهم السلام dəvət üslubuna diqqət yetirsək, görərik ki, onlar öz qövmlərini tövhidə dəvət etdikdə, Allahdan başqa ibadət etdikləri bütlərin fayda və ya zərər verməyə qadir olmadıqlarını, əksinə, özlərinin Allaha möhtac olduqlarını xüsusilə vurğulayıblar. İbrahim peyğəmbər عليه السلام də ,həmçinin, Nəmruda onun aciz məxluq olduğunu bildirir.

İbrahim peyğəmbərin عليه السلام qövmünü dəvət etməsinə gəlincə, o, əvvəlcə onlara yalnız Allaha ibadət etməyin onlar üçün həm bu dünyada, həm də Axirətdə xeyirli olduğunu xatırladır: **"Allaha ibadət edin və Ondan qorxun! Bilsəniz bu sizin üçün nə qədər xeyirlidir".[5]**

---

[1] "Ali-İmran" surəsi, 151.
[2] "ət-Tövbə" surəsi, 17.
[3] "əz-Zumər" surəsi, 65-66.
[4] "əl-Bəqərə" surəsi, 258.
[5] "əl-Ənkəbut" surəsi, 16-17.

Sonra onlara: **"Siz nəyə ibadət edirsiniz?"**[1]**; "Bu nə heykəllərdir ki, siz onlara ibadət edirsiniz?"**[2]**; "Siz** ***öz əllərinizlə*** **yonub düzəltdiklərinizəmi ibadət edirsiniz?"**[3]**; "Onlara yalvardığınız zaman sizi eşidirlərmi? Yaxud sizə xeyir və ya zərər verirlərmi?"**[4]– deyə suallar verir ki, yanlış yolda olduqlarını, o bütlərin fayda və ya zərər verməyə qadir olmayan aciz məxluqlar olduqlarını etiraf etsinlər. Əslində, fitrəti və düşüncəsi sağlam olan kəs dərhal tövbə edib haqq yola qayıtmalıdır. Lakin müşriklər suala cavab verməkdən və haqqı qəbul etməkdən boyun qaçıraraq: **"Biz atalarımızı onlara ibadət edən görmüşük!"**[5]– dedilər. İbrahim peyğəmbər عليه السلام də: **"Doğrusu, siz də, atalarınız da, açıq-aydın azğınlıq içindəsiniz"**[6]– deyərək, onlara zəlalətdə olduqlarını xəbər verir. Sonra onlara Allahın yaradan və haqq yoluna yönəldən, ruzi və şəfa verən, öldürən və dirildən, Qiyamət günü haqq-hesab çəkən Tək İlah olduğunu bildirir: **"Siz Allahı qoyub ancaq bütlərə ibadət edir və yalan uydurursunuz. Şübhəsiz ki, Allahdan başqa ibadət etdikləriniz sizə ruzi verməyə qadir deyillər. Elə isə, ruzini Allahdan diləyin, Ona ibadət edin və Ona şükür edin. Siz ancaq Ona qaytarılacaqsınız".**[7]**; "Siz və atalarınız nəyə ibadət etdiyinizi görürsünüzmü?! Aləmlərin Rəbbindən başqa, onların hamısı mənim düşmənimdir.** ***O Rəbbim ki,*** **məni yaratmış və məni doğru yola yönəltmişdir;** ***O Rəbbim ki,*** **məni yedirdir və içirdir;** ***O Rəbbim ki,*** **xəstələndiyim zaman mənə şəfa verir;** ***O Rəbbim ki,*** **məni öldürəcək, sonra dirildəcəkdir;** ***O Rəbbim ki,*** **Haqq-hesab günü xətalarımı bağışlayacağını Ondan umuram".**[8]**; "Xeyr, sizin Rəbbiniz, yaratdığı göylərin də, yerin də Rəbbidir. Mən də buna şahidlik edənlərdənəm".**[9]

İbrahim peyğəmbərin عليه السلام gətirdiyi bu dəlillərə baxmayaraq, qövmü yenə də öz batil əqidəsində qalmaqda israr etdi. Allahın peyğəmbəri عليه السلام onların bu dəlilləri qəbul etmədiyini gördükdə, bütlərin aciz olduğunu

---

[1] "əs-Saffat" surəsi, 85.
[2] "əl-Ənbiya" surəsi, 52.
[3] "əs-Saffat" surəsi, 95.
[4] "əş-Şuəra" surəsi, 72-73.
[5] "əl-Ənbiya" surəsi, 53.
[6] "əl-Ənbiya" surəsi, 54.
[7] "əl-Ənkəbut" surəsi, 17.
[8] "əş-Şuəra" surəsi, 75-82.
[9] "əl-Ənbiya" surəsi, 56.

onlara əyani şəkildə sübut etmək qərarına gəldi ki, bəlkə düşünüb ibrət alsınlar: **“O, xəlvətcə onların məbudlarının yanına gəlib** ***istehza ilə*** **dedi: “Siz** ***bu təamları*** **yemirsiniz?! Sizə nə olub ki, danışmırsınız?!” Sonra onlara yaxınlaşıb sağ əli ilə bir zərbə endirdi”.**[1]; **“*İbrahim* bütləri sındırıb qırıq-qırıq edərək yalnız onların ən irisini saxladı ki, bəlkə, ona müraciət edələr”.**[2]

Bütpərəstlər öz məbədlərinə gəlib bütlərinin qırıq-qırıq olduğunu gördükdə: **“Dedilər: “Məbudlarımızı kim bu kökə salıb? Şübhəsiz ki, o, zalımlardandır!”** *Bəziləri:* **“İbrahim deyilən bir gəncin onları pislədiyini eşitmişik”– dedilər.** *Digərləri də:* **“Onu camaatın gözü qabağına gətirin ki,** (ona veriləcək cəzaya) **şahidlik etsinlər”– dedilər. Onlar ondan: “Məbudlarımızı sənmi bu kökə salmısan, ey İbrahim?”– deyə soruşdular.** ***İbrahim*** **dedi: “Xeyr, bunu onların bu böyüyü etmiş olar. Əgər danışa bilirlərsə, özlərindən soruşun”.** ***Bütpərəstlər*** **öz-özlərinə müraciətlə: “Həqiqətən də, siz zalımsınız”– dedilər. Sonra yenə öz bildikləri** ***batil əqidələrinə*** **qayıdıb dedilər: “Axı, sən bilirsən ki, bunlar danışmırlar”.** ***İbrahim*** **dedi: “Elə isə, Allahı qoyub sizə heç bir fayda və zərər verə bilməyən** ***bütlərəmi*** **tapınırsınız?! Tfu sizə də, Allahdan başqa tapındıqlarınıza da! Doğrudanmı, siz dərk etmirsiniz?!”**[3]

İbrahim peyğəmbər عليه السلام onlara bütlərin aciz olduqlarını, özlərini belə qorumağa qadir olmadıqlarını sübut etsə də, müşriklər yenə də batil əqidələrinə son qoymadılar. Hətta Allahın peyğəmbərini عليه السلام yandırmaq qərarına gəldilər: “**Onlar dedilər: “Əgər *İbrahimdən* əvəz çıxmaq istəyirsinizsə, onu yandırın ki, məbudlarınıza kömək edəsiniz”.**[4]

Onlar olduqca böyük bir od qaladılar və onu mancanağa qoyub odun içinə atdılar. Onu oda atarkən İbrahim عليه السلام: “**Allah mənə yetər. O, nə gözəl Qoruyandır!**”– deyə[5] Allaha təvəkkül etdi, Allah da onu qorudu: **“Biz: “Ey od, İbrahim üçün sərin və zərərsiz ol!”– dedik”.**[6]; **“Onlar *İbrahimə* hiylə qurmaq istədilər, Biz də onları rüsvay etdik”.**[7]

---

[1] “əs-Saffat” surəsi, 91-93.
[2] “əl-Ənbiya” surəsi, 58.
[3] “əl-Ənbiya” surəsi, 59-67.
[4] “əl-Ənbiya” surəsi, 68.
[5] “Səhih əl-Buxari”, 4563.
[6] “əl-Ənbiya” surəsi, 69.
[7] “əs-Saffat” surəsi, 98.

* Qeyd etmək lazımdır ki, belə dəvət üslubu, yəni Allahın tək İlah olduğunu isbat etmək üçün bütpərəstləri və onların qondarma ilahlarını təhqir etmək İbrahim peyğəmbərə ﷺ aid olan dəvət üslubudur və onun o məqamda bu cür hərəkət etməsinə Allah izin vermişdir. Biz müsəlmanlara isə Uca Allah dəvət əsnasında sərtlik göstərməməyi və onları təhqir etməməyi buyurur: **“*İnsanları* Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübahisə et”.**[1] Digər ayədə isə belə buyurur: **“*Müşriklərin* Allahdan başqa tapındıqlarını söyməyin. Yoxsa onlar da elmsizlikləri üzündən, düşməncəsinə Allahı söyərlər”.**[2]

İbrahim peyğəmbərin ﷺ göy cisimlərinə ibadət edən müşrikləri dəvət etmək üslubuna gəlincə, göründüyü kimi, bu üslub əvvəlkindən fərqlidir. Belə ki, bütlərdən fərqli olaraq, göy cisimləri öz orbiti ilə nizam-intizamla hərəkət edir – Günəş yeri işıqlandırır və üzərindəkilərə istilik verir, ulduzlar insanlara gedəcəkləri yerə istiqamət göstərir və s. Bir yerdə, hərəkətsiz duran bütlərdə isə bu məziyyətlər yoxdur. Odur ki, Allahın peyğəmbəri ﷺ göy cisimlərinə ibadət edən müşrikləri onların ağlına uyğun tərzdə tövhidə dəvət edir: **“Gecənin qaranlığı onu bürüdükdə, o, ulduz görüb: “Bu, mənim Rəbbimdir!”, o *ulduz* batdıqda isə: “Mən batanları sevmirəm!”– deyir. Sonra doğan Ayı gördükdə: “Bu, mənim Rəbbimdir!”, o batdıqda isə: “Əgər Rəbbim məni doğru yola yönəltməsəydi, mən azmış adamlardan olardım”– deyir. Nəhayət, doğan Günəşi gördükdə: “Bu, mənim Rəbbimdir, bu daha böyükdür!”, o batdıqda isə deyir: “Ey qövmüm, həqiqətən, mən sizin *Allaha* şərik qoşduqlarınızdan uzağam! Həqiqətən, mən, hənif olaraq üzümü göyləri və yeri yaradana çevirdim. Mən müşriklərdən deyiləm”.**[3]

Diqqət edin! İbrahim peyğəmbər ﷺ bütpərəstlərə bütə ibadət etməyin batil olduğunu dərhal bildirdiyi halda, bu qövmə dərhal etiraz etmir – onlarla apardığı dəvət mərhələli olur. Əvvəlcə ulduzun çıxmasını, sonra Ayın, sonra da Günəşin doğmasını izləyir. Onlardan hər birinin batdığını

---

[1] “ən-Nəhl” surəsi, 125.

[2] “əl-Ənam” surəsi, 108.

[3] “əl-Ənam” surəsi, 76-79.

gördükdə, onların fani olduğunu və ibadətə layiq məbud olmadıqlarını, Allahın isə əbədi və kamil vəsflərə malik Xaliq və ibadətə layiq haqq məbud olduğunu bildirir.[1]

Ayələri oxuyan adam düşünə bilər ki, İbrahim peyğəmbər عليه السلام ulduzun, ayın və günəşin öz Rəbbi olduğunu deyir. Xeyr! Bu, mübahisə əsnasında qarşı tərəfin yanlış etiqadda olduğunu isbat etmək üçün hərfi mənası qəsd edilmədən istifadə edilən ifadədir.[2] İbrahim peyğəmbər عليه السلام əsla şirk etməyib: **"İbrahim əsla müşrik olmamışdır".**[3]**; "İbrahim və onunla birlikdə olanlarda sizin üçün gözəl bir nümunə var. Onlar öz qövmünə dedilər: "Həqiqətən, biz sizdən və sizin Allahdan başqa tapındığınız şeylərdən uzağıq. Biz sizi inkar edirik. Siz tək olan Allaha iman gətirincəyə qədər bizimlə sizin aranızda daim ədavət və nifrət olacaq!"**[4]**; "*İbrahim* dedi: "Siz aranızda ancaq dünya həyatına bəslədiyiniz vurğunluğa görə Allahı qoyub bütlərə pərəstiş edirsiniz. Sonra isə Qiyamət günü bir-birinizi inkar edib lənətləyəcəksiniz. Gedəcəyiniz yer də Oddur. Sizə yardım edə bilən kəslər də tapa bilməyəcəksiniz".**[5]

İbrahim peyğəmbər عليه السلام ömrü boyu insanları tövhidə dəvət etmiş və tövhid əhli ilə birlikdə cənnətlik olmaq üçün Allaha belə dua etmişdir: **"Ey Rəbbim, mənə hikmət ver və məni əməlisalehlərə qovuşdur! Sonra gələnlər arasında *həmişə yad edilim deyə,* mənə yaxşı ad qismət elə! Məni Nəim bağının varislərindən et!"**[6]

---

[1] "əl-Miləl vən-Nihəl", 1/55.
[2] "Təfsir əs-Sədi", 1/262.
[3] "əl-Ənam" surəsi, 161.
[4] "əl-Mumtəhənə" surəsi, 4.
[5] "əl-Ənkəbut" surəsi, 25.
[6] "əş-Şuəra" surəsi, 83-85.

# Lut aleyhissəlam

Lut peyğəmbər ﷺ İbrahim peyğəmbərin ﷺ qardaşı oğludur[1]. O, əmisi İbrahimə ﷺ iman gətirdikdən sonra[2] ona peyğəmbərlik verilir. Bu xüsusda Quranda belə buyurulur: **"Lutu da *yada sal!* Biz ona hökmranlıq və elm bəxş etdik".**[3];

**"Biz *Lutu* Öz mərhəmətimizə qovuşdurduq. O, həqiqətən, əməlisalehlərdən idi".**[4]

Qövmü onu İbrahim peyğəmbərlə ﷺ birlikdə Babildən qovduqda, onlar Şama hicrət edirlər. Sonra Lut ﷺ əmisinin izni ilə Sədum deyilən yerdə məskunlaşır[5]. Bu yerin əhalisi Allahdan qeyrisinə ibadət etməklə yanaşı, o zamana qədər heç bir insanın etmədiyi iyrənc bir əməli edirdi: **"Bir zaman o, öz qövmünə demişdi: "Siz özünüzdən əvvəl aləmlərdən heç kəsin etmədiyi iyrənc əməlimi edirsiniz?! Siz qadınları qoyub şəhvətlə kişilərə yaxınlaşırsınız. Həqiqətən, siz həddi aşmış bir qövmsünüz."**[6]**;**

**"Siz *şəhvətlə* kişilərə yaxınlaşır, yol kəsir və məclislərinizdə *bir-birinizlə* murdar işlər görürsünüz?!"**[7]

Lut peyğəmbər ﷺ Sədum əhlinə: **"Məgər qorxmursunuz? Həqiqətən, mən sizin üçün etibar ediləsi bir elçiyəm. Allahdan qorxun və mənə itaət edin! Mən bunun əvəzində sizdən heç bir mükafat istəmirəm – mənim mükafatım ancaq aləmlərin Rəbbinə aiddir"**[8]– deyərək onları tövhidə dəvət edir. Lakin onlar onun dəvətini qəbul etmir, əksinə, onu hədələyir, axırda da onu ailəsi ilə birlikdə o diyardan qovmaq qərarına gəlirlər: **"Onlar dedilər: "Ey Lut, əgər *dəvətinə* son qoymasan, mütləq qovulanlardan olacaqsan".**[9] **;**

**"*Lut qövmü dedi:* "Lutun ailəsini diyarınızdan çıxarın, çünki onlar təmiz qalmaq istəyən adamlardır!"**[10]

---

[1] Lut ibn Haran ibn Azər ﷺ. ("əl-Bidayə vən-Nihayə", 1/149).
[2] **"Lut ona iman gətirdi".** ("əl-Ənkəbut" surəsi, 26).
[3] "əl-Ənbiya" surəsi, 74.
[4] "əl-Ənbiya" surəsi, 75.
[5] "Mocəm əl-Buldən", 3/200.
[6] "əl-Əraf" surəsi, 80-81.
[7] "əl-Ənkəbut" surəsi, 29.
[8] "əş-Şuəra" surəsi, 161-164.
[9] "əş-Şuəra" surəsi, 167.
[10] "ən-Nəml" surəsi, 56.

Lut peyğəmbərə ﷺ ancaq öz ailəsi iman gətirir[1]. Yalnız həyat yoldaşından başqa – o, digər kafirlərlə birlikdə həlak olur: **"Biz *Lutu* və ailəsini xilas etdik. Yalnız həyat yoldaşından başqa – o, geridə qalanlardan** (əzaba düçar olanlardan) **oldu".**[2]

Lut peyğəmbər ﷺ qövmünün yaramaz əməllərə son qoymadığını gördükdə, onları Allahın əzabı ilə qorxutdu: **"Onlar isə: "Əgər doğru danışanlardansansa, bizə Allahın əzabını gətir!"– deyə cavab verdilər."**[3]

Onda Lut peyğəmbər ﷺ dedi: **"Mən sizin əməllərinizə nifrət edənlərdənəm. Ey Rəbbim, məni və ailəmi onların tutduqları işdən xilas et!"**[4]; **"Ey Rəbbim, fitnə-fəsad törədən qövmün əleyhinə mənə kömək et!"**[5]

Uca Allah onun duasını qəbul edib onu və ailəsini əzabdan xilas etdi, qalanlarını isə əzaba düçar etdi. Allahın onun köməyinə göndərdiyi mələklər dedilər: **"Ey Lut, biz sənin Rəbbinin elçiləriyik. Onlar əsla sənə zərər yetirə bilməzlər. Gecənin bir vaxtında ailənlə birlikdə çıx get. Qoy içinizdən heç kəs dönüb geri baxmasın. Yalnız həyat yoldaşın istisnadır – onları yaxalayacaq əzab, onu da yaxalayacaqdır. Onların *həlak olmaq* vaxtı səhərdir. Məgər, səhər yaxın deyilmi?!" Əmrimiz gəldikdə oranın altını üstünə çevirdik və odda bişmiş gil daşları ardıcıl olaraq onların üstünə yağdırdıq".**[6];

**"Biz onu və onun bütün ailəsini xilas etdik. Geridə qalanlar arasındakı yaşlı qadından başqa. Sonra da o biriləri yerlə yeksan etdik. Biz onların üstünə *daşlardan* yağış yağdırdıq. Qorxudulanların yağışı nə yaman imiş! Şübhəsiz ki, bunda bir ibrət var. Lakin onların əksəriyyəti iman gətirmədi".**[7]

---

[1] Lut ﷺ qövmünün altını üstünə çevirmək üçün göndərilmiş mələklər: **"Biz orada bir evdən başqa müsəlman tapmadıq"–** deyirlər. ("əz-Zariyat" surəsi, 36).

[2] "əl-Əraf" surəsi, 83.

[3] "əl-Ənkəbut" surəsi, 29.

[4] "əş-Şuəra" surəsi, 168-169.

[5] "əl-Ənkəbut" surəsi, 30.

[6] "Hud" surəsi, 81-82.

[7] "əş-Şuəra" surəsi, 170-174.

# Şueyb aleyhissəlam

Şueyb peyğəmbər ﷺ Lut peyğəmbərdən ﷺ sonra Mədyən qövmünə və Əykə əhlinə peyğəmbər göndərilmişdir.

Mədyən qövmü Şam ilə Hicaz arasında yerləşən Məan deyilən yerdə məskunlaşmışdı. Allah onlara olduqca çox nemətlər bəxş etmiş, lakin buna baxmayaraq onlar Allaha şərik qoşur, üstəlik, insanları ölçüdə və çəkidə aldadırdılar. Yəni, həm Allahın haqqını, həm də insanların haqlarını tapdalayırdılar. Allah da onlara Şueybi ﷺ peyğəmbər göndərdi və o, öz qövmünə dedi: **"Ey qövmüm, Allaha ibadət edin! Sizin Ondan başqa *ibadətə layiq olan* məbudunuz yoxdur. Ölçünü və çəkini əskiltməyin. Mən sizi bolluq içində görürəm. Bununla belə, sizi *hər tərəfdən* bürüyəcək bir günün əzabından qorxuram. Ey qövmüm, ölçüyə və çəkiyə ədalətlə tam riayət edin, insanların mallarını əksik verməyin və yer üzündə fəsad yaymaqla pis işlər görməyin!"[1];**

**"Hər yolun başında oturub Allaha iman gətirənləri hədələyib Onun yolundan sapdırmayın və onu əyri göstərməyə çalışmayın. Xatırlayın ki, siz az idiniz, O, sizi çoxaltdı. Bir görün fəsad törədənlərin aqibəti necə oldu. Əgər aranızdan olan bir dəstəniz mənimlə göndərilənə inanmış, bir dəstəniz isə inanmamışsa, Allah aramızda hökm verənədək səbir edin. O, hökm verənlərin ən yaxşısıdır".[2]**

* Ayələrə diqqət etsək, görərik ki, mədyənlilər Allaha şərik qoşmaq kimi ən böyük günahı etməklə yanaşı, ölçüdə və çəkidə insanları aldadır, onların mallarını əksik verir, habelə, insanlara haqq yolu əyri göstərməklə onları düz yoldan sapdıraraq yer üzündə fəsad törədirdilər. Bu isə sonda onların dünya həyatında əzaba düçar olmalarına səbəb oldu. Axirət əzabı isə daha şiddətlidir.

Şueyb peyğəmbər ﷺ Əykə əhlinə də xəbərdarlıq edərək demişdir: **"Məgər, qorxmursunuz? Şübhəsiz ki, mən sizin üçün etibar ediləsi bir elçiyəm. Allahdan qorxun və mənə itaət edin! Mən bunun əvəzinə sizdən**

[1] "Hud" surəsi, 84-86.
[2] "əl-Əraf" surəsi, 86-87.

**heç bir mükafat istəmirəm. Mənim mükafatım ancaq aləmlərin Rəbbinə aiddir. Ölçüyə tam riayət edin və əksik ölçənlərdən olmayın. Düz tərəzi ilə çəkin. İnsanların əşyalarını əksik verməyin və yer üzündə fəsad yayaraq pis işlər görməyin. Sizi və əvvəlki nəsilləri Yaradandan qorxun!"**[1]

* Qətadə və bir çox digər təfsirçilərin rəyinə görə Mədyən və Əykə əhli fərqli qövmlərdir. Dəlilləri də budur ki, Mədyən qövmü qorxulu səslə, Əykə əhli isə kölgəli günün əzabı ilə məhv edilmişdir.

Mədyən və Əykə əhli Şueyb peyğəmbəri عليه السلام yalançı saydılar və onun dəvətinin qarşısını almaq üçün:

– gah ona böhtan ataraq: **"Sən yalnız sehrlənmişlərdənsən. Sən də bizim kimi ancaq bir insansan. Biz səni yalançılardan *biri* hesab edirik"**– dedilər[2];

**–** gah ona istehza edərək: **"Ey Şueyb, atalarımızın ibadət etdikləri *məbudlardan*, yaxud mallarımızı istədiyimiz kimi istifadə etməkdən vaz keçməyimizi sənə namazınmı əmr edir?! Doğrudan da, sən yumşaq xasiyyətlisən, ağıllısan"**– dedilər[3];

– gah da onu hədələyərək: **"Ey Şueyb, dediklərinin çoxunu anlamırıq. Biz səni aramızda zəif hesab edirik. Əgər qəbilən olmasaydı, səni daşqalaq edərdik. Sən bizim üçün heç də böyük bir adam deyilsən".**[4]

Bu ayələrdən kafirlərin nə dərəcədə inadkar və təkəbbürlü olduqları açıq-aydın görünür.

Şueyb peyğəmbər عليه السلام isə onların bu tərbiyəsizliyinə və sərt təpkilərinə rəğmən, peyğəmbərə yaraşan əxlaqı ilə belə cavab verir:

**"Allah bizi sizin dininizdən xilas etdikdən sonra biz yenə də *sizin dininizə* qayıtsaq, Allaha qarşı yalan uydurmuş olarıq. Rəbbimiz olan Allah istəməyincə, biz əsla sizin dininizə dönmərik. Rəbbimizin elmi hər şeyi əhatə etmişdir. Biz Allaha təvəkkül etmişik. Ey Rəbbimiz,**

---

[1] "əş-Şuəra" surəsi, 177-184.
[2] "əş-Şuəra" surəsi, 185.
[3] "Hud" surəsi, 87.
[4] "Hud" surəsi, 91.

**bizimlə qövmümüz arasında ədalətlə hökm ver! Sən hökm verənlərin ən yaxşısısan".**[1]**;**

**"Ey qövmüm! Bir deyin görək, əgər mən Rəbbimdən açıq-aydın bir dəlilə istinad edirəmsə, O da, Öz tərəfindən mənə gözəl bir ruzi veribsə,** ***mən ona qarşı asilik edərəmmi*****?! Sizə qadağan buyurduğum şeyləri etməklə sizin əleyhinizə çıxmaq istəmirəm. Mən yalnız bacardığım qədər** ***sizi*** **islah etmək istəyirəm. Mənim bu işdə müvəffəqiyyətim yalnız Allahın köməyi ilədir. Mən yalnız Ona təvəkkül edir və yalnız Ona üz tuturam. Ey qövmüm! Qoy, mənimlə olan ixtilafınız, Nuh qövmünün, yaxud Hud qövmünün, yaxud Saleh qövmünün başına gələnlərin eynisini sizin də başınıza gətirməsin. Lut qövmü də sizdən uzaq deyildir. Rəbbinizdən bağışlanma diləyin və Ona tövbə edin! Həqiqətən, Rəbbim Rəhmlidir, Sevəndir,** ***həm də Seviləndir*****".**[2]

> * Diqqət edin! Şueyb peyğəmbər عليه السلام yalnız Allaha ibadət və təvəkkül edəcəyini, hidayətin və müvəffəqiyyətin yalnız Allahın ixtiyarında olduğunu xüsusilə qeyd edir, sonra da onları yalnız Allahdan bağışlanma diləməyə və Ona tövbə etməyə dəvət edir. Bu da, tövhidə dəvət edən dəvətçinin üslublarındandır.

Müşriklər onu yalançı saydılar və dedilər: **"Ey Şueyb! Ya biz mütləq səni də, səninlə birlikdə iman gətirənləri də yurdumuzdan çıxaracaq, ya da siz bizim dinimizə dönəcəksiniz".**[3]**;**

**"Əgər doğru danışanlardansansa, göyün bir parçasını üstümüzə endir".**[4]

O da onlara belə cavab verdi: **"Ey qövmüm, əlinizdən gələni edin, mən də edəcəyəm! Rüsvayedici əzabın kimə gələcəyini və kimin yalançı olduğunu tezliklə biləcəksiniz.** *Əzabı* **gözləyin! Doğrusu, mən də sizinlə birlikdə gözləyirəm".**[5]

---

[1] "əl-Əraf" surəsi, 89.
[2] "Hud" surəsi, 88-90.
[3] "əl-Əraf" surəsi, 88.
[4] "əş-Şuəra" surəsi, 187.
[5] "Hud" surəsi, 93.

Nəhayət: **“Əmrimiz gəldikdə Şueybi və onunla birlikdə iman gətirənləri Öz mərhəmətimizlə xilas etdik. Zülm edənləri isə qorxunc səs yaxaladı və onlar öz evlərində üzüqoylu düşüb qaldılar. Sanki orada heç yaşamamışdılar. Səmud qövmü məhv olduğu kimi, Mədyən qövmü də məhv oldu!”**[1];

**“Onlar onu yalançı saydılar və buna görə də kölgəli günün əzabı onları yaxaladı. Həqiqətən, o, böyük bir günün əzabı idi. Şübhəsiz ki, bunda bir ibrət var, lakin onların əksəriyyəti iman gətirmədi”.**[2]

---

[1] “Hud” surəsi, 94-95.
[2] “əş-Şuəra” surəsi, 189-190.

# İsmail və İshaq aleyhiməssəlam

Bu iki möhtərəm peyğəmbər də əvvəlki peyğəmbərlər عليهم السلام kimi insanları Tək Allaha ibadət etməyə və heç kəsi, heç nəyi Ona şərik qoşmamağa dəvət etmişlər. Bu iki peyğəmbərə və onların nəslindən gələn peyğəmbərlərə عليهم السلام məhz ataları İbrahim peyğəmbərin عليه السلام duası sayəsində tövhid əhlindən olmaq nəsib olmuşdur. Bir zaman o, Rəbbinə belə dua etmişdir: **"Ey Rəbbim, bu diyarı əmin-amanlıq *yurdu* et, məni və oğullarımı bütlərə tapınmaqdan uzaq et!"**[1]

Həmçinin, oğlu İsmail عليه السلام ilə birlikdə Kəbəni bina edərkən belə dua etmişdir: **"Ey Rəbbimiz, ikimizi də Sənə təslim olan, nəslimizdən də Sənə təslim olacaq bir ümmət et! Bizə ibadət qaydalarını göstər və tövbəmizi qəbul et! Həqiqətən, Sən tövbələri qəbul edənsən, Rəhmlisən! Ey Rəbbimiz, onların arasından özlərinə elə bir rəsul göndər ki, Sənin ayələrini onlara oxusun, Kitabı və hikməti onlara öyrətsin və onları *günahlardan* təmizləsin! Həqiqətən, Sən Qüdrətlisən, Hikmət sahibisən!"**[2]

Uca Allah İbrahim peyğəmbərin عليه السلام duasını qəbul edib ona əməlisaleh övladlar bəxş etdi: **"Biz ona İshaqı və Yaqubu bəxş etdik. Hər ikisini doğru yola yönəltdik..."**[3]**;**

**"Kitabda İsmaili də xatırla! Həqiqətən, o, öz vədinə sadiq idi. O, rəsul və peyğəmbər idi. O, öz ailəsinə namaz qılmağı, zəkat verməyi əmr edirdi. O, Rəbbinin rizasını qazanmışdı".**[4]**;**

**"Onun nəslindən olan Davudu, Süleymanı, Əyyubu, Yusufu, Musanı və Harunu da *doğru yola yönəltdik*. Biz yaxşı əməl sahiblərini belə mükafatlandırırıq. Zəkəriyyanı, Yəhyanı, İsanı və İlyası da. Hamısı əməlisalehlərdən idilər. İsmaili, Əlyəsəni, Yunusu və Lutu da. Hamısını aləmlərdən üstün etdik. Onların atalarından, nəsillərindən və qardaşlarından bəzilərini də. Onları seçdik və düz yola yönəltdik. Bu, Allahın hidayətidir. Bununla O Öz qullarından istədiyi şəxsi doğru yola yönəldir.**

---

[1] "İbrahim" surəsi, 35-36.
[2] "əl-Bəqərə" surəsi, 128-129.
[3] "əl-Ənam" surəsi, 84.
[4] "Məryəm" surəsi, 54-55.

**Əgər *Ona* şərik qoşsaydılar, əlbəttə, etdikləri əməllər puç olardı. Bunlar, Kitab, hikmət və peyğəmbərlik verdiyimiz kəslərdir".**[1]

Bu ayələrdən aydın başa düşülür ki, Uca Allah İbrahim peyğəmbərin عليه السلام nəslindən neçə-neçə peyğəmbərlər seçmiş, onlara kitab və hikmət bəxş etmişdir.[2]

İsmail عليه السلام və İshaq عليه السلام ata bir, ana ayrı qardaş olmuşlar – İsmailin عليه السلام anası Həcər عليها السلام, İshaqın عليه السلام anası da Sara عليها السلام idi. İsmail عليه السلام İshaqdan عليه السلام əvvəl dünyaya gəlmişdir. İsmail عليه السلام dünyaya gəldikdən az müddət sonra İbrahim peyğəmbər عليه السلام onu anası ilə birlikdə aparıb Kəbə olan yerin yaxınlığına sakin etmişdir.

Rəvayət edilir ki,[3] İbrahim peyğəmbər عليه السلام həyat yoldaşı Həcəri عليها السلام südəmər oğlu İsmail عليه السلام ilə birlikdə Kəbənin olduğu yerə yaxın, tikilinin yuxarı tərəfində bitmiş yekə bir ağacın yanına gətirdi. O dövrdə Məkkədə nə bir adam, nə də su var idi. İbrahim onları orada yerləşdirib, yanlarında da bir az xurma və su qoyub getdikdə, Həcər عليها السلام onun arxasınca təkrar-təkrar: "Ey İbrahim, sən bizi heç bir canlının olmadığı bu çöllükdə təkbaşına qoyub gedirsən?!"– desə də, İbrahim عليه السلام ona tərəf dönüb baxmadı. Axırda Həcər عليها السلام: "Yoxsa, bunu sənə Allah əmr edib?"– deyə soruşduqda, İbrahim عليه السلام: "Bəli!"– deyə cavab verdi. Həcər عليها السلام: "Elə isə Allah bizi nəzarətsiz qoymaz"– deyib geri qayıtdı. İbrahim عليه السلام isə yoluna davam etdi və onlardan tamamilə uzaqlaşaraq dağ keçidinə çatdıqda, üzünü Kəbəyə tərəf çevirdi və əllərini göyə qaldırıb belə dua etdi: **"Ey Rəbbimiz! Mən nəslimdən bəzisini Sənin mühafizə olunan Evinin** (Kəbənin) **yaxınlığında, heç bir bitki olmayan bir vadidə sakin etdim. Ey Rəbbimiz! Onlar namaz qılsınlar deyə *belə etdim*. İnsanların bir qisminin qəlbini onlara meyilli et və onlara *növbənöv* məhsullardan ruzi ver ki, şükür etsinlər".**[4]

Beləliklə, Həcər عليها السلام və İsmail عليه السلام orada məskunlaşdı. Onların içdikləri su tükəndikdə, Allahın əmrilə Kəbənin yaxınlığından Zəm-zəm bulağı qaynadı. Tezliklə, Curhum qəbiləsindən olan bir dəstə adam orada su olduğundan xəbər tutdu və Həcərdən عليها السلام izin istəyərək orada məskunlaşdı.

---

[1] "əl-Ənam" surəsi, 84-89.

[2] "Təfsir əs-Sədi", 1/263.

[3] "Səhih əl-Buxari", 3364.

[4] "İbrahim" surəsi, 37.

Onlar da öz növbəsində xəbər göndərib yaxınlarını öz yanlarına çağırdılar və hamısı orada məskən saldı. Beləliklə, Məkkədə ərəb qəbilələrinin sayı artmağa başladı. Uca Allah İsmaili عليه السلام peyğəmbər seçdikdən sonra isə, o, bu insanları tövhidə dəvət etməyə başladı.

Qeyd edək ki, İbrahim peyğəmbər عليه السلام oğlu İsmail عليه السلام ilə birgə Kəbəni bina edərkən: **"Ey Rəbbimiz, onların arasından özlərinə elə bir rəsul göndər ki, Sənin ayələrini onlara oxusun, Kitabı və hikməti onlara öyrətsin və onları *günahlardan* təmizləsin!"**[1]– deyə dua etmiş, Uca Allah da onların duasını qəbul edib, məhz İsmailin عليه السلام nəslindən sonuncu peyğəmbəri ﷺ seçmişdir. Bu xüsusda Peyğəmbər ﷺ belə demişdir: "Allah İsmailin nəslindən kinanəliləri, kinanəlilərdən qureyşliləri, qureyşlilərdən haşimiləri, haşimilərdən də məni seçmişdir".[2]

İshaq peyğəmbərə عليه السلام gəlincə, o, Şamda – Beytulməqdisə[3] yaxın yerdə dünyaya gəlmişdir. Belə ki, atası İbrahim peyğəmbər عليه السلام öz əmisi qızı Sara عليها السلام ilə evləndikdən sonra, müşrik qövmünü tərk edib Şama hicrət etmiş və orada kənanlılarla bir yerdə yaşamışdır.

Uzun illər İbrahim peyğəmbərin عليه السلام Saradan عليها السلام övladı olmurmuş. Nəhayət, hər ikisi ixtiyar yaşına çatdıqda, Allahın mələkləri onu əvvəlcə İshaqla عليه السلام, İshaqın ardınca da Yəqubla عليه السلام müjdələdikdə Sara عليها السلام dedi: **"Mən qoca bir qadın, ərim də ixtiyar bir kişi olduğu halda necə dünyaya uşaq gətirə bilərəm?! Doğrusu, bu, təəccüblü bir şeydir".** ***Mələklər*** **dedilər: "Allahın əmrinə təəccübmü edirsən?! Ey ev əhli, Allahın rəhməti və bərəkəti sizin üstünüzdə olsun! Həqiqətən, O, Tərifəlayiqdir, Şan-şöhrətlidir".**[4];

**"Həqiqətən, *İbrahim* Bizim mömin qullarımızdandır. Ona əməlisalehlərdən olacaq bir peyğəmbər – İshaq ilə müjdə verdik. Biz ona və İshaqa bərəkət verdik".**[5]**;**

**"İbrahim müşrikləri və müşriklərin Allahdan başqa yalvardıqlarını tərk etdikdən sonra Biz ona İshaqı, sonra da Yəqubu bəxş etdik. Biz**

---

[1] "əl-Bəqərə" surəsi, 128-129.

[2] "Səhih Muslim", 15/36.

[3] Beytulməqdis – indiki Qüds şəhəri.

[4] "Hud" surəsi, 72-73.

[5] "əs-Saffat" surəsi, 111-113.

**onların hər ikisini peyğəmbər etdik. Onlara öz mərhəmətimizdən əta etdik və *gələcək nəsillər bu peyğəmbərləri həmişə yada salsınlar deyə,* onlara gözəl adlar qismət elədik".[1];**

**"Biz ona İshaqı və Yəqubu bəxş edib, hamısını əməlisaleh insanlar etdik. Biz Öz hökmümüzlə onları doğru yolu göstərən rəhbərlər etdik. Onlara xeyirli işlər görməyi, namaz qılmağı və zəkat verməyi vəhy etdik. Onlar yalnız Bizə ibadət edirdilər".[2]**

Bu ayələr bir daha onu göstərir ki, bu peyğəmbərlər insanları Tək Allaha ibadət etməyə və heç kimi, heç nəyi Ona şərik qoşmamağa dəvət edən tövhid əhli olmuşlar.

Şərəfə bir baxın! Ata, oğul, nəvə və nəticəyə – hamısına peyğəmbərlik bəxş edilmişdir. Peyğəmbərimiz Muhəmməd ﷺ onları belə tərif etmişdir: "İbrahimin oğlu İshaq, onun oğlu Yəqub, onun da oğlu Yusuf möhtərəm peyğəmbərdir. *Özü də* möhtərəm *peyğəmbərin* oğludur, *atası da* möhtərəm *peyğəmbərin* oğludur, *babası da* möhtərəm *peyğəmbərin* oğludur".[3]

---

[1] "Məryəm" surəsi, 49-50

[2] "əl-Ənbiya" surəsi, 72-73.

[3] "Səhih əl-Buxari", 3382.

# Yəqub aleyhissəlam

Bu möhtərəm peyğəmbər عليه السلام dünyaya gəlməmişdən öncə Uca Allah onun babası İbrahimə عليه السلام müjdə verərək Yəqub عليه السلام adlı nəvəsi olacağını ona bildirmişdir, – yəni bu adı ona Allah vermişdir[1]: **“Biz onu İshaqla, *İshaqın* ardınca da Yəqubla müjdələdik”.**[2]

Yəqub peyğəmbərin عليه السلام digər adı, yaxud ləqəbi də İsraildir: **“Onlar Allahın nemət bəxş etdiyi peyğəmbərlərdən, Adəmin və Nuhla birlikdə *gəmidə* daşıdığımız kimsələrin nəslindən, İbrahimin və İsrailin nəslindən seçib haqq yola yönəltdiyimiz kimsələrdəndir. Onlar özlərinə Mərhəmətli *Allahın* ayələri oxunduğu zaman səcdəyə qapanıb ağlayanlardır.”**[3]

* İsrail, ibranicədən tərcümədə “Allahın qulu” deməkdir[4]. Quranda yəhudilərə daha çox **“Ey İsrail oğulları!”** kimi müraciət edilir.

Yəqub peyğəmbər عليه السلام də babası İbrahim عليه السلام, atası İshaq عليه السلام və əmisi İsmail عليه السلام kimi müsəlman olmuş, insanları Tək Allaha ibadət etməyə və heç kimi, heç nəyi Ona şərik qoşmamağa dəvət etmişdir. Bu xüsusda Quranda belə xəbər verilir: **“Bir zaman Rəbbi *İbrahimə*: “Müsəlman ol!”– dedikdə, o: “Aləmlərin Rəbbinə təslim oldum!”– demişdi. İbrahim də, Yəqub da, bunu övladlarına vəsiyyət etdilər: “Ey övladlarım, həqiqətən, Allah bu dini sizin üçün seçmişdir. Siz də ancaq müsəlman olaraq ölün!”**[5]**;**

---

[1] Uca Allah Yəqub peyğəmbərdən عليه السلام başqa daha dörd peyğəmbərə də ad vermişdir:

– İshaq عليه السلام: **“Biz *İbrahimə* əməlisalehlərdən olacaq bir peyğəmbər – İshaq ilə müjdə verdik”.** (“əs-Saffat” surəsi, 112);

– Yəhya عليه السلام: ***“Zəkəriyyaya belə vəhy olundu:*** **“Ey Zəkəriyya! Səni Yəhya adlı bir oğulla müjdələyirik. Biz bu adı *ondan* öncə kimsəyə qoymamışıq”.** (“Məryəm” surəsi, 7);

– İsa عليه السلام: **“Ey Məryəm, həqiqətən, Allah Öz tərəfindən bir kəlmə ilə səni müjdələyir. Onun adı Məryəm oğlu İsa Məsihdir”.** (“Ali-İmran” surəsi, 45);

– Muhəmməd ﷺ: **“Bir zaman Məryəm oğlu İsa demişdi: “Ey İsrail oğulları, həqiqətən, mən Allahın sizə göndərdiyi, məndən əvvəl *nazil olmuş* Tövratı təsdiqləyən, məndən sonra gələcək Əhməd adlı peyğəmbərlə *sizi* müjdələyən bir elçisiyəm”.** (“əs-Saff” surəsi, 6).

[2] “Hud” surəsi, 71.

[3] “Məryəm” surəsi, 58.

[4] Şövkani, “Fəth əl-Qədir”, 1/84.

[5] “əl-Bəqərə” surəsi, 131-132.

**“İbrahim müşrikləri və müşriklərin Allahdan başqa yalvardıqlarını tərk etdikdən sonra Biz ona İshaqı, sonra da Yəqubu bəxş etdik. Biz onların hər ikisini peyğəmbər etdik. Onlara öz mərhəmətimizdən əta etdik və** *gələcək nəsillər bu peyğəmbərləri həmişə yada salsınlar deyə,* **onlara gözəl adlar qismət elədik”.**[1]**;**

**“Biz ona İshaqı və Yəqubu bəxş edib hamısını əməlisaleh insanlar etdik. Biz Öz hökmümüzlə onları doğru yolu göstərən rəhbərlər etdik. Onlara xeyirli işlər görməyi, namaz qılmağı və zəkat verməyi vəhy etdik. Onlar yalnız Bizə ibadət edirdilər”.**[2]

Bu möhtərəm peyğəmbər عليه السلام Hərranda yaşayan dayısının iki qızı ilə və bir də iki cariyə ilə evlənmiş, dörd qadından on iki övladı olmuşdur.[3] Yəqub عليه السلام ömrünün çox hissəsini Kənanda yaşamış, daha sonra oğlu Yusufun عليه السلام təklifi ilə ailəlikcə Misirə köçmüşlər.[4]

Yəqub عليه السلام ömrünün sonunadək insanları tövhidə dəvət etmiş, hətta ölüm yatağında ikən belə öz övladlarına bu vəsiyyəti etmişdir: **“Yoxsa siz Yəquba ölüm gəldiyi zaman** *onun* **yanında idiniz? O zaman o, öz övladlarına demişdi: “Məndən sonra nəyə ibadət edəcəksiniz?” Onlar dedilər: “Sənin İlahına, ataların İbrahimin, İsmailin və İshaqın İlahı olan Tək İlaha ibadət edəcəyik. Biz yalnız Ona təslim olanlarıq!”**[5]

---

[1] “Məryəm” surəsi, 49-50

[2] “əl-Ənbiya” surəsi, 72-73.

[3] “əl-Bidayə vən-Nihayə”, 1/194-195.

[4] Bax: **“*Yusuf* dedi: “Bu gün siz qınanılmayacaqsınız. Allah sizi bağışlasın! O, rəhm edənlərin ən rəhmlisidir. Bu köynəyimi aparıb atamın üzünə atın, gözləri açılsın.** *Sonra da* **bütün ailənizlə birlikdə yanıma gəlin”.** (“Yusuf” surəsi, 92-93);

**“Onlar Yusufun hüzuruna daxil olduqda, o, ata-anasını bağrına basıb dedi: “Allahın istəyi ilə, əmin-amanlıq içində Misirə daxil olun!”** (“Yusuf” surəsi, 94).

[5] “əl-Bəqərə”surəsi, 133.

# Yusuf aleyhissəlam

Yusuf peyğəmbər ﷺ Allahın İsrail oğullarına göndərdiyi möhtərəm elçilərindən biridir. Peyğəmbərimiz ﷺ onu belə tərif etmişdir: "Yusuf möhtərəm peyğəmbərdir, möhtərəm *peyğəmbər* Yəqubun oğludur, *atası da* möhtərəm *peyğəmbər* İshaqın oğludur, *babası da* möhtərəm *peyğəmbər* İbrahimin oğludur".[1]

Bu peyğəmbərin ﷺ əhvalatı Quranda bir neçə surədə zikr edilir, hətta adına ayrıca surə də var. Həmin surədə əvvəldən axıradək ondan bəhs edilir, Uca Allah da bunu ən gözəl hekayə adlandırır: **"**[Ey Peyğəmbər!] **Biz bu Quranı sənə vəhy etməklə, sənə ən gözəl hekayəni danışırıq. Halbuki, sən bundan əvvəl *ondan* xəbərdar deyildin".**[2]

"Yusuf" surəsini oxuduqda, biz bu möhtərəm peyğəmbərə ﷺ uşaq ikən yuxuda müjdə verildiyinin şahidi oluruq. Onun gördüyü yuxunu atası Yəqub ﷺ belə yozur: **"Rəbbin səni seçəcək, sənə yuxuları yozmağı öyrədəcək və Öz nemətini bundan əvvəl ataların İbrahimə və İshaqa tamamladığı kimi, sənə və Yəqub nəslinə də tamamlayacaqdır".**[3]

Şübhəsiz ki, bu, peyğəmbərlik müjdəsidir. Bundan sonra Yəqubun ﷺ Yusufa ﷺ olan sevgisi bir az da artır. Bu isti münasibəti həzm etməyən Yusufun ﷺ qardaşları[4], həsədlərindən dolayı onu öldürmək qərarına gəlsələr də, sonradan onu səhradakı bir quyuya atırlar. Bir qədər sonra oradan keçən karvan əhli onu quyudan çxarıb Misirə aparır və orada zadəgan bir ailəyə kölə kimi satırlar.

Yetkinlik yaşına çatdıqda, Allah ona mühakimə yürütmək bacarığı və peyğəmbərlik bəxş edir[5]. Bundan savayı ona elə bir zahiri gözəllik verir ki, onu görən zadəgan qadınlar heyrətlə: **"Bu ki, bəşər deyil, bu ancaq hörmətə layiq bir mələkdir!"**[6]– deyirlər.

---

1 "Səhih əl-Buxari", 3382.
2 "Yusuf" surəsi, 3.
3 "Yusuf" surəsi, 6.
4 Yalnız anabir qardaşı Binyamindən başqa.
5 "Yusuf" surəsi, 22.
6 "Yusuf" surəsi, 31.

* Peyğəmbərimiz ﷺ meracda ikən üçüncü səmada onu görmüş, sonra da səhabələrinə: "Yusufu gördüm. Ona gözəlliyin yarısı bəxş edilmişdir"[1]– deyərək onu tərifləmişdir.

Bu əsrarəngiz gözəlliyinə görə zadəgan qadınlar ona meyl edir və o, bu qadınların istəyini rədd etdiyinə görə zindana atılır. Hətta öz iffətini qorumaq üçün: **"Ey Rəbbim, mənim üçün zindan bunların məni sövq etdikləri işi görməkdən daha xoşdur. Əgər bu qadınların hiyləsini məndən uzaq etməsən, mən onlara meyl edər və cahillərdən olaram"**[2]– deyə Allaha dua edir, Allah da onu qoruyur.

Yusuf عليه السلام zindana atıldıqdan sonra oradakıları tövhidə dəvət etməyə başlayır. Həmin dövrdə misirlilər də Yusufun عليه السلام qövmü kənanlılar kimi Allaha şərik qoşurdular. Elə buna görə də Yusuf عليه السلام onlara deyir: **"Mən Allaha iman gətirməyən, özləri də axirəti inkar edən qövmün dinindən uzaqlaşıb, atalarım İbrahim, İshaq və Yəqubun dininə tabe oldum. Hər hansı bir şeyi Allaha şərik qoşmaq bizə yaraşmaz. Bu, Allahın bizə və *bütün* insanlara olan lütfüdür, lakin insanların çoxu şükür etmir. Ey zindan yoldaşlarım, ayrı-ayrı ilahlar yaxşıdır, yoxsa Tək olan, *hər şeyə* qalib gələn Allah? Ondan başqa ibadət etdikləriniz sizin və atalarınızın uydurduğu adlardan başqa bir şey deyildir. Allah onlara dair heç bir dəlil nazil etməmişdir. Hökm yalnız Allahındır. *Allah* sizə yalnız Ona ibadət etmənizi əmr etmişdir. Doğru din budur, lakin insanların çoxu *bunu* bilmir".**[3]

Yusuf peyğəmbərin عليه السلام söylədiklərini eşidənlər başa düşürlər ki, o, cahillərin batil dininə deyil, babaları İbrahimin عليه السلام və İshaqın عليه السلام, atası Yəqubun عليه السلام dininə tabedir. Onların hər biri Allahın göndərdiyi rəsul olmuş və qövmünü tövhidə dəvət etmişdir. Ağıllı adam hər şeyə qadir olan Allahı qoyub daşa, ağaca və sairəyə ibadət etməz. Yusuf عليه السلام onlara Allahın hər şeyə qalib gələn tək İlah, Ondan savayı ilahların isə aciz məxluqat olduğunu bildirir.[4]

* Burada incə bir məsələyə toxunmaq yerinə düşər. Belə ki, bu surənin 52-ci və 53-cü ayələrində zadəgan qadının: **"Allah xainlərin hiyləsinin**

---

[1] "Səhih Muslim", 162.
[2] "Yusuf" surəsi, 33.
[3] "Yusuf" surəsi, 37-40.
[4] "Təfsir İbn Kəsir", 2/479.

**baş tutmasına yol verməz. Mən özümü təmizə çıxartmıram. Rəbbimin rəhm etdiyi kəs istisna olmaqla, nəfs *insana* pis işlər görməyi əmr edər. Həqiqətən, Rəbbim bağışlayandır, rəhmlidir"** deməsindən başa düşülür ki, misirlilər də Allahı tanıyır, Onun qüdrətli və mərhəmətli olduğuna, yəni Allahın rübubiyyətinə etiqad edirdilər. Onlar uluhiyyə tövhidində, yəni ibadətlərin yalnız Allaha yönəldilməsində Ona şərik qoşduqlarına görə Yusuf عليه السلام onları tövhidə dəvət edir.

Yusuf عليه السلام zindan yoldaşlarından ikisinin gördüyü yuxunu yozaraq onlardan birinin yenidən hökmdarı üçün şərab süzəcəyini, digərinin isə çarmıxa çəkilərək öldürüləcəyini xəbər verir. Bir müddət sonra Misirin hökmdarı qarmaqarışıq yuxu görür və şərab süzən adam ona Yusufun عليه السلام yuxu yoza bildiyini xəbər verir. Yusuf عليه السلام onun da yuxusunu yozduqdan sonra hökmdar onu Misirin xəzinədarı təyin edir. Beləliklə, o, misirlilərə tövhidi daha rahat şəkildə yaymağa başlayır.

Vəd edilən qıtlıq və quraqlıq illərində Yusufun عليه السلام qardaşları buğda almaq üçün Misirə gəlir və orada onunla rastlaşırlar. Yusuf عليه السلام qardaşlarının etdikləri əməli onlara bağışlayır və: **"Bu gün siz qınanılmayacaqsınız. Allah sizi bağışlasın! O, rəhm edənlərin ən rəhmlisidir"**[1] – deyir.

Daha sonra onlar geri qayıdıb ata-anasını da onun yanına gətirirlər: **"Onlar Yusufun hüzuruna daxil olduqda, o, ata-anasını bağrına basıb deyir: "Allahın istəyi ilə, əmin-amanlıq içində Misirə daxil olun!"**[2]

Beləcə, onların hamısı Misirdə məskunlaşırlar.

Sonda Yusuf peyğəmbər عليه السلام Allaha belə dua edir: **"Ey Rəbbim, Sən mənə hakimiyyət verdin və mənə yuxuları yozmağı öyrətdin. Ey göyləri və yeri yaradan, Sən dünyada da, axirətdə də mənim Himayədarımsan. Mənim canımı müsəlman olduğum halda al və məni əməlisalehlərə qovuşdur!"**[3]

---

[1] "Yusuf" surəsi, 92.
[2] "Yusuf" surəsi, 99.
[3] "Yusuf" surəsi, 101.

## Yunus aleyhissəlam

Yunus ibn Mətta ﷺ da Allahın seçdiyi peyğəmbərlərdəndir. Bu haqda Quranda belə xəbər verilir: **"Yunus da, həqiqətən, elçilərdəndir".**[1];

**"Rəbbi onu seçib əməlisalehlərdən etdi".**[2]**;**

**"Biz İbrahimə, İsmailə, İshaqa, Yəquba və onun nəslinə, İsaya, Əyyuba, Yunusa, Haruna və Süleymana da vəhy etdik".**[3]**;**

**"İsmaili, Əlyəsəni, Yunusu və Lutu da doğru yola yönəltdik".**[4]

Bu möhtərəm peyğəmbərin də əhvalatı Quranda bir neçə surədə zikr edilir. Quranda onun adına hətta ayrıca surə də mövcuddur. Həmin surələrdə Yunus peyğəmbərin ﷺ qövmünü tövhidə dəvət etdiyi xəbər verilir.

O, uzun müddət qövmünü tək Allaha ibadət etməyə çağırır, ancaq onların inadkarlıq göstərib tövhidi qəbul etmədiklərini gördükdə, qəzəbli halda onları tərk edib gedir.[5] Nəhayət, gəmiyə minib dənizə çıxır və dənizdə böyük bir balıq onu udur.[6] Balığın qarnında ikən Allaha yalvarıb deyir: **"Səndən başqa *ibadətə layiq olan* heç bir məbud yoxdur! Sən paksan, müqəddəssən! Mən isə, həqiqətən, zalımlardan olmuşam".**[7]

Allah onun duasını qəbul edib onu sıxıntıdan qurtarır və onu yüz mindən çox sayda insana peyğəmbər göndərir: **"Biz onun duasını qəbul etdik və onu qəm-qüssədən qurtardıq. Biz möminləri belə xilas edirik!"**[8]**;**

**"Əgər o Allaha tərif deyənlərdən olmasaydı, balığın qarnında Qiyamət gününə qədər qalardı. O, halsız halda ikən *Biz* onu sahilə çıxartdıq və üstünə *kölgə salmaq üçün* qabaq növündən iriyarpaqlı bir ağac bitirdik. Biz onu yüz min nəfərə və daha çox adama *peyğəmbər* göndərdik. Onlar**

---

[1] "əs-Saffat" surəsi, 139.

[2] "əl-Qələm" surəsi, 50.

[3] "ən-Nisa" surəsi, 163.

[4] "əl-Ənam" surəsi, 86.

[5] Bax: **"Zün-Nunu da *yada sal!* Bir zaman o qəzəbli halda *qövmündən* ayrılıb getmiş və onu sıxıntıya salmayacağımızı güman etmişdi".** ("əl-Ənbiya" surəsi, 87).

[6] Bax: **"Bir zaman o, yüklü bir gəmiyə minib qaçmışdı. Başqaları ilə birlikdə püşk atmış və uduzanlardan olmuşdu. O, qınanmağa layiq olduqda, balıq onu udmuşdu".** ("əs-Saffat" surəsi, 140-142).

[7] "əl-Ənbiya" surəsi, 87.

[8] "əl-Ənbiya" surəsi, 88.

**ona iman gətirdilər, Biz də onlara müəyyən vaxtadək firavanlıq nəsib etdik".**[1]

Ayələrdən aydın olur ki, Yunus peyğəmbər عليه السلام qəzəbli halda qövmünü tərk edib getdikdən sonra qövmü Allaha iman gətirmiş, Allah da o qövmə bu dünyada əzab verməmiş, əksinə, onlara firavanlıq bəxş etmişdir. Axirətdə də həmçinin bu imanın onlara faydası olacaqdır.[2]

* Təfsirçilər Yunus peyğəmbərin عليه السلام qəzəbli halda qövmünü tərk edib getməsini belə izah etmişlər: "O, Allah rizasını qazanmaq üçün onların asiliyinə qəzəblənmiş və ona verilən əziyyətlərə səbir etməyib[3] onları tərk etmişdir".[4]

Ayələrdən o da başa düşülür ki, Allah onu balığın qarnından xilas etdikdən sonra yenidən elçi göndərir. Təfsirçilər onun yenidən öz qövmünə, yoxsa başqa bir qövmə peyğəmbər göndərildiyi barədə ixtilaf etmişlər: bəziləri onun yenidən öz qövmünə, bəziləri başqa bir qövmə, bir qismi də hər iki qövmə elçi göndərildiyini demişlər.

Yunus peyğəmbərin عليه السلام dənizə düşməsinin səbəbi, gəmiyə həddən artıq sərnişinin minməsi olmuşdu. Gəmi batmasın deyə, onlar arasında püşk atıldı. Püşkə görə adı çıxan kimsələr gəmini tərk etməli oldular. Beləcə, o, dənizə düşdükdən sonra böyük bir balıq onu udmuşdur. Balığın onu udarkən onun sağlamlığına zərər yetirməməsi, sonra da onu sağ-salamat sahilə çıxarması Allahın qüdrət əlamətlərindəndir.

Yunus peyğəmbərin عليه السلام duası barədə Peyğəmbərimiz ﷺ demişdir: "Zün-Nun balığın qarnında ikən belə dua etmişdir:

﴿ لَّآ إِلَٰهَ إِلَّآ أَنتَ سُبۡحَٰنَكَ إِنِّي كُنتُ مِنَ ٱلظَّٰلِمِينَ ﴾

"La ilahə illə əntə, subhanəkə, inni kuntu minəz-zalimin".

"Səndən başqa *ibadətə layiq* məbud yoxdur! Sən paksan, müqəddəssən! Mən isə, həqiqətən, zalımlardan olmuşam".

---

[1] "əs-Saffat" surəsi, 143-148.

[2] "Təfsir İbn Kəsir", 2/433.

[3] Bax: **"Sən öz Rəbbinin hökmünə səbr et və balıq sahibi kimi olma!"** ("əl-Qələm" surəsi, 48).

[4] "Təfsir əl-Qurtubi", 11/329.

[Peyğəmbər ﷺ sözünə davam edib dedi:] "Bu duanı edən elə bir müsəlman yoxdur ki, Allah onun duasını qəbul etməsin".[1]

Bu yerdə qeyd etmək yerinə düşər ki, Yunus peyğəmbərin عليه السلام qəzəbli halda qövmünü tərk edib getməsini nöqsan saymaq və onun bu əmələ görə günah qazandığını düşünmək qəti qadağandır. Əvvəla ona görə ki, hər hansı bir peyğəmbər ictihad edib yanlış qərar verdikdə, bu ona günah sayılmır. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Müctəhid ictihad edib doğru qərar verdikdə iki savab, yanlış qərar verdikdə isə bir savab qazanar".[2]

Üstəlik, Peyğəmbərimiz ﷺ bu möhtərəm peyğəmbəri عليه السلام tərifləyib demişdir: "Heç kəsə: "Mən Yunus ibn Məttadan daha xeyirliyəm!"– demək yaraşmaz".[3]

Burada Peyğəmbərin ﷺ məxsusi olaraq Yunus peyğəmbəri عليه السلام zikr etməsi ona görədir ki, onun əhvalatını oxuyan kimsə, onun barəsində pis fikirləşməsin.[4]

---

[1] "Sunən ət-Tirmizi", 3505; "Səhih əl-Cami", 3383.

[2] "Səhih əl-Buxari", 7352; "Səhih Muslim", 4584.

[3] "Səhih əl-Buxari", 3413.

[4] "Fəth əl-Bari", 6/452.

# Musa və Harun aleyhiməssəlam

Musa عليه السلام və Harun عليه السلام Uca Allahın həm İsrail oğullarına, həm də Firon və onun qövmünə, yəni qibtilərə göndərdiyi peyğəmbərlərdir. Allah onlara Tövratı nazil etmiş və onunla hökm verməyi buyurmuşdur.

Musa عليه السلام ulul-əzm (möhkəm iradə sahibi) olan beş rəsuldan biri[1] və Allahın onunla birbaşa danışdığı peyğəmbəridir. Quranda ən çox adı keçən bu möhtərəm peyğəmbərin əhvalatı bir neçə surədə zikr edilir.

Musa peyğəmbər عليه السلام dünyaya gəlməmişdən əvvəl Firon İsrail oğullarından doğulacaq oğlan uşaqlarını qətlə yetirmək barədə fərman verir. Bu xüsusda Quranda belə buyurulur: **“Firon yer üzündə təkəbbürlük göstərib onun əhalisini zümrələrə bölmüşdü. *Firon* onlardan bir zümrəni zəiflədir, onların oğlan uşaqlarını öldürür, qadınlarını isə sağ buraxırdı. Həqiqətən, o, fəsad törədənlərdən idi”.**[2]

Belə bir fərman verilməsinin səbəbi, o diyarın kahin və münəccimlərinin Firona, İsrail oğullarından dünyaya gələcək bir oğlan uşağının böyüdükdən sonra onun səltənətini alt-üst edəcəyini xəbər verməsi idi.[3]

Beləliklə, Fironun əsgərləri İsrail oğullarının doğulmuş oğlan uşaqlarını öldürməyə başlayır. Musanın عليه السلام dünyaya gəldiyindən xəbər tutub onu öldürmək istədikdə, Musa peyğəmbərin عليه السلام anası körpəsini qorumaq üçün qaçıb Nil çayının sahilinə gəlir. Əsgərlərin ona yetişəcəyini və çayı keçməyin mümkün olmadığını gördükdə, çıxış yolu kimi Allahdan mədəd umur. Elə bu vaxt Allah ona belə vəhy edir: **“Onu əmizdir. Ondan ötrü qorxduqda isə onu çaya at. Qorxma və kədərlənmə. Çünki Biz onu sənə qaytaracaq və onu elçilərimizdən biri edəcəyik”.**[4]

Anası Musanı عليه السلام, Allahın ona buyurduğu kimi, beşiyə qoyub timsahlarla dolu, iti axan Nil çayına atır. Qüdrətli Allah da onu bu təhlükələrdən qoruyur və çayın axını o beşiyi Fironun bağına gətirir. Zövcəsi Asiyə عليها السلام Firona: ***“Bu uşaq* həm mənim, həm də sənin üçün gözaydınlığıdır. Onu**

---

[1] Bu barədə 23-cü səhifədəki 2-ci haşiyə-çıxarışa bax.

[2] “əl-Qəsəs” surəsi, 4.

[3] Təfsir ət-Təbəri, 1/387.

[4] “əl-Qəsəs” surəsi, 7.

**öldürməyin! Ola bilsin ki, o bizə bir fayda verər, yaxud da onu oğulluğa götürərik"**[1]– deyib, onu öz himayəsinə götürür[2].

Musa peyğəmbər ﷺ Fironun sarayında böyüyüb boya-başa çatdıqdan sonra[3] Allah ona peyğəmbərlik bəxş edir.[4] Bir müddət sonra o, Şueybin[5] qızlarından biri ilə evlənir, daha sonra Tuva vadisinə gəlir və orada Uca Allah onunla bilavasitə danışaraq, belə buyurur: **"Ey Musa, həqiqətən, Mən sənin Rəbbinəm! Ayaqqabılarını çıxart, çünki sən müqəddəs Tuva vadisindəsən! Mən səni** *peyğəmbər* **seçdim.** *Sənə* **vəhy olunanı dinlə! Həqiqətən, Mən Allaham! Məndən başqa** *haqq* **məbud yoxdur. Mənə ibadət et və Məni xatırlamaq üçün namaz qıl!** *Qiyamət* **saatı mütləq gələcəkdir! Hər kəsə törətdiklərinin əvəzi verilsin deyə, Mən onu az qala** *Özümdən belə* **gizlədim. Qoy, ona inanmayan və nəfsinin istəklərinə uyan bir kəs səni ondan yayındırmasın, yoxsa həlak olarsan!"**[6];

**"Ey Musa, Mən vəhy etdiklərimlə və** *səninlə* **danışmağımla səni seçib insanlardan üstün etdim. Elə isə, sənə verdiyimi götür və şükür edənlərdən ol!"**[7];

**"Əsanı** *yerə* **at!"** *Musa* **onun ilan kimi qıvrıldığını görüb, geriyə belə baxmadan dönüb qaçmağa başladı.** *Allah buyurdu:* **"Ey Musa, yaxın**

---

[1] "əl-Qəsəs" surəsi, 7.

[2] Sonradan bu qadın Allahın tək ilah olduğuna iman gətirdiyinə görə Fironun əmri ilə edam edilmişdir. Uca Allah Quranda onu belə tərif edir: **"Allah iman gətirənlərə Fironun zövcəsini misal çəkdi. Bir zaman o: "Ey Rəbbim! Mənə Öz yanında – Cənnətdə bir ev tik. Məni Firondan və onun əməlindən xilas et. Məni zalım adamlardan qurtar!"– demişdi"** ("ət-Təhrim" surəsi, 11). Uca Allah bu mömin qadının duasını qəbul edib, onu cənnətlik etdi. Bu barədə Peyğəmbər ﷺ belə demişdir: "Cənnətdəki qadınların ən hörmətlisi dörd qadındır: Xuveylidin qızı Xədicə, Muhəmmədin qızı Fatimə, Müzahimin qızı və Fironun həyat yoldaşı Əsiyə və bir də İmranın qızı Məryəm". (Musnəd Əhməd, 1/293; Silsilə əl-Əhadis əs-Səhihə, 1508).

[3] "Ta ha" surəsi, 38-40.

[4] Bax: **"*Musa* yetkinlik yaşına çatdıqda Biz ona hökmranlıq** (peyğəmbərlik) **və elm əta etdik. Biz xeyirxah işlər görənləri belə mükafatlandırırıq."** ("əl-Qəsəs" surəsi, 14).

[5] Bu Şueyb, əvvəlki fəsillərdə qeyd etdiyimiz Şueyb ﷺ deyil. O Şueyb ﷺ, Allahın Mədyən əhlinə göndərdiyi peyğəmbər, bu isə, Mədyən əhlindən olan əməlisaleh bir mömindir. Bax: "əl-Qəsəs" surəsi, 22-28.

[6] "Ta ha" surəsi, 11-16.

[7] "əl-Əraf" surəsi, 144.

**gəl, qorxma! Sən əmin-amanlıqda olanlardansan. Əlini qoynuna sal ki,** ***əlin oradan*** **ləkəsiz, ağappaq çıxsın. Qorxu keçib getsin deyə, əlini özünə sıx. Bu, Firona və onun əyanlarına qarşı sənin Rəbbindən olan iki tutarlı dəlildir. Həqiqətən, onlar fasiq adamlardır".**[1]

Uca Allah Musaya ﷺ Özünün ibadətə layiq Tək İlah olduğunu bildirir, ona yalnız Tək İlaha ibadət etməyi buyurur və ona peyğəmbərliyini təsdiq edən bu iki dəlili verir, sonra da Fironun yanına gedib, onu tövhidə dəvət etməyi əmr edir. Bu zaman Musa ﷺ Rəbbinə yalvarıb deyir: **"Ey Rəbbim, köksümü açıb genişlət, işimi yüngülləşdir, dilimdəki düyünü aç ki, sözümü anlasınlar! Mənə öz ailəmdən qardaşım Harunu köməkçi et və onun sayəsində mənim gücümü artır! Onu işimə ortaq et** (ona da peyğəmbərlik ver) **ki, Sənə çoxlu təriflər deyək və Səni çox zikr edək. Şübhəsiz ki, Sən bizi görürsən!"**[2]

Rəbbi onun duasını qəbul edir və Harunu ﷺ da peyğəmbər seçir[3], sonra hər ikisinə belə buyurur: **"Fironun yanına gedin, çünki o, həddini aşmışdır. Onunla yumşaq danışın, bəlkə, öyüd-nəsihət qəbul etsin, yaxud qorxsun".**[4]

* Dəvət üslubuna diqqət edin! Uca Allah o dövrün ən zalım və ən azğın hökmdarı ilə yumşaq danışmağı buyurur.[5]

Nəhayət, Musa ﷺ qardaşı Harunla ﷺ birlikdə Fironun hüzuruna gəlib deyir: **"Biz sənin Rəbbinin elçiləriyik. İsrail oğullarını bizimlə göndər və onlara əziyyət vermə. Biz sənin yanına Rəbbindən dəlillə gəlmişik. Doğru yolla gedənlərə salam olsun! Bizə vəhy edildi ki, əzab,** ***haqqı*** **yalan sayıb üz döndərənlərə veriləcəkdir!"**[6];

---

[1] "əl-Qəsəs" surəsi, 31-32.

[2] "Ta ha" surəsi, 25-35.

[3] Bax: "Məryəm" surəsi, 53.

[4] "Ta ha" surəsi, 43-44.

[5] Uca Allah Muhəmməd peyğəmbərin ümmətinə də insanları İslam dininə bu üslubla dəvət etməyi buyurur: **"*İnsanları* Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübahisə et".** ("ən-Nəhl" surəsi, 125).

[6] "Ta ha" surəsi, 47-48.

**"Ey Firon! Həqiqətən, mən aləmlərin Rəbbi tərəfindən *göndərilmiş* bir rəsulam. Allah barəsində həqiqəti söyləmək mənim vəzifəmdir. Mən Rəbbinizdən sizə açıq-aydın dəlillər gətirmişəm".[1];**

**"Rəbbimiz hər şeyə öz xilqətini verən, sonra da *ona* doğru yolu göstərəndir!"[2];**

**"Əgər inanırsınızsa, *bilin ki,* O, göylərin, yerin və onların arasında olanların Rəbbidir!"[3];**

**"*Günahlardan* xilas olmaq istəyirsənmi? Səni Rəbbinə doğru yönəldimmi ki, *Ondan* qorxub çəkinəsən?"[4]**

Musa peyğəmbər ﷺ Fironu Allahın tək ilah olduğunu qəbul etməyə, günahlarına görə Allahdan bağışlanma diləməyə dəvət edir və ondan İsrail oğullarını köləlikdən azad etməyi tələb edir.

> * Allahın peyğəmbəri ona **"biz sənin yanına dəlillə gəlmişik"**– deyir. Belə ki, haqqa dəvət edən dəvətçi dediyi sözünün haqq olduğunu sübuta yetirmək üçün dəlil göstərməlidir. Məsələn, biz müsəlmanların dəlili Qiyamət gününədək hər cür təhrifdən qorunacaq Qurandır. O dövrdə sehrbazlıq, kahinlik və münəccimlik çox yayıldığından, Uca Allah Öz peyğəmbərini ﷺ onları heyrətə gətirəcək dəlillərə göndərir.

Firon Musadan ﷺ peyğəmbər olduğunu isbat edəcək dəlili göstərməsini tələb etdikdə, o, əlindəki əsanı yerə atır və əsa böyük bir ilana çevrilir, sonra da əlini qoltuğunun altına salıb çıxardır və o, ağappaq parlaq bir əl olur. Firon bu iki dəlili öz gözləri ilə görsə də, haqqı yalan sayır, asilik edərək: **"Bu sehrbazdır, ya da dəlidir!"[5]**– deyir, sonra da Misirdə olan sehrbazların hamısını bir yerə toplayır ki, onlar Musaya ﷺ qalib gəlsinlər. Göstəri zamanı Musanın ﷺ yerə atdığı əsa ilana çevrilib sehrbazların iplərini və dəyənəklərini udduqda, onlar bunun Allahın möcüzəsi, Musanın ﷺ da Allahın elçisi olduğunu başa düşür və: **"Biz aləmlərin Rəbbinə – Musanın və Harunun Rəbbinə iman gətirdik!"**– deyirlər.

---

[1] "əl-Əraf" surəsi, 104-105.
[2] "Ta ha" surəsi, 50.
[3] "əş-Şuəra" surəsi, 24.
[4] "ən-Naziat" surəsi, 18-19.
[5] "əz-Zariyat"surəsi, 39.

Firon onları çarmıxa çəkib edam edəcəyi ilə hədələsə də, onlar imanlarından dönməyib belə deyirlər: **"Biz heç vaxt səni bizə gələn bu aydın dəlillərdən və bizi Yaradandan üstün tutmayacağıq. İndi nə hökm verəcəksənsə, ver, sən ancaq bu dünyada hökm verə bilərsən. Həqiqətən, biz Rəbbimizə iman gətirdik ki, O, bizi günahlarımıza və sənin bizi məcbur etdirdiyin sehrə görə bağışlasın. Allahın *mükafatı* daha xeyirli, *cəzası* isə daha sürəklidir!"[1];**

**"Şübhəsiz ki, biz Rəbbimizin hüzuruna qayıdacağıq. Sən sadəcə, Rəbbimizin dəlilləri bizə gəldikdə onlara iman gətirməyimizə görə bizdən intiqam alırsan. Ey Rəbbimiz! Bizə çoxlu səbir ver və bizim canımızı müsəlman olduğumuz halda al!"[2]**

* Diqqət edin! Uzun illər sehrlə məşğul olmuş insanların qəlbi bir anda dəyişir – onlar Allaha iman gətirir və edam olunacaqlarını bildikləri halda, yenə də imandan dönməyib, canlarını Allah yolunda fəda etməyə hazır olduqlarını bildirirlər. Budur tövhidin təsiri və sarsılmaz imanın gücü![3]

Firon və əyanları Musanın ﷺ gətirdiyi dəlillər qarşısında aciz qaldıqda, onu öldürmək qərarına gəlirlər. Bu zaman Firon ailəsindən imanını gizlədən mömin bir kişi deyir: **"Siz bir adamı: "Rəbbim Allahdır!"– dediyinə görəmi öldürəcəksiniz?! Halbuki o, Rəbbinizdən sizə açıq-aydın dəlillər gətirdi. Əgər o, yalan danışırsa, onun yalanı ancaq öz əleyhinədir. Yox, əgər doğru danışırsa, onun vəd etdiyi *əzab* sizə toxunar. Həqiqətən, Allah həddi aşanı, yalançını doğru yola yönəltməz".[4];**

**"Ey qövmüm, mən *əvvəlki* toplumların başına gəlmiş *dəhşətli* günün bənzərinin sizin də başınıza gəlməsindən qorxuram".[5];**

**"Ey qövmüm, mən sizə üz verəcək fəryad günündən qorxuram. Geriyə dönüb qaçacağınız gün sizi Allahdan qoruyan tapılmaz. Allahın sapdırdığı kimsəyə isə yol göstərən olmaz. Daha öncə Yusuf sizə açıq-aydın dəlillər gətirmişdi. Siz onun gətirdiklərinə şəkk etməkdə davam**

---

[1] "Ta ha" surəsi, 72-73.

[2] "əl-Əraf" surəsi, 125-126.

[3] Bax: "əl-Əraf" surəsi, 106-126 və "Ta ha"surəsi, 49-73.

[4] "Ğafir" surəsi, 28.

[5] "Ğafir" surəsi, 31.

**edirdiniz. Nəhayət, o, vəfat etdikdə: "Allah ondan sonra elçi göndərməyəcək!" – dediniz. Allah həddi aşan, şübhə edən kimsəni belə sapdırır".**[1]**;**

**"Ey qövmüm, necə olur ki, mən sizi nicat tapmağa çağırdığım halda, siz məni Cəhənnəm oduna çağırırsınız?! Siz məni Allahı inkar etməyə, bilmədiyim bir şeyi Ona şərik qoşmağa çağırdığınız halda, mən sizi qüdrətli, çox bağışlayan *Allaha* çağırıram. Heç şübhəsiz ki, sizin məni çağırdıqlarınızın nə dünyada, nə də axirətdə çağırılmağa haqqı yoxdur. Bizim dönüşümüz Allahadır, həddi aşanlar isə Cəhənnəm sakinləridir. Sizə dediklərimi tezliklə xatırlayacaqsınız. Mən işimi Allaha həvalə edirəm. Həqiqətən, Allah qullarını görür".**[2]

* Hələ buna da bir baxın! Uzun illər Firona xidmət etmiş adam Allahın tək İlah olduğuna dəlalət edən dəlilləri gördükdən sonra, Allaha iman gətirir, Musanın عليه السلام Allahın göndərdiyi peyğəmbər olduğunu etiraf edir, Fironu və onun havadarlarını Allahın əzabı ilə qorxudur, onlara Axirət günü haqq-hesaba çəkiləcəklərini bildirir, bundan əvvəl Yusuf peyğəmbərin عليه السلام də onlara tövhidi təbliğ etdiyini yadlarına salır və onları yalnız Allaha ibadət etməyə çağırır.

Bundan sonra Firon bir az da azğınlaşaraq xalqını bir yerə toplayır və: **"Sizin ən uca rəbbiniz mənəm!"**[3]– deyir, qövmünün kafirləri də onun səsinə səs verib: **"Bu ikisinin**[4] **tayfası bizə kölə olduğu halda, biz özümüz kimi iki adamamı inanacağıq?"– deyirlər".**[5]

Bu zaman Uca Allah onların üstünə bəlalar göndərir. Bu barədə Quranda belə buyurulur: **"Biz Firon xalqını quraqlıq illərinə və məhsul qıtlığına məruz qoyduq ki, bəlkə düşünüb ibrət alsınlar".**[6]**;**

**"Onların üstünə müxtəlif dəlillər olaraq tufan, çəyirtkələr, bitlər, qurbağalar və qan göndərdik, onlar isə təkəbbürlük göstərdilər və günahkar bir tayfa oldular".**[7]

---

[1] "Ğafir" surəsi, 32-34.
[2] "Ğafir" surəsi, 41-44.
[3] "ən-Naziat"surəsi, 24.
[4] Onlar "Bu ikisi" deyəndə, Musanı عليه السلام və Harunu عليه السلام qəsd edirlər.
[5] "əl-Muminun" surəsi, 47.
[6] "əl-Əraf" surəsi, 130.
[7] "əl-Əraf" surəsi, 133.

Allahın göndərdiyi doqquz dəlildən[1] sonra Firon və onun havadarları: **"Ey Musa, Rəbbinin sənə verdiyi əhd ilə bizim üçün dua et! Əgər əzabı bizdən sovuşdursan, hökmən sənə iman gətirəcək və İsrail oğullarını mütləq səninlə birlikdə göndərəcəyik"– dedilər".**[2]

Musa ﷺ Rəbbinə dua etdi və qüdrətli Allah müəyyən vaxta qədər əzabı onlardan sovuşdurdu. Ancaq onlar dərhal əhdi pozdular və yenə də küfr etməyə davam etdilər.[3]

Musa peyğəmbər ﷺ Fironun bu qədər dəlillərdən sonra yenə də iman gətirmədiyini gördükdə, ona: **"Sən artıq bilirsən ki, bunları yalnız göylərin və yerin Rəbbi, açıq-aşkar dəlil olaraq endirdi. Mən isə, ey Firon, sənin məhv olacağını bilirəm!"**[4]– dedi, sonra da Rəbbinə belə dua etdi: **"Ey Rəbbimiz, Sən Firona və onun əyanlarına dünya həyatında zinət və mal-dövlət bəxş etdin. Ey Rəbbimiz, onlar *insanları* Sənin yolundan sapdırırlar. Ey Rəbbimiz, onların mal-dövlətini məhv et, qəlblərini də sərtləşdir ki, ağrılı-acılı əzabı görməyincə iman gətirməsinlər!";**

«***Allah*** **buyurdu: "Hər ikinizin duası qəbul olundu.** ***Dəvətinizdə*** **möhkəm olun və cahillərin yoluna uymayın!"»**[5]

* Bu ayədən aydın başa düşülür ki, tövhidə çağıran dəvətçi Allahın tək İlah olduğunu qəbul etməyən və bilərəkdən Allaha şərik qoşmağa davam edən kafirlərə bəddua edə bilər.[6]

---

[1] Bu xüsusda Uca Allah Quranda belə buyurur: **"Biz Musaya doqquz aşkar dəlil verdik".** ("əl-İsra" surəsi, 101).

Doqquz peyğəmbərlik dəlili isə bunlardır: əsanın ilana çevrilməsi, əlinin ağappaq olması, kafirlərin quraqlıq illərinə və məhsul qıtlığına məruz qalması, üstlərinə tufan, çəyirtkələr, bitlər, qurbağalar və qan göndərilməsi.

[2] "əl-Əraf" surəsi, 134.

[3] "əl-Əraf" surəsi, 135.

[4] "əl-İsra" surəsi, 102.

[5] "Yunus"surəsi, 88-89.

[6] Kafirlərə bəddua etməyin icazəli olmasına dair Nuh peyğəmbəri ﷺ də misal çəkmək olar. Belə ki, o, uzun illər dəvətdən sonra öz qövmü tərəfindən zülmə məruz qaldıqda, belə dua etmişdir: **"Ey Rəbbim, kafirlərdən yer üzündə bir nəfəri belə sağ qoyma! Əgər Sən onları *sağ* qoysan, onlar *Sənin* qullarını azdıracaq və yalnız günahkar, kafir *övladlar* doğub-törəyəcəklər. Ey Rəbbim, məni, valideynlərimi, evimə mömin kimi daxil olanları və *bütün* mömin kişi və qadınları bağışla, zülmkarların isə ancaq həlakını artır!"** ("Nuh" surəsi, 26-28); **"Ey Rəbbim, qövmüm məni yalançı hesab etdi. Mənimlə onların arasında qəti hökm ver, məni və mənimlə birlikdə olan möminləri *əzabdan* qurtar!"**

Nəhayət, Uca Allah Musaya ﷺ İsrail oğulları ilə birlikdə gecə vaxtı Misiri tərk edib dənizə doğru yola çıxmağı əmr etdi, o da Allahın əmrini dərhal yerinə yetirdi. Səhər Firon bundan xəbər tutar-tutmaz ordu toplayıb onların ardınca getdi və onlara yetişdikdə: **"Musa dedi: "Rəbbim mənimlədir, O, mənə doğru yol göstərəcək".**[1]**;**

**"Ey qövmüm, əgər Allaha iman gətirib müsəlman olmusunuzsa, Ona təvəkkül edin!" Onlar dedilər: "Biz ancaq Allaha təvəkkül edirik. Ey Rəbbimiz, bizi zalım qövmün əlində sınağa çəkmə və bizi Öz mərhəmətinlə kafir qövmün əlindən qurtar!"**[2]

Uca Allah İsrail oğullarının duasını qəbul edib onları xilas etdi, Fironu və onun ordusunu isə dənizdə batırdı.[3]

Uca Allah İsrail oğullarını Fironun zülmündən qurtardıqdan sonra, onlar bir müddət gözəl güzəran içində yaşadılar, hətta Uca Allah onlara göydən bildirçin və manna endirdi. Bir müddət sonra Musa ﷺ öz Rəbbi ilə vədələşib qırx gecəlik görüşə getdikdə, İsrail oğullarının bir qismi öz zinət əşyalarından böyürən bir buzov heykəli düzəldib ona ibadət etməyə başladı. Musa ﷺ geri qayıtdıqda, onların Allaha şərik qoşduqlarını görüb

("əş-Şuəra" surəsi, 117-118). Allah da onun duasını qəbul etdi: **"Biz onu və onunla birlikdə olanları yüklü gəmidə xilas etdik, yerdə qalanları isə suya qərq etdik".** ("əş-Şuəra" surəsi, 119-120).

Muhəmməd Peyğəmbərə ﷺ də Məkkə müşrikləri on üç il ərzində çox zülmlər etmişdilər. Məsələn, bir gün Peyğəmbər ﷺ Kəbənin yanında namaz qılarkən, Əbu Cəhl və onun dostlarının təhriki ilə aralarından birisi, ölmüş dişi dəvənin döl qişasını (heyvanın qarnındakı rüşeymin üstünü örtən pərdə) gətirib səcdədə olan Muhəmməd peyğəmbərin ﷺ belinə qoydu, sonra da bir-birlərinə işarə edərək gülməyə başladılar. Rəsulullah ﷺ isə səcdədən başını qaldırmırdı. Nəhayət, Fatimə رضي الله عنها onun yanına gəldi və qişanı belindən götürüb kənara atdı. Peyğəmbər ﷺ başını qaldırdı və namazı bitirdikdən sonra üç dəfə: "Allahım, Qureyşin cəzasını ver!"– dedi. Peyğəmbərin ﷺ bəddua etməsi onlara pis təsir etdi. Çünki onlar bu şəhərdə edilən bədduanın qəbul olunacağına inanırdılar. Sonra Peyğəmbər ﷺ adbaad sayaraq: "Allahım, Əbu Cəhlin cəzasını ver! Utbə ibn Rəbiyənin, Şeybə ibn Rəbiyənin, Vəlid ibn Utbənin, Umeyyə ibn Xələfin və Uqbə ibn Əbu Muitin cəzasını ver!"– dedi". Hədisi rəvayət edən səhabə Abdullah ibn Məsud رضي الله عنه deyir ki: "Canım Əlində olan Allaha and olsun ki, Rəsulullahın ﷺ adlarını çəkdiyi müşriklərin leşlərini Bədrdə yerə sərilmiş gördüm". ("Səhih əl-Buxari", 240).

[1] "əş-Şuəra" surəsi, 62.

[2] "Yunus" surəsi, 84-86.

[3] Bax: "Yunus" surəsi, 90-92; "Ta ha" surəsi, 77-78 və "əş-Şuəra" surəsi, 52-67.

qəzəbləndi və dedi: **"Ey qövmüm, siz buzova ibadət etməklə özünüzə zülm etdiniz. Elə isə, Yaradanınıza tövbə edin..."**[1];

**"Məndən sonra necə də yaramaz işlər görmüsünüz!"**[2];

**"Sizin məbudunuz yalnız Özündən başqa heç bir *haqq* məbud olmayan Allahdır. O, elm ilə hər şeyi əhatə edir".**[3]

İsrail oğulları etdikləri əməldən peşiman olub tövbə etdilər, Mərhəmətli Allah da onları bağışladı.[4]

Bu yerdə həm də onu qeyd etmək yerinə düşər ki, Uca Allah İsrail oğullarından **"yalnız Allaha ibadət edəcəklərinə, valideynlərə, qohumlara, yetimlərə və kasıblara yaxşılıq edəcəklərinə, insanlara xoş söz deyəcəklərinə, namaz qılıb, zəkat verəcəklərinə, bir-birlərinin qanını axıtmayacaqlarına və bir-birlərini yurdlarından çıxartmayacaqlarına"** dair əhd almış, ancaq onlardan az bir qismi istisna olmaqla, qalanları bu əhdi pozaraq Allaha asi olmuşlar.[5]

---

[1] "əl-Bəqərə" surəsi, 54.

[2] "əl-Əraf" surəsi, 150.

[3] "Ta ha" surəsi, 98.

[4] Bax: "əl-Bəqərə" surəsi, 49-103; "ən-Nisa" surəsi, 153-159; "əl-Əraf" surəsi, 137-157 və "Ta ha" surəsi, 80-98.

[5] Bax: "əl-Bəqərə" surəsi, 83-84.

# İlyas aleyhissəlam

Musa peyğəmbər ﵇ vəfat etdikdən sonra Uca Allah İsrail oğullarından İlyası ﵇ seçib onlara elçi göndərdi ki, onları “Bəl” adlı bütə tapınmaqdan çəkindirsin, Tək Allaha ibadət etməyə dəvət etsin və bir zaman Allahın Musa peyğəmbərin ﵇ vasitəsilə onlardan aldığı əhdi onlara xatırlatsın.

İlyas peyğəmbər ﵇ öz qövmünü hikmətlə doğru yola dəvət etmiş, lakin onlardan bir qismi istisna olmaqla, qalanları onu yalançı sayaraq ona itaət etməmiş və Allaha asi olmuşlar. Elə buna görə də Qiyamət günü asi olanların hamısı cəhənnəmlik olacaqlar. Bu xüsusda Quranda belə buyurulur: **“Həqiqətən, İlyas da *Allahın göndərdiyi* elçilərdəndir. Bir zaman o, öz qövmünə demişdi: “Məgər, qorxmursunuz?! Siz yaradanların ən yaxşısını – həm sizin Rəbbiniz, həm də əcdadlarınızın Rəbbi olan Allahı qoyub Bələ yalvarırsınız?!” Onlar onu yalançı saydılar. Odur ki, *Qiyamət günü* hamısı *Cəhənnəmə* gətiriləcək. Yalnız Allahın seçilmiş *səmimi* qullarından başqa. Sonra gələnlər arasında ona *gözəl xatirə* qoyduq. İlyasinə salam olsun! Həqiqətən, Biz yaxşı iş görənləri belə mükafatlandırırıq. Həqiqətən, o, Bizim mömin qullarımızdandır”.**[1]

> * Bu möhtərəm peyğəmbərin ﵇ dəvət üslubuna diqqət edin! Onlara ardıcıl olaraq iki sual verir ki, öz batil əməlləri barədə düşünsünlər və yanlış yolda olduqlarını başa düşüb haqqa qayıtsınlar.

İlyas peyğəmbər ﵇ hər şeyi Eşidən, hər şeyi Görən, hər şeyi Bilən, hər şeyə Qadir olan, məxluqatı yaradan, onlara ruzi verən, heç kəsə və heç nəyə möhtac olmayan Allah ilə daşdan, ağacdan və s. insan əli ilə düzəldilmiş, eşitməyən, görməyən, fayda və ya zərər verməyə qadir olmayan, hətta özünü belə qorumaqda aciz olan bütü müqayisə edərək, onlara yalnız Allahın ibadətə layiq Tək İlah olduğunu bildirir. Onun dəvətini yalnız Allahın ixlaslı qulları qəbul edir, qalanları isə azğınlıq və küfr içində qalmağa davam edirlər. Beləcə, Uca Allah İlyası ﵇ və ona iman gətirmiş möminləri mükafatlandırır, o birilərini isə əzaba düçar edəcəyini vəd edir.

Ayədə: **“Sonra gələnlər arasında ona *gözəl xatirə* qoyduq”** deyilir.

Həqiqətən, əsrlər boyu insanlar ona “aleyhissəlam (ona salam olsun!)” deyə dua etmiş, edir, bundan sonra da – Qiyamətədək edəcəklər.

---

[1] “əs-Saffat” surəsi, 123-132.

# Davud və Süleyman aleyhiməssəlam

Davud peyğəmbər عليه السلام Allahın İsrail oğullarına göndərdiyi, peyğəmbərlərin çoxundan üstün etdiyi və özünə də Zəbur nazil etdiyi elçisidir. Bu xüsusda Quranda deyilir: **"Biz peyğəmbərlərin bəzisini digərlərindən üstün etdik və Davuda Zəbur verdik".[1];**

**"Biz onun mülkünü möhkəmləndirdik, özünə də hikmət** (peyğəmbərlik) **və düzgün qərar çıxartmaq qabiliyyəti bəxş etdik".[2];**

**"Biz Davuda və Süleymana elm verdik. Onlar dedilər: "Bizi Öz mömin qullarının çoxundan üstün edən Allaha həmd olsun!"[3];**

**"Hər ikisinə hökmranlıq və elm bəxş etdik".[4]**

Davudun عليه السلام və onun oğlu Süleymanın عليه السلام hökmranlığı dövründə İsrail oğulları özləri üçün böyük bir məmləkət qurdular. Davud عليه السلام, peyğəmbər seçilməmişdən əvvəl öz qövmü arasında şücaəti ilə tanınmış və onlarla birlikdə bir çox döyüşlərdə iştirak etmişdi. Mömin hökmdar Talutun ordusunda kafir Calut və onun ordusuna qarşı döyüşdə Calutu məhz Davud عليه السلام öldürmüş və bundan sonra Allah ona hökmranlıq və hikmət bəxş etmiş, ona istədiyini öyrətmişdir.[5]

Uca Allah Davudun عليه السلام oğlu Süleymana عليه السلام da peyğəmbərlik bəxş etmiş, onları düz yola yönəltmiş və hər ikisinə insanları yalnız Allaha ibadət etməyə və Ona heç kimi, heç nəyi şərik qoşmamağa dəvət etməyi buyurmuşdur: **"Süleyman Davuda *peyğəmbərlikdə* varis oldu".[6];**

**"Biz İbrahimə, İsmailə, İshaqa, Yəquba və onun nəslinə, İsaya, Əyyuba, Yunusa, Haruna və Süleymana da vəhy etdik".**[7];

**"Hamısı əməlisalehlərdən idilər".[8];**

**"Biz onları seçdik və düz yola yönəltdik".[9];**

---

[1] "əl-İsra" surəsi, 55.
[2] "Sad" surəsi, 20.
[3] "ən-Nəml" surəsi, 15.
[4] "əl-Ənbiya" surəsi, 79.
[5] Bax: "əl-Bəqərə" surəsi, 246-251.
[6] "ən-Nəml" surəsi, 16.
[7] "ən-Nisa" surəsi, 163.
[8] "əl-Ənam" surəsi, 85.
[9] "əl-Ənam" surəsi, 87.

**“Hamısını aləmlərdən üstün etdik”.**[1]

Bu ayələrdən aydın başa düşülür ki, Davud ﷺ və Süleyman ﷺ, Uca Allahın insanlar arasından seçib doğru yola yönəltdiyi peyğəmbərlərdəndir. Hər ikisi yalnız Allaha ibadət edər və ona yalvararmış. Bu xüsusda Quranda belə buyurulur: **“Qüdrətli qulumuz Davudu yadına sal! O, daim *Allaha* üz tutardı”.**[2]**;**

**“Biz Davuda Süleymanı bəxş etdik. O, necə gözəl qul idi! O, daim *Allaha* üz tutardı”.**[3]

Hədisdə isə Peyğəmbər ﷺ belə demişdir: “Davud gecənin yarısını yatar, sonra qalxıb onun üçdə birini namaz qılar, sonra da yerdə qalan altıda birini yatardı. Orucu da günaşırı tutardı”.[4]

Yuxarıda qeyd edilən ayədə xəbər verilir ki, Uca Allah bu peyğəmbərləri üstün etmişdir: Davuda ﷺ dəmiri əli ilə əzib istədiyi şəklə salmaq gücü verilmişdi.[5] Süleymana ﷺ verilmiş üstünlüyə gəlincə, Allah küləyi və cinləri onun əmrinə tabe etmiş, üstəlik, ona heyvanların dilini başa düşmək və onlarla danışmaq bacarığı bəxş etmişdi.[6]

Quranda Süleymanın ﷺ hüdhüdlə danışması və quşun ona Səba qövmünün[7] Allahdan qeyrisinə ibadət etdiyini bildirməsi söhbəti keçir. “ən-Nəml” surəsində hüdhüdün Süleymana ﷺ belə dediyi xəbər verilir: **“Sənə Səbadan doğru bir xəbər gətirmişəm. Mən onlara hökmdarlıq edən, özünə hər şey verilmiş və çox böyük taxtı olan bir qadın gördüm. Mən onun və tayfasının Allahı qoyub Günəşə səcdə etdiklərinin şahidi oldum. Şeytan onların əməllərini özlərinə gözəl göstərmiş və onları *haqq* yoldan çıxartdığına görə haqqın yolunu tapa bilmirlər. *Şeytan ona görə belə etmişdir* ki, göylərdə və yerdə gizli olanı aşkara çıxardan, sizin gizlətdiklərinizi də, üzə çıxartdıqlarınızı da Bilən Allaha səcdə etməsinlər.**

---

[1] “əl-Ənam” surəsi, 86.

[2] “Sad” surəsi, 17.

[3] “Sad” surəsi, 30.

[4] “Səhih əl-Buxari”, 1131.

[5] Bax: **“Biz dəmiri onun üçün yumşaltdıq.** *Sonra ona belə buyurduq:* **“Geniş zirehlər düzəlt və halqaları toxuduqda ölçüyə riayət et.** *Ey Davud ailəsi,* **yaxşı işlər görün! Mən, həqiqətən də, sizin nə etdiyinizi görürəm”.** (“Səba” surəsi, 10-11).

[6] Bax: “əl-Ənbiya” surəsi, 81-82 və “ən-Nəml” surəsi, 18-28.

[7] Səba – bir vaxtlar Yəməndə sakin olmuş qövm.

**Böyük Ərşin Rəbbi olan Allahdan başqa *ibadətə layiq olan* məbud yoxdur".**[1]

* Diqqət edin! Allahın yaratdığı quş belə, Allahın ibadətə layiq olan Tək İlah olduğuna şahidlik edir.

Hüdhüdün bu sözündən sonra Süleyman عليه السلام o qövmü tövhidə dəvət etmək qərarına gəlir və hüdhüd vasitəsilə onlara bir məktub göndərir. Məktubda bu sözlər yazılmışdı: **"Mərhəmətli və Rəhmli Allahın adı ilə! Mənə qarşı təkəbbür göstərməyin və yanıma müsəlman olaraq gəlin!"**[2]

* Süleyman peyğəmbər عليه السلام öz müraciətini Allahın adı ilə başlamaqla onlara Allahın Tək İlah olduğunu, Onun Mərhəmətli və Rəhmli olduğunu xüsusilə vurğulamaqla isə Ondan başqa heç kəsin və heç nəyin, o cümlədən onların tapındıqları Günəşin günahları bağışlamağa qadir olmadığını bildirir. Sonra da onlara Allaha şərik qoşmaqdan çəkinib, müsəlman olmağı əmr edir.

Səba hökmdarı öz əyanları ilə məsləhətləşdikdən sonra Süleyman peyğəmbərin عليه السلام əmrindən boyun qaçırmaq üçün ona hədiyyələr göndərir. Süleyman peyğəmbər عليه السلام isə onun hədiyyələrini geri qaytarır və Allahın Tək İlah olduğunu qəbul etməyəcəkləri təqdirdə onları məhv edəcəyini bildirir. Beləliklə, Səba qövmü onun əmrinə boyun əyərək Allahın Tək İlah olduğunu qəbul edir. Nəhayət, Səba hökmdarı Bəlqis Süleymanın عليه السلام yanına gəlib onun büllurdan olan sarayını gördükdə, Allahın qüdrətini dərk edir və deyir: **"Ey Rəbbim, mən özümə zülm etmişəm. İndi isə Süleymana tabe olub aləmlərin Rəbbi olan Allaha təslim oldum!"**[3]

---

[1] "ən-Nəml" surəsi, 22-26.
[2] "ən-Nəml" surəsi, 30-31.
[3] Bax: "ən-Nəml" surəsi, 32-44.

## Zəkəriyyə və Yəhya aleyhiməssəlam

Zəkəriyyə və Yəhya aleyhiməssəlam da Allahın İsrail oğullarına göndərdiyi peyğəmbərlərdir.

Zəkəriyyə ﷺ İmranın qızı ilə[1] ailə qursa da, onların uzun müddət övladı olmurmuş. Nəhayət, o, Allaha dua edib belə deyir: **"Ey Rəbbim, artıq sümüklərim zəifləmiş, başım da ağappaq ağarmışdır. Ey Rəbbim, Sənə etdiyim dua sayəsində *heç vaxt* bədbəxt olmamışam. Mən özümdən sonra gələn qohumlarımdan *bəzisinin dinə etinasız yanaşacaqlarından* qorxuram. Zövcəm də sonsuzdur. Mənə Öz tərəfindən elə bir övlad bəxş et ki, o, həm mənə, həm də Yəqub nəslinə varis olsun! Ey Rəbbim, elə et ki, o, *Sənin* razılığını qazanmış olsun!"[2];**

**"Ey Rəbbim, Öz tərəfindən mənə pak nəsil bəxş et! Şübhəsiz ki, Sən duaları eşidənsən!"[3];**

**"Ey Rəbbim, məni tənha buraxma, Sən varislərin ən xeyirxahısan!"[4]**

Zəkəriyyə ﷺ yaşlı olmasına baxmayaraq Allahdan ümidini kəsmir, Allah da onun duasını qəbul edir və mələklər onu müjdələyib deyir: **"Allah səni, Allah tərəfindən olan kəlməni təsdiqləyən, *qövmünün* ağası, nəfsinə hakim və əməlisalehlərdən bir peyğəmbər olacaq Yəhya ilə müjdələyir".[5];**

**"Ey Zəkəriyyə, səni Yəhya adlı bir oğulla müjdələyirik! Biz bu adı *ondan* öncə kimsəyə qoymamışıq".[6];**

---

[1] Bu qız Məryəmin ﷺ doğma bacısı idi. Uca Allah bu qıza Yəhyanı ﷺ, Məryəmə ﷺ də İsanı ﷺ bəxş etməklə İmran ailəsini şərəfləndirmişdir. Quranda bu ailənin adı verilmiş "Ali-İmran" (İmran ailəsi) surəsində Uca Allah onları seçib aləmlərdən üstün etdiyini bildirir: **"Həqiqətən, Allah Adəmi, Nuhu, İbrahim nəslini və İmran ailəsini seçib aləmlərdən üstün etdi".** ("Ali-İmran" surəsi, 33).

İsa ﷺ və Yəhya ﷺ xalauşaqları idilər. Səhih hədisdə rəvayət edilir ki, Peyğəmbər ﷺ isra-merac səfərində ikinci səmada gördükləri barədə xəbər verərkən, belə demişdir: "İkinci səmanın qapıları açıldı və mən içəri daxil olduqda, orada xalauşaqlarını – Yəhyanı və İsanı gördüm...". ("Səhih əl-Buxari", 3887).

[2] "Məryəm" surəsi, 4-6.

[3] "Ali-İmran" surəsi, 37.

[4] "əl-Ənbiya" surəsi, 89.

[5] "Ali-İmran" surəsi, 38-39.

[6] "Məryəm" surəsi, 7.

**“Biz onun duasını qəbul etdik, ona Yəhyanı bəxş etdik və zövcəsini ona *uşaq doğmağa* qadir etdik. Həqiqətən, onlar yaxşı işlər görməyə tələsər, ümid və qorxu ilə Bizə yalvarardılar. Onlar Bizə müti *qullar* idilər”.**[1]

Sonucu ayədə: **“Onlar yaxşı işlər görməyə tələsər, ümid və qorxu ilə Bizə yalvarardılar. Onlar Bizə müti *qullar* idilər”** sözündən aydın başa düşülür ki, bu peyğəmbərlər yalnız Allaha ibadət edir, yalnız Ona ümid edir, yalnız Ondan qorxur və yalnız Onun əmrlərini yerinə yetirirdilər.

Digər ayələrdə Uca Allah Yəhyanı belə tərif edir: ***“Qövmünün*** **ağası, nəfsinə hakim və əməlisalehlərdən bir peyğəmbər olacaq”.**[2]**;**

**“Biz Yəhyaya uşaq ikən hikmət, şəfqət və paklıq bəxş etdik. O, Allahdan qorxan və ata-anasına qarşı qayğıkeş birisi idi; lovğa və asi deyildi. Doğulduğu gün də, öləcəyi gün də, yenidən dirildiləcəyi gün də ona salam olsun!”**[3]

[1] “əl-Ənbiya” surəsi, 90.
[2] “Ali-İmran” surəsi, 38-39.
[3] “Məryəm” surəsi, 12-15.

# İsa aleyhissəlam

İsa aleyhissəlam Allahın həm İsrail oğullarına göndərdiyi peyğəmbəri, həm də ulul-əzm (möhkəm iradə sahibi) olan beş rəsuldan biridir[1]. Bu möhtərəm peyğəmbərin عليه السلام əhvalatı Quranda dəfələrlə xatırlanır.

İmran ailəsindən olan bu peyğəmbər عليه السلام İsrail oğullarını tövhidə dəvət etmiş və özündən sonra Muhəmməd peyğəmbərin ﷺ elçi göndəriləcəyi haqda onlara xəbər vermişdir[2]. O, dünyaya gəlməmişdən əvvəl Uca Allah ona İsa adını vermiş və onun əməlisalehlərdən olacağını bildirmişdir. Mələklər onun anasını belə müjdələmişlər: **“Ey Məryəm! Həqiqətən, Allah səni Öz tərəfindən, adı Məryəm oğlu İsa Məsih olan bir kəlimə ilə müjdələyir. O, bu dünyada və axirətdə şan-şöhrətli və *Allaha* yaxınlaşdırılmış kimsələrdən olacaq. O, *həm* beşikdə ikən, *həm də* yetkin çağında insanlarla danışacaq və əməlisalehlərdən olacaq”.**[3]

Nəhayət, İsa عليه السلام dünyaya gəldikdə, İsrail oğulları onun anasının pis yola düşdüyünü zənn edirlər. Bu zaman beşikdə olan İsa عليه السلام dil açıb deyir: **“Həqiqətən, mən Allahın quluyam! O, mənə Kitab verdi və məni peyğəmbər etdi. Harada oluramsa-olum, məni mübarək etdi və nə qədər ki sağam, mənə namaz qılıb zəkat verməyi əmr etdi. Həm də *məni* anama qarşı qayğıkeş *etdi*; məni lovğa və bədbəxt etmədi. Doğulduğum gün də, öləcəyim gün də, yenidən dirildiləcəyim gün də mənə salam olsun!”**[4]

* İsa peyğəmbərin عليه السلام beşikdə dil açıb danışması Allahın ona bəxş etdiyi peyğəmbərlik dəlillərindəndir.

---

[1] Bu barədə 23-cü səhifədəki 2-ci haşiyə-çıxarışa bax.

[2] Bax: **“*Allah* buyurur: “İstədiyimi əzabıma düçar edirəm. Mərhəmətim isə hər şeyi əhatə edir. Mən onu *Allahdan* qorxan, zəkat verən və ayələrimizə iman gətirənlər üçün yazacağam. O kəslər ki, yanlarındakı Tövratda və İncildə, barəsində yazılmış olduğunu gördükləri elçinin – yazıb-oxumaq bilməyən peyğəmbərin ardınca gedərlər. O *peyğəmbər* onlara yaxşı işlər görməyi buyurar, pis əməlləri isə qadağan edər, onlara pak şeyləri halal, murdar şeyləri isə haram edər. Onların ağır yüklərini yüngülləşdirər və onları buxovlardan xilas edər. Ona iman gətirən, onu dəstəkləyən, ona kömək edən və onunla göndərilmiş nurun ardınca gedənlər isə nicat tapanlardır.”** (“əl-Əraf” surəsi, 156-157).

[3] “Ali-İmran” surəsi, 45-46.

[4] “Məryəm” surəsi, 27-33.

İsa peyğəmbər عليه السلام böyüdükdə Uca Allah ona peyğəmbərlik vəzifəsini yerinə yetirməyi buyurur, o da İsrail oğullarına Musanın عليه السلام yolunu davam etdirdiyini, onun dəvət etdiyi tövhidə dəvət etdiyini və Tövratı təsdiqləyini bildirib deyir: **"Ey İsrail oğulları, həqiqətən, mən Allahın sizə göndərdiyi, məndən əvvəl *nazil edilmiş* Tövratı təsdiqləyən və məndən sonra gələcək Əhməd adlı peyğəmbərlə *sizi* müjdələyən bir elçisiyəm".**[1];

**"Mən sizə hikmət gətirmişəm və barəsində ziddiyyətə düşdüyünüz bəzi şeyləri izah etmək üçün *gəlmişəm*. Allahdan qorxun və mənə itaət edin! Həqiqətən, Allah həm mənim Rəbbim, həm də sizin Rəbbinizdir. Elə isə, Ona ibadət edin! Budur düz yol!"**[2];

**"Ey İsrail oğulları, Rəbbim və Rəbbiniz olan Allaha ibadət edin! Kim Allaha şərik qoşarsa, heç şübhəsiz, Allah Cənnəti ona haram edər. Onun gedəcəyi yer atəşdir. Zalımların heç bir yardımçısı yoxdur".**[3]

Onların az bir qismi İsa peyğəmbərin عليه السلام dəvətinə cavab verir, qalanları isə onun dəvətini qəbul etməyib onu inkar edir: **"İsa onlardakı küfrü hiss etdikdə, dedi: "Allah yolunda kimlər mənə yardımçı olacaq?" Həvarilər dedilər: "Bizik Allahın *dininin* yardımçıları! Biz Allaha iman gətirdik. Sən də şahid ol ki, biz müsəlmanıq! Ey Rəbbimiz, biz sənin nazil etdiyinə iman gətirdik və *göndərdiyin* elçinin ardınca getdik. Bizi də şahidlərlə bir yerdə yaz!"**[4]

Bundan sonra kafirlər İsa peyğəmbəri عليه السلام öldürmək qərarına gəldilər, lakin Uca Allah onu qorudu.

İsa peyğəmbər عليه السلام Allahın əmri ilə ikinci səmaya qaldırıldıqdan sonra[5] onun həvariləri insanları tövhidə dəvət etməyə davam etdilər və bir çoxlarının haqq yola gəlməsinə səbəb oldular. Lakin zaman keçdikcə kafirlər İsa peyğəmbərin عليه السلام təbliğ etdiyi tövhidi təhrif etdilər və: "Allah üçlüyün üçüncüsüdür"– dedilər.[6]

Kafirlər "üçlük" deyəndə, "Allah, oğlu və müqəddəs ruh" olduğunu qəsd edirlər. Allah isə onların bu batil etiqadını inkar edərək belə buyurur:

---

[1] "əs-Saff" surəsi, 6.

[2] "əz-Zuxruf" surəsi, 63-64.

[3] "əl-Maidə" surəsi, 72.

[4] "Ali-İmran" surəsi, 52-53.

[5] Bax: "Ali-İmran" surəsi, 54-55 və "ən-Nisa" surəsi, 156-159.

[6] Bax: "əl-Maidə" surəsi, 73.

**“Ey Kitab əhli, dininizdə ifrata varmayın və Allah barəsində həqiqətdən başqa bir şey söyləməyin! Məryəm oğlu İsa Məsih ancaq Allahın rəsulu, Onun Məryəmə göndərdiyi *“Ol!”* kəlməsi və Onun tərəfindən *göndərilən* bir ruhdur. Allaha və Onun elçilərinə iman gətirin və: “*İlah* üçdür!” deməyin! *Batil əqidənizə* son qoyun! *Bu,* sizin üçün xeyirli olar. Həqiqətən, Allah Tək İlahdır! O, pakdır, müqəddəsdir, övladı olmaqdan uzaqdır. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Vəkil olaraq Allah yetər”.**[1]**;**

**“Nəsranilər: “*İsa* Məsih Allahın oğludur”– dedilər. Bu, onların ağızlarından çıxan sözlərdir. *Bu,* əvvəlki kafirlərin dediyinə bənzəyir. Allah onları məhv etsin! Gör necə də *haqdan* döndərilirlər! Onlar Allahı qoyub baş elm adamlarını və rahiblərini, bir də Məryəm oğlu İsanı ilah qəbul etdilər. Halbuki onlara ancaq tək olan İlaha ibadət etmək əmr olunmuşdu. Ondan başqa *ibadətə layiq olan* ilah yoxdur. *Allah* bunların şərik qoşduqları şeylərdən uzaqdır”.**[2]

Kitab əhlindən bir çoxları İsanın عليه السلام anası Məryəmi عليها السلام də müqəddəsləşdirərək Allaha şərik qoşdular. Bu xüsusda Quranda belə xəbər verilir: **«Allah deyəcək: “Ey Məryəm oğlu İsa, sənmi insanlara: “Allahı qoyub məni və anamı iki məbud qəbul edin!”– demişdin?” *İsa* deyəcək: “Sən pak və müqəddəssən! Haqqım olmayan bir şeyi demək mənə yaraşmaz. Əgər bunu demiş olsaydım, əlbəttə, Sən onu bilərdin. Sən mənim qəlbimdə olanları bilirsən, mən isə Səndə olanları bilmirəm. Şübhəsiz ki, qeybləri bilən Sənsən! Mən onlara ancaq Sənin mənə əmr etdiyini: “Mənim də Rəbbim, sizin də Rəbbiniz olan Allaha ibadət edin!”– demişəm. Nə qədər ki, onların arasında idim, mən onlara şahid idim. Sən məni *onların arasından* götürdükdən sonra isə, onlara nəzarət edən Sən oldun. Sən hər şeyə şahidsən”».**[3]

Uca Allah onların hər ikisinin ilah olmadığını ibrətli bir məsəllə bəyan edərək buyurur: **“Məryəm oğlu Məsih ancaq bir elçidir, ondan əvvəl də elçilər gəlib getmişlər. Onun anası isə *Allaha* sidq-ürəkdən inanan bir qadın idi. Hər ikisi yemək yeyərdi. Bax gör, ayələrimizi onlara necə bəyan edirik, sonra da, gör onlar *haqdan* necə üz çevirirlər”.**[4]

---

[1] “ən-Nisa” surəsi, 171.

[2] “ət-Tövbə” surəsi, 30-31.

[3] “əl-Maidə” surəsi, 116-117.

[4] “əl-Maidə” surəsi, 75.

* Diqqət edin. Ayədə: **"Hər ikisi yemək yeyərdi"**– deməklə Uca Allah onların yemək-içməyə ehtiyacı olan yaradılmış olmasına işarə edir.

İsa peyğəmbərin عليه السلام Allahın qulu və rəsulu olduğuna etiqad etmək hər bir müsəlmana vacibdir. Bu xüsusda Peyğəmbərimiz ﷺ belə buyurmuşdur: "Kim Allahdan başqa heç bir məbudun olmadığına, Onun Tək İlah olduğuna və heç bir şəriki olmadığına, Muhəmmədin Onun qulu və rəsulu olduğuna, İsanın Allahın qulu, rəsulu, Məryəmə göndərdiyi kəlməsi və Onun *göndərdiyi* ruhdan olduğuna, Cənnətin haqq, Cəhənnəmin də haqq olduğuna şahidlik etsə, nə əməl etmiş olursa-olsun, Allah onu Cənnətə daxil edər".[1]

Bir qədər öncə qeyd etdik ki, kafirlər İsa peyğəmbəri عليه السلام öldürmək qərarına gəldilər və bunun üçün ona hiylə qurdular, lakin Uca Allah onu qorudu: **"Onlar: "Biz Allahın elçisi Məryəm oğlu İsa Məsihi öldürdük!"– dediklərinə görə** ***lənətə düçar edildilər.*** **Halbuki, onu nə öldürdülər, nə də çarmıxa çəkdilər. Onlara ancaq** ***İsanın*** **bənzəri göstərildi. Şübhəsiz ki, bunda ixtilaf edənlər, onun barəsində şəkk-şübhə içindədirlər. Bu haqda onların zənnə uymaqdan başqa heç bir bilgisi yoxdur. Həqiqətdə isə onu öldürməmişdilər. Əksinə, Allah onu Özünə tərəf qaldırmışdı. Allah qüdrətlidir, hikmət sahibidir. Kitab əhlindən hər kəs** ***öz ölümündən, yaxud İsanın*** **ölümündən əvvəl ona iman gətirəcək. Qiyamət günü isə** ***İsa*** **onların əleyhinə şahid olacaqdır".**[2]

Bu ayələrlə bağlı üç mühüm məsələyə toxunmaq istərdik: İsa peyğəmbərin عليه السلام bənzərinin çarmıxa çəkilməsi, İsa peyğəmbərin عليه السلام səmaya qaldırılması və bir də onun Qiyamətə yaxın yerə enməsi.

Təfsirçilər və tarixçilər yazırlar ki, rum əsgərləri İsa peyğəmbərin عليه السلام olduğu bağı mühasirəyə alıb onu həbs etmək istədikdə, Allah onu göyə qaldırır və ona xəyanət etmiş Yəhuza Əsxəryuti adlı şəxsi onun qiyafəsinə salır. Beləliklə də, rum əsgərləri Yəhuzanın İsa عليه السلام olduğunu güman edərək onu tutub çarmıxa çəkirlər. Əsgərlər İsa peyğəmbəri عليه السلام həbs etməyə gəldikdə, Uca Allah ona belə buyurur: **"Ey İsa, həqiqətən, Mən sənin həyatına son qoyub Özümə tərəf qaldıracam, səni kafirlərdən təmizləyəcəm**

---

[1] "Səhih əl-Buxari", 3435.

[2] "ən-Nisa" surəsi, 157-159.

**və sənin ardınca gedənləri Qiyamət gününə qədər kafirlərdən üstün edəcəyəm. Sonra sizin dönüşünüz Mənə olacaq. Mən də, ixtilafa düşdüyünüz şeylər barəsində sizin aranızda hökm verəcəm".**[1]

Ayədəki **"həyatına son qoyub"** sözü İsa peyğəmbərin ﷺ vəfat etməsinə deyil, sadəcə dünya həyatından bərzəx həyatına köçməsinə işarədir. Belə ki, Uca Allah onu otuz üç yaşında ikən göyə qaldırmış və ikinci səmaya yerləşdirmişdir. Rəvayət edilir ki, Peyğəmbər ﷺ isra-merac səfərində gördükləri barədə xəbər verərkən, belə demişdir: "İkinci səmanın qapıları açıldı və mən içəri daxil olduqda, orada xalauşaqlarını – Yəhyanı və İsanı gördüm...".[2]

İsa peyğəmbər ﷺ Qiyamətədək orada qalacaq və nəhayət, Qiyamətə yaxın bir vaxtda yer üzünə nazil olacaq. Bu xüsusda Peyğəmbər ﷺ belə demişdir: "Məryəm oğlu Məsih *İsa* əllərini iki mələyin qanadları üstünə qoyduğu halda, Dəməşqin şərqindəki ağ minarənin yanında nazil olacaq".[3]

Əbu Hureyradan رضي الله عنه rəvayət olunan digər hədisdə, o ﷺ demişdir: "Canım Əlində olan *Allaha* and olsun ki, tezliklə Məryəm oğlu İsa aranızda ədalətlə hökm vermək üçün[4] sizin yanınıza enəcək, xaçları sındıracaq, donuzları öldürəcək və cizyəni[5] aradan qaldıracaq.[6] *Həmin vaxt* mal-dövlət o qədər artacaq ki, heç kəs sədəqə götürmək istəməyəcək, hətta bir səcdə, dünya və onun içindəkilərdən daha xeyirli olacaq". Sonra Əbu Hureyra رضي الله عنه dedi: "İstəyirsinizsə, *bu ayəni*[7] oxuyun: **"Kitab əhlindən elə kimsə yoxdur ki, onun ölümündən əvvəl ona iman gətirməsin. Qiyamət günü isə *İsa* onların əleyhinə şahid olacaqdır".**[8]

---

[1] "Ali-İmran" surəsi, 55.

[2] "Səhih əl-Buxari", 3887.

[3] "Səhih Muslim", 2937.

[4] Bu dəlildir ki, İsa ﷺ yeni bir şəriət gətirməyəcək, əksinə, bu ümmətə başçılıq edəcək ədalətli bir hakim olaraq göndəriləcək.

[5] Müsəlman dövlətinin himayəsi altında yaşayan qeyri-müsəlmanlardan alınan mal və ya can vergisi.

[6] Burada "cizyəni aradan qaldıracaq" deyildikdə, cizyəni qəbul etməyəcəyi qəsd edilir. Yəni kafirlərə ya İslam dinini qəbul etmək, ya da vuruşmaq təklif ediləcək.

[7] "ən-Nisa" surəsi, 159.

[8] "Səhih əl-Buxari", 2222; "Səhih Muslim", 155.

Digər hədisdə Peyğəmbər ﷺ demişdir: **"Həqiqətən, onun *yer üzünə enməsi* Qiyamətin *yaxınlaşmasının* əlamətidir"**[1] ayəsi Məryəm oğlunun عليه السلام Qiyamətdən əvvəl yer üzünə enməsinə dəlalət edir".[2]

Yenə başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "İsa qırx yaşınadək yaşadıqdan sonra dünyadan köçəcək və müsəlmanlar ona cənazə namazı qılacaqlar".[3]

Bu hədislərdən aydın başa düşülür ki, Qiyamətdən əvvəl İsa peyğəmbər عليه السلام yer üzünə nazil olub yeddi il müsəlmanlara başçılıq edəcək və insanlara məhz İslam şəriətini təbliğ edəcəkdir.

[1] "əz-Zuxruf" surəsi, 61.
[2] "Səhih İbn Hibban", 8/222.
[3] "Sunən Əbu Davud", 2/214; "Silsilə əl-Əhadis əs-Səhihə", 2182.

# Muhəmməd sallallahu aleyhi və səlləm

Muhəmməd – sallallahu aleyhi və səlləm – Allahın insanlara və cinlərə göndərdiyi peyğəmbəri və ulul-əzm (möhkəm iradə sahibi) olan beş rəsuldan biridir.[1] Bu möhtərəm peyğəmbər ﷺ peyğəmbərlərin sonuncusudur. Bu xüsusda Quranda belə buyurulur: **"O, Allahın rəsulu və peyğəmbərlərin sonuncusudur".[2];**

**«Bir zaman Məryəm oğlu İsa demişdi: "Ey İsrail oğulları, həqiqətən, mən Allahın sizə göndərdiyi, məndən əvvəl *nazil edilmiş* Tövratı təsdiqləyən və məndən sonra gələcək Əhməd adlı peyğəmbərlə *sizi* müjdələyən rəsuluyam!"»[3];**

**"*Allah* buyurdu: "İstədiyimi əzabıma düçar edirəm. Mərhəmətim isə hər şeyi əhatə edir. Mən onu *Allahdan* qorxan, zəkat verən və ayələrimizə iman gətirənlər üçün yazacağam. O kəslər ki, yanlarındakı Tövrat və İncildə, barəsində yazılmış olduğunu gördükləri rəsulun – yazıb-oxumaq bilməyən peyğəmbərin ardınca gedərlər".[4]**

Uca Allah Muhəmməd peyğəmbərə ﷺ Qiyamət gününədək yer üzündə onun peyğəmbərliyini təsdiq edəcək Quranı nazil etmiş və bu mübarək Kitab sayəsində bir çox insanları və cinləri haqq yola yönəltmişdir. Cinlərin İslamı qəbul etməsi oxucuya qəribə gəlməsin. Quranda ayırca "Cin" surəsi var və bu surədə cinlərin necə İslam dinini qəbul etmələri barədə xəbər verilir. Belə ki, bir dəstə cin Peyğəmbərin ﷺ oxuduğu Quran ayələrini dinlədikdən sonra belə deyirlər: **"Biz doğru yolu göstərən rəhbəri eşitdiyimiz zaman ona iman gətirdik".[5]**

Uca Allah əl-Ənam surəsinin 83-cü ayəsindən 90-cı ayəsinədək peyğəmbərləri tərif edir, onlardan bir qisminin adlarını sadalayır və nəhayət, bu surənin 90-cı ayəsində Peyğəmbərimiz Muhəmmədə ﷺ belə buyurur:

---

[1] Bu barədə 23-cü səhifədəki 2-ci haşiyə-çıxarışa bax.

[2] "əl-Əhzab" surəsi, 40.

[3] "əs-Saff" surəsi, 6.

[4] "əl-Əraf" surəsi, 156-157.

[5] "Cin" surəsi, 13.

**“Bunlar Allahın doğru yola yönəltdiyi kimsələrdir. Sən də onların haqq yoluna yönəl!”**[1]

Digər bir ayədə O belə buyurur: ***“Allah*** **Nuha tövsiyə etdiyini, sənə vəhy etdiyimizi, İbrahimə, Musaya və İsaya tövsiyə etdiyimizi sizin üçün də dində qanun etdi: “Dinə doğru-düzgün etiqad edin və onda bölünüb firqə-firqə olmayın!” Sənin dəvət etdiyin *tövhid* müşriklərə ağır gəldi”.**[2]

Bu ayələrdən göründüyü kimi, Uca Allah Peyğəmbərə ﷺ əvvəlki peyğəmbərlər عليهم السلام kimi insanları tövhidə dəvət etməyi əmr edir. Peyğəmbərlərin عليهم السلام hamısı eyni etiqadda olmuş, sadəcə onların şəriət qayda-qanunları fərqli olmuşdur. Bu xüsusda rəvayət edilmiş hədisdə Peyğəmbər ﷺ demişdir: “Peyğəmbərlər ata bir, ana ayrı övladlardır. Anaları ayrı olsa da, dinləri birdir”.[3] Bundan aydın başa düşülür ki, tövhid xüsusunda peyğəmbərlərin etiqadı eyni olmuşdur. Deməkdir, İslam şəriətinin bizə öyrətdiyi tövhid, peyğəmbərlərin hamısının bəşəriyyətə təbliğ etdiyi tövhiddir. Bu da o deməkdir ki, əgər insanlar Muhəmməd peyğəmbərin ﷺ təbliğ etdiyi tövhidi öyrənib, onun tələblərini yerinə yetirsələr, heç vaxt ixtilafa düşməz, əksinə, peyğəmbərlərin yoluna yönəlmiş olar, nəticədə də, bir ümmət olarlar:

«[Ey Muhəmməd!] **De: “Mənə Allaha ibadət etmək və Ona şərik qoşmamaq əmr edilmişdir. Mən *sizi* yalnız Ona *ibadət etməyə* çağırıram və mənim axır dönüşüm də yalnız Onadır!”**»[4]

---

[1] “əl-Ənam” surəsi, 90.

[2] “əş-Şura” surəsi, 13.

[3] “Səhih əl-Buxari”, 3443; “Səhih Muslim”, 2365.

[4] “ər-Rəd” surəsi, 36.

# Muhəmməd peyğəmbərin ﷺ insanlara və cinlərə təbliğ etdiyi tövhid

# Allah Xaliqdir[1], Onun heç bir şəriki yoxdur

## Sağlam fitrət[2] Allahın varlığına dəlildir.

Bu xüsusda Uca Allah buyurur: **"Sən bir hənif kimi** (batildən üz çevirib, haqqa yönələrək) **üzünü dinə tərəf çevir! Allahın insanlara, xəlq etdiyi *şüurlu* məxluq kimi verdiyi fitrət budur. Allahın yaratdığını heç cür dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların çoxu *bunu* bilmir".**[3]

Hədisdə rəvayət edilir ki, Peyğəmbər ﷺ səhabələrinə Rəbbinin belə dediyini xəbər vermişdir: "Mən qullarımın hamısını hənif olaraq yaratdım. Sonra şeytanlar onları dindən döndərdi, Mənim qullarıma haram buyurduqlarımı onlara halal etdilər və onlara barəsində heç bir dəlil nazil etmədiyim şeyləri Mənə şərik qoşmağı əmr etdilər".[4]

Digər bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Hər bir körpə fitrəti üzərində (tövhidə meyilli olaraq) doğulur. Sonra ata-anası onu ya yəhudi, ya nəsrani, ya da məcusi edir."[5]

## Allahın yaratdığı hər bir məxluq Onun xaliq olmasına dəlildir.

Bu xüsusda Quranda belə buyurulur: **"Yoxsa onlar öz-özünə yaranıblar? Yaxud onlar yaradandırlar? Yoxsa onlar göyləri və yeri yaradıblar? Xeyr, onlar qətiyyən inanmırlar".**[6] Məgər onlar heç nədən yaranıblar? Bəlkə özləri-özlərini yaradıblar?! Xeyr, onları Allah yaradıb. Onlar biləbilə ki, göyləri və yeri yaratmağa qadir olan tək xaliq yalnız Allahdır və bu işdə Onun heç bir şəriki yoxdur, yenə də Ona şəriklər qoşurlar.[7]

---

[1] "əl-Xaliq", uca Allahın adlarından biridir, "Yaradan" deməkdir.

[2] "Fitrət" deyildikdə, lüğəti mənada xilqət, xasiyyət, şəri mənada isə İslam dini, düzgün əqidə, tövhidə meyillilik nəzərdə tutulur.

[3] "ər-Rum" surəsi, 30.

[4] "Səhih Muslim", 7309.

[5] "Səhih əl-Buxari", 1359.

[6] "ət-Tur" surəsi, 35-36.

[7] İbn Kəsir, "Təfsir əl-Quran əl-Azim", 7/437.

Digər ayədə isə belə buyurulur: **“Yoxsa onlar Allaha, Onun yaratdığı kimi yaradan şəriklər tapıblar və *bu* yaradılış onlara bənzər görünüb?! De: “Hər şeyi yaradan Allahdır. O Təkdir, *hər şeyə* Qalib gələndir”.**[1]

**Bütün peyğəmbərlər ﻋﻠﻴﻬﻢ السلام öz ümmətlərinə Allahın tək xaliq olduğunu bildirmiş və onları yalnız Allaha ibadət etməyə dəvət etmişlər.**

Bu xüsusda Quranda bunlar xəbər verilir:

**«Peyğəmbərləri *onlara* dedilər: “Göyləri və yeri yaradan Allaha şəkk etməkmi olar?! O, günahlarınızı bağışlamaq və sizə müəyyən vaxta qədər möhlət vermək üçün sizi *iman gətirməyə* çağırır”. Onlar dedilər: “Siz də bizim kimi ancaq bir insansınız, bizi atalarımızın ibadət etdiklərindən döndərmək istəyirsiniz. Elə isə, bizə açıq-aydın bir dəlil gətirin”».**[2]

**“**[İbrahim dedi:] **“Həqiqətən, mən hənif olaraq** (batildən üz çevirib, haqqa yönələrək) **üzümü göyləri və yeri Yaradana çevirdim. Mən müşriklərdən deyiləm”.**[3]

**“*Musa* dedi: “Sən artıq bilirsən ki, bunları yalnız göylərin və yerin Rəbbi açıq-aşkar dəlil olaraq endirdi. Mən isə, ey Firon, sənin məhv olacağını yəqin bilirəm”.**[4]

***“İsa dedi:* “Həqiqətən, Allah mənim də Rəbbim, sizin də Rəbbinizdir. Elə isə, Ona ibadət edin! Doğru yol da, budur!”**[5]

Əli ibn Əbu Talib[6] رضي الله عنه rəvayət etmişdir ki, Rəsulullah ﷺ gecə namazını qıldıqda, qiyamda[1] ikən belə dua edərdi:

---

[1] “ər-Rəd” surəsi, 16.

[2] “İbrahim” surəsi, 10.

[3] “əl-Ənam” surəsi, 79.

[4] “əl-İsra” surəsi, 102.

[5] “Ali-İmran” surəsi, 51.

[6] “Əbu Turab”, yaxud “Əbu Sibteyn”, yaxud “Əbul-Həsən”. Əli ibn Əbu Talib ibn Abdulmuttalib əl-Haşimi رضي الله عنه Peyğəmbərin ﷺ əmisi oğlu, səhabəsi və raşidi xəlifələrin dördüncüsüdür. Fil ilindən otuz il sonra, yəni Muhəmmədə ﷺ peyğəmbərlik verilməmişdən on il əvvəl dünyaya gəlmiş və İslam dinini ilk əvvəl qəbul etmiş səhabələrdəndir. O, Peyğəmbərin ﷺ həm kürəkəni, həm də ən əziz və reyhan qoxulu nəvələri Həsən və Hüseynin رضي الله عنهما atasıdır. Təbuk döyüşü istisna olmaqla, Peyğəmbərlə ﷺ birlikdə döyüşlərin hamısında iştirak etmiş və ağac altında ona beyət gətirənlərdən olmuşdur. Təbuk

((وَجَّهْتُ وَجْهِيَ لِلَّذِي فَطَرَ السَّمَوَاتِ وَالْأَرْضَ حَنِيفًا وَمَا أَنَا مِنَ الْمُشْرِكِينَ، إِنَّ صَلاَتِي، وَنُسُكِي، وَمَحْيَايَ، وَمَمَاتِي للهِ رَبِّ الْعَالَمِينَ، لاَ شَرِيكَ لَهُ وَبِذَلِكَ أُمِرْتُ وَأَنَا مِنَ الْمُسْلِمِينَ. اللَّهُمَّ أَنْتَ الْمَلِكُ لاَ إِلَهَ إِلاَّ أَنْتَ. أَنْتَ رَبِّي وَأَنَا عَبْدُكَ، ظَلَمْتُ نَفْسِي وَاعْتَرَفْتُ بِذَنْبِي، فَاغْفِرْ لِي ذُنُوبِي جَمِيعًا، إِنَّهُ لاَ يَغْفِرُ الذُّنُوبَ إِلاَّ أَنْتَ. وَاهْدِنِي لأَحْسَنِ الْأَخْلاَقِ، لاَ يَهْدِي لأَحْسَنِهَا إِلاَّ أَنْتَ، وَاصْرِفْ عَنِّي سَيِّئَهَا، لاَ يَصْرِفُ عَنِّي سَيِّئَهَا إِلاَّ أَنْتَ. لَبَّيْكَ وَسَعْدَيْكَ، وَالْخَيْرُ كُلُّهُ بِيَدَيْكَ، وَالشَّرُّ لَيْسَ إِلَيْكَ، أَنَا بِكَ وَإِلَيْكَ، تَبَارَكْتَ وَتَعَالَيْتَ، أَسْتَغْفِرُكَ وَأَتُوبُ إِلَيْكَ))

"Mən hənif olaraq (batildən üz çevirib, haqqa yönələrək) üzümü göyləri və yeri Yaradana çevirdim. Mən müşriklərdən deyiləm. Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür. Onun heç bir şəriki yoxdur. Mənə belə buyurulmuşdur və mən müsəlmanlardanam. Allahım, hökmdar Sənsən! Səndən başqa məbud yoxdur. Sən mənim Rəbbimsən, mən isə Sənin qulunam. Özümə zülm etdim və günahımı etiraf etdim. Mənim bütün günahlarımı bağışla! – Şübhəsiz ki, günahları ancaq Sən bağışlaya bilərsən. Mənə ən gözəl əxlaqı nəsib et! – Onun ən gözəlini ancaq Sən bəxş edə bilərsən. Onun pisindən məni uzaq et! – Məni onun pisindən ancaq Sən uzaqlaşdıra bilərsən. Buyur, əmrinə müntəzirəm! Xeyir bütünlüklə Sənin iki Əlindədir, şər isə Sənə aid deyildir. Mən Səninləyəm, Sənə də dönəcəyəm. Mübarək və Ucasan! Səndən bağışlanma diləyir və Sənə tövbə edirəm".

döyüşü ərəfəsində Peyğəmbər ﷺ onu öz yerinə Mədinəyə xəlifə təyin etmişdir. Səd ibn Əbu Vəqqas رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ Təbuka yola düşərkən Əlini öz yerinə [Mədinəyə] rəhbər təyin etdi. Onda Əli رضي الله عنه dedi: "Doğrudanmı, sən məni uşaqların və qadınların yanında qoyub getmək istəyirsən?!" Peyğəmbər ﷺ buyurdu: "İstəmirsən ki, Harun Musaya yaxın olduğu kimi, sən də mənə yaxın olasan?! Fəqət məndən sonra peyğəmbər gəlməyəcək". ("Səhih əl-Buxari", 4416).

Əli ibn Əbu Talib رضي الله عنه sağlığında ikən Cənnətlə müjdələnmiş on nəfərdən biridir. Hicrətin 35-ci ilində, zilhiccə ayının 18-i, cümə günü xəlifəliyə başlamış və 4 il 9 ay möminlərə layiqincə əmirlik etmişdir. Hicrətin 40-cı ilində, ramazan ayının 17-si, cümə günü Kufə şəhərində Abdur-Rəhman ibn Mülcəm əl-Muradi tərəfindən vurulmuş və üç gündən sonra, altmış üç yaşında şəhid olmuşdur. Oğlanları Həsən və Hüseyn, habelə Cəfərin oğlu Abdullah رضي الله عنهم onu yuyub kəfənləmiş, oğlu Həsən onun cənazə namazını qıldırmış və bundan sonra onu dəfn etmişlər.

[1] Qiyam, namazda ayaq üstə durmaq halıdır.

Sonra rükuda dua edib deyərdi:

((اللَّهُمَّ لَكَ رَكَعْتُ، وَبِكَ آمَنْتُ، وَلَكَ أَسْلَمْتُ، خَشَعَ لَكَ سَمْعِي، وَ بَصَرِي، وَمُخِّي، وَعَظْمِي، وَعَصَبِي))

"Allahım, Sənə rüku etdim, Sənə iman gətirdim, Sənə təslim oldum! Qulağım, gözüm, beynim, sümüyüm və sinirim Sənə tabe oldu!"

Rükudan qalxdıqdan sonra belə dua edərdi:

((اللَّهُمَّ رَبَّنَا لَكَ الْحَمْدُ مِلْءَ السَّمَوَاتِ وَمِلْءَ الْأَرْضِ وَمِلْءَ مَا بَيْنَهُمَا، وَمِلْءَ مَا شِئْتَ مِنْ شَيْءٍ بَعْدُ))

"Allahım, göylər dolusu, yer dolusu, onların arasında olanlar dolusu və bundan sonra dilədiyin şeylər dolusu [qədər] Sənə həmd olsun!"

Sonra səcdədə dua edib deyərdi:

((اللَّهُمَّ لَكَ سَجَدْتُ، وَبِكَ آمَنْتُ، وَلَكَ أَسْلَمْتُ، سَجَدَ وَجْهِيَ لِلَّذِي خَلَقَهُ، وَصَوَّرَهُ، وَشَقَّ سَمْعَهُ وَبَصَرَهُ، تَبَارَكَ اللهُ أَحْسَنُ الْخَالِقِينَ))

"Allahım, Sənə səcdə etdim, Sənə iman gətirdim, Sənə təslim oldum! Üzüm onu yaradana, ona surət verənə, onda göz və qulaq açana səcdə etdi. Yaradanların ən gözəli olan Allah nə qədər xeyirxahdır!"

Nəhayət, namazın sonunda təşəhhüdü oxuyub qurtardıqdan sonra, salam verməzdən əvvəl belə dua edərdi:

((اللَّهُمَّ اغْفِرْ لِي مَا قَدَّمْتُ، وَمَا أَخَّرْتُ، وَمَا أَسْرَرْتُ، وَمَا أَعْلَنْتُ، وَمَا أَسْرَفْتُ، وَمَا أَنْتَ أَعْلَمُ بِهِ مِنِّي. أَنْتَ الْمُقَدِّمُ ، وَأَنْتَ الْمُؤَخِّرُ، لاَ إِلَهَ إِلاَّ أَنْتَ))

"Allahım, əvvəl etdiyim və sonra edəcəyim, gizlin saxladığım və üzə çıxardığım, xəta etdiyim və məndən daha yaxşı bildiyin *pis* əməllərimi bağışla! Əvvələ çəkən də Sənsən, təxirə salan da Sənsən. Səndən başqa *ibadətə layiq* ilah yoxdur".[1]

---

[1] "Səhih Muslim", 1782.

**Peyğəmbərlərin ﷺ haqqa dəvət etdiyi ümmətlər də Allahın Xaliq olduğunu etiraf etmişlər.**

Bu barədə Quranda belə xəbər verilir:

**“Əgər onlardan: “Göyləri və yeri yaradan, Günəşi və Ayı ram edən kimdir?”– deyə soruşsan, onlar mütləq: “Allahdır!”– deyəcəklər. Onlar necə də *haqdan* döndərilirlər!”**[1]**;**

**“Əgər onlardan: “Göydən yağış nazil edib onunla yeri quruduqdan sonra canlandıran kimdir?”– deyə soruşsan, onlar mütləq: “Allahdır!”– deyəcəklər. De: “Həmd Allaha məxsusdur!” Lakin onların çoxu *bunu* başa düşmür”.**[2]**;**

**“Əgər onlardan özlərini kimin yaratdığını soruşsan: “Allah!”– deyərlər. Elə isə, gör, *haqdan* necə dönürlər?!”**[3]**;**

**“Əgər onlardan: “Göyləri və yeri kim yaradıb?”– deyə soruşsan, onlar hökmən: “Allah!”– deyəcəklər. De: “Həmd Allaha məxsusdur!” Lakin onların çoxu *bunu* bilmir”.**[4]

**Uca Allah bir çox ayələrdə insana məxluqatın necə yaradıldığı barədə düşünüb ibrət almağı buyurur.**

**“Qoy, insan yediyinə bir baxsın! Həqiqətən, yağışı bol-bol yağdıran Bizik. Sonra yeri çat-çat yarıb orada taxıl bitiririk. *Habelə* üzüm və yonca, zeytun və xurma *ağacları*, sıx-sıx bağlar, meyvələr və otlar da *bitiririk. Bu nemətlər* sizin və mal-qaranızın istifadəsi üçündür”.**[5]**;**

**“Qoy, insan nədən yaradıldığına bir baxsın! *İnsan* axıdılan nütfədən yaradılmışdır. Bu *nütfə* bel və köks sümükləri arasından çıxır. Şübhəsiz ki, *Allah* onu *dirildib* qaytarmağa qadirdir”.**[6]**;**

**«De: “Yer üzünü gəzib dolaşın və *Allahın* məxluqatı ilk dəfə necə yaratdığına baxın. Sonra Allah ölüləri dirildəcək. Allah hər şeyə qadirdir”».**[7]

---

[1] “əl-Ənkəbut” surəsi, 61.
[2] “əl-Ənkəbut” surəsi, 63.
[3] “əz-Zuxruf” surəsi, 87.
[4] “Loğman” surəsi, 25.
[5] “Əbəsə” surəsi, 24-32.
[6] “ət-Tariq” surəsi, 5-8.
[7] “əl-Ənkəbut” surəsi, 20.

**“Məgər onlar görmürlərmi ki, Biz gecəni, onların həmin vaxt istirahət etməsi üçün yaratmış, gündüzü isə işıqlı etmişik? Şübhəsiz ki, bunda iman gətirən adamlar üçün dəlillər vardır”.[1];**

**“Məgər onlar görmürlər ki, Biz onlar üçün, sahib olduqları mal-qaranı Öz əllərimizlə yaratmışıq?! Bu mal-qaranı onların ixtiyarına verdik. Onların bəzisini minir, bəzisini də yeyirlər. Bunlarda onlar üçün *başqa* mənfəətlər və içiləcək süd də var. Yenə də şükür etməyəcəklərmi?!”[2];**

**“Yer üzündə bir-birinə yaxın *müxtəlif münbit* torpaq sahələri, üzüm bağları, əkinlər, şaxəli-şaxəsiz xurma ağacları vardır. Onlar eyni su ilə suvarılır. *Lakin* Biz yeyilməsinə görə onların birini digərindən üstün edirik. Doğrudan da, bunda başa düşən adamlar üçün dəlillər var”.[3];**

**“Mülk Əlində Olan *Allah ən Əzəmətli,* xeyiri və bərəkəti bol olandır. O hər şeyə qadirdir. Əməl baxımından hansınızın daha yaxşı olduğunuzu sınamaq üçün ölümü və həyatı yaradan Odur. O, Qüdrətlidir, Bağışlayandır. Yeddi göyü təbəqələr şəklində quran Odur. Sən Mərhəmətli *Allahın* yaratdığında qətiyyən bir uyğunsuzluq tapmazsan. Bir başını qaldırıb *göyə* diqqət yetir, heç onda bir çat görürsənmi? Sonra göz gəzdirib təkrar bax. Göz zəlil və yorğun halda özünə tərəf dönəcək. Biz *sizə* yaxın olan göyü ulduzlarla bəzədik və onları şeytanlara atılan *alovlar* etdik. Biz onlar üçün yandırıb-yaxan od əzabı hazırlamışıq”.[4]**

### Hər şeyi yaradan Allahdır.

**“Allah hər şeyin xaliqidir. O, hər şeyi qoruyandır”.[5];**

**“O Allah sizin Rəbbinizdir, hər şeyin xaliqidir. Ondan başqa *ibadətə layiq olan* ilah yoxdur! Siz necə də *haqdan* döndərilirsiniz!”[6]**

Hədislərin birində rəvayət edilir ki, Rəsulullah ﷺ belə demişdir: “İnsanlar bir-birilərinə o qədər sual verəcəklər ki, axırda deyəcəklər: “Hər şeyi

---

[1] “ən-Nəml” surəsi, 86.
[2] “Ya sin” surəsi, 71-73.
[3] “ər-Rəd” surəsi, 4.
[4] “əl-Mulk” surəsi, 1-5.
[5] “əz-Zuxruf” surəsi, 62.
[6] “Ğafir” surəsi, 62.

yaradan Allahdır, bəs Allahı kim yaradıb?" Kim *qəlbində* belə bir *vəsvəsə* hiss etsə, qoy desin: "Aməntu billah (mən Allaha iman gətirmişəm!)".[1]

Yaxud: "Aməntu billahi və rusulih (mən Allaha və Onun rəsullarına iman gətirmişəm!)".[2]

Yaxud: "Qoy, həmin adam Allaha sığınsın[3] və *bu haqda düşünməyə* son qoysun!".[4]

Digər bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Vaxt gələcək insanlar öz aralarında bir-birilərinə *olmayan şeylər barədə* suallar verəcək və *axırda* onlardan biri deyəcək: "Hər şeyi Allah yaradıb, bəs Allahı kim yaradıb?" Onların belə dediyini gördüyünüz zaman siz: "Allahu Əhəd, Allahus-Saməd, ləm yəlid və ləm yuləd, və ləm yəkun ləhu kufuvən əhəd (Allah Təkdir, Allah möhtac deyildir. O, nə doğub, nə doğulub, Onun bənzəri də yoxdur)"– deyin. Sonra da bunu deyən adam sol tərəfinə üç dəfə tüpürsün və şeytandan Allaha sığınsın".[5]

Allahın varlığı əzəli və əbədidir. Belə ki, Allah var ikən, Ondan başqa heç bir şey yox idi. Sonra qüdrətli Allah məxluqatı yoxdan yaratdı:

**"Məxluqatı ilk dəfə *yoxdan* yaradan, sonra onu yenidən öz *xilqətinə* qaytaran Odur. Bu da *Allah* üçün çox asandır. Göylərdə və yerdə olan ən uca sifətlər Ona məxsusdur. O, Qüdrətlidir, Hikmət sahibidir".[6]**

---

[1] "Səhih əl-Buxari", 6752; "Səhih Muslim", 343.

[2] "Səhih Muslim", 344.

[3] Yəni, "əuzu billahi minəş-şeytanir-racim!" desin.

[4] "Səhih əl-Buxari", 3276; "Səhih Muslim", 345.

[5] "Sunən Əbu Davud", 4732; "Silsilə əl-Əhadis əs-Səhihə", 118.

Şeyx Muhəmməd Nasirəddin əl-Albani ﷺ demişdir: "Bu səhih hədislər dəlildir ki, şeytan bir adama: "Allahı kim yaradıb?"– deyə vəsvəsə verdikdə, həmin adam bu vəsvəsəyə uymayıb dərhal bu xüsusda hədislərdə deyilənləri yerinə yetirməlidir. Xülasəsi budur ki, şeytan adama vəsvəsə verdikdə, o: "Aməntu billahi və rusulih, Allahu Əhəd, Allahus-Saməd, ləm yəlid və ləm yuləd, və ləm yəkun ləhu kufuvən əhəd" deməli, sonra sol tərəfinə üç dəfə tüpürməli, daha sonra: "əuzu billahi minəş-şeytanir-rəcim!" deməli, sonra da bu vəsvəsə barədə düşünməməlidir. Mən etiqad edirəm ki, hər kim bunu Allaha və Onun rəsuluna ﷺ itaət etmək məqsədilə səmimi-qəlbdən edərsə, bu vəsvəsələr mütləq onu tərk edər və onun şeytanı məğlub olar. Çünki Peyğəmbər ﷺ: "Bu, şeytanın vəsvəsəsini aradan qaldırar" demişdir". ("Silsilə əl-Əhadis əs-Səhihə", 1/233-236).

[6] "ər-Rum" surəsi, 27.

Hədisdə isə Peyğəmbər ﷺ belə demişdir: "Allah var idi və Ondan başqa heç bir şey yox idi, Ərşi də suyun üzərində idi. Allah hər şeyi Kitaba yazdı[1]. *Sonra* göyləri və yeri yaratdı".[2]

## Göylərin, yerin və dağların yaradılışı.

**"Həqiqətən, göylərin və yerin yaradılışında, gecə ilə gündüzün bir-birini əvəz etməsində ağıl sahibləri üçün dəlillər vardır. O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edər, göylərin və yerin yaradılışı haqqında düşünər[3]** ***və deyərlər:*** **"Ey Rəbbimiz! Sən bunları əbəs yerə yaratmamısan. Sən pak və müqəddəssən. Bizi Cəhənnəm əzabından qoru!"[4];**

**"Yeddi göyü və yerdən də bir o qədərini yaradan Allahdır. Vəhy onların arasında ona görə nazil olur ki, Allahın hər şeyə qadir olduğunu və Allahın elminin hər şeyi əhatə etdiyini biləsiniz".[5];**

**"Məgər onlar başları üstündəki göyə baxıb onu necə yaratdığımızı və necə bəzədiyimizi görmürlərmi? Orada heç bir yarıq da yoxdur. Biz yeri döşədik, orada möhkəm dağlar yerləşdirdik və göz oxşayan bitkilərin hər növündən yetişdirdik.** ***Bunu*** **Allaha üz tutan hər bir qul üçün ibrət və öyüd-nəsihət olsun deyə[6]** ***belə etdik*****".[7]**

Peyğəmbər ﷺ demişdir: "Kim *başqasının* torpağını haqsızcasına zəbt etsə, *Qiyamət günü* torpağın yeddi qatı onun boynuna keçər".[8]

---

[1] Yəni, hər şeyin qədərini əzəldən müəyyən edib Lövhi-Məhfuza yazdı.

[2] "Səhih əl-Buxari", 3191.

[3] Şeyx Əbu Süleyman əd-Darani ﵀ demişdir: "Mən evimdən bayıra çıxdıqda, gözümə dəyən hər bir şeydə Allahın mənə bəxş etdiyi neməti və ya o yaradılışda məni düşündürən ibrəti görürəm". (İbn Kəsir, "Təfsir əl-Quran əl-Azim", 2/184).

[4] "Ali-İmran" surəsi, 190-191.

[5] "ət-Talaq" surəsi, 12.

[6] İbn Teymiyyə ﵀ demişdir: "Kainatın yaradılışı xüsusunda olan dəlillərdə haqqı görməyənlər üçün ibrət, qəflətdə olanlar üçün də öyüd-nəsihət var. Belə ki, haqqı bilməyən adam bu dəlillərə baxıb düşündükdə, onu dərk edə bilər, haqqı bilib sonra onu unudan kimsə isə yenidən onu xatırlayar". ("Məcmu əl-Fətavə", 7/236).

[7] "Qaf" surəsi, 6-8.

[8] "Səhih əl-Buxari", 3198; "Səhih Muslim", 4143.

Rəvayət edilir ki, Ənəs ibn Malik[1] ﷺ demişdir: "Rəsulullahdan ﷺ *hər hansı* bir şey haqqında soruşmaq bizə qadağan edilmişdi.[2] *Odur ki,* bədəvilərdən ağıllı birisinin[3] gəlib qulağımız eşidə-eşidə Peyğəmbərə ﷺ sual verməsi bizə xoş gəlirdi. Bir dəfə bədəvilərdən biri gəlib dedi: "Ey Muhəmməd![4] Göndərdiyin adam yanımıza gəldi və söylədi ki, guya sən, Allahın səni *bəşəriyyətə* elçi göndərdiyini iddia edirsən?" Peyğəmbər ﷺ: "O, doğru söyləmişdir"– dedi. Adam soruşdu:

– Göyü yaradan kimdir?

– Allahdır!

– Yeri yaradan kimdir?

– Allahdır!

– Bu dağları dikəldən və onların üstündəkiləri yaradan kimdir?

– Allahdır!

– Səni and verirəm göyü və yeri yaradan, dağları dikəldən Allaha, de görüm, doğrudanmı Allah səni peyğəmbər göndərib?

– Bəli!

---

[1] Əbu Həmzə Ənəs ibn Malik ibn ən-Nədr əl-Ənsari əl-Xəzrəci ən-Nəccari ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Düz on il – on yaşından iyirmi yaşınadək Peyğəmbərə ﷺ xidmət etmiş və "Rəsulullahın ﷺ xidmətçisi" ləqəbi ilə tanınmışdır. (İbn Abdul-Bərr, "əl-İstiyab", 1/110).

[2] Burada "qadağan edilmişdi" deyildikdə, heç bir zərurət olmadan yersiz sual vermək nəzərdə tutulur. Rəvayətlərin birində Peyğəmbər ﷺ buyurmuşdur: "Allah sizlərə anaların üzünə ağ olmağı, qız uşaqlarını diri-diri yerə gömməyi, *borcu qaytarmaqdan* boyun qaçırmağı və "ver!" deyərək, *haqqınız olmayan bir şeyi* tələb etməyi qadağan etmişdir. O, habelə söz gəzdirməyinizi, çox sual verməyinizi və var-dövləti israf etməyinizi də xoşlamır". ("Səhih əl-Buxari", 2408). Haqqı öyrənmək məqsədilə sual verməkdə isə heç bir qəbahət yoxdur. Bu xüsusda Quranda belə buyurulur: **"Əgər bilmirsinizsə, Zikr əhlindən soruşun".** ("ən-Nəhl" surəsi, 43).

[3] "Ağıllı birisi" deyildikdə, ədəb-ərkanla sual verən, həm də mühüm məsələlər barədə soruşan və gözəl tərzdə müraciət edən kimsə nəzərdə tutulur. Belə ki, çöl əhlinin (bədəvilərin) çoxu cahil və kobud olurlar. Bu xüsusda rəvayət edilmiş hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Çöldə yaşayan adam nəzakətsiz olar. Ova aludə olan adam *haqdan* qafil olar. Padşahın qapısına gələn adam [ya oradakı naz-nemətləri görüb bunlara tamah salmaqla, ya da onun etdiyi haqsızlıqlara göz yummaqla] fitnəyə məruz qalar. Bir də ki, adam padşaha *yaltaqcasına* nə qədər çox yaxınlaşarsa, bir o qədər də Allahdan uzaq düşər". ("Musnəd İmam Əhməd", 2/371; "Silsilə əl-Əhadis əs-Səhihə", 1272).

[4] Səhabələr Uca Allahın: **"Peyğəmbəri, öz aranızda bir-birinizi çağırdığınız kimi çağırmayın".** ("ən-Nur" surəsi, 63) buyuruğuna itaət edərək, heç vaxt Peyğəmbərə ﷺ adı ilə müraciət etməzdilər. Ola bilsin ki, bu hadisə bu ayə nazil olmamışdan əvvəl, yaxud ayə nazil olduqdan sonra baş vermiş, lakin həmin bədəvinin bu qadağadan xəbəri olmamışdır.

– Göndərdiyin adam gecə və gündüz beş vaxt namaz qılmağın bizə vacib buyurulduğunu söylədi.

– Doğru söyləmişdir.

– Səni and verirəm səni elçi göndərən Allaha, de görüm, bunu sənə Allahmı əmr edib?

– Bəli!

– Göndərdiyin adam malımızdan zəkat verməyin bizə vacib buyurulduğunu söylədi.

– Doğru söyləmişdir.

– Səni and verirəm səni elçi göndərən Allaha, de görüm, bunu sənə Allahmı əmr edib?

– Bəli!

– Göndərdiyin adam *hər gələn* ilimizdə Ramazan ayını oruc tutmağın bizə vacib buyurulduğunu söylədi.

– Doğru söyləmişdir.

– Səni and verirəm səni elçi göndərən Allaha, de görüm, bunu sənə Allahmı əmr edib?

– Bəli!

– Göndərdiyin adam bizlərdən imkanı olan kimsəyə *Allahın* Evini ziyarət etməyin vacib buyurulduğunu söylədi.

– Doğru söyləmişdir.

Ənəs ﵁ dedi: "Sonra o adam: "Səni haqq ilə göndərən Allaha and olsun ki, mən bu buyurulanlara heç nə artırmayacağam və bunlardan heç nə əskiltməyəcəyəm"– dedi *və dönüb getdi*. Peyğəmbər ﷺ buyurdu: "Əgər doğru deyirsə, mütləq Cənnətə girəcək".[1]

Rəvayət edilir ki, İbn Abbas[2] ﵄ bir gecə Peyğəmbərin ﷺ evində

---

[1] "Səhih Muslim", 10.

[2] "Əbul-Abbas" Abdullah ibn Abbas ibn Abdulmuttalib əl-Haşimi ﵄. Hicrətdən az əvvəl dünyaya gəlmiş, Məkkənin fəthindən sonra ata-anası ilə birgə Mədinəyə hicrət etmişdir. Təqribən otuz ay Peyğəmbərin ﷺ yanında qalmış və ondan İslam elmlərini öyrənmişdir. Hicrətin 68-ci ilində, yetmiş bir yaşında vəfat etmişdir. O, təfsir alimlərinin imamı, "Tərcuman əl-Quran" (Quranın tərcüməçisi, yəni təfsirçisi) ləqəbi ilə tanınmış və ən çox hədis rəvayət etmiş yeddi səhabədən biridir. Peyğəmbərdən ﷺ 1660 hədis rəvayət etmişdir. ("Siyər Əlam ən-Nubələ", 51-ci tərcümeyi-hal). Bir rəvayətdə Peyğəmbər ﷺ onu bağrına basıb: "Allahım, ona hikmət öyrət!", digər rəvayətdə isə: "Allahım, ona Quranı öyrət!"– demişdir. ("Səhih əl-Buxari", 3756). Bir başqa rəvayətdə İbn Abbas ﵄ demişdir:

qalmış və *orada gördükləri barədə* belə xəbər vermişdir: "Gecənin axırında Peyğəmbər ﷺ bayıra çıxıb göyə baxdı, sonra "Ali-İmran" surəsindəki bu ayələri oxudu: **"Həqiqətən, göylərin və yerin yaradılışında, gecə ilə gündüzün bir-birini əvəz etməsində ağıl sahibləri üçün dəlillər vardır. O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edər, göylərin və yerin yaradılışı haqqında düşünər *və deyərlər:* "Ey Rəbbimiz! Sən bunları əbəs yerə yaratmamısan. Sən pak və müqəddəssən. Bizi Cəhənnəm əzabından qoru!"**[1] Sonra da evə qayıdıb dişlərini misvakla təmizlədi, dəstəmaz aldı və namaz qıldı. Namazı bitirdikdən sonra yerinə uzandı. Bir qədər sonra yenə qalxıb bayıra çıxdı və göyə baxıb bir daha o ayələri oxudu. Sonra evə qayıdıb dişlərini misvakla təmizlədi, dəstəmaz aldı və namaz qıldı".[2]

Abdullah ibn Amr ibn əl-As[3] رضي الله عنه rəvayət etmişdir ki, Peyğəmbər ﷺ belə demişdir: "Allah məxluqatın qədərini, göyləri və yeri yaratmamışdan əlli min il öncə yazmışdır. Həmin vaxt Onun Ərşi suyun üzərində idi!"[4]

## Ulduzların, Günəşin və Ayın yaradılışı.

**"Yeddi göyü təbəqələr şəklində yaradan Odur. Sən Mərhəmətli *Allahın* yaratdığında qətiyyən bir uyğunsuzluq tapa bilməzsən. Bir başını qaldırıb *göyə* diqqət yetir, heç onda bir çat görürsənmi? Sonra göz gəzdir, təkrar bax. Göz zəlil və yorğun halda özünə tərəf dönəcək. Biz *sizə* yaxın olan göyü ulduzlarla bəzədik və onları şeytanlara atılan *alovlar* etdik. Biz onlar üçün yandırıb-yaxan od əzabı hazırlamışıq".[5];**

**"Doğrudan da, Rəbbiniz göyləri və yeri altı gündə yaradan, sonra da Ərşin üzərində ucalan Allahdır. O, gündüzü sürətlə təqib edən gecə ilə örtüb bürüyür. Günəşi, Ayı və ulduzları Öz əmrinə tabe edən də Odur.**

---

"Peyğəmbər ﷺ ayaqyoluna getdi və mən ona su gətirdim. *Ayaqyolundan çıxdıqdan sonra* Peyğəmbər ﷺ: "Bunu kim gətirib?"– deyə soruşdu. Ona *bu haqda* xəbər verildikdə, o dedi: "Allahım, dini başa düşməyi bu gəncə müyəssər et!" ("Səhih əl-Buxari", 143).

[1] "Ali-İmran" surəsi, 190-191.

[2] "Səhih əl-Buxari", 4569; "Səhih Muslim", 517.

[3] Əbu Abdur-Rəhman Abdullah ibn Amr ibn As əs-Səhmi əl-Qurəşi رضي الله عنه Peyğəmbərin ﷺ azyaşlı səhabələrindəndir. ("Siyər Əlam ən-Nubələ", 117-ci tərcümeyi-hal).

[4] "Səhih Muslim", 6842.

[5] "əl-Mulk" surəsi, 3-5.

**Şübhəsiz ki, yaratmaq da, əmr etmək də Ona məxsusdur. Aləmlərin Rəbbi Allah** *ən əzəmətli,* **xeyiri və bərəkəti bol olandır".**[1]**;**

**"*Allah* gecəni və gündüzü, Günəşi və Ayı sizə ram etmişdir. Ulduzlar da Onun əmri ilə ram edilmişdir. Sözsüz ki, bunda anlayan adamlar üçün dəlillər vardır".**[2]**;**

**"Gecəni, gündüzü, Günəşi və Ayı yaradan Odur. Onların hər biri öz orbitində üzür".**[3]

Rəvayət edilir ki, Aişə[4] ﵂ demişdir: "Peyğəmbərin ﷺ dövründə Günəş tutuldu və buna görə də Peyğəmbər ﷺ camaata namaz qıldırdı. *Namazda* qiyamı[5] uzatdı, sonra rükuya getdi və rükunu uzatdı, sonra rükudan qalxdı və *yenə* qiyamı uzatdı, lakin bu qiyam əvvəlkindən qısa idi, sonra *bir də* rükuya getdi və rükunu uzatdı, lakin bu rüku əvvəlkindən qısa idi, sonra səcdəyə getdi və səcdəni uzatdı. İkinci rükətdə də birinci rükətdə elədiklərini təkrar etdi. Namazı bitirdikdə, Günəşin üzü artıq açılmışdı. Bundan sonra *qalxıb* xütbə verdi və Allaha həmd-səna edib, təriflər deyəndən sonra buyurdu: "Günəş və Ay Allahın dəlillərindəndir. Onlar kimsənin nə ölümünə, nə də dünyaya gəldiyinə görə tutulur. Odur ki, onların tutulduğunu gördüyünüz zaman Allaha dua edin, "Allahu Əkbər!" deyin, namaz qılın və sədəqə verin. Ey Muhəmməd ümməti! Vallahi, kişi

---

[1] "əl-Əraf" surəsi, 54.

[2] "ən-Nəhl" surəsi, 12.

[3] "əl-Ənbiya" surəsi, 33.

[4] Aişə bint Əbu Bəkr əs-Siddiq Abdullah ibn Əbu Quhafə Osman ibn Amir ət-Teymiyyə ﵂. Rəsulullahın ﷺ zövcəsi, möminlərin anası, bu ümmətin qadınları arasında İslam dinini ən yaxşı bilən və ən çox hədis rəvayət edən qadın səhabələrdəndir – Peyğəmbərdən ﷺ 2210 hədis rəvayət etmişdir. ("Siyər Əlam ən-Nubələ", 19-cu tərcümeyi-hal). Onun fəzilətinə dair neçə-neçə hədislər varid olmuşdur:

Rəvayət edilir ki, *bir gün* Peyğəmbər ﷺ Aişədən ﵂: "Sən həm bu dünyada, həm də Axirətdə mənim zövcəm olmağa razısanmı?"– deyə soruşmuş, Aişə də: "Əlbəttə, *razıyam*!"– deyə cavab vermişdir. Onda Peyğəmbər ﷺ belə demişdir: "Dünyada da, Axirətdə də sən mənim zövcəmsən!" ("Mustədrək əl-Hakim", 4/10; "Silsilət əl-Əhadis əs-Səhihə", 1142).

Digər bir hədisdə Peyğəmbər ﷺ belə demişdir: "Kişilərdən bir çoxları kamilliyə çatmışdır. Qadınlardan isə yalnız Fironun həyat yoldaşı Asiya və İmranın qızı Məryəm kamilliyə çatmışdır. Aişənin digər qadınlardan üstünlüyü isə, ətli şorbanın başqa yeməklərdən üstünlüyü kimidir". ("Səhih əl-Buxari", 3411).

[5] Burada Peyğəmbərin ﷺ təkbir gətirdikdən sonra rükuya gedənədək ayaq üstə olduğu hal nəzərdə tutulur.

və ya qadın qulunun zina etməsi xüsusunda heç kəs Allahdan daha qısqanc ola bilməz. Ey Muhəmməd ümməti! Vallahi, mən bildiyimi bilsəydiniz, az gülüb çox ağlayardınız. *Şahid olun ki,* mən təbliğ etdim!"[1]

Rəvayət edilir ki, Abdullah ibn Abbas ﷺ demişdir: "Peyğəmbərin ﷺ dövründə Günəş tutuldu və Peyğəmbər ﷺ bu səbəbdən *camaata* namaz qıldırdı. *Namazda* qiyamı o qədər uzatdı ki, *həmin vaxt ərzində* "əl-Bəqərə" surəsini oxumaq olardı. Sonra rükuya getdi və rükunu uzatdı, sonra rükudan qalxdı və qiyamı uzatdı, lakin bu qiyam əvvəlkindən qısa idi. Sonra *bir də* rükuya getdi və rükunu uzatdı, lakin bu rüku əvvəlkindən qısa idi. Sonra *rükudan qalxıb səcdəyə getdi və iki dəfə* səcdə etdi. Sonra ayağa qalxıb qiyamı uzatdı, lakin bu qiyam əvvəlkindən qısa idi. Sonra rükuya getdi və rükunu uzatdı, lakin bu rüku əvvəlkindən qısa idi. Sonra rükudan qalxdı və *yenə* qiyamı uzatdı, lakin bu qiyam əvvəlkindən qısa idi. Sonra *bir də* rükuya getdi və rükunu uzatdı, lakin bu rüku əvvəlkindən qısa idi. Sonra *rükudan qalxıb səcdəyə getdi və iki dəfə* səcdə etdi, sonra da *salamları verib* namazı bitirdi. *Bu vaxta* artıq Günəşin üzü açılmışdı. Bundan sonra Peyğəmbər ﷺ buyurdu: "Günəş və Ay Allahın dəlillərindəndir. Onlar kimsənin nə ölümünə, nə də dünyaya gəldiyinə görə tutulur. Odur ki, onların tutulduğunu görsəniz, Allahı zikr edin". *Səhabələr* dedilər: "Ey Allahın elçisi, biz sənin qiyamda ikən *əvvəlcə nə üçünsə* əlini uzatdığını, sonra da arxaya çəkildiyini gördük". Peyğəmbər ﷺ dedi: "Mən Cənnəti gördüm və *oradakı meyvələrdən* bir salxım dərmək istədim. Mən onu dərə bilsəydim, dünya durduqca siz ondan yeyə bilərdiniz. Həmçinin, Cəhənnəm də mənə göstərildi. Mən heç vaxt bu gün *gördüyüm* mənzərədən daha dəhşətlisini görməmişdim. Mən Cəhənnəm əhlinin əksəriyyətinin qadınlar olduğunu gördüm". *Adamlar* soruşdular: "Nəyə görə, ya Rəsulullah?" O dedi: "Nankorluqlarına görə!" *Yenə* soruşdular: "Allaha qarşımı nankordurlar?" O dedi: "Onlar ərlərinə qarşı nankordurlar, yaxşılığı yerə vururlar. Birisinə il boyu yaxşılıq etsən, sonra da səndən *xoşuna gəlməyən* bir şey görsə, deyər: "Mən səndən heç vaxt xeyir görməmişəm".[2]

Digər bir hədisdə Rəsulullah ﷺ belə demişdir: "Günəş və Ay Allahın dəlillərindəndir. Allah bu iki dəlil vasitəsilə Öz qullarını qorxudur. Günəş

[1] "Səhih əl-Buxari", 1044; "Səhih Muslim", 2044.
[2] "Səhih əl-Buxari", 1052; "Səhih Muslim", 2064.

və Ay insanlardan kiminsə ölümünə görə tutulmur. Onların tutulduğunu gördüyünüz zaman namaz qılın və Allaha dua edin ki, sizə üz vermiş qorxunu aradan qaldırsın".[1]

Rəvayət edilir ki, Əbu Musa[2] ﷛ demişdir: "Peyğəmbərin ﷺ dövründə Günəş tutuldu. Onda Peyğəmbər ﷺ Qiyamət qopacağından qorxub təşviş içində ayağa qalxdı və məscidə gəlib namaz qıldı. Mən heç vaxt onun *namazda* qiyamı, rükunu və səcdəni bu qədər uzatdığını görməmişdim. *Namazı bitirdikdən* sonra dedi: "Allahın göndərdiyi bu dəlillər heç kəsin nə ölümünə, nə də dünyaya gəldiyinə görə olur. Fəqət, Allah Öz qullarını qorxutmaq üçün belə edir. Odur ki, belə bir şey gördükdə, Allahı zikr etməyə, Ona dua etməyə və Ondan bağışlanma diləməyə tələsin!"[3]

Rəvayət edilir ki, Muğira ibn Şobə[4] ﷛ demişdir: "Peyğəmbərin ﷺ oğlu İbrahim vəfat etdiyi gün Günəş tutuldu və adamlar: "Günəş İbrahimin ölümünə görə tutulmuşdur"– dedilər. Onda Peyğəmbər ﷺ dedi: "Günəş və Ay Allahın dəlillərindəndir. Onlar kimsənin nə ölümünə, nə də dünyaya gəldiyinə görə tutulur. *Onların tutulduğunu* gördüyünüz zaman Allaha dua edin və namaz qılın ki, onların üzü açılsın".[5]

## Küləklərin və yağışın yaradılışı.

**"Küləkləri Öz mərhəməti önündə *yağışdan qabaq* müjdəçi olaraq göndərən Odur. Biz göydən tərtəmiz su endirdik ki, onunla ölü bir diyarı canlandıraq, yaratdığımız neçə-neçə heyvana və neçə-neçə insana ondan**

---

[1] "Səhih əl-Buxari", 1041; "Səhih Muslim", 2070.

[2] Əbu Musa Abdullah ibn Qeys ibn Suleym əl-Əşari ət-Təmimi ﷛ Peyğəmbərin ﷺ səhabəsidir. İslam dinini Məkkədə qəbul etmiş, sonra Həbəşistana hicrət etmiş və nəhayət, Xeybərin fəthindən üç gün sonra Peyğəmbərin ﷺ yanına qayıtmışdır. Peyğəmbər ﷺ onu Muaz ibn Cəbəl ﷛ ilə birgə Yəmənə dəvət etməyə göndərmişdir. Ömərin ﷛ xilafəti dövründə Bəsrənin, Osmanın ﷛ xilafəti dövründə də Kufənin valisi olmuşdur. Əbu Musa ﷛ hicrətin 42-ci ilində vəfat etmişdir. ("Siyər Əlam ən-Nubələ", 82-ci tərcümeyi-hal). Peyğəmbər ﷺ onu belə tərifləmişdir: "Ey Əbu Musa, sənə Davudun səsi kimi məlahətli bir səs bəxş edilmişdir". ("Səhih əl-Buxari", 5048).

[3] "Səhih əl-Buxari", 1059; "Səhih Muslim", 2073.

[4] Əbu İsa Muğira ibn Şobə ibn Əbu Amir ﷛ Peyğəmbərin ﷺ səhabəsidir. Hicrətin 50-ci ilində yetmiş yaşında vəfat etmişdir. ("Siyər Əlam ən-Nubələ", 7-ci tərcümeyi-hal).

[5] "Səhih əl-Buxari", 1043; "Səhih Muslim", 2078.

**içirdək. Biz düşünüb ibrət alsınlar deyə, *o suyu* onların arasında paylaşdırdıq. Lakin insanların çoxu küfrdən başqa bir şey qəbul etmədi".[1];**

**"Biz küləkləri döllləndirici – *buludlarda su əmələ gətirən, bitkiləri tozlandıran bir vasitə* kimi göndərdik və göydən yağmur endirib onu sizə içirtdik. Yoxsa, onu yığıb saxlayan siz deyilsiniz".[2];**

**"Sizə Öz mərhəmətindən daddırsın, əmri ilə gəmilər üzsün, Onun lütfünü arayasınız və *sizə verdiyi nemətlərə* şükür edəsiniz deyə, küləkləri müjdəçi göndərməsi də Onun dəlillərindəndir. Biz səndən əvvəl də onların qövmünə elçilər göndərmişdik. *Elçilər* onlara açıq-aydın dəlillər gətirmişdilər. Biz günahkarlardan intiqam aldıq. Möminlərə yardım etmək Bizim borcumuz idi. Buludları qaldıran küləkləri göndərən Allahdır. *Allah* səmada onları istədiyi kimi yayıb topa-topa edir. Sən onlardan yağış töküldüyünü görürsən. *Allah* onu qullarından istədiyi kimsələrə endirən kimi, onlar sevinirlər".[3]**

İbn Abbas ﵄ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Mənə şərq küləyi ilə qələbə bəxş edilib, Ad qövmü isə qərb küləyi ilə məhv edilmişdir".[4]

Rəvayət edilir ki, Aişə ﵂ demişdir: "Külək əsdikdə Peyğəmbər ﷺ belə dua edərdi:

(( اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ خَيْرَهَا، وَخَيْرَ مَا فِيهَا، وَخَيْرَ مَا أُرْسِلَتْ بِهِ وَأَعُوذُ بِكَ مِنْ شَرِّهَا، وَشَرِّ مَا فِيهَا، وَشَرِّ مَا أُرْسِلَتْ بِهِ ))

"Allahım, Səndən bu küləyin xeyrini, onda olanın xeyrini və onunla birlikdə göndərilənin xeyrini diləyirəm! Onun şərindən, onda olanın şərindən və onunla birlikdə göndərilənin şərindən Sənə sığınıram!"

Göy üzündə yağmurla yüklənmiş buludları gördükdə rəngi dəyişər, *təşviş içində* evə girib-çıxar və irəli-geri gedib-gələrdi.[5] Buludlardan yağış

[1] "əl-Furqan" surəsi, 48-50.

[2] "əl-Hicr" surəsi, 22.

[3] "ər-Rum" surəsi, 46-48.

[4] Səhih əl-Buxari, 3205; Səhih Muslim, 2042.

[5] Peyğəmbər ﷺ əvvəlki ümmətlərin başına yağdığı kimi, onun ümmətinin də başına bəla yağacağından ehtiyat edirdi. Əvvəlki ümmətlər barəsində bax: "əl-İsra" surəsi, 68; "ən-Nur" surəsi, 43; "əl-Əraf" surəsi, 83-84 və "əl-Ənkəbut" surəsi, 39-40.

yağmağa başladıqda isə arxayınlaşar və bu *rahatlıq* onun üzündən hiss olunardı".

Aişə ﵂ Peyğəmbərdən ﷺ nə üçün bu hala düşdüyünü soruşduqda, o ﷺ belə demişdir: "Ey Aişə, ola bilsin ki, Ad qövmünün başına gəlmiş müsibətin təkrarı baş versin: **"Nəhayət, o *əzabı* vadilərinə doğru gələn bir bulud şəklində gördükdə: "Bu bizə yağış yağdıracaq buluddur!"– dedilər. *Hud dedi:* "Xeyr! Bu sizin tez gəlməsini istədiyiniz, özü ilə ağrılı-acılı əzab gətirən bir küləkdir!**[1]"[2]

Cabir[3] ﵁ rəvayət edir ki, bir dəfə səfərdən qayıdan Rəsulullah ﷺ Mədinəyə yaxınlaşdıqda elə bərk külək qopdu ki, az qala atlını miniyindən yerə salsın. Onda Rəsulullah ﷺ dedi: "Bu külək münafiqin ölməsi üçün göndərilib". Biz Mədinəyə çatdıqda, münafiqlərin böyüklərindən birinin öldüyünü gördük.[4]

[1] "əl-Əhqaf" surəsi, 24.

[2] "Səhih əl-Buxari", 3206; "Səhih Muslim", 2040.

[3] Əbu Abdur-Rəhman Cabir ibn Abdullah ibn Amr ibn Həram əl-Ənsari əl-Xəzrəci əl-Mədəni ﵁ Peyğəmbərin ﷺ ən nümunəvi səhabələrindəndir. Həm ikinci Əqəbə beyətində, həm də ağac altında Peyğəmbərə ﷺ beyət edənlərdən olmuşdur. Peyğəmbərlə ﷺ birlikdə on doqquz döyüşdə iştirak etmişdir. Öz zamanında Mədinənin müftisi olmuş, hicrətin 78-ci ilində, doxsan dörd yaşında vəfat etmişdir. Ən çox hədis rəvayət edən yeddi səhabədən biridir – Peyğəmbərdən ﷺ 1540 hədis rəvayət etmişdir. ("Siyər Əlam ən-Nubələ", 38-ci tərcümeyi-hal).

[4] "Səhih Muslim", 7142.

# Tövhidin fəziləti və tövhidə dəvət

**Peyğəmbər ﷺ bəşəriyyəti Allahın tək İlah olduğunu qəbul etməyə çağırmışdır. Deməli, insanları ilk əvvəl tövhidə dəvət etmək vacibdir.**

Bu xüsusda Quranda belə buyurulur: «**De: "Şahidlik baxımından hansı şey daha böyükdür?" De: "Allah mənimlə sizin aranızda şahiddir. Bu Quran mənə vəhy olundu ki, onunla həm sizi, həm də onun yetişəcəyi hər kəsi xəbərdar edim. Yoxsa siz Allahla yanaşı başqa məbudlar olduğuna şahidlik edirsiniz?" De: "Mən *buna* şahidlik etmirəm!" De: "O, tək İlahdır. Şübhəsiz ki, mən sizin şərik qoşduqlarınızdan uzağam"**».[1]

Rəvayət edilir ki, Muaz[2] ﷺ demişdir: "Rəsulullah ﷺ məni Yəmənə göndərdikdə, mənə belə buyurmuşdur: "Sən Kitab əhlindən olan bir qövmün yanına gedirsən. Elə isə, onları Allahdan başqa *ibadətə haqqı olan* məbudun olmadığına və mənim Allahın rəsulu olduğuma şəhadət verməyə dəvət et. Əgər bu işdə sənə itaət etsələr, onlara xəbər ver ki, Allah onlara gündəlik olaraq beş vaxt namaz qılmağı vacib buyurmuşdur. Əgər bu işdə sənə itaət etsələr, onlara bildir ki, Allah onlara zəkat verməyi *və bu zəkatın* onların varlılarından götürülüb kasıblarına paylanılmasını vacib buyurmuşdur. Əgər bu işdə də sənə itaət etsələr, onda onların mallarının ən qiymətlisini götürməkdən çəkin və məzlumun bədduasından qorx. Çünki onunla Allah arasında *bu bədduanın qarşısını ala biləcək* heç bir pərdə yoxdur".[3]

Digər bir rəvayətdə Rəsulullah ﷺ demişdir: "Elə isə onları ilk əvvəl Allahın tək ilah olduğunu qəbul etməyə dəvət et!"[4]

---

[1] "əl-Ənam" surəsi, 19.

[2] Əbu Abdur-Rəhman Muaz ibn Cəbəl ibn Amr əl-Ənsari əl-Xəzrəci ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. O Musab ibn Umeyrin ﷺ dəvəti ilə, on səkkiz yaşında İslamı qəbul etmiş və ikinci Əqəbə beyətində Peyğəmbərə ﷺ beyət etmişdir. Peyğəmbər ﷺ Mədinəyə hicrət etdiyi gündən Muaz ﷺ onun yanından ayrılmamış və artıq cavan yaşında bu ümmətin fəqihlərindən, habelə Allahın Kitabını ən yaxşı bilən səhabələrdən olmuşdur. Peyğəmbər ﷺ onu tərifləyib demişdir: "İnsanlar arasında Allahın haram və halal buyurduqlarını ən yaxşı bilən Muaz ibn Cəbəldir". ("Sunən ət-Tirmizi", 2/309; "Silsilə əl-Əhadis əs-Səhihə", 1224). Başqa bir hədisdə o ﷺ belə buyurmuşdur: "Quranı yalnız dörd nəfərdən öyrənin: Abdullah ibn Məsuddan, Ubey ibn Kəbdən, Muaz ibn Cəbəldən və Əbu Huzeyfənin azad etdiyi köləsi Salimdən". ("Səhih Muslim", 7/148).

[3] "Səhih əl-Buxari", 1395; "Səhih Muslim", 29.

[4] "Səhih əl-Buxari", 7372.

**Peyğəmbər ﷺ insanları İslam dinini və Allahın göndərdiyi peyğəmbəri qəbul etməyə, Allahı qoyub bir-birilərini ilahiləşdirməməyə və bu etiqad uğrunda mübarizə aparmağa dəvət etmişdir.**

Bu xüsusda Quranda belə buyurulur:

**"Heç bir kəsin, Allah ona Kitab, hikmət və peyğəmbərlik verdikdən sonra insanlara: "Allaha yox, mənə qul olun!"– deməsi mümkün deyil. Əksinə, *o, belə deyər*: "Öyrətdiyiniz Kitabın və *ondan* öyrəndiyiniz şeyin sayəsində rəbbani olun!" O sizə mələkləri və peyğəmbərləri özünüzə rəbb qəbul etməyi buyurmaz. Məgər o sizə, siz müsəlman olduqdan sonra küfr etməyi əmr edərmi?"**[1]

**«De: "Ey Kitab əhli! Bizimlə sizin aranızda olan eyni bir kəlməyə *tərəf* gəlin ki, Allahdan başqasına ibadət etməyək, Ona heç bir şeyi şərik qoşmayaq və Allahı qoyub bir-birimizi ilahiləşdirməyək". Əgər onlar yenə üz çevirsələr, deyin: "Şahid olun ki, biz müsəlmanlarıq!"»**[2]

Rəvayət edilir ki, Əbu Hureyra[3] رضي الله عنه demişdir: "Rəsulullahın ﷺ vəfatından sonra xəlifə seçilən Əbu Bəkr ərəblərdən bəzilərinin küfrünə görə

---

[1] "Ali-İmran" surəsi, 79-80.

[2] "Ali-İmran" surəsi, 64.

[3] "Əbu Hureyra" Abdur-Rəhman (və ya Abdullah) ibn Saxr əd-Dovsi əl-Yəmani رضي الله عنه Peyğəmbərin ﷺ məşhur səhabəsidir. "Əbu Hureyra" pişikciyəz atası deməkdir. Əgər biz onun adı ilə ləqəbini müqayisə etsək, görərik ki, Abdur-Rəhman, yəni ər-Rəhmanın qulu, Allahın ən çox sevdiyi adlardan biridir, Əbu Hureyra isə qəribə bir ləqəbdir. Lakin buna rəğmən, uca Allah onu insanlara məhz bu ləqəblə tanıtmış və sevdirmişdır. Peyğəmbər ﷺ onun üçün belə dua etmişdir: "Allahım, bu iki qulunu – Əbu Hureyranı və onun anasını insanlara sevdir!" ("əl-Ədəb əl-Mufrad", 34).

Əbu Hureyra رضي الله عنه hicrətin 7-ci ilində, Muhərrəm ayında, Xeybərin fəthindən əvvəl İslamı qəbul etmiş və müsəlman olduğu gündən Peyğəmbər ﷺ vəfat etdiyi günədək, yəni hicrətin 11-ci ilinin rəbiyəl-əvvəl ayınadək onun yanından ayrılmamışdır. Bu səhabə Peyğəmbərdən ﷺ 5374 hədis rəvayət etmişdir. Cəmi üç il iki ay Peyğəmbərin ﷺ yanında dərs almış səhabənin hamıdan çox hədis rəvayət etməsi, əlbəttə ki, Peyğəmbərin ﷺ peyğəmbərlik dəlillərindəndir. Əbu Hureyra رضي الله عنه rəvayət edir ki, *bir dəfə* mən Peyğəmbərə ﷺ dedim: "Ya Rəsulullah! Mən səndən çoxlu hədislər eşidirəm, lakin onları yadda saxlaya bilmirəm". Peyğəmbər ﷺ mənə: "Paltarının ətəyini aç!"– deyə buyurdu. Mən paltarımın ətəyini açdıqda, Peyğəmbər ﷺ əlləri ilə *sanki nəsə* ovuclayıb *paltarımın ətəyinə* atdı və: "Ətəyini yığ"– dedi. Mən onu yığdım və bundan sonra onun ﷺ dediklərindən heç bir şey unutmadım". ("Səhih əl-Buxari", 119).

Əbu Hureyra رضي الله عنه hicrətin 59-cu ilində vəfat etmişdir.

onlarla[1] döyüşmək qərarına gəldikdə, Ömər ibn əl-Xattab ona dedi: "Peyğəmbər ﷺ: "İnsanlar "la ilahə illəllah" deyincəyə qədər onlara qarşı vuruşmaq mənə əmr edildi. Odur ki, kim "la ilahə illəllah" desə, İslam haqqı istisna olmaqla, canını və malını məndən qorumuş olar. Onun *gizli saxladıqlarının* haqq-hesabı isə Uca Allaha aiddir"[2]– buyurduğu halda sən nə deyib onlarla vuruşacaqsan?!" Əbu Bəkr dedi: "Vallahi, mən namazla zəkatı bir-birindən ayıran *hər* kəslə vuruşacağam. Çünki zəkat malın haqqıdır. Vallahi, əgər onlar Rəsulullaha ﷺ verdikləri zəkatı məndən əsirgəsələr, buna görə onlarla vuruşacağam". Ömər ibn əl-Xattab dedi: "Vallahi, mən uca Allahın Əbu Bəkrin köksünü bu döyüş üçün necə açıb-genişləndirdiyinə şahid oldum və bunun haqq olduğunu başa düşdüm".[3]

Abdullah ibn Ömər[4] رضي الله عنهما rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "İnsanlar Allahdan başqa *haqq* məbudun olmadığına və Muhəmmədin Allahın rəsulu olduğuna şəhadət gətirməyincə, namaz qılıb zəkat verməyincə, onlarla vuruşmaq mənə əmr edildi. Əgər aşkarda bunu yerinə yetirsələr, İslam haqqı istisna olmaqla, canlarını və mallarını məndən qorumuş olarlar. Onların *gizli əməllərinin* haqq-hesabı isə Allaha aiddir".[5]

Ənəs ibn Malik رضي الله عنه rəvayət etmişdir ki, Rəsulullah ﷺ belə demişdir: "İnsanlar "la ilahə illəllah" deyənədək onlarla vuruşmaq mənə əmr edildi. Əgər "la ilahə illəllah" desələr, bizim kimi namaz qılsalar, qibləmizə üz tutsalar, bizim kimi qurban kəssələr, İslam haqqı istisna olmaqla, canları və

---

[1] Mürtəd olanlar üç qisim idilər: bir qismi cahiliyyət dövründəki etiqadlarına – bütpərəstliyə qayıtdı, bir qismi peyğəmbərlik iddiasında olan Museyləməyə və Əsvəd əl-Ənəsiyə uydu, bir qismi də müsəlman olduqlarını iddia etdikləri halda, zəkat verməkdən boyun qaçırdı və bunu inkar etdilər.

[2] Tiybi رحمه الله demişdir: "Biz "la ilahə illəllah" deyən və zahirən müsəlman olduğunu göstərən heç bir kimsəyə qarşı vuruşmamalı, habelə onun səmimi olub-olmadığını araşdırmamalıyıq". ("Tohfət əl-Əhvəzi", 7/283).

[3] "Səhih əl-Buxari", 1399; "Səhih Muslim", 32.

[4] Əbu Abdur-Rəhman Abdullah ibn Ömər ibn əl-Xəttab əl-Ədəvi əl-Qurəşi رضي الله عنهما Rəsulullahın ﷺ azyaşlı səhabələrindəndir. Uşaq ikən İslamı qəbul etmiş, sonra da atası ilə birgə Mədinəyə hicrət etmişdir. Xəndək döyüşündə iştirak etmiş və ağac altında beyət edənlərdən olmuşdur. Ən çox hədis rəvayət edən yeddi səhabədən biridir – Rəsulullahdan ﷺ 2630 hədis rəvayət etmişdir. ("Siyər Əlam ən-Nubələ", 45-ci tərcümeyi-hal). Möminlərin anası Həfsə bint Ömər رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər ﷺ ona belə demişdir: "Həqiqətən, Abdullah əməlisaleh bir adamdır". ("Səhih əl-Buxari", 3740-3741).

[5] "Səhih əl-Buxari", 25; "Səhih Muslim", 38.

malları bizə haram sayılar. Onların *gizli əməllərinin* haqq-hesabı isə Allaha aiddir".[1]

Digər rəvayətdə Peyğəmbər ﷺ demişdir: "Kim bizim qıldığımız namazı qılır, üzünü qibləmizə çevirir və kəsdiyimiz qurbandan yeyirsə, o, Allahın və Onun rəsulunun ﷺ mühafizəsi altında olan müsəlmandır. Belə kimsələrin haqqına girməklə Allaha xəyanət etməyin".[2]

Ənəs ؓ rəvayət etmişdir ki, Rəsulullah ﷺ Xosrova[3], Qeysərə[4], Nəcaşiyə və hər bir qəddar hökmdara məktub göndərib onları Allahın tək İlah olduğunu qəbul etməyə çağırmışdır. Bu, Peyğəmbərin ﷺ onun üçün cənazə namazını qıldığı həmin Nəcaşi[5] deyildir".[6]

## Tövhid, canı və malı qoruyur.

Rəvayət edilir ki, Miqdad ibn Əsvəd[7] ؓ demişdir: "*Bir gün* mən Peyğəmbərə ﷺ dedim: "Ya Rəsulullah! Söylə görüm, əgər mən *döyüşdə* kafirlərdən biri ilə üz-üzə gəlib onunla vuruşsam, o da qılıncla mənim bir

[1] "Səhih əl-Buxari", 392.

[2] "Səhih əl-Buxari", 391.

[3] Fars şahlarının titulu.

[4] Rum imperatorlarının titulu.

[5] Bu məktublar İslamı qəbul etmiş Nəcaşinin vəfatından sonra göndərilmişdir. O Nəcaşi ki, Peyğəmbər ﷺ onun cənazə namazını qılmışdır. Əksər alimlər o rəydədirlər ki, Peyğəmbərin ﷺ məktub göndərdiyi Nəcaşi hicrətin 9-cu ilində, Peyğəmbər ﷺ Təbuk döyüşündən qayıtdıqdan sonra vəfat etmişdir. Buna əsasən demək olar ki, müsəlman olmuş Nəcaşinin yerinə kral seçilmiş Nəcaşi qəddar kafir olmuşdur. Belə ki, Həbəşistan krallarının hər biri Nəcaşi adlanır.

[6] "Səhih Muslim", 4632.

[7] Miqdad ibn Amr ibn Sələbə əl-Qudai əl-Kindi ؓ İslamı ilk əvvəl qəbul edən səhabələrdəndir. Miqdad, Əsvəd ibn Abduyəğusun evində böyüyüb boya-başa çatdığına və onun tərbiyəsini gördüyünə görə, ona Miqdad ibn Əsvəd deyirlər. Hicrətin 33-cü ilində vəfat etmiş, Osman ibn Affan ؓ onun cənazə namazını qıldırmış və Bəqi qəbiristanlığında dəfn edilmişdir. ("Siyər Əlam ən-Nubələ", 81-ci tərcümeyi-hal). Onun fəzilətli səhabə olduğunu xəbər verən hədislərin birində Abdullah ibn Məsud ؓ demişdir: "Mən Miqdad ibn Əsvədin elə bir hərəkətinin şahidi oldum ki, hər şeydən çox onun yerində olmağı arzu etdim. Peyğəmbər ﷺ müşriklərin əleyhinə dua edərkən *Miqdad* onun yanına gəlib dedi: "Biz Musanın həmqəbilələri kimi: **"Sən və sənin Rəbbin gedin, *onlarla* vuruşun!"**– demirik. Əksinə, biz sənin həm sağında, həm solunda, həm önündə, həm də arxa tərəfində *düşmənlə* vuruşacağıq". *Bu sözdən sonra* mən Peyğəmbərin ﷺ sevindiyini və üzünün necə nur saçdığını gördüm". ("Səhih əl-Buxari", 3952).

əlimi kəssə, sonra da canını məndən qurtarmaq üçün ağaca dırmaşıb: "Allaha təslim oldum!"– deməyindən sonra mən onu öldürə bilərəmmi?" Rəsulullah ﷺ buyurdu: "Sən onu öldürməməlisən!" Mən dedim: "Ya Rəsulullah! *Tutaq ki,* o mənim əlimi kəsmiş və bu sözü ancaq əlimi kəsdikdən sonra demişdir. Belə olarsa, mən onu öldürə bilərəmmi?" Rəsulullah ﷺ buyurdu: "Sən onu öldürməməlisən. Əgər sən onu *bundan sonra* öldürsən, onun halı, sənin onu öldürməmişdən qabaqkı halın kimi olacaq. Sənin halın isə, onun bu sözü deməmişdən əvvəlki halı kimi olacaq[1]".[2]

Rəvayət edilir ki, Usamə ibn Zeyd ibn Harisə[3] رضي الله عنه demişdir: "*Bir dəfə* Peyğəmbər ﷺ bizi Cuheynəyə, huraqatlıların[4] üstünə göndərdi. Biz səhərə

---

[1] İbn Həcər رحمه الله demişdir: "Peyğəmbərin ﷺ: "Onun halı, sənin onu öldürməmişdən əvvəlki halın kimi olacaq" sözü o deməkdir ki, o, müsəlman olduqdan sonra onu öldürmək qadağan olacaq və o, şəriətə uyğun mühakimə olunacaq. "Sənin halın, onun bu sözü deməmişdən əvvəlki halı kimi olacaq" sözü isə o deməkdir ki, əgər sən onu öldürsən, onun varislərinin səndən qisas və ya qanbahası almağa haqqı olacaq". ("Fəth əl-Bari", 19/301).

Xəttabi رحمه الله demişdir: "Böyük günah sahibini kafir sayan xəvariclər və onların yolunu tutub gedənlər bu hədisdəki: "Sənin halın, onun bu sözü deməmişdən əvvəlki halı kimi olacaq" sözünü kafir olmağa yozurlar. Bu, batil yozumdur. Çünki burada sadəcə ondan müsəlmanı öldürdüyünə görə qisas alınması qəsd edilir". ("Məalim əs-Sunən", 2/271).

[2] "Səhih əl-Buxari", 4019; "Səhih Muslim", 187.

[3] Əbu Muhəmməd Usamə ibn Zeyd ibn Harisə رضي الله عنهما Peyğəmbərin ﷺ "Hibbu Rasulullah ﷺ" (Rəsulullahın ﷺ sevimlisi) ləqəbi ilə tanınmış səhabəsidir. O, Rəsulullahın ﷺ Bəlqa diyarına göndərdiyi orduya başçı təyin etdiyi sərkərdəsi və oğulluğa götürdüyü Zeyd ibn Harisənin رضي الله عنه oğludur. Neçə-neçə döyüşlərdə, o cümlədən atasının şəhid edildiyi Mutə döyüşündə iştirak etmişdir. Bu səhabənin fəzilətinə dair çoxlu hədislər rəvayət edilmişdir:

Abdullah ibn Ömər رضي الله عنهما demişdir: "Bir dəfə Peyğəmbər ﷺ Usamə ibn Zeydi bir qoşuna başçı təyin edib döyüşə göndərəndə, bəziləri onun əmir olmasına etiraz etdilər". Onda Peyğəmbər ﷺ buyurdu: "Sizin onun əmir olmasına dil uzatmağınız *təbiidir. Çünki* siz əvvəllər də onun atasının əmir olmasına dil uzatmışdınız. Vallahi ki, *onun atası* əmir olmağa layiq idi, üstəlik, o, mənim ən çox sevdiyim adamlardan idi. Heç şübhəsiz, oğlu da ondan sonra mənim ən çox sevdiyim adamlardan biridir". ("Səhih əl-Buxari", 3730).

Digər bir hədisdə Usamə رضي الله عنه rəvayət etmişdir ki, Peyğəmbər ﷺ Usaməni Həsənlə birlikdə qucağına alıb deyərdi: "Allahım, onları sev, çünki mən onları sevirəm!" ("Səhih əl-Buxari", 3735). Yenə bir hədisdə rəvayət edilir ki, Usamə رضي الله عنه demişdir: "Peyğəmbər ﷺ məni bir dizində, Həsəni də o biri dizində oturdub bizi qucaqlayar və dua edib deyərdi: "Allahım, mən bunlara rəhm edirəm, Sən də onlara rəhm et!" ("Səhih əl-Buxari", 6003). Başqa bir hədisdə isə rəvayət edilir ki, Peyğəmbər ﷺ demişdir: "Kim məni sevirsə, qoy Usaməni də sevsin!" ("Səhih Muslim", 2942).

[4] Huraqat, Yəmən tərəfdə bir vadidir. (Həməvi, "Mocəm əl-Buldan", 2/243).

yaxın düşmənə hücum etdik və onları məğlubiyyətə uğratdıq. *Orada* mən ənsardan olan bir *mücahidlə* birlikdə kafirlərdən birini haqladıq. Biz onun başının üstünü aldıqda, o: "la ilahə illəllah"– dedi. Ənsarlı qardaşım *bunu eşitdikdə* əl saxladı, mən isə nizəmlə vurub onu öldürdüm. Biz Mədinəyə qayıtdıqda, *bu hadisəni* Peyğəmbərə ﷺ danışdılar. Peyğəmbər ﷺ mənə dedi: "Ey Usamə, o: "la ilahə illəllah" deyəndən sonra sən onu öldürdün?!" Dedim: "Ya Rəsulullah, o, *canını* qurtarmaq üçün belə etdi". Peyğəmbər ﷺ dedi: "O: "la ilahə illəllah" deyəndən sonra sən onu öldürdün?!" Peyğəmbər ﷺ bu sözü mənə o qədər eşitdirdi ki, mən *özüm-özümə*: "Kaş, mən İslamı bu gündən öncə qəbul etmiş olmayaydım[1]"– deyə təmənna etdim".[2]

Rəvayət edilir ki, Humeyd رحمه الله demişdir: "Məymun ibn Siyah رحمه الله, Ənəs ibn Malikdən رضي الله عنه: "Ey Əbu Həmzə, insanın canını və malını haram edən əməl hansıdır?"– deyə soruşmuş, o da belə cavab vermişdir: "Kim Allahdan başqa *ibadətə layiq* məbudun olmadığına şəhadət gətirsə, qibləmizə üz tutsa, bizim kimi namaz qılsa və kəsdiyimiz qurbanı yesə, müsəlman sayılar. Müsəlmanın lehinə olan haqlar onun lehinə, əleyhinə olanları da onun əleyhinə olar".[3]

Rəvayət edilir ki, Cundəb ibn Abdullah əl-Bəcəli[4] رضي الله عنه, İbn Zubeyrin[5] رضي الله عنهما başına gələn fitnə[6] zamanı Əsəs ibn Sələməyə: "Dostlarından bir dəstə *həmfikir* adam topla, gəlib onlarla söhbət edəcəyəm"– deyə xəbər

---

[1] Qastillani رحمه الله demişdir: "Səhabənin: "Kaş, mən İslamı bu gündən öncə qəbul etmiş olmayaydım" sözü bu hadisədən əvvəl müsəlman olmamasını deyil, sadəcə, etdiyi bu əməlin cəzasını ödəməkdən xilas olmasını təmənna etməsini ehtiva edir. Bu hadisədən sonra müsəlman olmasını təmənna etməsi də ona görədir ki, İslam dini özündən əvvəlki günahların hamısını silib aparır". ("İrşad əs-Sari", 10/45).

[2] Əbu Abdullah Cundəb ibn Abdullah əl-Bəcəli رضي الله عنه Peyğəmbərin ﷺ səhabəsidir. (İbn Abdul-Bərr, "əl-İstiyab", 1/256).

[3] "Səhih əl-Buxari", 393.

[4] "Səhih Muslim", 192.

[5] Abdullah ibn Zubeyr ibn əl-Əvvam əl-Əsədi رضي الله عنهما Peyğəmbərin ﷺ səhabəsidir. Yezidin ölümündən sonra müsəlmanların bir qismi onu xəlifə seçmiş və o, Hicaz, Yəmən, Misir, İraq, Xorasan və Şamın bir hissəsinə hökmranlıq etmişdir. Hicrətin 73-cü ilində Həccac tərəfindən qətlə yetirilmişdir. ("Siyər Əlam ən-Nubələ", 53-cü tərcümeyi-hal).

[6] Burada "İbn Zubeyrin رضي الله عنهما başına gələn fitnə" deyildikdə, zalım Həccacın onu və onun tərəfdarlarını qətlə yetirməsi nəzərdə tutulur. Bu hadisə Mərvan ibn əl-Həkəmin xəlifəliyi dövründə baş vermişdir.

yolladı[1]. Əsəs bu iş üçün adam göndərdi. Onlar toplandığı zaman Cundəb əynində sarı rəngli burnus[2] onların yanına gəldi və: "Nə söyləyəcəksinizsə, söyləyin"– dedi. Söhbət açıldı. Cundəbə söz verildiyində o, başından burnusu açıb dedi: "Mən sizin yanınıza gəlmişəm ki, sizə Peyğəmbərinizdən ﷺ xəbər verim. *Bir zaman* Peyğəmbər ﷺ bir dəstə müsəlmanı müşrik olan bir tayfanın üzərinə göndərdi. Onlar qarşı-qarşıya gəldilər. *Döyüşdə* müşriklərdən biri müsəlmanlardan hansı birini öldürmək istəyirdisə, qəsdinə durub onu öldürürdü. Müsəlmanlardan da birisi məqam gözləyib fürsət tapan kimi bu adamı öldürdü. O kimsənin Usamə ibn Zeyd olduğu bizə xəbər verilmişdir. Usamə qılıncını *kafirin* başı üzərinə qaldırdıqda, o: "la ilahə illəllah" demiş, *amma buna baxmayaraq* Usamə onu öldürmüşdü.

*Müsəlmanlar düşməni məğlub etdikdən sonra* müjdəçi Peyğəmbərin ﷺ yanına gəldi. Peyğəmbər ﷺ ondan *döyüş barəsində* soruşdu, o da *baş verənlər barədə* ona xəbər verdi. Ayrıca Usamənin etdiyini də ona dedi. Onda Peyğəmbər ﷺ Usaməni çağırıb: "Onu niyə öldürdün?"– deyə soruşdu. Usamə dedi: "Ya Rəsulullah, o, müsəlmanlardan bir çoxunun qəsdinə durdu, filankəsi və filankəsi öldürdü. (Usamə bir neçə adamın adını çəkdi.) Mən də onun üstünə getdim. O, qılıncı görəndə: "la ilahə illəllah"– dedi. Peyğəmbər ﷺ soruşdu: "Sən də onu öldürdün?" O: "Bəli"– deyə cavab verdi. Peyğəmbər ﷺ dedi: "Qiyamət günü "la ilahə illəllah" kəlməsi *şahid olaraq* gəldiyi zaman sən nə edəcəksən?!" Usamə dedi: "Ya Rəsulullah, mənim üçün bağışlanma dilə!". Peyğəmbər ﷺ *təkrar-təkrar*: "Qiyamət günü "la ilahə illəllah" kəlməsi *şahid olaraq* gəldiyi zaman sən nə edəcəksən?!" sözündən başqa bir söz demədi".[3]

Əbu Malik atasından[4] rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Kim "la ilahə illəllah" desə və Allahdan qeyrisinə ibadət etməyi inkar etsə, onun malı və canı toxunulmaz olar. *Gizli əməllərinin* haqq-hesabı isə Allaha aiddir."[5]

---

[1] Bu dəlildir ki, insanlar arasında sözükeçən ziyalı adamlar, fitnə baş qaldırdığı zaman camaatı sakitləşdirməli və dəlil-sübuta əsaslanaraq haqqı onlara bəyan etməlidirlər.

[2] Burnus – arxa tərəfdən yaxalığına başlıq bənd edilmiş üst geyimi.

[3] "Səhih Muslim", 192.

[4] Əbu Malik – Səd ibn Tariq əl-Əşcəi əl-Kufi. Onun atası Tariq ibn Əşyəm ibn Məsud əl-Əşcəidir رضي الله عنه. ("əl-İsabə", 3/411).

[5] "Səhih Muslim", 39.

Rəvayət edilir ki, Ənəs ibn Malik ﷺ demişdir: "Peyğəmbər ﷺ dan yeri ağaranda *düşmənə* hücum edər və *həmin vaxt* azana qulaq verərdi. Əgər azan eşidərdisə, *onlarla vuruşmaqdan* vaz keçər, əks təqdirdə isə, onlara hücum edərdi. *Bir gün* o, bir adamın "Allahu Əkbər! Allahu Əkbər!" dediyini eşitdi və *ona*: "Sən fitrət üzərindəsən"– dedi[1]. Sonra adam: "Əşhədu ən la ilahə illəllah, əşhədu ən la ilahə illəllah"– dedi. Peyğəmbər ﷺ də *ona*: "Oddan xaric oldun"– dedi[2]. Sonra baxdılar ki, *həmin adam* keçi otaran bir çobandır"[3].[4]

## Tövhid, Qiyamət günü Allahın əzabından qoruyacaq.

Bu xüsusda Quranda belə buyurulur: **"Rəbbinə and olsun ki, Biz onları şeytanlarla birlikdə bir yerə toplayacaq, sonra da onları diz üstə çökmüş halda Cəhənnəmin ətrafına yerləşdirəcəyik. Sonra hər firqədən Mərhəmətli *Allaha* ən çox asi olanı çıxardacağıq. Orada yanmağa daha çox layiq olanları, əlbəttə ki, Biz yaxşı tanıyırıq. İçinizdən hər kəs oraya varid olacaqdır. *Bu,* Rəbbinin *əzəldən* müəyyən etdiyi qəti bir qərardır. Sonra Biz müttəqiləri *oddan* xilas edəcək, zalımları isə orada diz üstə çökmüş halda tərk edəcəyik".**[5]

Rəvayət edilir ki, Muaz ibn Cəbəl ﷺ demişdir: "*Bir dəfə* mən Peyğəmbərlə ﷺ birlikdə onun *mindiyi heyvanın* tərkində idim. Mənimlə onun arasında yəhərin söykəyindən başqa heç nə yox idi. Peyğəmbər ﷺ: "Ey Muaz ibn Cəbəl!"– deyə buyurdu. Dedim: "Buyur, əmrinə müntəzirəm, ya Rəsulullah!" Bir qədər sonra o yenə: "Ey Muaz ibn Cəbəl!"– deyə buyurdu.[6]

---

[1] Peyğəmbər ﷺ onun müsəlman olduğunu qəsd edir.

[2] Yəni, dediyin bu tövhid kəlməsi sayəsində Cəhənnəm odundan xilas oldun. Bu da dəlildir ki, kəlmeyi-şəhadəti tələffüz edən kimsə, müsəlman hesab edilir.

[3] Bu hədis tək bir adamın azan verməsinin şəriət qayda-qanuna aid olduğuna, həmçinin azan oxunan diyara basqın etməyin caiz olmadığına dəlalət edir. Bu da həmin diyarda yaşayanların zahirən müsəlman olduqlarını bildirir.

[4] "Səhih Muslim", 776.

[5] "Məryəm" surəsi, 68-72.

[6] Nəvəvi ﷺ demişdir: "Peyğəmbərin ﷺ Muaza ﷺ təkrar-təkrar xitab etməsi, ona söyləyəcəyinə diqqət yetirməsi və onu axıra kimi dinləməsi üçün idi. Rəvayət edilir ki, Peyğəmbər ﷺ bir söz söylədiyi zaman, söylədiklərini başa düşsünlər deyə, onu üç dəfə təkrar edərdi, habelə bir tayfanın yanına gəlib onları salamladıqda, üç kərə salam verərdi". ("Səhih əl-Buxari", 94).

Dedim: "Buyur, əmrinə müntəzirəm, ya Rəsulullah!" Yenə bir qədər sonra o: "Ey Muaz ibn Cəbəl!"– deyə buyurdu. Dedim: "Buyur, əmrinə müntəzirəm, ya Rəsulullah!" Dedi: "Bilirsənmi Allahın qulları üzərindəki haqqı[1] nədir?" Dedim: "Allah və Onun rəsulu daha yaxşı bilir!" Dedi: "Allahın qulları üzərindəki haqqı, qulların Ona ibadət edib heç kəsi Ona şərik qoşmamalarıdır". Bir qədər getdikdən sonra o yenə: "Ey Muaz ibn Cəbəl!"– deyə buyurdu. Dedim: "Buyur, əmrinə müntəzirəm, ya Rəsulullah!" Dedi: "Bilirsənmi, qulları bunu yerinə yetirəcəkləri təqdirdə onların Allah üzərindəki haqqı nədir?" Dedim: "Allah və Onun rəsulu daha yaxşı bilir!" Dedi: "*Ona heç nəyi şərik qoşmayan* qullarına əzab verməməsidir".[2]

Ənəs ibn Malik ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ və Muaz ﷺ dəvənin tərkində ikən, Peyğəmbər ﷺ: "Ey Muaz!"– deyə buyurdu. Muaz ﷺ: "Buyur, əmrinə müntəzirəm, ya Rəsulullah!"– deyə cavab verdi. Peyğəmbər ﷺ yenə: "Ey Muaz!"– deyə buyurdu. O: "Buyur, əmrinə müntəzirəm, ya Rəsulullah!"– deyə cavab verdi. Bu hal üç dəfə təkrarlandıqdan sonra Peyğəmbər ﷺ dedi: "Allahdan başqa *ibadətə layiq* məbudun olmadığına və Muhəmmədin Allahın rəsulu olduğuna sidq-ürəkdən şəhadət verən elə bir kəs yoxdur ki, Allah ona Cəhənnəm odunu haram etməsin".[3] Muaz ﷺ dedi: "Ya Rəsulullah, bunu insanlara xəbər verimmi ki, sevinsinlər?" Peyğəmbər ﷺ dedi: "Belə olduğu təqdirdə arxayınlaşacaqlar".

---

[1] Mövcud olan və ya olacaq hər bir şey haqdır. Uca və Qənirsiz Allah da Haqdır, əbədi və əzəli varlıqdır. Habelə ölüm və Qiyamət saatı, Cənnət və Cəhənnəm də haqdır. Əgər düz sözə haqq deyilirsə, bu o deməkdir ki, barəsində xəbər verilən şey mövcuddur.

[2] "Səhih əl-Buxari", 5967; "Səhih Muslim", 52.

[3] Süleyman ibn Abdullah Ali-Şeyx ﷺ demişdir: "Hərçənd "la ilahə illəllah" demək Cənnətə daxil olmaq və Cəhənnəm əzabından qurtulmaq üçün əsas səbəb, həm də tələb olunan bir şey olsa da, tələb olunan hər bir iş özünəməxsus şərtlərə riayət etmək və buna əngəl törədəcək maneələrdən çəkinməklə yerinə yetirilməlidir. Bu şərtlərdən hər hansı birinin yerinə yetirilmədiyi və ya əmması çıxdığı təqdirdə, Cənnəti qazanmaq mümkün deyildir. Odur ki, Həsən əl-Bəsridən ﷺ bəzilərinin: "Kim: "la ilahə illəllah"– desə, Cənnətə daxil olar"– deməsi barədə soruşduqda, o belə cavab vermişdir: "Kim: "la ilahə illəllah"– desə, sonra da bu kəlmənin haqqını ödəsə və buna aid olan vacibləri yerinə yetirsə, Cənnətə daxil olar". Vəhb ibn Munəbbih ﷺ ondan: "Məgər "la ilahə illəllah" *kəlməsi* Cənnətin açarı deyilmi?"– deyə soruşan adama belə cavab vermişdir: "Elədir, lakin hər bir açarın dişləri vardır. Əgər sən uyğun dişli bir açar gətirsən, o sənin üçün *qapını* açar, əks təqdirdə isə, o qapını açmaz". ("Təysir əl-Aziz əl-Həmid", 1/111).

Muaz ﷺ günaha batacağından qorxduğu üçün, ölümündən qabaq bu haqda *insanlara* xəbər verdi".[1]

Rəvayət edilir ki, Abdullah ibn Məsud ﷺ demişdir: "Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: "Kim hər hansı bir şeyi Allaha şərik qoşduğu halda ölərsə, Cəhənnəmə girər".

Mən dedim: "Kim heç bir şeyi Allaha şərik qoşmadığı halda ölərsə, Cənnətə daxil olar".[2]

Rəvayət edilir ki, Cabir ﷺ demişdir: "Bir nəfər Peyğəmbərdən ﷺ soruşdu: "Ya Rəsulullah, *Cənnətə və Cəhənnəmə girməyi* vacib edən iki şey nədir?" Peyğəmbər ﷺ buyurdu: "Kim Allaha şərik qoşmadığı halda ölərsə, Cənnətə daxil olar. Kim də Allaha şərik qoşduğu halda ölərsə, Cəhənnəmə girər".[3]

Əbu Zər[4] ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Cəbrail ﷺ yanıma gəlib mənə müjdə verdi ki, kim Allaha şərik qoşmadığı halda ölsə, Cənnətə daxil olar". Mən soruşdum: "Zina etsə, oğurluq etsə belə?" Dedi: "*Bəli,* zina etsə, oğurluq etsə belə!"[5]

Osman[6] ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Kim Allahdan başqa *ibadətə layiq* məbudun olmadığını bildiyi halda ölərsə, Cənnətə daxil olar".[7]

---

[1] "Səhih əl-Buxari", 128.

[2] "Səhih əl-Buxari", 4538; "Səhih Muslim", 181.

[3] "Səhih Muslim", 182.

[4] Bu, Peyğəmbərin ﷺ səhabəsi Cundəb ibn Cunadə əl-Ğifaridir ﷺ.

[5] "Səhih əl-Buxari", 7487; "Səhih Muslim", 185.

[6] Əbu Abdullah Osman ibn Affan ibn Əbul-As əl-Qurəşi əl-Əməvi ﷺ. Peyğəmbərin ﷺ səhabəsi, İslamı ilk əvvəl qəbul edənlərdən və Cənnətlə müjdələnmiş on nəfərdən biridir. Raşidi xəlifələrin üçüncüsü və Peyğəmbərin ﷺ kürəkəni – Ruqiyyə və Ummu Kulsumun ﷺ həyat yoldaşıdır. Fil ilindən altı il sonra, yəni Muhəmmədə ﷺ peyğəmbərlik verilməmişdən otuz dörd il əvvəl dünyaya gəlmişdir.

Peyğəmbər ﷺ onu tərif edib demişdir:"Ümmətimin ən həyalısı Osmandır". ("Səhih əl-Cami", 3198). O həmçinin demişdir: "Mələklərin utandığı bir adamdan mən necə utanmayım?" ("Səhih Muslim", 2401). Yenə bir hədisdə rəvayət edilir ki, Osman Usrə ordusunun hazırlanması üçün on min dinarı gətirib Peyğəmbərin ﷺ önünə qoydu. Onda Peyğəmbər ﷺ dedi: "Bu gündən sonra Osman nə qədər səhvə yol versə, bu ona zərər yetirməyəcək (Allah o səhvləri bağışlayacaq)". ("Musnəd İmam Əhməd", 5/63; "Mişkat əl-Məsabih", 6064).

Osman ﷺ hicrətin 35-ci ilinin zilhiccə ayında, səksən iki yaşında Mədinədə şəhid edilmişdir. (İbn Abdul-Bərr, "əl-İstiyab", 3/1037).

[7] "Səhih Muslim", 45.

**Kim tövhid kəlməsini şəkk-şübhəsiz qəbul etdiyi halda Allahın hüzuruna çıxarsa, Cənnətə daxil olar.**

Rəvayət edilir ki, Əbu Hureyra ﷺ demişdir: “Biz Peyğəmbərlə ﷺ birlikdə səfərdə ikən camaatın azuqəsi tükəndi. İş o yerə çatdı ki, Peyğəmbər ﷺ onlardan bəzilərinin yük dəvələrini kəsmək qərarına gəldi.[1] Onda Ömər ﷺ dedi: “Ya Rəsulullah, bəlkə camaatın qalan azuqəsini bir yerə toplayasan və Allahdan bunun üçün *bərəkət* diləyəsən”.[2] Peyğəmbər ﷺ belə də etdi. Beləcə, buğdası olan buğdasını, xurması olan xurmasını, *çəyirdəyi olan da çəyirdəyini gətirdi*[3]*. Təlhə ibn Musərrif soruşdu:* “Çəyirdəklər onların nəyinə lazım idi?” Mücahid ﷺ dedi: “Onlar çəyirdəyi sümürər (sovurar), üstündən də su içərdilər”.

Əbu Hureyra ﷺ dedi: “Peyğəmbər ﷺ yığılmış ərzaq üçün dua etdi, camaatın da xurcunları ağızbaağız doldu. Onda Peyğəmbər ﷺ dedi: “Mən şahidlik edirəm ki, Allahdan başqa *ibadətə layiq olan* məbud yoxdur və mən Allahın rəsuluyam! Bu ikisinə (iki şəhadət kəlməsinə) şəkk etmədən bunlarla Allahın hüzuruna çıxan hər kəs mütləq Cənnətə girəcəkdir”.[4]

Ubadə ibn əs-Samit[5] ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Kim Allahdan başqa *ibadətə layiq* məbudun olmadığına, Onun Tək olduğuna və heç bir şəriki olmadığına, Muhəmmədin Onun qulu və rəsulu olduğuna, İsanın Allahın qulu, kənizinin oğlu, Məryəmə göndərdiyi kəlməsi və Onun ruhundan[6] olduğuna, Cənnətin haqq, Cəhənnəmin də haqq

---

[1] Peyğəmbərin ﷺ bu hökmü bizə belə hallarda camaatın rifahını nəzərə almağı, ən mühüm olanı ön plana çəkməyi və iki zərərdən zərəri daha az olanı seçməyi öyrədir.

[2] Bu dəlildir ki, bir adam özündən üstün olan birisinə məsləhət bildiyi bir şeyi təklif edə bilər. Belə olduqda, həmin adam bu təklifi götür-qoy etməli və əgər məsləhət bilərsə, ona uyğun hərəkət etməlidir.

[3] Bu, Mücahidin sözüdür.

[4] “Səhih Muslim”, 48.

[5] Əbul-Vəlid Ubadə ibn əs-Samit ibn Qeys əl-Ənsari ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Bədr və digər döyüşlərdə, həmçinin birinci, ikinci və üçüncü Əqəbə beyətlərində iştirak etmişdir. Hicrətin 34-cü ilində yetmiş iki yaşında Şamda vəfat etmiş və Beytulməqdisdə dəfn edilmişdir. (İbn Abdul-Bərr, “əl-İstiyab”, 2/808).

[6] Burada “Onun ruhundan” deyildikdə, Allahın xəlq etdiyi ruh qəsd edilir. Necə ki, ayədə “Allahın dəvəsi” deyildikdə, bu, Allahın zatına aid edilmir, sadəcə Allaha isnad edilir. Ərəbcə buna “izafə” deyilir, yəni Allahın yaratdığı dəvə qəsd edilir.

olduğuna şahidlik etsə, Cənnətin səkkiz qapısının hansı birindən arzu etsə, Allah onu oradan *Cənnətə* daxil edər.[1]"[2]

Digər rəvayətdə Peyğəmbər ﷺ: "Nə əməl etmiş olursa-olsun,[3] Allah onu Cənnətə daxil edər"– demiş və "Cənnətin səkkiz qapısının hansı birindən arzu etsə" sözünü zikr etməmişdir.[4]

## Kim Allahdan başqa *ibadətə layiq* ilahın olmadığına və Muhəmmədin Onun qulu və rəsulu olduğuna şəhadət gətirsə, Cənnətə daxil olar.

Rəvayət edilir ki, Sunabihi[5] رحمه الله demişdir: "Ubadə ibn əs-Samit رضي الله عنه ölüm ayağında ikən mən onun yanına gəldim və *onun halını görüb* ağlamağa başladım. O dedi: "Sakit ol, niyə ağlayırsan? Vallahi, əgər məni şahid tutsalar, sənin lehinə şahidlik edərəm, işdir, mənə şəfaət etmək hüququ verilsə, səndən ötrü şəfaətçi olaram və əgər gücüm yetərsə, sənə yardım edərəm. Vallahi, mən Peyğəmbərdən ﷺ eşitdiyim hər bir xeyirli hədisi

---

[1] Əqidə məsələlərini özündə əks etdirən bu hədisdə Peyğəmbər ﷺ fərqli-fərqli batil etiqadlarda olan kafir ümmətlərin hamısından uzaq bir etiqadı cəm etmişdir. Peyğəmbər ﷺ bu hədisdə İsanı عليه السلام Allahın Kəlməsi adlandırmışdır. Belə ki, İsanın عليه السلام anasına insan toxunmamış və o sadəcə "Ol!" kəlməsi ilə yaradılmışdır. Bu xüsusda Quranda belə buyurulur: **"Allaha övlad götürmək yaraşmaz. O, pak və müqəddəsdir! O, bir işin olmasını istədikdə, ona ancaq "Ol!"– deyər, o da dərhal olar".** ("Məryəm" surəsi, 35).

[2] "Səhih əl-Buxari", 3435; "Səhih Muslim", 49.

[3] Hüseyn ibn Məsud رحمه الله demişdir: "Sünnə əhli alimləri yekdil rəydədirlər ki, mömin adam hər hansı bir böyük günahı etməklə dindən xaric olmur. Yalnız böyük günahı etməyin icazəli olduğuna etiqad etməsi istisnadır. (Bilərəkdən belə etiqad etdiyi təqdirdə artıq kafir sayılır.) Mömin adam, böyük günah etdikdən sonra bu günaha görə tövbə etmədiyi halda ölərsə belə, Cəhənnəmdə əbədi olaraq qalmaz. Hədislərdə xəbər verildiyi kimi, onun aqibəti Allahın istəyinə bağlı olar – istəsə onu bağışlayar, istəsə də ona etdiyi günah qədər əzab verər, axırda isə onu Öz mərhəməti sayəsində Cənnətə daxil edər". (Bəğəvi, "Şərh əs-Sunnə", 1/103).

[4] "Səhih əl-Buxari", 3435; "Səhih Muslim", 50.

[5] Əbu Abdullah Abdur-Rəhman ibn Useylə əl-Muradi رحمه الله Əbu Bəkr və digər səhabələri görmüş tabiindir. Sunabih, Murad qəbiləsi yaxınlığında bir vadidir. Vaxtı ilə Sunabihi İslamı qəbul etmək məqsədilə Peyğəmbərin ﷺ yanına yollanmış, ancaq Cöhfəyə yetişdiyində və Mədinəyə çatmağına beş gün qalmış, Peyğəmbər ﷺ vəfat etmişdir. Qeyd etmək lazımdır ki, hədis elmində təcrübəsi olmayan kimsələr bu tabiini Sunabih ibn Ə'sər رضي الله عنه adlı səhabə ilə səhv salırlar.

sizə danışmışam. Yalnız bir hədisdən başqa.[1] Bu gün mən artıq ölüm ayağında ikən o hədisi də sizə danışacağam. Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "Kim Allahdan başqa *ibadətə layiq* məbudun olmadığına və Muhəmmədin Onun rəsulu olduğuna şahidlik etsə, Allah Cəhənnəm odunu ona haram edər".[2]

Rəvayət edilir ki, Əbu Hureyra رضي الله عنه demişdir: "*Bir gün* biz Peyğəmbərin ﷺ ətrafında oturmuşduq. Əbu Bəkr və Ömər də bizimlə idi. Bu vaxt Peyğəmbər ﷺ qalxıb aramızdan getdi və *geri qayıtdmağı* bir qədər ləngidi. Biz onun başına bir iş gələcəyindən qorxub təşvişə düşdük və *dərhal hamımız* ayağa qalxdıq. *Hamıdan* əvvəl mən narahat oldum və onu axtarmağa getdim. Gəlib ənsardan[3] olan Nəccar oğullarının bostanına yetişdim. Bostanın ətrafına hərləndim ki, bəlkə bir qapı tapıb *oraya girim*, amma tapa bilmədim. Bir də baxdım ki, çöldəki su quyusundan bostanın içinə bir arx gedir. Mən yerə yatıb sürünərək Peyğəmbərin ﷺ yanına daxil oldum. Peyğəmbər ﷺ: "Əbu Hureyradırmı?"– deyə soruşdu. Dedim: "Bəli, ya Rəsulullah!" Soruşdu: "Sənə nə olub?" Dedim: "Sən aramızdan qalxıb getdin və bir qədər ləngidin deyə, başına bir iş gələcəyindən qorxub təşvişə düşdük. Hamıdan əvvəl mən narahat oldum, qalxıb bu bostana gəldim və yerə yatıb tülkü kimi sürünərək bura daxil oldum. Orada olanlar da arxamca gəlir". Peyğəmbər ﷺ: "Ey Əbu Hureyra!"– deyib nəleyinlərini[4] mənə verdi və dedi: "Nəleyinlərimi[5] götür, apar və bu bostandan kənarda Allahdan başqa *ibadətə layiq* məbudun olmadığına şahidlik gətirən və yəqinliklə buna inanan hər kəsi Cənnətlə müjdələ".[6] Mənim ilk rast gəldiyim adam Ömər

---

[1] Qazı İyad رحمه الله demişdir: "Hədisdən aydın başa düşülür ki, Ubadə ibn əs-Samit رضي الله عنه düzgün anlaşılmayacağından ehtiyat edib hədisi danışmamışdır. Bu da ancaq etiqadla bağlı olan məsələlərə aiddir. Şəriətin qoyduğu hədlərin isə buna heç bir aidiyyəti yoxdur".

[2] "Səhih Muslim", 51.

[3] Mədinənin İslamı qəbul etmiş və Muhəmməd Peyğəmbərə ﷺ sədaqətli silahdaşlar olmuş yerli sakinləri. Onlar Məkkə və digər şəhərlərdən hicrət etmiş mühacirləri evlərinə yerləşdirər və onları zəruri əşyalarla təmin edərdilər.

[4] Nəleyin, başmağa oxşar ayaqqabıdır.

[5] Peyğəmbərin ﷺ öz nəleyinlərini Əbu Hureyraya رضي الله عنه verməkdə məqsədi o idi ki, onlar səhabələr üçün zahiri bir əlamət olsun, səhabələr də Əbu Hureyranın رضي الله عنه Peyğəmbərlə ﷺ rastlaşdığını bilsinlər və onun dediklərini qəbul etsinlər. Halbuki, onlar bunsuz da onun dediyini qəbul edirdilər. ("Mişkat əl-Məsabih", 1/298).

[6] Yəni, onlara xəbər ver ki, bu sifətləri özündə cəm edən hər kəs Cənnət əhlindən olacaq. Hədisdən açıq-aydın görünür ki, nə tövhid kəlməsinə iman gətirmədən onu tələffüz

oldu. O soruşdu: "Bu nə nəleyinlərdir, ey Əbu Hureyra?" Dedim: "Bu, Peyğəmbərin ﷺ nəleyinləridir. Bunları mənə verib göndərdi ki, Allahdan başqa *ibadətə layiq* məbudun olmadığına şahidlik gətirən və yəqinliklə buna inanan hər kəsi Cənnətlə müjdələyim". *Bunu eşidəndə* Ömər sinəmə bir zərbə vurdu və mən arxası üstə yıxıldım. Sonra *mənə*: "Geri qayıt, ey Əbu Hureyra!"– dedi, mən də Peyğəmbərin ﷺ yanına qayıtdım. Mən az qala ağlayacaqdım. Ömər də arxamca gəlirdi. Peyğəmbər ﷺ *məndən*: "Sənə nə olub, ey Əbu Hureyra?"– deyə soruşdu. Dedim: "Mən Ömərə rast gəldim və sənin mənə tapşırdığını ona xəbər verdim. *Buna rəğmən* o mənim sinəmə bir zərbə vurdu və mən arxası üstə yıxıldım. *Sonra mənə*: "Geri qayıt!"– dedi". Peyğəmbər ﷺ ondan: "Ey Ömər, bunu etməyə səni nə vadar etdi?"– deyə soruşdu. Ömər dedi: "Atam-anam sənə fəda olsun, ya Rəsulullah! Doğrudanmı, sən nəleyinlərini Əbu Hureyraya verib göndərmisən ki, Allahdan başqa *ibadətə layiq* məbudun olmadığına şahidlik gətirən və yəqinliklə buna inanan hər kəsi Cənnətlə müjdələsin?" Peyğəmbər ﷺ: "Bəli"– deyə cavab verdi. Ömər dedi: "Belə etməsən *olmazmı*, ya Rəsulullah! Düzü, mən insanların buna arxayın olacağından qorxuram. Qoy, *yaxşı* işlər görməyə çalışsınlar[1]". Peyğəmbər ﷺ: "Yaxşı, qoy çalışsınlar!"– deyə buyurdu".[1]

---

etməyin, nə də tələffüz etmədən ona inanmağın faydası var. Əksinə, bunları cəm etmək lazımdır. Ancaq tövhid kəlməsini qəbul etmək həm də o demək deyil ki, adam böyük günah sahibi olmuş olsa, etdiklərinin cəzasını Cəhənnəmdə çəkmədən birbaşa Cənnətə gedəcək. Axı belələrinin imanı peyğəmbərlər عليهم السلام və əməlisaleh möminlərin imanı kimi deyildir.

İbn Teymiyyə رحمه الله demişdir: "Sünnə və camaat əhli inanır ki, birbaşa Cənnətə daxil olmağa layiq olmayan, lakin qəlbində imanı olan fasiq müsəlmanlar Cəhənnəmdə əbədi qalmayacaqlar, əksinə, qəlbində zərrə qədər və ya xardal ağırlığında imanı olan müsəlmanlar Cəhənnəmdən çıxarılacaqlar. Qiyamət günü Peyğəmbər ﷺ ümmətindən böyük günah işləyənlər üçün şəfaətçilik edəcəkdir". ("Məcmu əl-Fətavə", 3/375).

[1] Qazı İyad رحمه الله və bir çox başqa alimlər demişlər: "Ömərin رضي الله عنه bu hərəkəti və Peyğəmbərə ﷺ etdiyi müraciəti, onun heç də Peyğəmbərə ﷺ etiraz etməsi və onun əmrinə qarşı çıxması demək deyildir. Çünki Peyğəmbərin ﷺ Əbu Hureyraya رضي الله عنه tapşırdığı bu iş ancaq ümmətin könlünü açacaq və onları müjdələyəcək bir xəbər idi. Lakin Ömər رضي الله عنه bunun gizli qalmasını insanlar üçün daha məqsədəuyğun və onların arxayınlaşmamaları üçün daha əlverişli hesab etmiş, habelə bunun o müjdədən daha xeyirli olduğunu güman etmişdir. Çünki, Ömər bu məsələni Peyğəmbərə ﷺ ərz etdikdə, o, Ömərin təklifi ilə razılaşmışdır. Bu da dəlildir ki, imam və ya rəhbər şəxs bir şeyi məsləhət gördüyü, tabeçiliyində olan kimsənin isə bunun tam əksini məsləhət bildiyi təqdirdə, tabeçilikdə olan adam bu

### Kafir ölüm yatağında: "la ilahə illəllah" desə, bu ona fayda verər.

Rəvayət edilir ki, İbn Şihab ﷺ demişdir: "Səid ibn Museyyib ﷺ öz atasından[2] rəvayət edir ki, Əbu Talib ölüm yatağında ikən Peyğəmbər ﷺ onun yanına gəldi və orada Əbu Cəhl və Abdullah ibn Əbu Ümeyyə ibn Muğiranı gördü. Peyğəmbər ﷺ dedi: "Əmican, "la ilahə illəllah" kəlməsini de ki, Allah yanında sənin *dediyinə* şahidlik edim". *Bunu eşidəndə* Əbu Cəhl və Abdullah ibn Əbu Ümeyyə dedilər: "Ey Əbu Talib, Abdulmuttalibin[3] dinindən dönməkmi istəyirsən?!" Peyğəmbər ﷺ tövhid kəlməsini, *onlar da öz dediklərini* o vaxta qədər təkrar etdilər ki, axırda Əbu Talib onlara son sözünü deyib, Abdulmuttalibin dinində qalacağını bildirdi və "la ilahə illəllah" deməkdən imtina etdi. *Onda* Peyğəmbər ﷺ *əmisinə* dedi: "Vallahi, mənə qadağan edilənədək sənin üçün bağışlanma diləyəcəyəm". Uca Allah da onun barəsində bu ayəni nazil etdi: **"Müşriklərin Cəhənnəm sakinləri olduqları bəlli olduqdan sonra, qohum olsalar belə, Peyğəmbərə və möminlərə onlar üçün bağışlanma diləmək yaraşmaz".**[4]

Uca Allah Əbu Talib barəsində ayə nazil etdi və Öz rəsuluna ﷺ belə buyurdu: **"Şübhəsiz ki, sən istədiyini doğru yola yönəldə bilməzsən, amma Allah istədiyini doğru yola yönəldir. O, doğru yolda olanları daha yaxşı tanıyır[5]".**[6]

Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ əmisinə ölüm ayağında ikən: "la ilahə illəllah" de, Qiyamət günü sənin *dediyinə* şahidlik edim"– demiş, əmisi *isə bundan* imtina etmişdir. Onda Allah *bu ayəni* nazil etmişdir: **"Şübhəsiz ki, sən istədiyini doğru yola yönəldə bilməzsən, amma Allah istədiyini doğru yola yönəldir. O, doğru yolda olanları daha yaxşı tanıyır[7]".**[8]

---

məsələni rəhbər şəxsə bildirməlidir. Bildirməlidir ki, o, buna bir daha nəzər salsın və əgər tabeçiliyində olan adamın dediyi məqsədəuyğundursa, onu dəstəkləsin, əks halda isə, ona yanlış düşündüyünü başa salsın".

[1] "Səhih Muslim", 56.

[2] Səidin ﷺ atası Museyyib ibn Həzn ibn Əbu Vəhb əl-Qurəşi əl-Məxzumi ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. ("əl-İsabə", 6/96).

[3] Abdulmuttalib, Peyğəmbərin ﷺ babası və Əbu Talibin atasıdır.

[4] "ət-Tövbə" surəsi, 113.

[5] "əl-Qəsəs" surəsi, 56.

[6] "Səhih əl-Buxari", 4772; "Səhih Muslim", 41.

[7] "əl-Qəsəs" surəsi, 56.

[8] "Səhih Muslim", 43.

Cənnətə yalnız müsəlman olan kimsə daxil olar.

**“Məsih demişdir: “Ey İsrail oğulları, Rəbbim və Rəbbiniz olan Allaha ibadət edin! Kim Allaha şərik qoşarsa, heç şübhəsiz, Allah Cənnəti ona haram edər. Onun gedəcəyi yer atəşdir.[1] Zalımların heç bir yardımçısı yoxdur”.[2]**

Rəvayət edilir ki, Əbu Hureyra ﷺ demişdir: “Biz Peyğəmbərlə ﷺ birlikdə Huneyn[3] döyüşündə iştirak etdik. Orada Peyğəmbər ﷺ müsəlman bildiyimiz kəslərdən biri haqqında: “O, Cəhənnəm əhlindəndir”– dedi. Döyüş qızışdı, həmin adam da var gücü ilə vuruşdu və *ağır* yaralandı. Peyğəmbərə ﷺ dedilər: “Ya Rəsulullah, bayaq haqqında: “O, Cəhənnəm əhlindəndir”– dediyin adam bu gün var gücü ilə vuruşdu və *aldığı yaralardan* dünyasını dəyişdi”. Peyğəmbər ﷺ: “*Onun yolu* Cəhənnəmədir”– dedi. *Bu sözdən sonra* az qaldı ki, müsəlmanların bəzisi şübhəyə düşsün. Onlar bu halda ikən *səhabələrdən biri*: “O adam ölməyib, ağır yaralıdır”– dedi. Gecə düşdükdə isə həmin adam ağrılara dözməyib öz canına qəsd etdi. Onun barəsində Peyğəmbərə ﷺ xəbər verildikdə, o: “Allah Böyükdür! Şahidlik edirəm ki, mən, həqiqətən də Allahın qulu və rəsuluyam!”– dedi. Sonra Bilala buyurdu, o da camaata bunu elan etdi: “Şübhəsiz ki, Cənnətə yalnız müsəlman girər və sözsüz ki, Allah bu dini günahkar bir adamın vasitəsilə olsa belə, qüvvətləndirər”.[4]

Səhl ibn Səd əs-Saidi ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ *və onun səhabələri* müşriklərlə üz-üzə gəlib döyüşməyə başladılar. *Günün axırında* Peyğəmbər ﷺ öz düşərgəsinə, müşriklər də öz düşərgələrinə çəkildilər. Peyğəmbərin ﷺ səhabələri arasında elə birisi var idi ki, *döyüşdə* heç bir fürsəti

---

[1] İbn Kəsir ﷺ demişdir: “Digər ayədə belə buyurulur: **“Allah Özünə şərik qoşulmasını əsla bağışlamaz. Bundan başqa *günahları* isə istədiyi kimsəyə bağışlayar”.** (“ən-Nisa” surəsi, 48 və 116). Yenə bir ayədə belə buyurulur: **“Cəhənnəm əhli Cənnət əhlini səsləyib deyəcəklər: “Üstümüzə bir az su və ya Allahın sizə verdiyi ruzidən tökün”. Onlar isə deyəcəklər: “Allah bunları kafirlərə haram etmişdir”.** (“əl-Əraf” surəsi, 50). (“Təfsir əl-Quran əl-Azim”, 3/157).

[2] “əl-Maidə” surəsi, 72.

[3] Qastillani ﷺ demişdir: “Huneyn, Məkkədən on mildən bir az çox məsafədə yerləşən vadidir. Peyğəmbər ﷺ Huneynə hicrətin 8-ci ilinin şəvval ayında yürüş etmişdir. Bundan bir qədər öncə, yəni həmin il ramazan ayının 17-də artıq Məkkə fəth edilmişdi. *Bu fəthdən sonra* Peyğəmbər ﷺ on doqquz gün Məkkədə qalmış, məğrib namazı istisna olmaqla, namazlarını iki rükət (yəni səfər namazı kimi) qılmış və nəhayət, şəvval ayında *ordusu ilə birlikdə* Huneynə yollanmışdır”. (“İrşad əs-Sari”, 6/389).

[4] “Səhih əl-Buxari”, 3062; “Səhih Muslim”, 220.

əldən verməmiş, çatdığı hər kəsi qılıncdan keçirib qətlə yetirmişdi. *Bəziləri* dedilər: "Bu gün bizim heç birimiz filankəs kimi döyüşmədi". Peyğəmbər ﷺ dedi: "*Filankəsə* gəlincə, o, Cəhənnəm əhlindəndir!" Səhabələrdən biri: "Mən axıra kimi onu izləyəcəyəm"– dedi və onun dalınca düşdü. Adam hər dayandıqda, səhabə onunla bərabər dayanır, tez-tez getdikdə isə ona çatmağa tələsərdi. Sonra həmin adam ölümcül yaralandı və tez ölmək (canını əzab-əziyyətdən qurtarmaq) üçün qılıncının qəbzəsini yerə dayadı, tiyəsini də sinəsinə dirədi, sonra da özünü qılıncının üstünə yıxaraq canına qəsd etdi. *Bu gördüklərindən sonra* səhabə Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Mən şahidlik edirəm ki, sən Allahın rəsulusan!" Peyğəmbər ﷺ: "Nə olub?"– deyə soruşduqda, *səhabə* dedi: "Bir qədər əvvəl sən filankəsin Cəhənnəm əhlindən olduğunu söylədin və hamını heyrətə saldın. Onda mən *öz-özümə*: "Mən onun barəsində sizə *bir xəbər* gətirərəm"– dedim və həmin adamı izləməyə başladım. Bir qədər sonra həmin adam ölümcül yaralandı və tez ölmək (əzab-əziyyətdən tez qurtarmaq) üçün qılıncının qəbzəsini yerə dayadı, tiyəsini də sinəsinə dirədi, sonra da özünü qılıncının üstünə yıxaraq canına qəsd etdi". Bunu eşidəndə Peyğəmbər ﷺ buyurdu: "Ola bilsin, bir adam insanlara Cənnət əhlinin əməlini edən bir kimsə kimi görünsün, lakin *axırda* Cəhənnəm əhlindən olsun. Həmçinin ola bilsin ki, bir kimsə insanlara Cəhənnəm əhlinin əməlini edən bir kimsə kimi görünsün, lakin *axırda* Cənnət əhlindən olsun".[1]

Abdullah ibn Abbas رضي الله عنه demişdir: "Ömər ibn əl-Xattab[2] رضي الله عنه mənə

---

[1] "Səhih əl-Buxari", 4202; "Səhih Muslim", 221.

[2] "Əbu Həfs", Ömər ibn əl-Xəttab ibn Nufeyl əl-Qurəşi əl-Faruq رضي الله عنه Peyğəmbərin ﷺ səhabəsidir. Fil ilindən on üç il sonra, yəni Muhəmmədə ﷺ peyğəmbərlik verilməmişdən iyirmi yeddi il əvvəl dünyaya gəlmişdir. O, Peyğəmbərin ﷺ ən yaxın iki dostundan biri, onun qayınatası – möminlərin anası Həfsənin رضي الله عنها atası, sağlığında ikən Cənnətlə müjdələnmiş on nəfərdən biri və raşidi xəlifələrin ikincisidir. Ömər ibn əl-Xəttab رضي الله عنه Peyğəmbərlə ﷺ birlikdə bütün döyüşlərdə iştirak etmiş, həmçinin ağac altında ona beyət gətirənlərdən olmuşdur. Məhz onun xilafəti dövründə o dövrün ən böyük imperiyaları, habelə, Peyğəmbərimizin ﷺ arzuladığı Qüds fəth edilmişdir. Peyğəmbər ﷺ onu tərifləyib demişdir: "Əgər məndən sonra peyğəmbər göndərilmiş olsaydı, Ömər olardı". ("Sunən ət-Tirmizi", 2/293; "Silsilə əl-Əhadis əs-Səhihə", 327). Digər hədisdə o ﷺ demişdir: "Ey Xəttabın oğlu! Canım Əlində olan Allaha and olsun ki, şeytan sənə rast gəldiyi zaman yolunu dəyişdirib başqa yol ilə gedir". ("Səhih əl-Buxari", 7683). Başqa bir hədisdə o ﷺ demişdir: "Peyğəmbərlər və rəsullar istisna olmaqla, yaşlılar arasında Əbu Bəkr və Ömər Cənnət əhlinin ən hörmətli sakinləridirlər". ("Sunən ət-Tirmizi", 4/310; "Sunən İbn Macə", 1/49; "Silsilə əl-Əhadis əs-Səhihə", 824). Yenə bir hədisdə o demişdir: "*Yuxuda* gördüm ki,

Cənnətdəyəm. Birdən qarşıma bir qəsr və bu qəsrin həyətində bir cavan qız çıxdı. Soruşdum: "Bu *qəsr* kimindir?" Dedilər: "Ömərindir!" Mən qəsrin içinə girib ora göz gəzdirmək istədim, lakin sənin qısqanclığın yadıma düşdü *və mən dönüb oradan uzaqlaşdım*". *Bunu eşidəndə* Ömər dedi: "Atam-anam sənə qurban, ya Rəsulullah, heç sənə qısqana bilərəmmi?!" ("Səhih əl-Buxari", 3679). Abdullah ibn Məsud demişdir: "Ömər İslamı qəbul edənədək müşriklər bizə Kəbənin yanında namaz qılmağa imkan vermirdilər. Ömər müsəlman olduqdan sonra qureyşlilərin müqavimətini qırıb Kəbənin yanında namaz qıldı, biz də onunla birgə namaz qıldıq". ("Səhih Sirə ən-Nəbəviyyə", 1/188).

Hədislərin birində rəvayət edilir ki, Ömər ibn əl-Xəttab demişdir: "Mən üç ayədə Rəbbimə müvafiq oldum. Mən: "Ya Rəsulullah, bəlkə, İbrahimin durduğu yeri namazgah edək?"– dedim və **"İbrahimin dayandığı yeri namazgah edin!"** ("əl-Bəqərə" surəsi, 125) ayəsi nazil oldu. Mən: "Ya Rəsulullah, bəlkə qadınlarına hicab geyməyi əmr edəsən? Axı onlarla həm möminlər, həm də yaramaz insanlar danışırlar"– dedim və hicab ayəsi nazil oldu. *Üçüncüsünə gəlincə, bir dəfə* Peyğəmbərin zövcələri əlbir olub ona qarşı qısqanclıq göstərməyə başladıqda, mən onlara: **"Əgər o sizi boşasa, Rəbbi sizin əvəzinizə ona sizdən daha yaxşı zövcələr verə bilər"**– dedim və bu ayə ("ət-Təhrim" surəsi, 5) nazil oldu". ("Səhih əl-Buxari", 402).

Hərçənd, bu hədisdə Ömərin cəmi üç ayədə Rəbbinə müvafiq olduğu xəbər verilir, lakin bu o demək deyil ki, o ancaq sadalanan bu üç ayədə Rəbbinə müvafiq olmuşdur. Bundan başqa Bədrdə əsir düşmüş müşriklər xüsusunda, habelə, münafiqlərə cənazə namazının qılınmaması və şərabın haram buyurulması xüsusunda da Ömərin təklifinə müvafiq ayələr nazil olmuşdur:

– Rəvayət edilir ki, Ömər ibn əl-Xəttab demişdir: "Bədr döyüşündə Allah müşrikləri məğlub etdiyi gün onlardan yetmiş nəfəri öldürüldü, yetmiş nəfəri də əsir götürüldü. Allahın rəsulu bu barədə Əbu Bəkr, Əli və Ömərlə məsləhətləşdi. Əbu Bəkr dedi: "Ya Rəsulullah, bu əsirlərin hamısı bizim qardaşlarımız, qohum-əqrəba və yaxınlarımızdır. Mən təklif edirəm ki, fidyə alıb onları azad edək, bununla da qüvvəmizi artıraq. Ola bilsin ki, Allah onlara hidayət versin və onlar da bizə dayaq olsunlar". Peyğəmbər Ömərə dedi: "Ey Xəttabın oğlu, sən nə təklif edirsən?" Ömər dedi: "Mən Əbu Bəkrin dediyi ilə razı deyiləm. Mənə izin ver, filan qohumumun boynunu vurum, Əliyə izin ver, Əqilin boynunu vursun, Həmzəyə izin ver, filan qardaşının boynunu vursun və beləliklə də qəlbimizdə onların başçılarına, sərkərdələrinə və qəhrəmanlarına qarşı mərhəmət olmadığını Allaha göstərək". Peyğəmbər *ictihad edib* Əbu Bəkrlə razılaşdı və fidyə alıb əsirləri azad etdi. Ertəsi gün mən Peyğəmbərin və Əbu Bəkrin yanına gəldikdə, onların kədərli olduğunu görüb dedim: "Ya Rəsulullah, sizi kədərləndirən nədir? Deyin, mən də sizin dərdinizə şərik olum". Peyğəmbər dedi: "Əsirlər müqabilində götürülmüş fidyəyə görə, sənin yoldaşlarına veriləcək əzabın yaxınlıqdakı bu ağacdan daha yaxın olduğu mənə göstərildi". Uca Allah da bu ayələri nazil etdi: **"Peyğəmbərə yer üzündə *çoxlu kafir* qırmayınca, əsir götürmək yaraşmaz. Siz dünya mənfəətlərini istəyirsiniz, Allah isə Axirəti *qazanmağınızı* istəyir. Allah Qüdrətlidir, Hikmət sahibidir. Əgər Allah tərəfindən əzəldən yazılan bir hökm olmasaydı, aldığınız *fidyə* müqabilində sizə böyük bir əzab toxunardı".** ("əl-Ənfal" surəsi, 67-68). Yəni, aldığınız fidyənin müqabilində. Daha

sonra Uca Allah əldə edilmiş qənimətləri halal buyurdu. ("əl-Ənfal" surəsi, 69). *Bədrdə* aldığımız bu fidyəyə görə isə növbəti il Uhud döyüşündə bəlaya düçar olduq. Bu döyüşdə yetmiş nəfərimiz şəhid oldu, səhabələr Peyğəmbəri ﷺ qoyub qaçdılar, Peyğəmbərin ﷺ qabaq dişləri və başındakı dəmir dəbilqə sındırıldı, üz-gözü başından axan qana bulaşdı. Uca Allah da bu ayəni nazil etdi: **"Siz *onların başına* ikiqat müsibət gətirmiş olduğunuz halda, başınıza bir müsibət gəldiyi zaman: "Bu, haradan gəldi?"– söylədiniz. De: "Bu, sizin özünüzdəndir!" Həqiqətən, Allah hər şeyə qadirdir".** ("Ali-İmran" surəsi, 165). Onların başına gələn bu müsibət fidyə aldıqlarına görə idi". ("Müsnəd İmam Əhməd", 1/30; "Səhih İbn Hibban", 4773).

– İbn Ömər رضي الله عنه rəvayət edir ki, *münafiqlərin başçısı* Abdullah ibn Ubey vəfat etdikdə onun oğlu Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ya Rəsulullah, köynəyini ver, atamı ona bürüyək, onun namazını qıl və onun üçün *Allahdan* bağışlanma dilə". Peyğəmbər ﷺ köynəyini ona verdi və dedi: "*Onu dəfn etməyə apardıqda* mənə bildirərsən, cənazə namazını qılaram". *Bir müddət sonra Abdullahın oğlu gəlib* Peyğəmbərə ﷺ xəbər verdi. Peyğəmbər ﷺ ona namaz qılmaq istəyəndə, Ömər onun əlindən tutub dedi: "Məgər, Allah münafiqlərin cənazə namazını qılmağı sənə qadağan etməyibmi?" Peyğəmbər ﷺ: "Mən *onların cənazə namazını qılıb-qılmamaqda* ixtiyar sahibiyəm!"– deyib bu ayəni oxudu: **"Onlar üçün bağışlanma diləsən də, diləməsən də, onlar üçün lap yetmiş dəfə bağışlanma diləsən belə, Allah onları əsla bağışlamayacaq"** ("ət-Tövbə" surəsi, 80), sonra da onun cənazə namazını qıldı. *Onda ət-Tövbə surəsinin 84-cü ayəsi* nazil oldu: **"Heç vaxt onlardan ölmüş birisinin cənazə namazını qılma, qəbrinin başında da durma. Çünki onlar Allahı və Onun Elçisini inkar etdilər və günahkar olaraq öldülər".** ("Səhih əl-Buxari", 1269; "Səhih Muslim", 2774).

– Amr ibn əl-As رضي الله عنه rəvayət edir ki, Ömər ibn əl-Xəttab رضي الله عنه tez-tez Allaha dua edib deyərdi: "Allahım, şərabın hökmünü bizə açıq-aydın bəyan et!" Uca Allah da bu ayəni nazil etdi: **"Səndən sərxoşedici *içki* və qumar barəsində soruşurlar. De: "İkisində də həm böyük günah, həm də insanlar üçün mənfəət vardır. Amma günahları mənfəətlərindən daha böyükdür"** ("əl-Bəqərə" surəsi, 219). Sonra Ömər yenə dua edib dedi: "Allahım, şərabın hökmünü bizə açıq-aydın bəyan et!" Uca Allah bu ayəni nazil etdi: **"Ey iman gətirənlər! Sərxoş ikən nə dediyinizi anlayana qədər və *cinsi əlaqədən sonra* natəmiz olduğunuz halda, – yolda olan *müsafirlər* istisna olmaqla, – qüsl edənədək namaza yaxınlaşmayın"** ("ən-Nisa" surəsi, 43). Ömər bir daha dua edib: "Allahım, şərabın hökmünü bizə açıq-aydın bəyan et!"– dedikdə, Uca Allah bu ayəni nazil etdi: **"Ey iman gətirənlər! Şübhəsiz ki, sərxoşedici *içki* də, qumar da, *tapınmaq məqsədilə* dik qoyulmuş daşlar da, fal oxları da şeytan əməlindən olan murdar şeylərdir. Bunlardan çəkinin ki, bəlkə nicat tapasınız. Həqiqətən, şeytan sərxoşedici *içki* və qumar vasitəsilə sizin aranıza ədavət və kin salmaq, sizi Allahı yad etməkdən və namazdan ayırmaq istəyər. Siz *buna* son qoymayacaqsınızmı?"** Bunu eşidən Ömər təkrar-təkrar: "Son qoyduq! Son qoyduq!"– dedi". ("Sunən Əbu Davud", 3670; "Sunən ət-Tirmizi", 3329; "Səhih ət-Tirmizi", 3255).

Bu hədislərdən aydın olur ki, Ömər ibn əl-Xəttab رضي الله عنه düz altı ayədə Rəbbinə müvafiq olmuşdur.

belə rəvayət etmişdir: “Xeybər döyüşündə səhabələrdən bəziləri gəlib: “Filankəs şəhiddir, filankəs şəhiddir”– dedilər. Nəhayət, *döyüşdə ölmüş* bir kişinin yanına gəlib: “Filankəs şəhiddir”– deyəndə, Peyğəmbər ﷺ dedi: “Xeyr! Mən onun qənimətdən *izinsiz olaraq* götürdüyü bürüncəyə, *yaxud əbaya* görə odda *yandığını* gördüm”. Sonra Peyğəmbər ﷺ belə buyurdu: “Ey Xattabın oğlu, qalx, camaata elan et ki, Cənnətə yalnız möminlər daxil olacaqlar”. Mən də qalxıb *camaata* elan edərək: “Cənnətə yalnız möminlər daxil olacaqlar”– dedim”.[1]

## Tövhidin tələblərini kamil şəkildə yerinə yetirmiş yetmiş min müsəlman sorğu-sualsız Cənnətə daxil olacaq.

Səid ibn Museyyib rəvayət etmişdir ki, Əbu Hureyra رضي الله عنه demişdir: “Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: “Ümmətimdən yetmiş min nəfərlik bir zümrə *sorğu-sualsız Cənnətə* daxil olacaq. Onların üzü bədr gecəsindəki Ay kimi[2] nur saçacaqdır”.[3] [Əbu Hureyra رضي الله عنه dedi:] “*Bunu eşidən* Ukkaşə ibn Mihsən əl-Əsədi[4] əynindəki bəbir dərisinə bənzər bürüncəyinin ətəyini çəkərək ayağa qalxdı və: “Ya Rəsulullah, Allaha dua et, məni onlardan etsin!”– dedi. Peyğəmbər ﷺ də: “Allahım, bunu o kəslərdən et!”– deyə dua etdi. Sonra ənsardan olan başqa birisi qalxdı və: “Ya Rəsulullah, Allaha dua et, məni də onlardan etsin!”– dedi. Peyğəmbər ﷺ dedi: “Bu işdə Ukkaşə səni qabaqladı”.[5]

---

Ömər ibn əl-Xəttab رضي الله عنه hicrətin 13-cü ilində xilafətə rəhbərliyə gəlmiş, 10 il 6 ay möminlərə layiqincə əmirlik etmiş və nəhayət, hicrətin 23-cü ilində Mədinə şəhərində məcusi Əbu Lulu Firuz tərəfindən vurulmuş və üç gündən sonra, altmış üç yaşında şəhid olmuşdur. Bundan sonra onu əziz iki dostunun – Peyğəmbərin ﷺ və Əbu Bəkrin رضي الله عنه yanında dəfn etmişlər.

[1] “Səhih Muslim”, 224.

[2] Burada “bədr” deyildikdə, qəməri ayların on dördüncü gecəsi qəsd edilir. Elə buna görə də on dörd gecəlik, yəni tam dairə şəklinə düşmüş Aya “bədirlənmiş Ay” deyilir.

[3] Digər bir hədisdə Peyğəmbər ﷺ demişdir: “Ümmətimdən yetmiş min nəfər sorğu-sualsız Cənnətə girəcək. Onların üzü bədr gecəsindəki ay kimi nur saçacaq, qəlbləri də *mömin* bir adamın qəlbi kimi olacaq. Rəbbimdən bundan artığını istədim, O mənə *həmin yetmiş min nəfərdən* hər bir kəslə yetmiş min də əlavə Cənnətə sorğu-sualsız girəcəyini nəsib etdi”. (“Müsnəd İmam Əhməd”, 1/203; “Səhih əl-Cami”, 1057).

[4] Ukkaşə ibn Mihsən əl-Əsədi رضي الله عنه Peyğəmbərin ﷺ səhabəsidir. Peyğəmbərlə ﷺ birlikdə Bədr, Uhud, Xəndək və başqa döyüşlərdə iştirak etmişdir. Əbu Bəkr əs-Siddiqin رضي الله عنه xilafəti dövründə, qırx beş yaşında vəfat etmişdir. (İbn Abdul-Bərr, “əl-İstiyab”, 2/1080).

[5] “Səhih əl-Buxari”, 5811; “Səhih Muslim”, 442.

İmran[1] ﷺ rəvayət edir ki, *bir dəfə* Allahın elçisi ﷺ dedi: "Ümmətimdən yetmiş min nəfər sorğu-sualsız Cənnətə girəcək". *Səhabələr* soruşdular: "Kimdir onlar, ya Rəsulullah?" Peyğəmbər ﷺ dedi: "Onlar *müalicə məqsədilə* bədənlərinə dağ basmayan[2], özlərinə ruqya[3] oxunmasını tələb etməyən və yalnız Rəbbinə təvəkkül edənlərdir". *Bu vaxt* Ukkaşə ayağa qalxıb dedi: "*Ya Rəsulullah,* Allaha dua et, məni onlardan etsin". Peyğəmbər ﷺ: "Sən onlardansan!"– dedi. Sonra başqa bir adam ayağa qalxıb: "Ya Rəsulullah, Allaha dua et, məni də onlardan etsin"– dedi. Peyğəmbər ﷺ dedi: "Bu işdə Ukkaşə səni qabaqladı".[4]

Rəvayət edilir ki, Əbu Hazim ﷺ demişdir: "Səhl ibn Səd ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Ümmətimdən yetmiş min, yaxud yeddi yüz min [– Əbu Hazim bunlardan hansını söylədiyini bilmir.] nəfər sorğu-sualsız, həm də əl-ələ verib, bir-birilərindən *bərk-bərk* tutmuş halda Cənnətə daxil olacaq – axırıncıları içəri daxil olmayınca, əvvəlinciləri daxil olmayacaq.[5] Onların üzü on dörd gecəlik Ay kimi *gözəl və parlaq* olacaq".[6]

Huseyn ibn Abdur-Rəhman ﷺ demişdir: "Mən Səid ibn Cubeyrin ﷺ yanında ikən, o *bizdən*: "Hansı biriniz dünən gecə düşən ulduzu gördü?[7]"– deyə soruşdu. Dedim: "Mən *gördüm*. Çünki *həmin vaxt* mən namazda deyildim, məni əqrəb sancmışdı". O: "Sən nə etdin?"– deyə soruşdu. Dedim:

---

[1] İmran ibn Huseyn ibn Ubeyd əl-Xuzai ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Xeybər günü İslam dinini qəbul etmiş, Məkkənin fəthi günü xuzaililərin bayraqdarı olmuşdur. Hicrətin əlli ikinci, yaxud əlli üçüncü ilində vəfat etmişdir. (İbn Həcər, "əl-İsabə", 4/586).

[2] Bədənə dağ basmaq xüsusunda İbn əl-Qeyyim ﷺ demişdir: "Bədənə dağ basmaq xüsusunda varid olmuş hədislər dörd qismə bölünür: birincisi, Peyğəmbərin ﷺ etdiyi; ikincisi, xoşlamadığı; üçüncüsü, bunu tərk edəni tərifləməsi və dördüncüsü, qadağan edilməsi barədə varid olanlar. Allaha həmd olsun ki, bu hədislər arasında heç bir ziddiyyət yoxdur. Peyğəmbərin ﷺ bunu etməsi bu əməlin caiz olmasına dəlalət edir. Bəyənilməməsi isə qadağan edilməsinə dəlalət etmir. Onun bu əməli tərk edəni tərifləməsi onu tərk etməyin daha əfzəl olması deməkdir. Qadağan edilməsi isə zərurət olmadıqda bunu etməyə aiddir". ("Zad əl-Məad", 4/65).

[3] "Ruqya", hərfi tərcümədə "ovsun" deməkdir. Burada ovsun deyildikdə isə, xəstəni sehr, cadu-pitiklə deyil, əksinə, mübarək sözlərlə – Allahın Kəlamı və ya Peyğəmbərin ﷺ duaları vasitəsilə müalicə etmək nəzərdə tutulur.

[4] "Səhih Muslim", 444.

[5] Yəni, hamı bir cərgəyə düzülmüş halda, birlikdə Cənnətə daxil olacaq. Bu da Cənnət qapılarının həddən ziyadə geniş olduğuna dəlalət edir.

[6] "Səhih əl-Buxari", 6541; "Səhih Muslim", 446.

[7] Səid ﷺ onlardan hansının həmin gecə yatmadığını öyrənmək istəyir.

"*Birisindən mənə* ruqya oxumağını tələb etdim". Soruşdu: "Səni bunu etməyə nə sövq etdi?" Dedim: "Şəbinin bizə rəvayət etdiyi hədis". Soruşdu: "Şəbi sizə nə rəvayət etmişdir?" Dedim: "O bizə Bureydə ibn Husayb əl-Əsləminin belə rəvayət etdiyini xəbər vermişdir: "Yalnız göz dəymiş[1] və ya (əqrəb və s. tərəfindən) sancılmış *adamı müalicə etmək məqsədilə* ruqya oxumaq olar".[2]

*Səid* dedi: "Eşitdiyi ilə kifayətlənən kimsə nə gözəl iş görmüşdür! Lakin İbn Abbas ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Ümmətlər[3] mənə göstərildi[4]. Mən peyğəmbər gördüm, yanında bir toplum adam var idi. Başqa bir peyğəmbər gördüm, yanında bir və ya iki adam var idi. Elə peyğəmbər də gördüm ki, yanında heç kəs yox idi. *Bu vaxt* mənə böyük

---

[1] Bu xüsusda rəvayət edilmiş hədisdə Peyğəmbər ﷺ demişdir: "Gözdəymə həqiqətdir". ("Sunən ət-Tirmizi", 2061; "Musnəd İmam Əhməd", 4/67; "əl-Ədəb əl-Mufrad", 914). O ﷺ həmçinin demişdir: "Gözdəymə adamı qəbrə, dəvəni isə qazana soxa bilər". (Əbu Nueym, "əl-Hilyə", 7/90; "Silsilə əl-Əhadis əs-Səhihə", 1249).

[2] Rəvayət edilir ki, Əbu Səid əl-Xudri ﷺ demişdir: "*Bir dəfə* Peyğəmbərin ﷺ səhabələrindən bir dəstəsi səfərə çıxdı və gəlib bədəvi qəbilələrindən birinə məxsus bir kənddə dayandı. Səhabələr onların evində qonaq olmaq istədilər, lakin onlar səhabələri yeməyə qonaq etmək istəmədilər. Bu əsnada qəbilə başçısını əqrəb sancdı. Kənddəkilər ona əllərindən gələn köməyi göstərməyə çalışdılar, lakin bu cəhdlərin heç bir faydası olmadı. Onlardan bəzisi dedi: "Yaxşı olar ki, gedib *kəndimizə* təşrif buyurmuş adamlara müraciət edəsiniz, bəlkə onlarda nə isə tapıldı". Onlar səhabələrin yanına gəlib dedilər: "Ay camaat, qəbilə başçımızı əqrəb sancıb. Nə qədər çalışdıqsa, əlac tapa bilmədik. Bəlkə sizdən birinizdə bir əlac tapıla?" Səhabələrdən birisi dedi: "Bəli, mən ruqya oxuya bilirəm. Vallahi, biz sizə ancaq qonaq olmaq istədik, lakin siz bizi yeməyə qonaq etmədiniz. Elə buna görə də bizə zəhmət haqqı verməyincə, mən sizin xəstəniz üçün ruqya oxumayacağam". Onda onlar *müalicə müqabilində* səhabələrə bir sürü qoyun vəd etdilər. Bundan sonra o, *qəbilə başçısının yanına gəlib onun yarasına* yüngülcə üfürdü və "əl-Fatihə" surəsini oxudu. *Bir az* sonra qəbilə başçısı sanki buxovdan azad oldu və heç xəstə olmayıbmış kimi, ayağa qalxıb gəzməyə başladı. Onlar səhabələrə vəd etdikləri zəhmət haqqını verdilər. Bu vaxt səhabələrdən biri: "*Qoyunları* bölüşdürün!"– dedi. Ruqya oxuyan səhabə isə: "Peyğəmbərin ﷺ yanına gedib hadisəni ona danışmayınca və onun nə hökm verəcəyini öyrənməyincə, heç bir şey etməyin!"– deyə etiraz etdi. Onlar Peyğəmbərin ﷺ yanına gəlib hadisəni ona danışdıqda, o soruşdu: "Sən nə bilirdin ki, bu, ruqyadır?" Sonra əlavə edib dedi: "Siz düz etmisiniz. *Qoyunları* bölüşdürün və özünüzlə yanaşı, mənim üçün də bir pay ayırın". *Bunu deyəndən* sonra Peyğəmbər ﷺ gülümsədi". ("Səhih əl-Buxari", 2276).

[3] Burada peyğəmbərlərin ﷺ göndərildiyi ümmətlər nəzərdə tutulur. Uca Allah buyurur: **"Biz hər ümmətə: "Allaha ibadət edin, tağutdan uzaq olun!"–** ***deyə*****, elçi göndərdik".** ("ən-Nəhl" surəsi, 36).

[4] Ola bilsin, Peyğəmbər ﷺ bunu yuxuda görmüşdür. ("Fəth əl-Bari", 11/407).

bir qaraltı göstərildi. Mən onların ümmətim olduğunu zənn etdim. *Mənə*: "Bu, Musa və onun qövmüdür. Sən üfüqə doğru bax!"– deyildi. Mən *dərhal ora* baxdım və orada böyük bir qaraltı gördüm. Mənə: "Üfüqün digər tərəfinə bax!"– deyildi. *Mən daha* əzəmətli bir qaraltı gördüm. Mənə: "Bu sənin ümmətindir. Onlardan yetmiş min nəfəri sorğu-sual olunmadan və əzab çəkmədən Cənnətə girəcəkdir"– deyildi". *Bunu deyəndən* sonra Peyğəmbər ﷺ qalxıb evinə daxil oldu. Camaat sorğu-sualsız və əzab çəkmədən Cənnətə girəcək o kimsələr barədə mübahisə etdi. Bəziləri: "Çox güman ki, onlar Peyğəmbərə ﷺ yoldaş olmuş kimsələrdir[1]"– dedilər. Bəziləri də: "Ola bilsin ki, onlar İslam dini gəldikdən sonra doğulmuş və *heç vaxt* Allaha şərik qoşmamış kimsələrdir"– dedilər. Beləcə, onlar bir çox şeylər zikr etdilər. Bu vaxt Peyğəmbər ﷺ evindən çıxıb: "Nə haqda mübahisə edirsiniz?"– deyə soruşdu. *Səhabələr mübahisə etdikləri məsələni* ona ərz etdikdə, Peyğəmbər ﷺ dedi: "Onlar ruqya oxumayan[2], özlərinə ruqya oxunmasını tələb etməyən, *hər hansı bir hadisəni* uğursuzluq əlaməti hesab etməyən[3] və yalnız Rəbbinə

---

[1] Burada ya səhabələrin hamısı, ya da yalnız Peyğəmbərlə ﷺ birlikdə Məkkədən Mədinəyə hicrət edənlər nəzərdə tutulur.

[2] Bu ləfz ravinin xətasıdır. Belə ki, Peyğəmbər ﷺ həm özünə, həm də başqalarına ruqya edərdi, habelə həm Cəbrail ﵇, həm də Aişə ﵂ ona ruqya edərdilər. Həmçinin səhabələr də ruqya edərdi. Aişə ﵂ rəvayət edir ki, Peyğəmbər ﷺ xəstələndikdə, şərdən qoruyan surələri ("əl-İxlas", "əl-Fələq" və "ən-Nas" surələrini) özünə oxuyub üfürərdi. Xəstəliyi şiddətləndikdə isə, mən bu surələrin bərəkətini *Allahdan* umaraq, onları onun üçün oxuyub əllərini *bədəninə* sürtərdim". ("Səhih əl-Buxari", 5016). Digər rəvayətdə Aişə ﵂ demişdir: "Peyğəmbər ﷺ hər gecə yatağına uzandıqda əllərini cütləşdirib onların içinə üfürər, sonra ora "əl-İxlas", "əl-Fələq" və "ən-Nas" surələrini oxuyar, daha sonra isə əllərini baş və üz nahiyəsindən başlayaraq, bacardığı qədər bədəninin hər yerinə sürtər və bunu üç dəfə təkrar edərdi". ("Səhih əl-Buxari", 5017). Ənəs ibn Malik ﵁ demişdir: "Peyğəmbər ﷺ ənsardan olan bir ailəyə *zəhərli heyvan* sancmasını və qulaq ağrısını *müalicə etmək üçün* ruqya oxumağa izin vermişdir". ("Səhih əl-Buxari", 5719). Aişə ﵂ demişdir: "Peyğəmbər ﷺ mənə gözdəyməyə qarşı ruqya oxumağı buyurdu". ("Səhih əl-Buxari", 5738). Ummu Sələmə ﵂ rəvayət edir ki, *bir dəfə* Peyğəmbər ﷺ onun evində üzünün rəngi dəyişmiş bir qız uşağı görüb dedi: "Bu qızcığaza göz dəyib, ona ruqya oxuyun!" ("Səhih əl-Buxari", 5739).

[3] Bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Uğursuzluğa yozmaq şirkdir". ("Sunən Əbu Davud", 2/158; "Sunən ət-Tirmizi", 1/304; "əl-Ədəb əl-Mufrad", 909).

Ərəbcə "tətayyur" deyildikdə, adamı bir işdən çəkindirən və ya bir işə sövq edən əlamətə inanmaq nəzərdə tutulur. Bir əlaməti uğursuzluğa yozmağın şirk sayılmasının səbəbi budur ki, bunu edən adam Allahın əzəldən yazdığı qədərə, habelə, Allahın Qüdrət və Qüvvət sahibi olduğuna və bütün işləri idarə etdiyinə tam iman gətirmir. Hər hansı bir

təvəkkül edənlərdir". *Bu vaxt* Ukkaşə ibn Mihsən رضي الله عنه ayağa qalxıb dedi:

---

əlaməti uğursuzluğa yozan insanlar üç qismə bölünürlər: birincisi, bu əlamətin hər hansı bir təsirə malik olduğunu düşünən və elə bu səbəbdən də görəcəyi işdən imtina edən kimsələrdir ki, bunların əməli şirk sayılır. İkincisi, bu əlamətin hər hansı bir təsirə malik olduğunu ehtimal edən, lakin görəcəyi işdən imtina etməyən və gördüyü iş baş tutmadıqda bunu uğursuzluq əlaməti ilə əlaqələndirən kimsələrdir ki, bunların da əməli şirk hesab edilir. Üçüncüsü isə, belə bir əlamət gördükdə ona məhəl qoymayan, yalnız Allaha təvəkkül edən və Ona iman gətirənlərdir ki, belələri imanlarında sabitqədəm olan kimsələrdir. Onlar yəqin bilirlər ki, əgər bütün ümmət bir kimsəyə xeyir vermək üçün əlbir olsa belə, Allahın onun lehinə yazdığı xeyirdən başqa bir şeylə ona fayda verə bilməz, həmçinin, onlar ona zərər vurmaq üçün əlbir olsalar belə, Allahın onun əleyhinə yazdığından başqa bir şeylə ona zərər yetirə bilməzlər – qələmlər qaldırılmış, səhifələr də qurumuşdur.

İbn Useymin رحمه الله bu mövzudan danışarkən demişdir: "Cahiliyyət dövründə ərəblərdən kimsə bir işi görmək istədikdə göyə baxar və göydə gördüyü quşun sağ tərəfə, yaxud sol tərəfə uçmasıyla görmək istədiyi işin uğurlu və ya uğursuz olacağını təyin edərdi. Beləsi xoşagəlməz bir səs eşitdikdə və ya arzuedilməz bir kəsi gördükdə də bunu uğursuzluq əlaməti hesab edərdi. Bəziləri isə şəvval ayında evlənməyi uğursuzluq sayardı. Aişə رضي الله عنها bu cür etiqadın batil olduğunu bildirib demişdir: "Rəsulullah ﷺ mənimlə şəvval ayında nikah bağlamış, şəvval ayında da məni öz evinə gətirmişdir". ("Səhih Muslim", 1423). Bundan başqa, o vaxt ərəblər çərşənbə gününü də, səfər ayını da uğuzsuz əlamət hesab edərdilər. Qeyd etmək lazımdır ki, bunların və bunlara bənzər inancların hamısı batildir". ("əl-Qovl əl-Mufid", 1/103-104).

Hafiz Həkəmi رحمه الله də bu məsələni izah edərkən demişdir: "Uğursuzluğa yozmaq xeyir-bərəkət diləməyin əksi və bir şeydə xeyir-bərəkətin olmamasını iddia etməkdir. Bu da, müşahidə olunan bir şeyə aid edilir. Məsələn, doğmayan, yaxud ərinə əziyyət verən acıdil, yaxud ərinin malını israf edən bədxərc, səfeh və başqa bu tip qadınlarda, habelə, münbit torpağı olmayan, yaxud darısqal, yaxud içində vəba və s. keçici xəstəliklər olan, yaxud ətrafında pis qonşular olan evlərdə, eləcə də qısır, yaxud çoxlu xoşagəlməz qüsurları olan heyvanda xeyir olmadığını düşünmək. Bütün bunlar müşahidə olunan, zəruri və məlum olan şeylərdir. Bunların şəriətin qadağan etdiyi "tətayyur"a (bəd əlaməti uğursuzluğa yozmağa) heç bir aidiyyəti yoxdur. Çünki bəd əlamətə *həqiqi mənada* etiqad edən şəxs bunu başqa mənaya yozur. Belə ki, bəd əlaməti uğursuzluğa yozan kimsələr bunun öz sahibinə müvəffəqiyyətsizlik və bədbəxtlik gətirəcəyinə etiqad edir və onun nə zərəri, nə də faydası barədə heç düşünmür də. Bunu düşünən adam qadının, yaxud evin, yaxud da heyvanın qüsurundan dolayı xeyirsiz olduğuna deyil, məhz bunun bəd əlamət olduğuna və bu əlamətin bədbəxtlik gətirəcəyinə etiqad edir. Bu etiqadda olan kimsə belə bir qadınla həyat quracağı, yaxud belə bir evdə məskunlaşacağı, yaxud belə bir heyvanı minəcəyi təqdirdə ziyana uğrayacağını deyil, dərhal öləcəyini, başına müsibət gələcəyini düşünür. Bunlar belə qadının, yaxud evin, yaxud miniyin özünəməxsus bir ulduz olduğuna və bu ulduzun onların ulduzu ilə üst-üstə düşmədiyinə etiqad edir, üstəlik, buna etimad edir və qədəri bununla əlaqələndirirlər. Bu da şeytanın müşriklərdən olan dostlarına təlqin etdiyi bir cəfəngiyyatdır". ("Məaric əl-Qəbul", 3/992).

"*Ya Rəsulullah,* Allaha dua et, məni onlardan etsin!" Peyğəmbər ﷺ: "Sən onlardansan!"– dedi. Sonra başqa birisi ayağa qalxıb dedi: "*Ya Rəsulullah,* Allaha dua et, məni də onlardan etsin!" Peyğəmbər ﷺ ona belə cavab verdi: "Bu işdə Ukkaşə səni qabaqladı".[1]

### Bu ümmətin müjdələnməsi və Allahın lütfünə ümid bəsləməsi.

Rəvayət edilir ki, Abdullah ibn Məsud رضي الله عنه demişdir: "*Bir gün* Peyğəmbər ﷺ bizə dedi: "Cənnət əhlinin dörddə biri olmağınıza razı deyilsinizmi?!" *Bunu eşidəndə* biz: "Allahu Əkbər!"– dedik. Sonra o dedi: "Cənnət əhlinin üçdə biri olmağınıza razı deyilsinizmi?!" Biz *yenə*: "Allahu Əkbər!"– dedik. Sonra o dedi: "Mən sizin Cənnət əhlinin yarısını təşkil edəcəyinizə ümid edirəm və mən sizi bundan xəbərdar edəcəm. Müsəlmanlar kafirlər arasında *onlardan* qara öküzün dərisindəki ağ tük və ya ağ öküzün dərisindəki qara tük kimi seçiləcəklər".[2]

Əbu Səid əl-Xudri[3] رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "*Qiyamət günü* izzətli və qüdrətli Allah: "Ey Adəm!"– deyə buyuracaq. Adəm deyəcək: "Buyur, hüzurundayam və əmrinə müntəzirəm. Xeyir yalnız Sənin Əlindədir!" Allah buyuracaq: "Cəhənnəmə vasil olacaq kimsələri ayır!" Adəm deyəcək: "Cəhənnəmə vasil olanların *sayı* nə qədərdir?" Allah buyuracaq: "Hər min nəfərdən doqquz yüz doxsan doqquzu *Cəhənnəmə vasil olacaq*". *Qiyamət qopacağı* həmin gün uşaqların saçları ağaracaq, **"hər bir hamilə öz bətnindəkini salacaq, insanları sərxoş görəcəksən. Halbuki onlar sərxoş olmayacaqlar. Lakin Allahın əzabı çox şiddətlidir".**[4] Səhabələrə bu üzücü gəldi və onlar: "Ya Rəsulullah, hansımız o bir nəfərdən olacaq?"– deyə soruşdular. Peyğəmbər ﷺ buyurdu: "Sevinin! Heç şübhəsiz, sizdən hər bir nəfərin müqabilində Yəcuc və Məcuc tayfalarından

---

[1] "Səhih əl-Buxari", 5705; "Səhih Muslim", 447.

[2] "Səhih əl-Buxari", 6528; "Səhih Muslim", 449.

[3] Əbu Səid Səd ibn Malik ibn Sinan əl-Xudri əl-Ənsari əl-Xəzrəci رضي الله عنه ən çox hədis rəvayət etmiş yeddi səhabədən biridir – Peyğəmbərdən ﷺ 1170 hədis rəvayət etmişdir. Böyük fəqihlərdən olmuş, vaxtilə Mədinədə müftilik etmişdir. Xəndək döyüşündə və Ridvan beyətində (ağac altında edilən beyətdə) iştirak etmişdir. Hicrətin 74-cü ilində vəfat etmişdir. ("Siyər Əlam ən-Nubələ", 28-ci tərcümeyi-hal).

[4] "əl-Həcc" surəsi, 2.

min nəfər[1] *Cəhənnəmə vasil olacaq*". Sonra Peyğəmbər ﷺ davam edib dedi: "Canım Əlində olan *Allaha* and olsun ki, mən sizin Cənnət əhlinin dörddə birini təşkil edəcəyinizə ümid edirəm". *Bunu eşidəndə* biz Allaha həmd etdik və təkbir gətirdik[2]. Sonra o dedi: "Canım Əlində olan *Allaha* and olsun ki, mən sizin Cənnət əhlinin üçdə birini təşkil edəcəyinizə ümid edirəm". Biz *yenə* Allaha həmd etdik və təkbir gətirdik. Sonra o dedi: "Canım Əlində olan *Allaha* and olsun ki, mən sizin Cənnət əhlinin yarısını təşkil edəcəyinizə ümid edirəm. Sizinlə əvvəlki ümmətlərin misalı, qara öküzün dərisindəki ağ tükün və ya uzunqulağın qılçasının iç tərəfində olan dairəvarı ləkənin misalına bənzəyir".[3]

## Mömininin, özü də hiss etmədən əməlinin puç olacağından qorxması.

**«De: "Sizə əməlləri baxımından ən çox ziyana uğrayanlar barəsində xəbər verimmi? O kəslər ki, onların dünya həyatındakı səyləri boşa çıxmışdır. Çünki onlar özlüyündə yaxşı işlər gördükləri gümanında idilər. Onlar Rəbbinin ayələrini və Onunla qarşılaşacaqlarını inkar edən, buna görə də bütün əməlləri boşa çıxan kimsələrdir. Odur ki, Qiyamət günü Biz onlara əhəmiyyət verməyəcəyik"».**[4]

**"Sənə və səndən əvvəlki *peyğəmbərlərə* belə vəhy edilmişdir: "Əgər *Allaha* şərik qoşsan, əməlin puç olacaq və mütləq ziyana uğrayanlardan olacaqsan".**[5]

Əbu Hureyra رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Qiyamət günü yekəpər, şişman bir adam gələcək. Allahın hüzurunda *həmin adamın* heç ağcaqanadın qanadı ağırlığında çəkisi (dəyəri) olmayacaq. *Bu ayəni* oxuyun: **"Odur ki, Qiyamət günü Biz onlara əhəmiyyət verməyəcəyik**[6]**"**.[7]

---

[1] İmam Qurtubi رحمه الله demişdir: "Yəcuc və Məcuc tayfalarından" deyildikdə həm onlar, həm də digər kafirlər, "sizdən" deyildikdə isə həm səhabələr, həm də onlar kimi mömin olan kimsələr nəzərdə tutulur". (İbn Həcər, "Fəth əl-Bari", 11/392).

[2] Yəni, "Allahu Əkbər!" dedik.

[3] "Səhih əl-Buxari", 6530; "Səhih Muslim", 452.

[4] "əl-Kəhf" surəsi, 103-105.

[5] "əz-Zumər" surəsi, 65.

[6] "əl-Kəhf" surəsi, 105.

[7] "Səhih əl-Buxari", 4729; "Səhih Muslim", 7146.

Əbu Hureyra رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: *“Ey müsəlmanlar,* qaranlıq gecənin zülməti kimi *qorxunc* fitnələrdən əvvəl[1] *yaxşı* işlər görməkdə bir-birinizlə yarışın! *Bu fitnələr zamanı* insan mömin ikən səhərə çıxar, axşamı isə kafir olaraq qarşılayar[2], yaxud mömin ikən axşamı qarşılayar, səhərə isə kafir olaraq çıxar. Beləsi dünya mənfəəti müqabilində dinini satar”.[3]

Ənəs ibn Malik رضي الله عنه rəvayət edir ki, *Uca Allahın*: **“Ey iman gətirənlər! Səsinizi Peyğəmbərin səsindən yüksəyə qaldırmayın və bir-birinizə müraciət etdiyiniz kimi, ona da uca səslə müraciət etməyin. Yoxsa, özünüz də hiss etmədən, əməlləriniz hədər gedər”**[4] ayəsi nazil olduqdan sonra Sabit رضي الله عنه evindən bayıra çıxmadı və: “Mən Cəhənnəm əhlindənəm”– deyərək, Peyğəmbərin ﷺ gözünə görünməkdən çəkindi. Peyğəmbər ﷺ Səd ibn Muazdan رضي الله عنه: “Ey Əbu Amr! Sabitə nə olub, xəstələnibmi?”– deyə onu xəbər aldı. Səd dedi: “O mənim qonşumdur. Onun xəstələnməyindən xəbərim yoxdur”. Sonra Sabitin yanına gedən Səd, Peyğəmbərin ﷺ sözünü ona xəbər verdi. Sabit dedi: “Bu ayə nazil oldu! Özünüz də yaxşı bilirsiniz ki, aranızda səsini Peyğəmbərin ﷺ səsindən yüksəyə qaldıran mənəm[5]. Deməli, mən Cəhənnəm əhlindənəm”. Səd onun dediyini Peyğəmbərə ﷺ xəbər verdikdə, Peyğəmbər ﷺ dedi: “Əksinə, o, Cənnət əhlindəndir![6]”[1]

---

[1] Burada “fitnə” deyildikdə, Qiyamətin əlamətləri nəzərdə tutulur. Əbu Hureyra رضي الله عنه rəvayət etmişdir ki, *bir gün* Peyğəmbər ﷺ dedi: “*Qiyamətə yaxın* elm aradan qaldırılacaq, cəhalət və fitnələr üzə çıxacaq və hərc çoxalacaq”. Ondan: “Hərc nədir, ya Rəsulullah?”– deyə soruşdular. O, əlini çəpəki vəziyyətdə yuxarıdan aşağı endirib: “Bax belə”– deyə buyurdu. Sanki *çoxlu* qətl *hadisələri* törədiləcəyini qəsd edirdi”. (“Səhih əl-Buxari”, 85). Başqa bir hədisdə isə o demişdir: “Elmin azalması, cahilliyin meydana çıxması, zinakarlığın yayılması və əlli qadına bir kişi düşəcək qədər qadınların çoxalıb, kişilərin isə azalması Qiyamət saatının əlamətlərindəndir”. (“Səhih əl-Buxari”, 81).

[2] Yəni, həmin vaxt bu fitnələrə uyan mömin hər an imanından dönüb kafir ola bilər.

[3] “Səhih Muslim”, 228.

[4] “əl-Hucurat” surəsi, 2.

[5] Sabit ibn Qeys رضي الله عنه ənsarın xətibi (moizə edəni) idi. O, hərdən Peyğəmbərin ﷺ göstərişi ilə onun yanına gələnlərə xütbə verər və təbii ki, bu zaman səsini qaldırardı.

[6] Sabit ibn Qeys رضي الله عنه peyğəmbərlik iddiasında olan Museyləmənin ordusuna qarşı gedən döyüşdə şəhid olmuşdur. Rəvayət edilir ki, Ənəs رضي الله عنه Yəmamə günü Sabitin رضي الله عنه yanına gəldi. Bu vaxt Sabit ayaqlarına *dizdən baldıra qədər* hənut (ətir) sürtürdü. Ənəs dedi: “Əmican, səni *döyüşdən* saxlayan nədir?” O: “Gəlirəm, qardaş oğlu!”– dedi və *ayaqlarına* hənut sürtməyə davam etdi. Sonra gəlib *döyüşçülərin arasında* oturdu. *Döyüşdə* bəziləri

Rəvayət edilir ki, Abdullah ibn Məsud ﷺ demişdir: "Bir dəstə adam Peyğəmbərdən ﷺ: "Ya Rəsulullah, biz cahiliyyət dövründə etdiyimiz əməllərə görə cəzalandırılacağıqmı?"– deyə soruşdu. Peyğəmbər ﷺ dedi: "Sizlərdən müsəlman olduqdan sonra yaxşı iş[2] görən hər kəs cahiliyyət dövründə etdiyi əməllərə görə qınanmaz. *Müsəlman olduğu halda* günah işlərdən əl çəkməyən kimsə[3] isə, həm cahiliyyət dövründə, həm də müsəlman ola-ola etdiyi günahlarına görə cəzalandırılar".[4]

Əbu Hureyra ﷺ demişdir: **"Göylərdə və yerdə nə varsa, Allahındır. Siz içərinizdə olanı üzə çıxarsanız da, gizlətsəniz də, Allah buna görə sizi hesaba çəkəcək. O, istədiyini bağışlayar, istədiyinə də əzab verər. Allah hər şeyə qadirdir"[5]** ayəsi Peyğəmbərə ﷺ nazil olduqdan sonra onu eşidən səhabələr böyük bir sıxıntı keçirərək Peyğəmbərin ﷺ yanına gəlib diz üstə oturdular və dedilər: "Ya Rəsulullah, biz bacardığımızı – namaz qılmaq, oruc tutmaq, cihad etmək və sədəqə vermək kimi əməlləri yerinə yetirməyə mükəlləf edildik, lakin sənə nazil olan bu ayəyə əməl etməyə gücümüz çatmır.[6] Peyğəmbər ﷺ *onlara* dedi: "Sizdən əvvəlki iki kitab əhli kimi:

---

düşmənin qabağından qaçarkən, Sabit dedi: "Çəkilin gözümüzün önündən, qoyun, biz onlarla vuruşaq! Biz Peyğəmbərlə ﷺ birlikdə vuruşarkən belə hərəkət etməzdik. Siz düşmənlərinizi çox pis öyrətmisiniz! (Yəni, siz onlarda elə təsəvvür yaratmısınız və artıq onlar elə düşünməyə başlamışlar ki, müsəlmanları qorxudub, döyüş meydanından qaçmağa məcbur edə bilərlər)". ("Səhih əl-Buxari", 2845).

Rəvayət edilir ki, Ənəs ﷺ demişdir: "Sabit bizim aramızda gəzib-dolaşırdı və biz onun Cənnət əhlindən olduğunu bilirdik. Yəmamə günü Sabit ibn Qeys bədəninə hənut sürtdü, əyninə kəfən geydi, sonra da: "Siz düşmənlərinizi çox pis öyrətmisiniz!"– deyib *döyüşə atıldı* və düşmənlə döyüşdə şəhid oldu". ("Musnəd İmam Əhməd", 12422).

[1] "Səhih əl-Buxari", 4846; "Səhih Muslim", 229.

[2] "Yaxşı iş" deyildikdə, həm zahirdə, həm də batində İslamı qəbul etmək, əsil müsəlman olmaq qəsd edilir. Beləsinin İslamdan əvvəl etdiyi günahları bağışlanır.

[3] "Günah işlərdən əl çəkməyən kimsə" deyildikdə, İslamı ancaq dildə qəbul edən, qəlbinə isə iman girməmiş kimsələr qəsd edilir. Belələri həm cahiliyyət dövründə, həm də İslama gəldikdən sonra etdikləri pis əməllərə görə cəzalandırılacaqlar. Belə ki, onlar zahirən müsəlman olduqlarını göstərsələr də, öz küfrlərinə davam etmiş və həqiqi möminlərdən olmamışlar.

[4] "Səhih əl-Buxari", 6921; "Səhih Muslim", 233.

[5] "əl-Bəqərə" surəsi, 284.

[6] Yəni, heç kim nəfsi istəklərinin və şeytani vəsvəsələrin qabağını biryolluq ala bilməz. Qoy, hər kəs Allahın və Onun elçisinin ﷺ buyurduqlarını bacardığı qədər yerinə yetirsin. Çünki Allah hər kəsi, onun qüvvəsi çatdığı qədər mükəlləf edir.

“Eşitdik və asi olduq!”– sözünümü demək istəyirsiniz?! Xeyr, deyin: “Eşitdik və itaət etdik! Ey Rəbbimiz, Səndən bağışlanma diləyirik, dönüş də yalnız Sənədir!” Onlar: “Eşitdik və itaət etdik! Ey Rəbbimiz, Səndən bağışlanma diləyirik, dönüş də yalnız Sənədir!”– dedilər. Adamlar bunu oxuduqca, dilləri bu sözlərə alışdı. Arxasınca da Allah bu ayəni nazil etdi: **“Peyğəmbər öz Rəbbindən ona nazil edilənə iman gətirdi, möminlər də** ***iman gətirdilər.*** **Hamısı Allaha, Onun mələklərinə, kitablarına və elçilərinə iman gətirdilər.** ***Onlar dedilər*****: “Biz Onun elçiləri arasında fərq qoymuruq”. Onlar dedilər: “Eşitdik və itaət etdik! Ey Rəbbimiz, Səndən bağışlanma diləyirik, dönüş də yalnız Sənədir!”**[1] Onlar bunu yerinə yetirdikləri zaman, Uca Allah *onu açıqlayan* bu ayəni nazil etdi: **“Allah hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər mükəlləf edər. Hər kəsin qazandığı** ***xeyir yalnız*** **onun özünə, qazandığı** ***şər də yalnız*** **öz əleyhinədir. “Ey Rəbbimiz, unutsaq və ya xəta etsək, bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkilərə yüklədiyin kimi, bizə də ağır yük yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyi daşımağa bizi vadar etmə! Bizi əfv et, bizi bağışla və bizə rəhm et! Sən bizim Himayədarımızsan! Kafirləri məğlub etməkdə bizə yardım et!”**[2] Möminlər bu ayəni oxuyub hər dəfə: “Ey Rəbbimiz,..”– deyə Allaha xitab etdikdə, Allah: “Bəli!”– deyə buyurdu.”[3]

İbn Abbas ﵄ demişdir: **“Siz içərinizdə olanı üzə çıxarsanız da, gizlətsəniz də, Allah buna görə sizi hesaba çəkəcək”**[4] ayəsi nazil olduqda, *bu vaxtadək* səhabələrin qəlblərinə girməyən bir şey bu səbəbdən onların qəlbinə girdi.[5] Onda Peyğəmbər ﷺ buyurdu: “Deyin: “Eşitdik, itaət etdik və qəbul etdik!” *Beləliklə,* Allah imanı onların qəlbinə yerləşdirdi, sonra da bu ayəni nazil etdi: **“Allah hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər mükəlləf edər. Hər kəsin qazandığı** ***xeyir yalnız*** **onun özünə, qazandığı** ***şər də yalnız*** **öz əleyhinədir.** *Möminlər:* **“Ey Rəbbimiz, unutsaq və ya xəta etsək, bizi cəzalandırma!”**[6]*– dedikdə,* Allah: “*İstədiyinizi* yerinə yetirdim”–

---

[1] “əl-Bəqərə” surəsi, 285.

[2] “əl-Bəqərə” surəsi, 286.

[3] “Səhih Muslim”, 244.

[4] “əl-Bəqərə” surəsi, 284.

[5] Bu ayədən sonra səhabələrin qəlbləri təşvişə düşdü və onlar elə güman etdilər ki, qəlblərindən keçən hər bir fikrə görə haqq-hesaba çəkiləcəklər.

[6] “əl-Bəqərə” surəsi, 286.

dedi. *Möminlər:* **"Ey Rəbbimiz, bizdən əvvəlkilərə yüklədiyin kimi, bizə də ağır yük yükləmə!"**[1]– *dedikdə,* Allah: "*İstədiyinizi* yerinə yetirdim"– dedi. *Möminlər:* **"Bizi bağışla və bizə rəhm et! Sən bizim Himayədarımızsan!"**[2]– *dedikdə,* Allah: "*İstədiyinizi* yerinə yetirdim"– dedi".[3]

[1] Əvvəlki ayə.
[2] Əvvəlki ayə.
[3] "Səhih Muslim", 245.

# Şirkin təhlükəsi və ondan çəkindirmək

Heç şübhəsiz, hər bir insana şirkin mənasını və onun olduqca təhlükəli bir əməl olduğunu öyrənməsi vacibdir. Peyğəmbərlərin ən ümdə vəzifəsi insanları məhz tək Allaha ibadət etməyə çağırmaq və onları Allaha şərik qoşmaqdan çəkindirmək olmuşdur.

**Şirk,** lüğəti mənada iki şeyi bir-birinə bərabər tutmağa deyilir.

Şəri baxımdan isə bunun iki mənası var – ümumi və xüsusi.

**Ümumi mənası,** ibadətdə Allahdan qeyrisini Ona tay tutmaqdır.

**Xüsusi mənası** isə, Allahdan qeyrisini ilah qəbul edib, Allaha dua edildiyi kimi ona dua etmək, Allahdan şəfaət diləndiyi kimi, ondan şəfaət diləmək, Allaha ümid bəsləndiyi kimi, ona ümid bəsləmək və Allahın sevildiyi kimi, onu sevməkdir. Quran və hədislərdə "şirk" kəlməsinə rast gəldikdə, ilk əvvəl məhz bu məna başa düşülür.

## Şirkin növləri.

Şirk iki qismə bölünür: 1) böyük şirk, 2) kiçik şirk.

**1) Böyük şirk,** Allahla yanaşı başqa bir tanrı qəbul edib, ona Allaha ibadət edildiyi kimi ibadət etməyə deyilir. Bu növ şirk insanı qeyd-şərtsiz İslamdan çıxardır və əməllərini batil edir. Əgər Allaha şərik qoşan adam bu halda ölərsə, əbədi olaraq Cəhənnəmdə qalacaq – orada o nə öləcək, nə də onun əzabı yüngülləşəcəkdir.

**Böyük şirk dörd növdür:**

***Birinci növü*** duada şirkdir. Belə ki, dua ibadətin ən böyük növlərindəndir, hətta ibadətin özəyidir. Peyğəmbər ﷺ demişdir: "Dua ibadətin elə özüdür".[1] Uca Allah buyurur: **«Rəbbiniz dedi: "Mənə dua edin, Mən də sizə cavab verim. Həqiqətən, Mənə ibadət etməyə təkəbbür göstərənlər Cəhənnəmə zəlil olaraq girəcəklər"».**[2]

Əgər duanın ibadət olması məlum oldusa, deməli onu Allahdan başqasına etmək şirk sayılır. Peyğəmbərə, övliyaya, mələyə, qəbirdəkinə və ya digər məxluqlara dua edən kəs müşrik və kafir sayılır. Bu xüsusda Quranda

---

[1] "Sunən ət-Tirmizi", 2969; "Musnəd İmam Əhməd", 4/267.

[2] "Ğafir" surəsi, 60.

belə buyurulur: **“Kim Allahla yanaşı, haqqında özünün heç bir dəlili olmadığı başqa bir məbuda ibadət edərsə, onun cəzasını Rəbbi Özü verəcəkdir. Şübhəsiz ki, kafirlər nicat tapmazlar”.**[1]

Duanın ibadət və Allahdan qeyrisinə edilməsinin şirk olmasına başqa bir dəlil Uca Allahın bu ayəsidir: **“Onlar gəmiyə mindikləri zaman, dini yalnız Allaha məxsus edərək Ona yalvarırlar. *Allah* onları xilas edib quruya çıxaran kimi, yenə də *Ona* şərik qoşurlar”.** (“əl-Ənkəbut” surəsi, 65). Bu ayədə Allah müşriklərin xoş günlərində Allaha şərik qoşduqlarını, bəla gəldikdə isə Allaha dua etdiklərini bildirərək bu əməli pisləyir. Bəs görəsən həm xoş gündə, həm də bəla gəldikdə Allaha şərik qoşanların halı necə olacaqdır?!

Böyük şirkin ***ikinci növü*** niyyətdə, istəkdə və məqsəddə şirkdir. Bu da insanın etdiyi əməlləri Allahın üzü xatirinə və Axirəti qazanmaq üçün deyil, münafiqlərtək dünyanı əldə etmək, özünü göstərmək və şan-şöhrət qazanmaq naminə etməsidir. Bu xüsusda Quranda belə buyurulur: **“Kim dünya həyatını və onun bər-bəzəyini istəyərsə, onlara əməllərinin əvəzini orada tam verərik və onlar orada zərər çəkməzlər. Onlar, axirətdə özləri üçün oddan başqa heç bir şeyi olmayan kimsələrdir. Onların dünyada gördükləri işlər boşa çıxar və tutduqları əməllər puç olar”.**[2]

Şirkin bu növü çox incə və çox təhlükəlidir.

Böyük şirkin ***üçüncü növü*** itaətdə şirkdir. Kim İslama zidd olduğunu bilə-bilə halal olanları haram, haramları isə halal edənlərə bu işdə tabe olarsa, onların həqiqətən bunu etməyə səlahiyyətlərinin çatdığını və onlara həm özünün, həm də başqalarının itaət etməsinin icazəli olduğuna etiqad edərsə, həmin şəxs böyük şirklə Allaha şərik qoşmuş olur. Uca Allah buyurur: **“Onlar Allahı qoyub baş keşişlərini və rahiblərini, bir də Məryəm oğlu İsanı tanrılar qəbul etdilər. Halbuki, onlara ancaq tək olan İlaha ibadət etmək əmr olunmuşdu. Ondan başqa *ibadətə layiq olan* məbud yoxdur. O, onların şərik qoşduqları şeylərdən uzaqdır”.**[3]

---

[1] “əl-Muminun” surəsi, 117.

[2] “Hud” surəsi, 15-16.

[3] “ət-Tövbə” surəsi, 31.

Ayənin təfsirində alimlərə və abidlərə ibadət etmək deyil, *Allahın hökmünü dəyişməklə olan asi işlərdə onlara* itaət etmək nəzərdə tutulur. Adiy ibn Hatim ﷺ Peyğəmbərə ﷺ: "Axı biz onlara ibadət etmirdik"– dediyində, Peyğəmbər ﷺ ayəni təfsir edərək Adiyə: "Onların ibadətləri *Allahın hökmünü dəyişməklə* olan asi işlərdə onlara tabeçilik göstərmələridir"– deyə xəbər vermiş və demişdir: "Məgər onlar Allahın halal buyurduğunu haram saydıqda, siz də onu haram, haram buyurduğunu da halal saydıqda, siz də onu halal saymırdınız?!" O: "Bəli"– deyə cavab verdikdə, Peyğəmbər ﷺ buyurmuşdur: "Bu, elə onlara ibadət etmək sayılır".[1]

Böyük şirkin ***dördüncü növü*** məhəbbətdə şirkdir. Burada ehtiram göstərməyi, təzim etməyi, zəlil və müti olmağı vacib edən, ibadət olan məhəbbət nəzərdə tutulur ki, bu da yalnız heç bir şəriki olmayan Allaha yönəlməlidir. Bu məhəbbəti insan Allahdan qeyrisinə bəslədikdə, böyük şirklə Allaha şərik qoşmuş olur. Uca Allah buyurur: **"İnsanlardan elələri də vardır ki, Allahdan qeyrilərini *Ona* tay tutur, onları da Allahı sevdikləri kimi sevirlər. İman gətirənlərin isə Allaha olan sevgisi daha güclüdür".**[2]

**2) Kiçik şirk.**

Burada "kiçik şirk" deyildikdə, böyük şirkə aparıb çıxaran, onun baş verməsi üçün vasitə olan, habelə ayələrdə və hədislərdə şirk adlanan, lakin böyük şirkin dərəcəsinə çatmayan əməllər və deyilən sözlər qəsd edilir. Bunu edən şəxsin aqibəti böyük günah sahibinin aqibəti kimi, Allahın istəyinə bağlıdır. Buna dair bəzi misallar göstərək:

**a)** Azacıq riyakarlıq etmək. Bu xüsusda rəvayət edilmiş hədisdə Peyğəmbər ﷺ demişdir: "Sizin üçün ən çox qorxduğum şey kiçik şirkdir". Səhabələr soruşdular: "Kiçik şirk nədir, ya Rəsulullah?" Rəsulullah ﷺ dedi: "Riyakarlıq. Uca Allah Qiyamət günü insanları mükafatlandıracağı zaman belə buyuracaq: **"Dünya həyatında ikən əməllərinizi [onlara] göstərdiyiniz kəslərin yanına gedin, qoy sizin mükafatınızı onlar versin".**[3]

---

[1] "Sunən ət-Tirmizi", 3095; "Mocəm əl-Kəbir", 17/92.

[2] "əl-Bəqərə" surəsi, 165.

[3] "Musnəd İmam Əhməd", 5/428.

**b)** “Allah və sən istədin” ifadəsi. Bu barədə Peyğəmbər ﷺ belə buyurmuşdur: “Allah və filankəs istədi”– deməyin, “Allah, sonra filankəs istədi”– deyin”.[1]

**v)** “Allah və filankəs olmasaydı” sözü və ya, məsələn: “Qazlar olmasaydı, oğrular gələrdi”– demək. İbn Abbas رضي الله عنهما Uca Allahın **“Siz də *bunu* bildiyiniz halda *heç kəsi* Allaha tay tutmayın”**[2] ayəsi barəsində belə demişdir: “Bu ayədə “tay” deyildikdə, qaranlıq gecədə qara daşın üzərindəki qarışqanın yerişindən də gizli olan şirk nəzərdə tutulur. Məsələn, birinin: “Ey filankəs, Allaha, sənin və mənim canıma and olsun!”, yaxud: “Bu it və ya ördək olmasaydı, evimizə oğrular gələrdi”– deməsi. Bir də insanın öz dostuna: “Allah və sən istədin”, yaxud: “Allah və filankəs olmasaydı”– deməsi. Odur ki, filankəsi bu işə aid etmə, çünki bütün bunlar şirk hesab olunur”.[3]

## Böyük şirklə kiçik şirk arasındakı fərq.

Böyük şirklə kiçik şirk arasında bir çox fərqlər vardır. Onlardan ən mühümlərini qeyd edək:

1) Böyük şirki Allah yalnız tövbə vasitəsilə bağışlayır, kiçik şirk isə Allahın istəyinə bağlıdır.

2) Böyük şirk bütün əməlləri batil edir, kiçik şirk isə yalnız içərisində olduğu əməli batil edir.

3) Böyük şirk insanı İslam ümmətindən çıxarır, kiçik şirk isə çıxarmır.

4) Böyük şirk sahibi Cənnətdən məhrum olacaq və əbədi olaraq Cəhənnəmdə qalacaq, kiçik şirk isə digər günahlar kimidir.

Allaha şərik qoşmağın pis və təhlükəli əməl olmasına dair, habelə ondan çəkinmək barəsində, üstəlik müşriklərin həm bu dünyada, həm də Axirətdə aqibətlərinin pis olmaları haqqında Quran və Sünnədə çoxlu dəlillər vardır. Onlardan bəzilərini sadalayaq:

**“Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, bundan kiçik *olan günahları* isə istədiyi kimsəyə bağışlayar”.**[4]

---

[1] “Sunən Əbu Davud”, 4980.
[2] “əl-Bəqərə” surəsi, 22.
[3] “Təfsir İbn Əbu Hatim”, 1/62.
[4] “ən-Nisa” surəsi, 48.

**"*Kafirlər Cəhənnəmdə* höcətləşərək deyərlər: "Allaha and olsun ki, biz açıq-aydın azğınlıq içində idik – o vaxt ki, biz sizi aləmlərin Rəbbinə tay tuturduq"».**[1]

**"O *Rəbbiniz ki,* sizin üçün yer üzünü döşəmə, göyü isə tavan etdi. Göydən su endirib onunla sizin üçün *növbənöv* məhsullardan ruzi yetişdirdi. Siz də *bunu* bildiyiniz halda *heç kəsi* Allaha tay tutmayın".**[2]

**"Zəiflər özlərini yüksək tutanlara deyəcəklər: "Xeyr! *İşiniz* gecə-gündüz hiylə qurmaq idi. Siz bizə Allahı inkar etməyi və Ona şəriklər qoşmağı əmr edirdiniz". Onlar əzabı gördükdə peşmançılıq hissini gizlədəcəklər. Biz kafirlərin boyunlarına zəncirlər vuracağıq. Onlar ancaq etdikləri əməllərə görə cəzalandırılacaqlar".**[3]

Rəvayət edilir ki, Abdullah ibn Məsud ﷺ demişdir: "*Bir dəfə* mən Peyğəmbərdən ﷺ soruşdum: "Hansı günah Allah yanında ən böyük *günah* sayılır?" O dedi: "Allah səni yaratdığı halda, *başqa birisini* Ona tay tutmağın". Mən ona: "Doğrudan da, bu, böyük günahdır"– dedim, sonra *yenə* soruşdum: "Sonra hansıdır?" O dedi: "Övladının səninlə birgə yemək yeyəcəyindən qorxub, onu öldürməyin[4]". Mən soruşdum: "Sonra hansıdır?" O dedi: "Qonşunun zövcəsi ilə zina etməyin[5]".[6]

---

[1] "əş-Şuəra" surəsi, 96-98.

[2] "əl-Bəqərə" surəsi, 22.

[3] "Səba" surəsi, 33.

[4] Bu xüsusda Quranda belə buyurulur: **"Yoxsulluq qorxusundan uşaqlarınızı öldürməyin. Axı onların da, sizin də ruzinizi Biz veririk. Onları öldürmək, həqiqətən də, böyük günahdır".** ("əl-İsra" surəsi, 31).

[5] Zina etməyin onsuz da murdar əməl olmasına baxmayaraq, qonşunun həyat yoldaşı ilə zina etməyin murdarlığı bundan da betərdir. Miqdad ibn Əsvəd ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ səhabələrdən zina barədə soruşdu. Onlar: "Haramdır, bunu Allah və Onun rəsulu haram buyurmuşdur"– deyə cavab verdilər. O ﷺ dedi: "Kişinin on qadınla zina etməsi, *günah baxımından* onun üçün qonşusunun qadını ilə zina etməsindən daha yüngüldür...". ("Musnəd İmam Əhməd", 6/8; "əl-Ədəb əl-Mufrad", 103). Burada "qonşusunun qadını" deyildikdə, qonşunun anası, bacısı, qızı və kənizi də buna aid edilir. ("Feyd əl-Qədir").

Bu hədisdə Peyğəmbər ﷺ qonşunun qadını ilə zina etməyin nə dərəcədə ağır günah olduğunu bildirir. İbn Qeyyim demişdir: "Qonşunun həyat yoldaşı ilə zina etməyin günahı digər yad qadınla zina etməyin günahından daha böyükdür. Çünki bu əməldə qonşuya əziyyət vermək, üstəlik Allahın və Onun rəsulunun ﷺ qonşu haqları xüsusundakı əmrinə qarşı asilik vardır". ("İğasət əl-Ləhfan", 2/143-144).

[6] "Səhih əl-Buxari", 7520; "Səhih Muslim", 170.

## Şirkdən çəkindirmək.

**«Allah hər şeyin xaliqidir. O, hər şeyi qoruyandır. Göylərin və yerin açarları Ondadır. Məhz Allahın ayələrini inkar edənlər ziyana uğrayanlardır. De: "Mənə Allahdan qeyrisinəmi ibadət etməyi əmr edirsiniz, ey cahillər?!" Sənə və səndən əvvəlkilərə belə vəhy olunmuşdur: "Əgər şərik qoşsan, əməlin puç olacaq və mütləq ziyana uğrayanlardan olacaqsan. Sən yalnız Allaha ibadət et və şükür edənlərdən ol!"».[1]**

**"Elə isə, murdar bütlərdən uzaq olun, yalan sözlərdən də çəkinin. Yalnız tək Allaha ibadət edənlərdən və Ona şərik qoşmayanlardan olun! Kim Allaha şərik qoşsa, sanki o, göydən düşər, quşlar onu alıb aparar, yaxud külək onu sovurub uzaq bir yerə atar".[2]**

Rəvayət edilir ki, Əbu Hureyra ﵁ demişdir: **"Ən yaxın qohumlarını qorxut!"[3]** ayəsi nazil olduqda, Peyğəmbər ﷺ qureyşliləri çağırdı və onlar *onun yanına* toplandılar. Sonra Peyğəmbər ﷺ onlara həm ümumi, həm də xüsusi olaraq belə səsləndi: "Ey Kəb ibn Luey[4] oğulları, canınızı oddan qurtarın! Ey Murra ibn Kəb[5] oğulları, canınızı oddan qurtarın! Ey Abduşəms[6] oğulları, canınızı oddan qurtarın! Ey Abdumənaf[7] oğulları, canınızı oddan qurtarın! Ey Haşim[8] oğulları, canınızı oddan qurtarın!

---

[1] "əz-Zumər" surəsi, 62-66

[2] "əl-Həcc" surəsi, 30-31.

[3] "əş-Şuəra" surəsi, 214.

[4] Tam şəcərə zənciri belədir: Kəb ibn Luey ibn Ğalib ibn Fihr ibn Malik ibn ən-Nədr ibn Kinanə ibn Xuzeymə ibn Mudrikə ibn İlyas ibn Mudar ibn Nizar ibn Məaddi ibn Ədnan.

[5] Tam şəcərə zənciri belədir: Murra ibn Kəb ibn Luey ibn Ğalib ibn Fihr ibn Malik ibn ən-Nədr ibn Kinanə ibn Xuzeymə ibn Mudrikə ibn İlyas ibn Mudar ibn Nizar ibn Məaddi ibn Ədnan.

[6] Tam şəcərə zənciri belədir: Abduşəms ibn Abdumənaf ibn Qusey ibn Kilab ibn Murra ibn Kəb ibn Luey ibn Ğalib ibn Fihr ibn Malik ibn ən-Nədr ibn Kinanə ibn Xuzeymə ibn Mudrikə ibn İlyas ibn Mudar ibn Nizar ibn Məaddi ibn Ədnan.

[7] Tam şəcərə zənciri belədir: Abdumənaf ibn Qusey ibn Kilab ibn Murra ibn Kəb ibn Luey ibn Ğalib ibn Fihr ibn Malik ibn ən-Nədr ibn Kinanə ibn Xuzeymə ibn Mudrikə ibn İlyas ibn Mudar ibn Nizar ibn Məaddi ibn Ədnan.

[8] Tam şəcərə zənciri belədir: Haşim ibn Abdumənaf ibn Qusey ibn Kilab ibn Murra ibn Kəb ibn Luey ibn Ğalib ibn Fihr ibn Malik ibn ən-Nədr ibn Kinanə ibn Xuzeymə ibn Mudrikə ibn İlyas ibn Mudar ibn Nizar ibn Məaddi ibn Ədnan.

Ey Abdulmuttalib[1] oğulları, canınızı oddan qurtarın! Ey Fatimə[2], canını oddan qurtar! Mən sizi Allahın *əzabından* qurtara bilməyəcəyəm. Məni sizə

---

[1] Tam şəcərə zənciri belədir: Abdulmuttalib ibn Haşim ibn Abduмənaf ibn Qusey ibn Kilab ibn Murra ibn Kəb ibn Luey ibn Ğalib ibn Fihr ibn Malik ibn ən-Nədr ibn Kinanə ibn Xuzeymə ibn Mudrikə ibn İlyas ibn Mudar ibn Nizar ibn Məaddi ibn Ədnan.

[2] Fatimənin ﵂ üstünlüyünə dair çoxlu səhih rəvayətlər varid olmuşdur. Onlardan bəziləri bunlardır:

– Fatimə ﵂ insanlara və cinlərə elçi göndərilmiş Muhəmməd peyğəmbərin ﷺ qızıdır;

– Fatimə ﵂ İslamı ilk əvvəl qəbul edənlərdən olan, həmçinin sağlığında ikən Cənnətlə müjdələnmiş on nəfərdən biri, habelə Cənnətin səbirsizliklə gözlədiyi üç nəfərdən biri və nəhayət, Harunun ﵇ Musaya ﵇ yaxın olduğu qədər Muhəmməd peyğəmbərə ﷺ yaxın olmuş Əli ibn Əbu Talib ﵁ kimi böyük şəxsiyyətin zövcəsidir;

– Fatimə ﵂ Cənnət gənclərinin ən hörmətlisi, Peyğəmbərin ﷺ reyhan qoxulu nəvələri Həsən ﵁ və Hüseynin ﵁ anasıdır;

– Fatimə ﵂ insanlar arasında sözündə, danışığında və oturuşunda Peyğəmbərə ﷺ ən çox oxşayan kəsdir. ("əl-Ədəb əl-Mufrad", 947);

– Fatimə ﵂ sağlığında ikən Cənnətlə müjdələnmiş səhabə qadındır. Bu barədə Peyğəmbər ﷺ demişdir: "Fatimə Cənnətdəki qadınların ən hörmətlisi olacaq, yalnız İmranın qızı Məryəm istisnadır". ("Sunən ən-Nəsai", 8169; "Silsilə əl-Əhadis əs-Səhihə", 796);

– Fatimə ﵂, anası Xədicə bint Xuveylid ﵂ istisna olmaqla, bu ümmətin qadınlarının ən fəzilətlisidir. Bir zaman Peyğəmbər ﷺ onu müjdələyib demişdir: "Ey Fatimə, bu ümmətin qadınlarının ən fəzilətlisi olmağına razı deyilsənmi?" ("Səhih əl-Buxari", 6286; Səhih Muslim, 7/142-144);

– Fatimə ﵂ Muhəmməd peyğəmbərin ﷺ ciyərparəsidir. Peyğəmbər ﷺ demişdir: "Fatimə mənim bir paramdır – ona əziyyət verən hər nə varsa, mənə də əziyyət verir". ("Səhih əl-Buxari", 4829; "Səhih Muslim", 2449). Digər hədisdə o ﷺ demişdir: "Kim Fatiməni qəzəbləndirərsə, məni qəzəbləndirmiş olar". ("Səhih əl-Buxari", 3437);

– Fatimə ﵂ Muhəmməd peyğəmbərin ﷺ ailəsindən ona ilk qovuşan şəxsdir. Bunu Peyğəmbər ﷺ ölüm yatağında ikən ona belə xəbər vermişdir: "Ailəmdən mənə qovuşan ilk kəs sən olacaqsan!" ("Səhih əl-Buxari", 3623);

– Fatimə ﵂ Peyğəmbərin ﷺ öz əbası altına aldığı və barələrində: "Allahım, bunlar mənim əhli-beytimdir" dediyi dörd nəfərdən biridir. Aişə ﵂ rəvayət edir ki, bir səhər Peyğəmbər ﷺ əynində qara yundan əba evdən çıxdı. Bu vaxt Əlinin oğlu Həsən, onun ardınca Hüseyn, ondan sonra Peyğəmbərin ﷺ qızı Fatimə, onun dalınca da Əli Peyğəmbərin ﷺ yanına gəldilər və Peyğəmbər ﷺ onları əbasının altına alıb bu ayəni oxudu: **"Ey ev əhli! Allah sizdən günahınızı silib aparmaq və sizi tərtəmiz etmək istəyir".** ("Səhih Muslim", 2404). Digər rəvayətdə Peyğəmbər ﷺ: "Allahım, bunlar mənim əhli-beytimdir"– demişdir. ("Səhih Muslim", 2424);

– Fatimə ﵂ dəfn edilərkən üzərinə örtük çəkilən ilk müsəlman qadındır. Ummu Cəfər rəvayət edir ki, Muhəmməd peyğəmbərin ﷺ qızı Fatimə ölüm yatağında ikən Əsmaya dedi: "Ey Əsma, qadınların sadəcə kəfənə bükülmüş halda dəfn edilməsi mənim

bağlayan yalnız qohumluq əlaqələridir ki, mən bu əlaqələri qoruyub saxlayacağam”.[1]

---

xoşuma gəlmir. Çünki belə örtükdə onların bədən üzvləri bilinir”. Əsma ona: “Ey Rəsulullahın ﷺ qızı, Həbəşistanda gördüyüm bir şeyi sənə göstərimmi?”– dedi, sonra da yaş budaqlar gətizdirib yerə qoydu və onun üzərinə örtük tutdu”. Onda Fatimə dedi: “Bu nə gözəldir! Bunun sayəsində kişini qadından fərqləndirmək olar. Mən öləndən sonra məni ancaq sən və bir də *ərim* Əli yusun, sizdən başqa heç kəsi də mənim yanıma buraxmayın”. Fatimə vəfat etdikdən sonra Əsma və Əli onu yudular, *sonra da onu Əsmanın məsləhət gördüyü tərzdə dəfn etdilər*”. (“Sunən əl-Beyhəqi”, 7180; “Hilyətul-Ovliya”, 2/43; “Cilbabu Mərət əl-Muslimə”, 1/135). Muhəmməd Nasirəddin əl-Albani bu əsəri nəql edərkən demişdir: “Peyğəmbərin ﷺ ciyərparəsi olmuş Fatiməyə bir baxın! Görün o ölü qadının libasının necə olmasını təmənna edir – təmənna edir ki, kişilər onun bədən əzalarını görməsinlər. Şəkk yoxdur ki, Fatimə bir qadının sağlığında ikən açıq-saçıq geyinməsinə daha çox və daha çox nifrət bəsləyirmiş. Siz bir o dövrdəki qadınlarla bu dövrdəki açıq-saçıq geyinən, zinət yerlərini naməhrəmlərə göstərən bəzi müsəlman qadınları müqayisə edin! Qoy bu qadınlar Uca Allahdan bağışlanma diləsinlər, Ona tövbə etsinlər və Rəsulullahın ﷺ bu hədisini qulaqlarında sırğa etsinlər. Rəsulullah ﷺ demişdir: “Həya ilə iman bir-birinə sıx bağlıdırlar. Bunlardan biri aradan qaldırılsa, digəri də aradan qaldırılar (yəni, həyası getmiş adamın imanı da gedər)”. (“Mustədrək əl-Hakim”, 58; “Cilbabu Mərət əl-Muslimə”, 1/136);

– Peyğəmbərin ﷺ nəslindən bu günümüzə qədər yalnız Fatimədən dünyaya gəlmiş kimsələrin nəsli davam etməkdədir. Uca Allah Muhəmməd peyğəmbərə ﷺ yeddi övlad bəxş etmişdir. Onların dördü qız, üçü isə oğlan uşağı olmuşdur. Oğlanlarının hər üçü – Abdullah, Qasim və İbrahim hələ uşaq ikən vəfat etmişlər. Qızları isə böyüyüb həddi-büluğa çatmış və ərə getmişlər. Böyük qızı Zeynəbin Əbul-Asdan Umamə adlı qızı və Abdullah adlı oğlu olmuşdur. Abdullah uşaq ikən vəfat etmiş, Umamə isə böyüyüb həddi-büluğa çatmış və ərə getmişdir. Lakin ondan olan uşaqlardan Peyğəmbərin ﷺ nəsli davam etməmişdir. Peyğəmbər ﷺ Ruqiyyəni Osman ibn Əffana ərə vermiş, ancaq onların bu izdivacdan övladları olmamışdır. Ruqiyyə vəfat etdikdən sonra Peyğəmbər ﷺ Ummu Kulsumu da Osmana ərə vermişdir. Osmanın Ummu Kulsumdan qızı olsa da, o, körpə ikən vəfat etmişdir. Nəhayət, Peyğəmbər ﷺ Fatiməni Əli ibn Əbu Talibə ərə vermiş və ondan Peyğəmbərimizin ﷺ dörd nəvəsi olmuşdur – Həsən, Hüseyn, Zeynəb və Ummu Kulsum. Ummu Kulsum Ömər ibn Xəttaba ərə getmiş və ondan dünyaya iki övlad gətirmişdir. Ancaq hər ikisi uşaq ikən vəfat etmişdir. Zeynəbi isə Abdullah ibn Cəfər almış, ancaq ondan övladı olmamışdır. Beləliklə, Rəsulullahın ﷺ nəsli yalnız Həsən və Hüseynlə davam etmişdir. Bu isə o deməkdir ki, Rəsulullahın ﷺ nəslindən olduğunu iddia edən hər kəs bu iki səhabədən birinin nəslindən ola bilər;

– Qiyamətə yaxın bir zamanda dünyaya gələcək və “Mehdi” ləqəbi ilə tanınacaq Muhəmməd ibn Abdullah məhz Fatimənin nəslindən, daha dəqiq desək, Həsən ibn Əli ibn Əbu Talibin nəslindən olacaq. (“Şərh Sunən Əbu Davud”).

[1] “Səhih əl-Buxari”, 4771; “Səhih Muslim”, 421.

Rəvayət edilir ki, Aişə ﷺ demişdir: **"Ən yaxın qohumlarını qorxut!"** ayəsi nazil olduqda, Peyğəmbər ﷺ Səfa dağına[1] qalxıb uca səslə dedi: "Ey Muhəmmədin qızı Fatimə! Ey Abdulmuttalibin qızı Səfiyyə![2] Ey Abdulmuttalib oğulları! Mən sizi Allahın *əzabından* qurtara bilməyəcəm. Malımdan isə nə diləyirsinizsə, diləyin!"[3]

İbn Abbas ﷺ demişdir: "Bu: **"Ən yaxın qohumlarını [– içərilərindən ən səmimi olanlarını][4] qorxut!"** ayəsi nazil olduqda, Peyğəmbər ﷺ *evindən* çıxıb Səfa dağına qalxdı və: "Haydı, canınızı qurtarın!"– deyə *yüksək səslə qureyşlilərə* səsləndi. *Bəziləri:* "Bu qışqıran kimdir?"– deyə soruşanda, digərləri: "Muhəmməddir"– dedilər və onun yanına toplanmağa başladılar. Peyğəmbər ﷺ buyurdu: "Ey filankəs oğulları, ey filankəs oğulları, ey filankəs oğulları, ey Abduмənaf oğulları, ey Abdulmuttalib oğulları!" *Tezliklə hamısı* onun yanına toplandı. Peyğəmbər ﷺ soruşdu: "Bir deyin görək, əgər mən bu dağın ətəyindən bir dəstə atlının çıxıb *üstünüzə hücum edəcəyini* sizə xəbər versəm, mənə inanarsınızmı?" Onlar: "Biz səndən yalan eşitməmişik"– deyə cavab verdilər. Peyğəmbər ﷺ dedi: "Mən sizi qaçılmaz, şiddətli əzabla qorxudan bir peyğəmbərəm". *Bunu eşidən* Əbu Ləhəb[5] dedi: "Ölüm olsun sənə! Bizi buna görəmi yığmısan?" *Elə bu səbəbdən də*: **"Əbu Ləhəbin əlləri qurusun, artıq qurudu da!"**[6] surəsi nazil oldu. *Sonra* Aməş ﷺ bu surəni bu qiraətlə axıra kimi oxudu.[7]

Rəvayət edilir ki, Qəbisə ibn Muxariq ﷺ və Zuheyr ibn Amr ﷺ demişlər: **"Ən yaxın qohumlarını qorxut!"** ayəsi nazil olduqda, Peyğəmbər ﷺ dağdan qopub düşmüş daşların yanına gəldi. Sonra ən böyük daşın üstünə qalxıb uca səslə dedi: "Ey Abdumənaf oğulları, mən sizi *əzabla* qorxudan bir peyğəmbərəm! Mənimlə sizin misalınız, düşməni görüb

[1] Səfa, Məscidul-Həramın şərq hissəsində yerləşən iki təpədən biridir.

[2] Səfiyyə ﷺ Peyğəmbərin ﷺ bibisidir. Ömər ibn əl-Xəttabın ﷺ xilafəti dövründə vəfat etmişdir. (Əbu Nueym, "Mərifə əs-Səhabə", 6/3377).

[3] "Səhih Muslim", 423.

[4] Bu hədisin şərhində deyilir ki, **"içərilərindən ən səmimi olanlarını"** ifadəsi ilk əvvəl ayənin tərkib hissəsi olaraq nazil olmuş, sonra isə nəsx edilmişdir. Qeyd edək ki, bu əlavə Buxarinin "Səhih" əsərində nəql edilməyib. ("Şərh ən-Nəvəvi", 1/353).

[5] Əbu Ləhəb Abduluzzə ibn Abdulmuttalib, Peyğəmbərin ﷺ əmisi və ən qatı düşmənlərindən olmuşdur.

[6] Yəni, "əl-Məsəd" surəsi.

[7] "Səhih əl-Buxari", 4770; "Səhih Muslim", 428.

qövmünü qorumaq üçün *düşmənə* göz qoyan və düşmənin onu qabaqlayacağından ehtiyat edib uca səslə *qövmünə səslənərək*: "Haydı, canınızı qurtarın!" deyən kimsənin misalına bənzəyir".[1]

## Allaha şərik qoşan kimsənin saleh əməlləri ona fayda verməyəcək.

Bu xüsusda Quranda belə buyurulur: **"Şübhəsiz ki, "Allah Məryəm oğlu Məsihdir" deyənlər kafir oldular. Halbuki Məsih demişdi: "Ey İsrail oğulları! Rəbbim və Rəbbiniz olan Allaha ibadət edin! Kim Allaha şərik qoşarsa, heç şübhəsiz, Allah Cənnəti ona haram edər. Onun gedəcəyi yer atəşdir. Zalımların heç bir yardımçısı yoxdur."[2];**

**"Cəhənnəm sakinləri Cənnət əhlinə səslənib deyəcəklər: "Bizim üstümüzə bir az su və ya Allahın sizə verdiyi ruzidən tökün". Onlar isə deyəcəklər: "Allah bunları kafirlərə haram etmişdir".[3]**

Aişə رضي الله عنها demişdir: "Mən Peyğəmbərdən ﷺ soruşdum: "Ya Rəsulullah, İbn Cudan[4] cahiliyyət dövründə qohumluq əlaqələrini saxlayar, kasıbları yedirərdi. Görəsən, bu ona fayda verəcəkmi?" Peyğəmbər ﷺ dedi: "*Bu,* ona fayda verməyəcək[5]. Çünki o, heç vaxt: "Ey Rəbbim, Din günü[6] mənim xətalarımı bağışla!"– deməmişdir".[7]

## Allaha şərik qoşduğu halda ölən kəs şəfaətçilik sayəsində belə Cəhənnəmdən çıxa bilməz.

Bu barədə Quranda belə buyurulur: **"Hər bir kəs qazandığının girovuna çevrilir – sağ tərəf sahiblərindən başqa. Onlar cənnətlərdə bir-**

---

[1] "Səhih Muslim", 426.

[2] "əl-Maidə" surəsi, 72.

[3] "əl-Əraf" surəsi, 50.

[4] İbn Cudan qureyşlilərin böyüklərindən olmuşdur.

[5] Bu dəlildir ki, kafir yaxşı əməl etsə belə, bu ondan qəbul olunmur. Çünki o, bunu Allah üçün deyil, başqa niyyətlə edir. Uca Allah buyurur: **"Biz onların etdikləri əməllərə baxdıqdan sonra onları sovrulmuş toz dənəciklərinə çevirərik".** ("əl-Furqan" surəsi, 23); **"Kim dünya həyatını və onun bər-bəzəyini istəyirsə, onlara əməllərinin əvəzini orada tam verərik və onlar orada zərər çəkməzlər. Onlar, Axirətdə özləri üçün oddan başqa heç bir şeyi olmayan kimsələrdir. Onların dünyada gördükləri işlər boşa çıxar və tutduqları əməllər puç olar".** ("Hud" surəsi, 15-16).

[6] "Din günü", Qiyamət gününün adlarından biridir.

[7] "Səhih Muslim", 438.

**birlərindən günahkarlar barəsində soruşacaqlar: "Sizi Səqərə salan nədir?" Onlar deyəcəklər: "Biz namaz qılanlardan deyildik, kasıbı da yedizdirməzdik. *Batil sözlər* danışanlarla birlikdə biz də danışar və Haqq-hesab gününü yalan hesab edərdik – *ölüm* yəqinliyi bizə gələnə qədər". Odur ki, şəfaət edənlərin şəfaəti onlara fayda verməz".**[1]

Rəvayət edilir ki, *bir gün* Abbas ibn Abdulmuttalib[2] ﷺ Peyğəmbərə ﷺ dedi: "Ya Rəsulullah, Əbu Talibə sənin nə köməyin dəyib? Axı, o səni müdafiə edər, *kimsə* sənin *xətrinə dəyəndə* o da qəzəblənərdi". Peyğəmbər ﷺ dedi: "Bəli, o, Cəhənnəmin dayaz bir yerindədir. Əgər mən olmasaydım, o, Cəhənnəmin ən aşağı təbəqəsində olardı".[3]

Rəvayət edilir ki, Əbu Səid əl-Xudri ﷺ demişdir: "*Bir dəfə* Rəsulullahın ﷺ yanında əmisi Əbu Talib zikr edildi. Onda o ﷺ belə buyurdu: "Ümidvaram ki, Qiyamət günü mənim şəfaətim ona fayda verəcək və o, Cəhənnəmin dayaz yerinə yerləşdiriləcək. *Orada* alov onun topuqlarına çatacaq və istisindən onun beyni qaynayacaq".[4]

## Şirk günahların ən böyüyüdür.

Bu xüsusda uca Allah buyurur: **"Onlar Allahla yanaşı başqa məbuda yalvarmaz, Allahın haram etdiyi cana haqsız yerə qıymaz və zina etməzlər. Bunu edən kimsə cəzalandırılar".**[5]

Rəvayət edilir ki, Abdullah ibn Məsud ﷺ demişdir: "Mən Rəsulullahdan ﷺ: "Hansı günah Allah yanında ən böyük *günah* sayılır?"– deyə soruşdum. O dedi: "Allah səni yaratdığı halda, *başqa birisini* Ona tay tutmağın". Mən ona: "Həqiqətən də, bu, böyük günahdır"– dedim, sonra *yenə* soruşdum: "Sonra hansıdır?" O dedi: "Övladının səninlə birgə yemək

---

[1] "əl-Muddəssir" surəsi, 38-48.

[2] Əbul-Fadl Abbas ibn Abdulmuttalib ibn Haşim ﷺ Peyğəmbərin ﷺ həm əmisi, həm də səhabəsidir. Fil hadisəsindən üç il əvvəl dünyaya gəlmiş və hicrətin 34-cü ilində, Osman ibn Affanın ﷺ xəlifəliyi dövründə vəfat etmişdir. (Əbu Nueym, "Mərifə əs-Səhabə", 4/2120).

[3] "Səhih əl-Buxari", 3883; "Səhih Muslim", 430.

[4] "Səhih əl-Buxari", 3885; "Səhih Muslim", 433.

[5] "əl-Furqan" surəsi, 68.

yeyəcəyindən qorxub onu öldürməyin!" Mən soruşdum: "Sonra hansıdır?" O dedi: "Qonşunun zövcəsi ilə zina etməyin!"[1]

### Şirk ən böyük zülmdür.

Rəvayət edilir ki, Abdullah ibn Məsud ﷺ demişdir: **"İman gətirib imanlarına zülm qatmayanlar əmin-amanlıqdadırlar..."[2]** ayəsi nazil olduqda bu ayə Peyğəmbərin ﷺ səhabələrinə ağır gəldi və onlar dedilər: "*Ya Rəsulullah!* Bizim hansı birimiz *özünə* zülm etmir ki?"[3] Peyğəmbər ﷺ buyurdu: "Bu *ayədəki zülm,* sizin güman etdiyiniz kimi deyil. Bu, Loğmanın öz oğluna dediyi kimidir: **"Oğlum, *Allaha* şərik qoşma! Həqiqətən də, Allaha şərik qoşmaq böyük zülmdür[4]".**[5]

[1] "Səhih əl-Buxari", 7520; "Səhih Muslim", 170.

[2] "əl-Ənam" surəsi, 82.

[3] Xəttabi ﷺ demişdir: "Səhabələr zülm sözünü zahiri mənada başa düşdüyü üçün – insanların haqqına girməyi və günah iş görməyi zülm hesab etdiklərinə görə bu onlara ağır gəldi. Əslində isə zülm, bir şeyi öz yerinə qoymamaq deməkdir. Odur ki, ibadəti Allahdan qeyrisinə yönəldən şəxs zalımların zalımı sayılır".

[4] "Loğman" surəsi, 13.

[5] "Səhih əl-Buxari", 6918; "Səhih Muslim", 242.

# MÜNDƏRİCAT

Müqəddimə ....5
Tövhidin məğzi ....14
Quranda adı keçən peyğəmbərlərin ﷺ təbliğ etdiyi tövhid ....19
*Adəm aleyhissəlam* ....20
*İdris aleyhissəlam* ....22
*Nuh aleyhissəlam* ....23
*Hud aleyhissəlam* ....28
*Saleh aleyhissəlam* ....32
*İbrahim aleyhissəlam* ....35
*Lut aleyhissəlam* ....45
*Şueyb aleyhissəlam* ....47
*İsmail və İshaq aleyhiməssəlam* ....51
*Yəqub aleyhissəlam* ....55
*Yusuf aleyhissəlam* ....57
*Yunus aleyhissəlam* ....60
*Musa və Harun aleyhiməssəlam* ....63
*İlyas aleyhissəlam* ....72
*Davud və Süleyman aleyhiməssəlam* ....73
*Zəkəriyya və Yəhya aleyhiməssəlam* ....76
*İsa aleyhissəlam* ....78
*Muhəmməd sallallahu aleyhi və səlləm* ....84

Muhəmməd peyğəmbərin ﷺ insanlara və cinlərə təbliğ etdiyi tövhid ....86
Allah Xaliqdir, Onun heç bir şəriki yoxdur ....87
*Sağlam fitrət Allahın varlığına dəlildir* ....87
*Allahın yaratdığı hər bir məxluq Onun xaliq olmasına dəlildir* ....87
*Bütün peyğəmbərlər ﷺ öz ümmətlərinə Allahın tək xaliq olduğunu bildirmiş və onları yalnız Allaha ibadət etməyə dəvət etmişlər* ....88
*Peyğəmbərlərin ﷺ haqqa dəvət etdiyi ümmətlər də Allahın Xaliq olduğunu etiraf etmişlər* ....91
*Uca Allah bir çox ayələrdə insana məxluqatın necə yaradıldığı barədə düşünüb ibrət almağı buyurur* ....91
*Hər şeyi yaradan Allahdır* ....92
*Göylərin, yerin və dağların yaradılışı* ....94

*Ulduzların, Günəşin və Ayın yaradılışı* ........................................................97
*Küləklərin və yağışın yaradılışı*....................................................................100

Tövhidin fəziləti və tövhidə dəvət..........................................................103
*Peyğəmbər ﷺ bəşəriyyəti Allahın tək İlah olduğunu qəbul etməyə çağırmışdır. Demək, insanları ilk əvvəl tövhidə dəvət etmək vacibdir* ................. 103
*Peyğəmbər ﷺ insanları İslam dinini və Allahın göndərdiyi peyğəmbəri qəbul etməyə, Allahı qoyub bir-birilərini ilahiləşdirməməyə və bu etiqad uğrunda mübarizə aparmağa dəvət etmişdir* ..............................................104
*Tövhid, canı və malı qoruyur* .......................................................................106
*Tövhid, Qiyamət günü Allahın əzabından qoruyacaq* ....................................110
*Kim tövhid kəlməsini şəkk-şübhəsiz qəbul etdiyi halda Allahın hüzuruna çıxarsa, Cənnətə daxil olar* ..........................................................113
*Kim Allahdan başqa ibadətə layiq ilahın olmadığına və Muhəmmədin Onun qulu və rəsulu olduğuna şəhadət gətirsə, Cənnətə daxil olar* ...................114
*Kafir ölüm yatağında: "la ilahə illəllah" desə, bu ona fayda verər* ..................117
*Cənnətə yalnız müsəlman olan kimsə daxil olar* ............................................118
*Tövhidin tələblərini kamil şəkildə yerinə yetirmiş yetmiş min müsəlman sorğu-sualsız Cənnətə daxil olacaq*...............................................122
*Bu ümmətin müjdələnməsi və Allahın lütfünə ümid bəsləməsi*......................127
*Mömünin, özü də hiss etmədən əməlinin puç olacağından qorxması*................128

Şirkin təhlükəsi və ondan çəkindirmək ..................................................133
*Şirkin növləri*..................................................................................................133
*1) Böyük şirk* ..................................................................................................133
*2) Kiçik şirk* ....................................................................................................135
*Böyük şirklə kiçik şirk arasındakı fərq* ..........................................................136
*Şirkdən çəkindirmək* ......................................................................................138
*Allaha şərik qoşan kimsənin saleh əməlləri ona fayda verməyəcək*.................142
*Allaha şərik qoşduğu halda ölən kəs şəfaətçilik sayəsində belə Cəhənnəmdən çıxa bilməz* .......................................................................142
*Şirk günahların ən böyüyüdür*........................................................................143
*Şirk ən böyük zülmdür*...................................................................................144